A.Qaraçənli
“Fikir qovluğu”

Elektron kitab, Bakı, 22 aprel 2011. 149 səh.
© Azər Qaraçənli onun müəllif hüquqlarına hörmət olunmasını insanların öz vicdanına buraxır.

Redaktor: Hikmət Sabiroğlu
Operatorlar: Səidə Hüseynova, Aynur İmanova, Narıngül Əliyeva

“Fikir qovluğu” Azər Qaraçənlinin tələbəlik vaxtından – 1991-ci ildən yazıb özündə saxladığı, çap elətdirmədiyi qeydlərinin, yazılarının toplusudu. 2007-ci ilin noyabrında atası şair Ağa Laçınlı vəfat eləyəndən sonra həm bu qəfil ölümdən, həm də atasının arxivində çap olunmamış xeyli bədii, publisistik, elmi əsərin qalmasından sarsılan Azər Qaraçənli öz arxivindəki materialların çoxluğundan da narahat olmağa başlayıb və qaralamalarını “əldən çıxartmaq” qərarına gəlib. 2008-ci ilin aprel ayından Azər Qaraçənli öz arxivini “Atamın xatirəsinə, yaxud birdən quş kimi uçub getsəm...” adı altında beş ay ərzində hissə-hissə “Mediaforum.az” saytında dərc elətdirib. “Fikir qovluğu” həmin silsilənin kitab variantıdı. Kitaba müəllif silsilənin saytda gedən variantına düşməyən bəzi qeydlərini də əlavə eləyib. Eyni zamanda, “Fikir qovluğu”nda müəllif qeydlərini mövzular üzrə daha yaxşı sistemləşdirməyə çalışıb, onları bölmələrə ayırıb.

Azər Qaraçənli (Əliyev Azər Ağa oğlu) 1973-cü ildə Bakı şəhərində doğulub. 1990-cı ildə 265 saylı orta məktəbi, 1995-ci ildə Məmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsini bitirib. 1995-1997-ci illərdə hərbi xidmətdə olub. 1992-1993-cü illərdə rus dilindən etdiyi tərcümələrlə mətbuatda çıxış edib. 1993-cü ilin sonlarından jurnalistika sahəsində çalışır. “Azadlıq” (1993-1995, 1998), “Yeni Müsavat” (1998-2000), “Avropa” (2000-2003) qəzetlərində işləyib. 2004-cü ildən “İnternyus Azərbaycan” İctimai Birliyinin layihəsi olan “Mediaforum.az” xəbər saytının baş redaktorudur.

Kitabdakılar:

1. Müharibə.....*səh. 2*
2. Ağrı.....*səh. 9*
3. Xoşbəxtlik.....*səh. 15*
4. Hiss və həqiqət.....*səh. 25*
5. Çıxılmazlıq.....*səh. 31*
6. Bilmirəm.....*səh. 35*
7. Susmaq.....*səh. 36*
8. Hər şeyi sıfırdan başlamaq istəyi. Ada arzusu.....*səh. 38*
9. İnsanın nəyinə qiymət verməli?.....*səh. 42*
10. İnsan adları.....*səh. 44*
11. Xalq və hakimiyyət.....*səh. 48*
12. Əxlaqi nəzarətçilik iddiası və əxlaq.....*səh. 60*
13. Ədalət və cəza.....*səh. 63*
14. İntihar.....*səh. 67*
15. Dərin məna içində.....*səh. 69*
16. Mən niyə yazıram?.....*səh. 74*
17. Qərar, qərarsızlıq.....*səh. 76*
18. Sevgi.....*səh. 77*
19. Diktatorun öldüyü gün.....*səh. 78*
20. Gündəliklər haqqında.....*səh. 81*
21. Şeir necə yarandı.....*səh. 84*
22. Qəhrəmanlıq.....*səh. 87*
23. Dövlət və din.....*səh. 95*
24. Suyun iyi.....*səh. 97*
25. Təzadlar.....*səh. 99*
26. Ədəbiyyat, Kafka, Kamyu.....*səh. 102*
27. Maddi və mənəvi.....*səh. 104*
28. Savad və əxlaq.....*səh. 109*
29. Yazı.....*səh. 112*
30. İmza.....*səh. 116*
31. Jurnalistika.....*səh. 117*
32. Şöhrət.....*səh. 119*
33. Mübahisə.....*səh. 122*
34. Söyüş.....*səh. 125*
35. Müqayisə.....*səh. 126*
36. Özünüaldatma.....*səh. 128*
37. Şüursuzluqda mən fenomeni.....*səh. 129*
38. Mən.....*səh. 130*
39. Vətən. Millət. Millətçilik.....*səh. 137*
40. Vicdan.....*səh. 144*
41. Allah oldu-olmadı.....*səh. 145*

Azər Qaraçənli

Fikir qovluğu

Atam quş kimi uçub getdi. Bu ölmək deyildi, bu quş kimi uçmağıydı. Ən çox əzizlədiyi, üstündə ən çox işlədiyi yazıları əlyazmada qaldı.

Yazan adam bu qədər arxayın olmamalıdı deyirəm. Yazdısa, çapa versə yaxşıdı, qoy əldən çıxsın, qaldıqca qalacaq.

Atamın üzündə hədsiz bir xoşbəxt ifadə vardı, mən elə bilirdim şirin yuxu görür, bəlkə elə doğrudan belədi, kim bilir. Mən bu ifadəni atamın hədsiz əzablarıyla birgə xatırlayıram.

Bu silsiləni atamın xatirəsinə – onun hədsiz xoşbəxtliyinə, hədsiz əzablarına, bir də yığılıb qalan əlyazmalarına həsr eləyirəm. Atamdan çox şey qalıb, məndən az şey qalmasını istəyirəm. Ona görə də bu qara-quranı belə xırıd eləyirəm. Nə qədərsə sevinc, nə qədərsə kədər qalacaq, əlyazmalar qalmasın deyirəm, birdən quş kimi uçub getsəm…

2008-ci il

1. Müharibə

Müharibə

Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti müharibə istəmir və mən buna sevinirəm. Qarabağı işğaldan azad görmək mənim arzumdu, amma mən başqalarını bu arzuma qurban vermək fikrində deyiləm. Mən başqalarını qurban verməyi tələb eləməyən idealların tərəfindəyəm.

Azərbaycanda başqalarını öz arzularına qurban verməyə hazır olan minlərlə adam var. Fikir versək görərik ki, bizdə müharibəyə çağıranların əksəriyyəti üzünü özünə, öz ailə üzvlərinə, qohum-əqrəbasına, dostlarına yox, başqalarına – yad soydaşlarına tutur. Görünür, şəxsən tanımadığın adamları ölümə göndərmək asandı, axı onda sən kimi öldürdüyünü bilmirsən. Qətldə birbaşa iştirak eləməkdən hamı boyun qaçırar, amma çox, olduqca çox az adam var ki, qətldə dolayısıyla iştirakdan da boyun qaçırır. Çünki qətlə dolayısıyla qoşulan adam özünü və başqalarını çox asanlıqla inandırır (daha doğrusu, buna heç ehtiyac da duymur) ki, onun əli qana bulanmayıb. Onun vicdanı sakit, ictimai nüfuzu təhlükədən uzaqdı. Müharibədə ölən və bundan sonra da öləsi adamlar başqalarıdı. Amma bu onun mənəvi və ictimai vəziyyəti üçün təhlükə doğurmur. Mən bunun müharibə təbliğatı üçün ciddi psixoloji zəminə çevrildiyini və öz təhlükəsizliyi sarıdan zəmanəti hiss eləyən adamların qolunu çırmayıb müharibə təbliğatına girişdiyini görürəm.

İndi müharibədən danışanlar bir sualın cavabını axtarırlar: müharibə yoluyla Qarabağı işğaldan azad eləmək mümkündümü? Halbuki başqa sual da var: Qarabağı müharibə yoluyla işğaldan azad eləmək lazımdımı? Müharibəyə başlamaq lazımdımı sualı bizdə onun hansı nəticə verəcəyindən asılı olaraq cavablandırılır. Müharibə yalnız Qarabağı azad eləyib-eləməyəcəyi kontekstində ya lazımlı (qəbulolunan), ya da lazımsız (qəbulolunmaz) sayılır. Mənsə ümumiyyətlə müharibənin özünün də bir prinsip kimi araşdırılmasının tərəfdarıyam. Torpağımızı işğaldan qurtarsa da, qurtarmasa da, müharibə müharibədi – qan-qada, ölüm-itim, şikəstlik, əsirlik, dağıntı, qaçqınlıq-köçkünlük, ayrılıq, talelərin qırılması, neçə-neçə qız-gəlinin, uşağın, böyüyün ömürlük bədbəxt olması deməkdi. Ona görə də əvvəlcə bilməliyik: bizə müharibə lazımdımı? Lap Qarabağın işğaldan azad olunmasıyla nəticələnəcəyinə tam zəmanətimiz olsa belə, biz müharibəyə başlamalıyıqmı? Bizim buna haqqımız çatırmı? Qarabağ uğrunda müharibəni Azərbaycanın haqqı (hüququ) sayan adamların hamısının məsələyə yanaşma tərzi birtərəflidi. Bu məsələdə Azərbaycanın haqqına şübhə eləməyənlər bizim Qarabağa soxulmuş erməni qoşunlarının başına bomba yağdırmaq, bütün ərazilərimizdə bayrağımızı dalğalandırmaq, öz ölkəmizdə, öz torpağımızda – öz evimizdə yaşamaq hüququmuzu görürlər. Ancaq bütün bunlar müharibəni təbliğ eləmək üçün kifayət deyil. Çünki müharibəni təbliğ eləmək adamları ölümə çağırmaq deməkdi, adamları ölümə çağırmaq onlardan ölməyi tələb eləməkdi. Məni maraqlandıran da odu ki, mənim başqalarını ölümə çağırmağa haqqım çatırmı, sənin məndən, mənim səndən, bizim bir-birimizdən ölməyi tələb eləməyə haqqımız çatırmı? Məni maraqlandıran o deyil ki, Bakıda oturan adamın başqalarını Qarabağa döyüşə çağırmağa haqqı çatır, ya yox, məni maraqlandıran odu ki, ilk gündən əlinə silah götürüb döyüşə yolanan (yollanası) adamın başqasını da müharibəyə çağırmağa haqqı var, ya yox? Mən Azərbaycanda başqasını ölümə göndərməyə haqqı çatan bircə nəfər tapmaq istəyirəm. Amma belə adam varmı? Kimdi?

Əgər biz özü döyüşən (yaxud döyüşəcək) adamın başqalarını da buna səsləməyə haqqı olduğunu qəbul eləsək, onda biz belə bir prinsipi, məntiqi qəbul eləyirik ki, özü ölümə gedən adamın başqasını da ölümə aparmağa haqqı çatır. Bu, çox təhlükəli prinsipdi. Bu məntiqlə biz törətdiyi terror əməliyyatında özünü də qurban verən terrorçuya haqq qazandıra bilərik.

Mən bilmirəm ermənini öldürməyə mənim haqqım çatır ya yox, amma sabah müharibə yenidən başlasa və mənim də çiynimə bir silah keçirib döyüşə göndərsələr, onda güllə atmaqdan çəkinməyəcəm. Çünki mənə elə gəlir, buna haqqım çatdığını bilməyə-bilməyə ermənini öldürməyə razılaşa bilərəm, amma azərbaycanlını ölümə göndərməyə razılaşmaq istəmirəm. Əlbəttə, bu, məntiqsizlikdi; bir yandan birbaşa qətlə razılaşmaq, o biri yandan insanları ölümə göndərməkdə özünü haqlı saymamaq bir məntiqə sığmır. Heç olmasa bu, millətçiliyə əsaslansaydı, az-çox başa düşülərdi, amma bu, millətçilik deyil axı. Mən ki demirəm bizim ermənini öldürməyə haqqımız çatır. Mən bu məsələni də özüm üçün həllolunmaz sayıram, halbuki millətçi üçün burda məsələ özü-özlüyündə aydındı. Həm də heç bir millətçi öz millətini ölümə göndərməkdən çəkinməyib. Xüsusən də millət uğrunda ölümə gedən millətçilər soydaşlarını öz arxalarıyca səsləməkdə zərrə qədər də olsun tərəddüd eləməyiblər. Deməli, mənim nə qərarım (ermənіyə münasibətdə), nə də qərarsızlığım (azərbaycanlıya münasibətdə) nə millətçilikdi, nə də humanizm. Bəs nədi? Heç özüm də bilmirəm. Mən bilmirəm bunu nə cür izah eləmək lazımdı. Mən yalnız öz düşüncələrimi, hisslərimi ifadə eləyirəm. Ola bilsin, mən problemin həlli yolunu axtarıram, amma əslində məsələni qəlizləşdirməklə, problemi çoxaltmaqla məşğulam. Ancaq nəyinsə xatirinə məsələyə münasibətimi saxtalaşdırmaq istəmirəm. Ola bilsin, Kafkanın «İslah koloniyası»ndakı səyyah-

alim kimi mən də dünyanı dəyişdirməyə yox, dərk eləməyə çıxanlardanam. Ona görə də problemləri həll eləməklə yox, kəşf eləməklə məşğulam.

Əgər sabah müharibə başlasa, onda mən nə cür hərəkət eləyəcəm? Müharibə başlasa və məcburi səfərbərlik elan olunmasa, hərbi xidmətini başa vurmuş adamlar üçün döyüşə gedib-getməmək onların öz ixtiyarına buraxılsa, onda mən könüllü olaraq cəbhəyə yollanarammı? Çox güman ki, yox. Bu mənada mənim yuxarıda verdiyim suallar əslində mənim deyil. Bu, daha yüksək adamın, özü döyüşə gedən (gedəcək), amma heç kimi müharibəyə çağırmayan azərbaycanlının suallarıdı.

Müharibəyə münasibətdə azərbaycanlıları 4 yerə bölmək olar: 1) müharibəyə gedəcək, amma heç kimi müharibəyə çağırmır; 2) müharibəyə getmir və heç kimi də müharibəyə çağırmır; 3) müharibəyə gedir, başqalarını da buna çağırır; 4) müharibəyə getmir, amma başqalarını müharibəyə çağırır. Bunların içində ən yüksək tip 1-ci tipdi. Ən alçaq tip 4-cüdü. Heç kimdən döyüşməyi tələb eləmədən silah götürüb cəbhəyə yollanan adam başqalarına təsir eləməkdən ötrü daha yüksək bir nümunədi. Belə adamın başqalarını öz arxasıyca çəkib aparmaq gücü 3-cülərdən çoxdu. Əgər mən müharibəni təbliğ eləmək istəsəydim, onda 1-ciləri misal gətirərdim, 3-cüləri yox. Amma mən müharibəni təbliğ elədiyim anda avtomatik olaraq ya 3-cü (əgər döyüşdəyəmsə), ya da 4-cü (əgər döyüşdə deyiləmsə, tutaq ki, indiki kimi oturub yazı yazmaqla məşğulamsa) tipə çevrilirəm. Bu tiplərinsə hər hansı birindən olmaq mənə ağır gəlir.

Gözümü yumub fikirləşirəm: tutaq ki, mən döyüşdəyəm, bir döyüşçü kimi məni nə qorxudur?

1) əsir düşmək;

2) çox ağır (ömürlük) şikəst olmaq;

3) ölmək;

4) sappasağ, heç bir güllə yarası almadan müharibədən qayıtmaq.

Qarabağın işğaldan azad olunub-olunmaması, orta, yaxud yüngül yaralanmalar, aclıq, susuzluq və sair 5-ci və sonrakı yerlərdə gələn qorxulardı. Görürəm ki, bir döyüşçü kimi əsir düşmək məni daha çox qorxudur, nəinki müharibənin məğlubiyyətlə bitməsi. Bir jurnalist kimi mən müharibə deyəndə (müharibədən yazanda) onun erməninin qələbəsiylə başa çatacağından daha çox narahatam, nəinki hansısa Azərbaycan əsgərinin əsir düşəcəyindən. Bir əsgər kimisə məni əsir düşmək müharibənin aqibətindən çox narahat eləyir. Deməli, mən jurnalistdən döyüşçüyə çevrilən kimi müharibəyə baxışım, münasibətim dəyişəcək. Əgər mən yazıçı olsaydım, onda silah götürüb döyüşə yollanmış bir jurnalistin timsalında bu çevrilmənin hissi, psixoloji təsvirini verərdim və burdan doğan fəlsəfi problemi ortaya qoyardım. Ancaq bir halda ki, mən hekayə yox, məqalə yazıram, gücüm çatan budu, onda bu çevrilmənin varlığını eləcə sxematik qeydlə göstərməklə kifayətlənməyə məcburam.

Onu da deyim ki, əsas dördlükdə dayanan və təsadüfi sıralanmayan qorxuların özlərinin də içində konkret situasiyalara uyğun təxmini sıralanmaları var. Məsələn, mən qorxuram ki, əsir düşəm, amma intihar eləməyə imkanım olmaya. Amma ən qorxulusu da bu deyil. Bundan da çox qorxduğum odu ki, intihar eləməyə imkanım olduğu halda son anda özümü öldürməkdən imtina eləyib əsir düşməyə üstünlük verəm. Amma bundan da dəhşətlisi var: intihar eləməyəsən, əsir düşəsən, üstəlik də əsirlikdə öləsən. Amma yenə də ən dəhşətlisi bu deyil. Ən dəhşətlisi əsirlikdən sağ qayıtmaqdı. Daha dəhşətlisi əsirlikdən qayıtmağına peşman olmaqdı ki, bunun da ən dəhşətlisi əsirlikdən qayıdandan sonra intihar eləməkdi.

Çox maraqlıdı ki, biz müharibə vəziyyətində yaşasaq da, saysız-hesabsız ölüm-itim görsək də, deyəsən, müharibənin nə demək olduğunu o qədər də yaxşı bilmirik.

Mən əsir düşmüş qızların qisasını almağın tərəfdarıyam, amma mən bu qisas döyüşündə yenə də qızların əsir düşəcəyindən qorxuram. Və mən həm də ondan qorxuram ki, müharibə başlayanda ona nədən ötrü başladığımızı unudaq. Bu cür halları biz hər addımda, tutaq ki, dövlət müstəqilliyimizə münasibətdə də görürük. Bu gün heç kimin yadına düşmür ki, bu dövlət nədən ötrü qurulub. Hamı sökür, dağıdır, divan tutur… Bax, müharibə də başlayandan bir az sonra qorxuram belə olsun. Hamı söküb-dağıtmaqla, divan tutmaqla, talan eləməklə məşğul olsun.

Mən müharibədə məni qorxudan aqibətin (əsirlik, ağır şikəstlik, ölüm, sapsağlam qayıdış) heç birini qəbul eləyə bilmirəm. Əgər müharibə başlayacaqsa və mən də bir döyüşçü kimi cəbhədə olacamsa, onda ən böyük arzum belədi ki, mən ən qızğın döyüşlərdə iştirak eləyim və qələbəylə başa çatan bu müharibədən həyat üçün çox da təhlükəli olmayan təxminən üç-dörd güllə yarası almaqla qayıdım.

Bəlkə də səhv eləyirəm, amma mənə elə gəlir, müharibədən sağ qayıdan adamın nə cür fədakarlıqla döyüşməsinə baxmayaraq qəlbən özünü sakit hiss eləməsi üçün bir-iki güllə yarası almağı vacibdi.

1 yanvar 2003-cü il

Özü kimi əsirlərə divan tutan əsir

Bir neçə il əvvəl erməni əsirliyindən qayıtmış bir azərbaycanlının Bakıda məhkəməsi keçirilmişdi. Onu öz əsir yoldaşlarına işgəncə verməkdə ittiham eləyirdilər. Onunla birlikdə əsirlikdə olanlar ermənilərin «nadzor» seçdiyi bu azərbaycanlının onlara olmazın əzablar verdiyini təsdiqlədilər. Deyəsən, erməni əsirliyində bu cür hadisə bir neçə dəfə olub. Mən bir dəfə Rusiya telekanalında da çeçenlərin əsir götürdüyü rus əsgərlərindən birinin öz yoldaşlarına divan tutması haqda süjet görmüşəm. Bu motivə müharibədən bəhs eləyən bədii filmlərdə də rast gəlmək olur.

Məncə, özü kimi əsirlərə divan tutmaq təkcə müharibəyə xas deyil. Dünyada əsir-nadzorların sayı əsir döyüşçülərin sayından çoxdu. Həyatın hər sahəsində, hər ölkədə, hər cəmiyyətdə özü kimi əsirlərə divan tutan əsirlər var.

Əsir yoldaşlarına nadzorluq eləməyə razılaşan əsir ən böyük əsirdi. Ən dəhşətli qul qulları işlətməyə razılaşan quldu.

Əsirlikdə öz fiziki əzablarını yalnız nadzorluq eləməklə yüngülləşdirmək mümkündü. Ona görə də mən bütün növ əsirliklərin, təkcə hərbi yox, siyasi, ictimai, iqtisadi, mədəni əsarətin də əleyhinəyəm. Nə qədər çox adam əzab çəksə və nə qədər çox əzab çəksə, bir o qədər çox adam əzab verməyə razılaşacaq. Və nə qədər çox adam əzab verməyə razılaşsa, adamlar bir o qədər çox əzab çəkəcəklər.

15 oktyabr 2002-ci il

Pafos

Üç cür pafos var. Birincisi başqasını aldadan adamın pafosudu. Bu həmin adamdı ki, yalan danışır, bilir ki, yalan danışır və bu yalanı ört-basdır eləməkdən ötrü qulaqbatırıcı intonasiyadan, təmtəraqlı ibarələrdən, «qabaqdangəlmişlik eləyən» formalardan istifadə eləyir.

İkincisi özünü aldadan adamın pafosudu. Bu həmin adamdı ki, öz yalanına özünü inandırmasa, başqalarını inandıra bilməz. O, həqiqəti özündən gizlədə bildiyinə görə başqalarına yalan danışır; onun pafosu öz içindəki həqiqətə qarşı daxili təzyiqi artırmaq üsuludu; o öz pafosuyla öz içindəki həqiqətin başından basır, öz içindəki həqiqətə təzyiq eləyir. Üçüncüsü aldadılmış adamın pafosudu. Bu, birinci və ikinci pafosun bəhrəsidi; bu, sadəlövh adamın kor inamının nəticəsidi.

Yalan – bu üç pafosun üçünü də birləşdirir, yalan bu üç pafosun üçünə də xasdı. Pafos – bütün hallarda yalandı: bir halda başqasını aldadan adamın yalanıdı, bir halda özünü aldadan adamın yalanıdı, bir haldasa aldadılmış adamın yalanıdı.

Ən çox mərhəmətə layiq olan – üçüncü pafosdu; birinci nifrətə layiqdi; ikincisinin faciəsisə daha böyükdü.

Qələbə pafosunda həmişə faciə, kədər də iştirak eləyir. Qələbə sevinciylə məğlubiyyət kədəri qoşadı və bunun biri həmişə o birindən xəbər verir. Təsadüfi deyil ki, qədim Yunanıstanda, ellinizm dövründə hökmdarlar öz qələbələrinin şərəfinə məğlub olmuş tərəfin döyüşçülərinin faciəvi vəziyyətini, əzablarını əks elətdirən heykəllər düzəltməyi də sifariş verirdilər. Kazimej Kumanetski «Qədim Yunan və Qədim Roma mədəniyyətlərinin tarixi» kitabında yazır: «…Yeni stil (*heykəltəraşlıqda patetik stil nəzərdə tutulur – A.Q.*) özünün tam triumfuna bizim eradan əvvəl III-II əsrlərdə Attalidlər sülaləsinin hakimiyyəti dövründə əsl mədəni inkişaf mərhələsini yaşamış Perqamda çatdı. I Attalın nəsihətiylə Perqamın saray meydanında Kelt tayfaları üzərində qələbənin şərəfinə qoyulmuş qalların, farsların, amazonkaların, nəhənglərin fiqurlarında biz bu pafosu – ölüm ayağında olan döyüşçülərin ağrılarını, məğlub olmuş barbarların əzab-əziyyətini görürük». (Казимеж Куманецкий, «История культуры древней Греции и Рима». Москва, «Высшая школа», 1990. səh. 169-170).

İncəsənətdə, ədəbiyyatda bir tərəfin faciəsiylə başqa tərəfin sevincini, xoşbəxtliyini göstərmək üsulu çoxdan var. Qələbə haqda məğlubiyyət yazısı və ya məğlubiyyət haqda qələbə yazısı.

Allahın qələbə tarixi insanın (və başqa canlıların) faciə tarixidi. Xeyirin qələbəsi təkcə Şərin faciəsiylə bağlı deyil.

27 sentyabr 2002-ci il

Şəhid varlığı

Qreys Krayq «Yaş psixologiyası» kitabında qeyd eləyir ki, bir adam öləndə onun yoxluğuna öyrəşmək lazım gəlir, ölən adam dostdusa dostlar arasında, ailə üzvüdüsə ailədə, qohumdusa qohumlar içində bir boşluq yaranır və bu boşluğu doldurmaq üçün münasibətlər sistemində, davranış, həyat tərzində yenilik, dəyişiklik eləməli olursan. Bu dəyişikliyin, yeniliyin miqyası ölən adamın sənin münasibətlər sistemində, həyat tərzində nə qədər yer tutmasından, sənin həyatına nə dərəcədə daxil olmasından asılıdı. (Грейс Крайг, «Психология развития». Санкт-Петербург, «Питер», 2000. səh. 912-917).

Azərbaycan son illərdə on minlərlə şəhid verib. Hər bir şəhid kiminsə dostu, qohumu, ailə üzvüdü və həmin adamların həyatında hər şəhid bir boşluq, yoxluq yaradıb. Vətən uğrunda ölən hər bir əsgər öz dostu, qohumu, ailəsi üçün itkidi. Bəs onu ümumiyyətlə tanımayan, onunla heç bir münasibətdə olmayan adamlar üçün necə? Tutaq ki, astaralı şəhidlərdən heç birini mən şəxsən tanımamışam, onların heç birinin ölümü mənim həyatımda,

məsələn, babamın ölümü kimi boşluq yaratmayıb. İndi deyə bilərəmmi ki, astaralı döyüşçülərin, ümumiyyətlə mənim qohumum, dostum, ailə üzvüm olmayan əsgərlərin ölümü mənim üçün itkidi? Fəlsəfi, mənəvi, əxlaqi, etik, siyasi və s. baxımından bu belədi. Mən belə deməliyəm və belə hesab eləməliyəm. Mən bu cür düşünməliyəm – bu mənim borcumdu. Ancaq psixoloji baxımdan bu belə deyil. Psixoloji baxımdan onların hamısının ölümü mənimçün itki deyil. Mənimçün yalnız o şəhidlər itkidi ki, onlar mənim uşaqlıq dostum, qohumum, ailə üzvüm olublar. Onların ölümü mənim həyatımda konkret boşluq, münasibətlər sistemimdə gözlə görünəcək qədər qırıqlıq, dəyişiklik yaradıb. Qalan şəhidlərimizinsə ölümü mənim həyatımda heç bir boşluq yaratmayıb. Bir neçə nəfəri çıxmaq şərtilə Azərbaycan şəhidlərinin heç birisinin ölümü mənim həyatımda boşluq yaratmayıb, onlar həlak olmaqla mənim həyatımdan getməyiblər, əksinə, onlar mənim həyatıma öz ölümləriylə daxil olublar, deməli, onların ölümü mənim həyatımda varlıq yaradıb. Onlar mənim münasibətlər sistemimə, davranış, həyat tərzimə ölümləriylə gəliblər, ölümləriylə yenilik, dəyişiklik gətiriblər. Yəni onları mən mənəvi baxımdan itki saysam da, psixoloji baxımdan mənimçün itki deyillər, qazancdılar.

Mənim davranışımda, həyat tərzimdə, düşüncələrimdə, hisslərimdə Habilin yoxluğunun duyulması azdı, mənim davranışımda həm də Astara, Şamaxı, Quba, Naxçıvan, Gəncə, Qazax, Şəki şəhidlərinin varlığı duyulmalıdı. Ancaq gəlin görək bu duyulurmu? Bizim davranışımızda, həyat tərzimizdə, sevincimizdə, kədərimizdə şəhid varlığı hiss olunmur. Biz onları elə bil davranışımıza, həyatımıza, münasibətlər sistemimizə daxil olmağa qoymuruq. Mən hələ onu demirəm ki, elə adamlar var şəhidlərin onun həyatına daxil olmaq istədiyini duyanda əsəbiləşir, nifrət eləyir, düşünür ki, sağ qalanlar yaşamalıdılar və onların ölənləri unutmağa haqqı çatır.

Biz itirməyi daha asan bacarırıq, nəinki qazanmağı. Bizim həyatımızda arzu, sevinc, düşüncələrimizdə şəhid yoxluğu şəhid varlığından çox duyulur.

Mənə elə gəlir, Azərbaycanda yeni həyat tərzi, davranış, düşüncə, münasibətlər, emosiyalar aləmi o vaxt yarana bilər ki, on minlərlə şəhidə bu aləmə daxil olmağa imkan verilsin.

Kim Azərbaycan şəhidinin varlığını duymursa, o, Azərbaycanı duymur. Kim Azərbaycan şəhidinin varlığını duyursa, o, Azərbaycanı duyur.

2 yanvar 2002-ci il

İnsanın əbədi meylləri və Bin Laden

Fantastik bir situasiya. Təsəvvür elə ki, sənin ruhun göylərdədi və yerə düşməyə, insan bədənində doğulmağa hazırlaşır. Tanrı dərgahında deyirlər ki, iki bədəndə doğula bilərsən. Birincisi, Nyu-Yorkda. Mədəni, kübar bir ailədə doğulacaqsan. Adını Uilyam qoyacaqlar. Xoşbəxt, sakit bir uşaqlığın, gəncliyin keçəcək. Biznes sahəsində yaxşı mütəxəssis olacaqsan. Özünün, ailənin qayğılarını həll eləməkçün, üstəlik, dost-tanışlarının xeyir-şərinə yaramaq üçün normal imkanın, şəraitin olacaq. Nyu-Yorkdakı firmaların birində ortabab vəzifə tutacaqsan. Həm işinin öhdəsindən yaxşı gəldiyinə, həm də insani xüsusiyyətlərinə görə iş yerində və dost-tanışların, qohumların, ailən içində sənə hörmət eləyəcəklər. Ancaq sən elə adam deyilsən ki, küçədə gedəndə jurnalistlər dalınca düşüb şəklini çəksinlər, avtoqraf istəsinlər. Yəni istər dolanışığına, istərsə də cəmiyyətdə tutduğun yerə görə orta adamlardan birisən. Beləcə sakit, rahat, firavan bir ömür sürəcəksən. 62-63 yaşlarında, 2001-ci ilin

sentyabrında sənin işlədiyin firmanın yerləşdiyi ümumdünya ticarət mərkəzinə terrorçuların girov götürdüyü təyyarələr çırpılacaq və sən öləcəksən.

İkincisi Ərəbistanda doğulmaq şansıdı. Milyonçu ailəsində dünyaya gələcəksən. Adını Üsamə qoyacaqlar. Gəncliyin uşaqlığından, yaşlı vaxtlarınsa gəncliyindən rəngarəng və gərgin keçəcək. Dünyanın ən məşhur terror təşkilatlarından birini yaradacaqsan. Səni dünyanın bir nömrəli terrorçusu adlandıracaqlar. Orta yaşlarından gizli həyat tərzinə, gizli fəaliyyətə keçəcəksən. Dünyanın böyük dövlətləri səni tutmağa çalışacaq. Bacarmayacaqlar. Neçə-neçə qanlı terror aktlarının təşkilatçısı, neçə-neçə silahlı, mafioz qruplaşmanın hamisi olacaqsan. 2001-ci ildə Nyu-Yorkdakı iki göydələni (onlar Ümumdünya Ticarət Mərkəzidi) məhv eləyən təyyarəni girov götürmüş kamikadzelərə sifariş verdiyinə görə sənin məhvin uğrunda sərt mübarizə başlayacaq. Sənin gizləndiyin ölkəyə – Əfqanıstana qoşun yeridiləcək, o şəhərdən bu şəhərə, o mağaradan bu mağaraya qaçacaqsan. Üç aylıq müharibədən sonra səni Tora-Bora mağarasında öldürəcəklər.

Sual: Sən gələcək taleyini, Yerdəki ömrünü bütün aydınlığıyla görürsən, indi de görək hansı bədəndə doğulmaq istərdin? Sən dünyadan Uilyam kimi köçmək istəyirsən, yoxsa Üsamə Bin Laden kimi?..

Bu sualın məqsədi insanın şöhrətə və dünyaya təsir gücünə (hətta iblisanə metodlarla olsa da) meylini müəyyənləşdirməkdi. Görəsən, Bin Laden olmaq imkanından neçə adam imtina eləyər?

Bin Ladenin ortaya çıxması təkcə dövrlə, dəyərlər sisteminin məhdud vəziyyəti, tərbiyə, müsəlman-xristian qarşıdurması, dini təbliğat, qəddarlığa meyl və sairlə bağlı deyil, bu həm də insanın bütün dövrlərdə arzuladığı, can atdığı və dünyaya problemlər yaradan meyllərilə (şöhrətpərəstlik, dağıdıcılıq, hakimiyyət, «allahlıq» həvəsi) bağlıdı. Dövr sadəcə onda günahkardı ki, hələ də kimlərinsə bu meyllərini terrorçuluqla, kütləvi qırğınlarla, dünya miqyaslı dağıdıcılıqla, müharibəylə həyata keçirməsinin qarşısını ala bilmir.

26 dekabr 2001-ci il

Mənə elə gəlirdi ki, bu sonuncu səhvdi

Mənə elə gəlirdi ki, İkinci Dünya müharibəsi dünyanın sonuncu müharibəsidi və biz – 1945-ci ildən sonra doğulanlar – heç vaxt müharibə görməyəcəyik. İndi də mənə elə gəlir ki, Qarabağ müharibəsi Azərbaycanın taleyində, tarixində son müharibədi və o başa çatandan sonra bizdən sağ qalanlar daha heç vaxt müharibə görməyəcəklər. İnsan heç vaxt müharibədən sonra müharibənin olacağına inanmayıb, həmişə hamıya elə gəlib ki, bu sonuncu səhvdi, yaxud o sonuncu səhviydi və bir də kimsə belə eləməyəcək.

1999-cu il

Vətəndaş müharibəsi

Vətəndaş müharibəsi nədi? Ölkə vətəndaşlarının kütləvi şəkildə bir-birinin üstünə silah qaldırması. Burda söhbət kütləvi toqquşmalardan gedir. Bir qrup adamın bir-birinə güllə atmasını vətəndaş müharibəsi adlandırmaq olmaz.

Vətəndaş müharibəsi hakimiyyətin nüfuzdan düşməsinin nəticəsidi. Hakimiyyətsə məlumdu ki, ölkədə iqtisadi, siyasi vəziyyət pisləşəndə nüfuzdan düşür. Demək, vətəndaş müharibəsinin lap kökündə vətəndaşların vəziyyətinin pisləşməsi durur. Ancaq bu, vətəndaş

müharibəsinə yox, sadəcə mitinqlərə, tətillərə, lap uzağı çevrilişlərə də səbəb ola bilər. Vətəndaş müharibəsi kimlərinsə VƏTƏN XAİNİ elan olunmasından sonra başlayır. Ən başlıca, ən birinci səbəb budu. Zviad Qamsaxurdia öz rəqiblərini vətən xaini, satqın, Rusiyanın casusu elan eləyəndən sonra Gürcustanda vətəndaş müharibəsi başladı. İki il qabaq Surət Hüseynova və onun silahlı dəstəsinə xəyanətkar sözü deyiləndən sonra Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Xüsusi Təyinatlı Polis Dəstəsi xəyanətkar elan olunana qədər müharibə təhlükəsi az idi, ondan sonrasa çoxaldı.

Vətəndaş müharibəsinin məqsədində hakimiyyət durur. Bir tərəf hakimiyyəti qorumaq, o biri tərəf hakimiyyəti devirmək istəyir. Təkcə bu fakt əsas verir ki, Azərbaycanda vətəndaş müharibəsinin olmayacağını söyləyək. Çünki müharibəyə səbəb ola biləcək tərəflərdən biri məqsədinə həmişə çox tez çatıb. Ya dövlət çevrilişi, ya da onun yatırdılması həmişə çox sürətlə baş verib və ona görə də Azərbaycanda vətəndaş müharibəsi olmayıb.

1995-ci il

2. Ağrı

Ağrı

Hər şey ağrıdan başlayır.

Yazıda (musiqidə, rəsmdə...) ağrı varsa, demək, həqiqət də var.

Dünya kainatın ağrılı yeridi, hələ ki, başqa heç bir yerdən ağrıyan varlıq çıxmayıb. Azərbaycan dünyanın ağrılı yerlərindən biridi, dünyada belə yer çoxdu.

Məni Azərbaycan hakimiyyətindən narazı salan həm də odu ki, mən bu hakimiyyətdə Azərbaycanın ağrılarını görmürəm. Mən Azərbaycanı idarə eləyən adamlarda Azərbaycanın ağrılarını görmək istəyirəm. Özü də tək hakimiyyətdə yox, musiqidə, ədəbiyyatda, mətbuatda, televiziyada da bu ağrıları görmək istəyirəm. Mən istəyirəm biz azərbaycanlılar bir-birimizə münasibətdə də ümumi ağrıları yaddan çıxarmayaq.

Mən o fikirdəyəm ki, 20 Yanvarda Azərbaycan xalqı yenidən formalaşıb. O gün yeni Azərbaycan xalqının yarandığı gündü...

Xalq da ağrıdan başlayır...

Adamların ümumi ağrılara yadlaşması daha böyük fəlakətlərə gətirib çıxarır. Ola bilsin, sən 2003-cü ilin 16 oktyabrında adamların Azadlıq meydanına çıxmasının əleyhinə olmusan. Ola bilsin, sən ürəkdən o adamları qınayırsan, fikirləşirsən ki, belə şey lazım deyildi. Amma yenə də sən üstündən bir neçə gün keçmiş o meydanda təşkil olunan konsertə getməməlisən. Lap o meydanda baş verənlərə görə hakimiyyəti yox, müxalifəti, ayrı-ayrı vətəndaşları qınayırsansa da, getməməlisən...

Söhbət ondan gedir ki, biz ağrıya kədərlə baxmalıyıq, hətta düşmənin ağrısına da.

2 oktyabr 2004-cü il

Adamların gizli dərdi bir-birinə oxşayır

Adamların gizlətdiyi dərdləri bir-birinə çox oxşayır. Mənim gizli dərdim sənin, sənin gizli dərdin bizim gizli dərdimizə oxşayır. Adamlar, demək olar, eyni dərdləri gizlədirlər. Ona görə sən dərdini açanda hamı çox təəccüblənir: elə bil onun dərdindən danışırsan.

24 avqust 2004-cü il

Qüssə

Qüssə – varlığın, həyatın ruhunu, mahiyyətini ən dəqiq ifadə eləyən hisslərdən biri, bəlkə də birincisidi. Qüssə doğurmayan şəkil, şeir, musiqi, kino, yaxud adi həyat səhnəsi – toy, yas, uşaqların küçədə oynaması, adamların telefonla danışması və sair həyatın, varlığın mahiyyətini düzgün ifadə eləyə bilməz. Qüssə doğurmursa, deməli, varlıq haqda səhv məlumat verir.

Qüssə – yəqin yeganə hissdi ki, varlığın da, yoxluğun da içində var. Varlıq da qüssə doğurur, yoxluq da. Boşluğun içi (sıfırın içi) qüssəylə doludu.

Həyat qüssəlidi – mən bunu dəqiq bilirəm. Həyatı qüssəsiz seyr eləyən adam – prosesi anlaya bilməz.

20 dekabr 2002-ci il

Gözəgörünməz əzablar

«Qorxdum yenə insan gözüylə görünməyən əzablar baş qaldırsın, tez gümüşü pulu atıb kafedən çıxmaq istədim» – Akutaqava Rünoskenin «Dişli çarxlar» novellasından. (Акутагава Рюноскэ, «Новеллы». Москва, «Художественная литература», 1974. səh. 608).

...İnsan gözüylə görünməyən əzablar… Gözəgörünməz əzablar... İki cürdü: birincisi, kənardan görünməyən əzablardı. Amma insan bunu özündə görür, duyur. Yəni yalnız əzab çəkənin özündə gördüyü, duyduğu əzablardı. Amma gözə görünmədiyinə görə başqası bundan xəbərsizdi və insan bilir ki, başqası bundan xəbərsizdi. Amma o da başqasının əzabından xəbərsizdi. Beləliklə, eyni əzabı çəkən iki adam yan-yanaşı otursa da, onların hər birinə elə gəlir ki, bu əzabı yalnız o çəkir.

İkincisi o əzablardı ki, ondan insanın ümumiyyətlə xəbəri yoxdu. Ola bilsin, həmin əzabı insanın özü çəkir, amma heç özünün də xəbəri yoxdu ki, belə bir əzab çəkir. Ola da bilsin, əzab çəkən başqa adam, yaxud heyvan, bitki, əşyadı. Yəni bu əzablar təkcə gözdən yox, insanın bütün duyğu orqanlarından, şüurundan, ruhundan, fantaziyasından da qıraqda qalan əzablardı. Yəni burda söhbət ondan gedir ki, tutalım, bir otaqdı, otaqda bir adam, bir pişik, pəncərənin ağzında dibçək, masanın üstündə qənddan var. Və bunların hamısı əzab çəkir, amma insan bundan xəbərsizdi. Bu anda o nəinki pişiyin, çiçəyin, qəndin, hətta özünün də əzabından xəbərsizdi. Birinci haldasa (kənardan görünməyən əzablar) insan pişiyin, çiçəyin, qəndin əzabından xəbərsiz qalsa da, öz əzabından xəbərsiz deyil, o, əzab çəkdiyini bilir, amma bilmir ki, hamı əzab çəkir (bilsə də, aydın təsəvvür eləmir) və ola bilsin, onu da bilmir ki, heç kim onun əzab çəkdiyini bilmir.

Dünyanın elə əzabları var ki, insan ondan xəbərsizdi. Biz qarışqanın əzabını başa düşmürük. Amma baxın, o nə qədər təşvişlə, həyəcanla çapalayır. Kim bilir bu anda o nə çəkir.

Dərk olunmayan əzablara kim ağrıyacaq?

Görmədiyi, duymadığı əzablara rəvac verən insanın günahı nədi? Bəs bu necə olur ki, əzab var, günah yoxdu? Bu günahı kim daşıyacaq?

Bu dünyanın ağrısı, əzabları insanın gördüyü, duyduğu qədər deyil, qat-qat, bəlkə də min qat, milyon qat artıqdı.

«Sən məni tanıyanlardan olsaydın, mənim əzablarımdan da xəbərin olardı» – Akutaqavanın «Zülmətdə dialoq» novellasından. (Акутагава Рюноскэ, «Новеллы». Москва, «Художественная литература», 1974. səh. 627).

7 dekabr 2002-ci il

Əzabın yoxa çıxması

Əzabın aradan qalxması mümkündümü? Xoşbəxtlik? Xoşbəxtlik əzabın yerini tuta bilərmi? Ölüm? Ölümü əzabın aradan qalxması saymaq olarmı? Bəlkə qiyamət? Nə cür baxırsansa bax, bütün hallarda söhbətin əzabın aradan qalxmasından yox, keçmişdə qalmasından getdiyini görəcəksən. İstər xoşbəxtlik, yəni yeni tale, həyat yolunun dəyişməsi olsun, istər ölüm, qiyamət – bunların hamısı əzabın yalnız davam eləməsinə mane ola, yaxud davam eləməsinin qarşısını ala bilər; bunların hamısı əzabı yalnız keçmiş tarixdə qoya bilər.

Əzabın aradan qalxması üçün yeganə yol bu həyatın, bu dünyanın, əzab çəkmiş varlıqların illüziya olmasıdı. Əzabın yoxa çıxması üçün əzabın illüziya (xəyal, yuxu) olması vacibdi.

Əzabın qarşısının alınması çox böyük işdi, amma bu məni qane eləmir. Mən əzabın qarşısının alınmasını yox, əzabın bütün keçmişiylə bərabər yoxa çıxmasını istəyirəm. Mən istəyirəm məlum olsun ki, nəinki indiki və gələcək nəsillər əzab çəkməyəcək, həm də sən demə, keçmiş nəsillərin də əzabı yalanmış, sən demə, onlar da əzab çəkməyibmiş. Mən ötüb getmiş nəsillərin də əzablarının aradan qalxmasını, yoxa çıxmasını istəyirəm.

Mən həyatın ya illüziya olmasını, ya da həyat həqiqətən də mövcuduymuşsa, illüziya deyilmişsə, onda həyatın geriyə qayıtmasını, bütün olmuş hadisələrin bir kino lenti kimi ardıcıllıqla, kadr-kadr, öz içindən geriyə qayıdıb hələ olmamış (başlamamış) vəziyyətə çıxmasını istəyirəm.

7 noyabr 2002-ci il

İnsan yuxuda əzaba daha dözümsüzdü

Kafka gündəliyində (1916-cı ilin 19 aprel qeydində) bir yuxusundan danışır. Yuxunun həyəcanlı, gərgin nöqtəsinə çatanda belə deyir: «Yuxu, ələlxüsus da mənim yuxum belə gərginliyə gözmür və mən oyanıram». (Франц Кафка, «Избранное». Москва, «Радуга», 1989. səh. 478).

Yuxu təxminən göstərir ki, insan gərginliyin, həyəcanın hansı həddinə dözə bilər. Gərginliyin dözülməz həddində adam yuxudan ayılır. «Dözülməz həd» fərdi xarakter daşıyır; yuxu həyəcanı kimidə az, kimidə çox sürə bilər və hər kəsdə onun həmin günkü psixoloji vəziyyətindən asılı olaraq bəzən az, bəzən çox çəkə bilər.

Oyaq həyatda əzabın ən dözülməz həddində insan ölür, yuxudasa ayılır. Kim bilir bəlkə elə ölmək də oyanmaqdı? Onda belə çıxır ki, bu həyatın özü də yuxudu?

İnsan yuxuda əzaba daha dözümsüzdü. Adi həyatda min cür əzaba dözən insan yuxuda onun mində birinə tab gətirmir və yerindən dik atılır.

3 noyabr 2002-ci il

Əzabın bəraəti yoxdu

Mən demirəm ki, dünyanı Allah yaratmayıb, mən sadəcə deyirəm ki, Allahın yaratdığı dünyada adamlar əzab çəkirlər. Deyəcəklər, əzab müvəqqətidi. Olsun. Amma əzabın müvəqqətiliyi onun bəraəti ola bilərmi?

Əzab ona görə müvəqqətidi ki, həyat müvəqqətidi – sağ adam üçün əzab müvəqqəti ola bilməz. İnsanı əzabdan yalnız ölüm qurtarır. Ölüm – əzabın müvəqqətiliyi demək ola bilər (Baxmayaraq ki, heç bununla da razılaşmaq çətindi. Amma qoy lap belə olsun.), amma bu, əzabın heçliyi demək deyil; deməli, əzabın bəraəti deyil.

Əzabın bəraəti yoxdu.

9 oktyabr 2002-ci il

Allah gərək insanı heykəl kimi yaradaydı

Əgər kainatı yaratmaq üçün mənə material versəydilər, onda mən atomlara canlı təbiətə çevrilmək imkanı (qabiliyyəti) verməzdim. Mən bitkilərin, heyvanların, insanların yalnız heykəlini yaradardım. Və onları yağışın, qarın altına düzüb tamaşa eləyərdim.

(Allahın cansız təbiəti yaratmağa haqqı çatırdı, canlı təbiəti yox).

Canlı varlığı yaratmağın bəraəti yoxdu. Yox, əgər atomların canlı varlığa çevrilmək imkanı qarşısıalınmazdısa, onda mən bilməzdim ki, kainatı nə cür yaradım... Bu halda mən özümü həmin materialı əlimdə tutub əbədi fikrə getmiş vəziyyətdə görürəm.

Mən hesab eləyirəm ki, Allah kainatı yaradanda atomlara canlıya çevrilmək qabiliyyəti verməməliydi. Yox, əgər bu mümkün deyilsə, onda kainatı yaratmamalıydı.

1 oktyabr 2002-ci il

Əyyub peyğəmbər yenidən xoşbəxt ola bilərmi?

Bibliya rəvayətləri içərisində Dostoyevskini ən çox məftun eyləyən Əyyub peyğəmbər haqda rəvayət olub. Yeri gəlmişkən, Dostoyevskiyə yazıb-oxumağı anası «Əhdi-Ətiq və Əhdi-Cədiddən yüz dörd müqəddəs hekayət» kitabıyla öyrədib. (Bax: Leonid Qrossman, «Dostoyevski». Bakı, «Gənclik», 1972. səh. 13; Ф.М. Достоевский, «Собрание сочинений в пятнадцати томах». Ленинград, «Наука», 1991. IX cild, səh. 678). Dostoyevski öz həyatının bu məqamını «Karamazov qardaşları»nda abid Zosimanın tərcümeyi-halına daxil eləyib (Bax: Ф.М. Достоевский, «Собрание сочинений в пятнадцати томах». Ленинград, «Наука», 1991. IX cild, səh. 326). Romanda abid Zosima Əyyub peyğəmbərdən danışır. Yazıçı burda onu uşaqlıqdan məftun eləyən bu rəvayətlə bağlı fikirlərini oxucularla bölüşür.

Bir gün Allah Yer kürəsini gəzib qayıtmış şeytandan soruşur: «Mənim qulum Əyyubu gördünmü?» Və Allah özünün bu müqəddəs, pak qulunu şeytana tərifləyir. Şeytan qımışır: «Ver onu mənə, onda görərsən qulun səndən necə üz döndərib lənətlər yağdıracaq». Allah öz sevimli möminini şeytanın ixtiyarına verir. Şeytan onun uşaqlarını, mal-qarasını əlindən alır, var-dövlətini havaya sovurur. Ancaq Əyyub peyğəmbər Allahdan üz döndərmir, şikayətlənmir. Əvəzində Allah onu yenidən var-dövlətli eləyir, ona firavan həyat bəxş eləyir, Əyyub peyğəmbər yenidən oğul-uşaq sahibi olur. O, sonrakı övladlarını da əvvəlki kimi sevir, xoşbəxt olur. Ancaq bu mümkündümü? Əyyub peyğəmbər yenidən xoşbəxt ola bilərmi? «Əvvəlki övladları yoxdusa, neçə-neçə uşağını itiribsə, o, yeni övladlarına nə cür ürəkdən

sevinə bilər? O nə cür əvvəlki kimi tam xoşbəxt ola bilər, əgər itirdiyi övladlarının xatirəsi qalıbsa, lap sonrakı uşaqları ona nə qədər əziz olsa belə?» Şəkkakların bu suallarına abid belə cavab verir: «Yox, olar, olar: keçmiş kədər həyatın böyük bir sirri nəticəsində yavaş-yavaş sakit, həzin bir sevincə çevrilir…». (Ф.М. Достоевский, «Собрание сочинений в пятнадцати томах». Ленинград, «Наука», 1991. IX cild, səh. 328).

Keçmiş əzabları sonralar insanın xoş bir duyğuyla, hətta sevinclə xatırlamasını Dostoyevski yazılarında bir neçə dəfə söyləyib.

Mövzuyla bağlı yazıçı-alim Lev Ginzburqun «O dünyada görüşlər» (Bakı, «Yazıçı», 1993. səh. 124-125) kitabında da maraqlı fakt var. Ginzburq nasistlərin keçmiş Daxau düşərgəsini gəzəndə bir hadisəylə üzləşib: «Biz çınqıl səpilmiş meydana çıxdıq. Hər halda Daxau muzey idi. Bura yeni-yeni ekskursiyaçılar gəlirdi. Onlar pavilyonların girəcəyində toplaşır, şəkil çəkdirir və özləri də çəkir, açıqcalar və nişanlar alırdılar.

Bu izdihamın içərisində ucaboy, enlikürək, üzü günəşdə qaralmış, başının iri daz yeri darçını rəngə çalan, qum rəngli səliqəli kostyum geymiş bir kişi gözümə sataşdı. O, təkcə hündür boyu ilə deyil, qeyri-adi fəallığı, coşğunluğu ilə seçilirdi…

Belə görünürdü ki, o burda açıq-aşkar nəyinsə intizarını çəkir…

Axır ki, o, yaşıllığın arasında bacası kərpicdən hörülmüş alçaq binanı gördü, bapbalaca, «əl boyda» meydanı gördü və qeyri-adi həyəcanla, demək olar ki, *əsl sevinclə (kursiv mənimdi – A.Q.)* qışqırdı:

– Bura baxın, bir bura baxın! Bu ki bizim krematoriyamızdır! Bu ki bizim appelplatsımızdır! Aman Allah! Burda axı dar ağacı qurulmuşdu!.. Pərvərdigara, pərvərdigara!..

Onun yanaqlarından yaş axırdı, sifətindəsə həyatda bircə dəfə təsadüf olunan misilsiz fərəh cilvələnirdi. İnsan yalnız ömrünün *ən yaxşı* (*kursiv Ginzburqundu – A.Q.*) illərini yaşadığı *doğma yerlər* (*kursiv Ginzburqundu – A.Q.*), *öz gələcəyi ilə görüşməyə gələndə belə hisslər keçirə bilər* (*kursiv mənimdi – A.Q.*).

Bəli, əslində də beləydi... İyirmi beş il əvvəl Daxauda məhbus olmuş, indisə uzaq cənub ölkəsindən keçmiş həbs düşərgəsinə gəlmiş bu adam şirin və müqəddəs dəqiqələrini yaşayırdı…

Lakin *xatirələrlə* (*kursiv Ginzburqundu – A.Q.*) keçən bu müqəddəs dəqiqələr ona həddən artıq baha başa gəlməmişdimi?»

İnsanın istənilən şəraitə, hətta bir budağın üstündə yaşamağa da vərdiş eləyə biləcəyini, ümumiyyətlə həyatın elə vərdiş olduğunu Alber Kamyu əsərlərində, xüsusən «Yad» povestində bir neçə dəfə vurğulayır. (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 38, 81-82, 106.). Ancaq indi söhbət ağır şəraitə, yeni bədbəxt vəziyyətə vərdişdən getmir. Əksinə, burda biz xoşbəxtliyə vərdişdən danışırıq. Keçmiş xoş günlər yeni bədbəxt illərdə insan üçün təskinlikdi, bəs keçmiş bədbəxt günlər yeni xoşbəxt illərdə insan üçün nədi?

Məncə, bədbəxt insan üçün xoşbəxtliyə vərdiş eləmək xoşbəxt insan üçün bədbəxtliyə vərdiş eləməkdən daha çətindi. Axı, heç də həmişə keçmiş kədər, dərd sonralar sevincə çevrilmir. Axı, həmişə əzab verən əzablar da var, özü də çoxdu.

Bununla belə, illər ötdükcə sevincli xatirələrə dönən əzablı yaşantılar da var və bu mənada abid Zosima haqlıdı. Ancaq qismən, qismən haqlıdı. Və çox maraqlıdı: görəsən necə olur ki, əzablı günlər illər ötəndən sonra sevincli xatirəyə çevrilə bilir? Bunun səbəbi nədi? Doğrudanmı insan unutmayanda özününküləşdirir? Söhbət barışmaqdan getmir. Söhbət bir vaxt əzab verəndən indi ləzzət almaq qabiliyyətindən, xüsusiyyətindən gedir.

Ancaq burda bir məsələ var. Məncə, insan yalnız haqsız məruz qaldığı, vicdanını ağrıtmayan əzabdan sonralar həzz ala bilər. Yəni yalnız vicdanınla çəkmədiyin əzabdan illər sonra fərəh duymaq mümkündü. Məsələn, Əyyub peyğəmbər günahsızıydı, Daxauda bir vaxt yatmış o adam günahsız olub, yəni onu ora haqsız yerə salıblar.

Günahkar adama əzab yalnız verildiyi anda ləzzət eləyə bilər (Freydin nəzəriyyəsini, sağalmaq istəməyən xəstənin bununla vicdanını sakitləşdirməyə can atması haqda dediklərini yada sal), günahsız adamasa o, həmin anda ağır gəlsə də, sonralar ləzzətə, həzzə çevrilə bilər.

Bəlkə insanın bu dünyada sevincə çevirə bilmədiyi əzablar da nə vaxtsa – öləndən sonra sevincə çevrilir? Ola bilərmi ki, ruh, xalis ruh – Allah bütün (!) əzabları sevincə çevirə bilsin? Təkrar eləyirəm: demirəm ki, unutdursun, barışdırsın və sair. Yox, sadəcə sevincə, həzzə çevirsin onu. Yəni bu gün filan haqsız hadisədən, haqsızlıqdan əzab çəkirdin, sabah eyni hadisəni ruh sevinclə xatırlayacaq. Ola bilərmi? Yox. Bu mümkün deyil. Onda belə çıxır ki, ruh şərə sevinməyi bacarır, şərdən ləzzət alır. Ancaq bu, hər halda məsələnin mistik, fantastik tərəfiylə bağlı suallardı. Məsələnin real, psixoloji tərəfinin sirrisə belədi: necə olur ki, bu gün səndə bədbəxtlik hissi doğuran, bu gün səni bədbəxt eləyən hadisələri illər ötəndən sonra xoşbəxtcəsinə xatırlaya bilirsən, xatırladıqca özünü xoşbəxt duyursan? Təkcə ona görə ki, faciə uzaq keçmişdə qalıb? Bu gün üçün təhlükə törətmir – ona görəmi? Xeyr. Bəlkə insan, sadəcə müqayisəyə sevinir, müqayisədə bugünkü xoşbəxtliyinə sevinir? Xeyr. Səbəb başqadı. Nədi? Bilmirəm.

O ki qaldı Əyyub peyğəmbərin başına gələnlərə, burda xeyli sual ortaya çıxır. Biz burda o suallardan yalnız biri ətrafında (Əyyub peyğəmbərin yenidən xoşbəxt olması, özünü xoşbəxt hiss eləməsi mümkündümü?) danışdıq. Başqa suallar da qoymaq olardı: Allahın sınağı nə dərəcədə əxlaqlıdı? Allahın Əyyubu – mömin, günahsız bir bəndəni şeytanın öhdəsinə buraxması nə dərəcədə ədalətli qərardı? Allahdan üz döndərsəydi, Əyyub peyğəmbərin taleyi necə olacaqdı? Bu halda Allahın ona başqa (əlavə) cəzalar verməyə haqqı çatardımı? Əyyubun Allahdan üz döndərməyə haqqı çatırdımı? Belə çıxmırmı ki, Əyyub peyğəmbəri şeytana tapşırmaqla Allah əslində şeytanın fitvasına gedib?

Ancaq ən əsas sual «Əyyub peyğəmbər yenidən xoşbəxt ola bilərmi?» sualıdı. Bu ən əsas sualdı. Xeyr, Əyyub peyğəmbər daha heç vaxt əvvəlki kimi xoşbəxt ola bilməz. Mənim cavabım belədi.

17 avqust 2002-ci il

İnsanın kədərli simaya daha çox etibar eləməsi

«Cinayət və cəza»da Marmeladov ilk dəfə rast gəldiyi (içki dükanında) Raskolnikova yaxınlaşıb dostcasına dərdini danışmasını belə izah eləyir: «Cavan oğlan, sizin üzünüzdə mən bir kədər ifadəsi oxuyuram. Siz içəri girən kimi mən bu kədəri sizin üzünüzdə oxudum, ona görə də dərhal sizə müraciət etdim. Mən öz həyatımı sizə nağıl eləməklə özümü bu tənbəl və avara adamların qabağında biabır eləmək fikrində deyiləm, bunsuz da onlar hər şeyi bilirlər, – bunu söyləməklə mən, təhsil almış və həssas bir adam axtarıram». Deməli, Marmeladov Raskolnikovun üzündə gördüyü (oxuduğu) kədərdən belə nəticə çıxarır ki, o, təhsil almış və həssas adamdı, yəni onun axtardığı adamdı. O, kədərli adama daha çox etibar eləyir.

Məncə, biz bu hala öz həyatımızda da rast gəlirik. Biz tanımadığımız, təsadüfi bir adama nəyisə etibar eləmək məcburiyyətində qalanda və bundan ötrü həmin adamın vicdanına intuitiv etibardan, güvənməkdən başqa bir zəmanətimiz olmayanda (tutaq ki, vağzaldayıq və

çantanı bir adama tapşırıb ayaqyoluna getmək istəyirik, əgər biz çantanı bizimlə bir reysdə uçası, bir avtobusda gedəsi adama tapşırırıqsa, bu zaman zəmanətimiz var – bilirik ki, qaçmayacaq, yaxud hətta üzdən əclafa oxşayan satıcıya da tapşırmaqdan çəkinmərik, o da bir çantaya görə ticarət köşkünü qoyub qaçası deyil; ancaq mən bu cür «girovun» olmadığı situasiyadan danışıram, ona görə də «vicdanına intuitiv güvənməkdən başqa bir zəmanətimiz olmayanda» sözlərini işlətdim) mütləq nurlu sima, mədəni sima axtarırıq. Mədəni simanı deyə bilmərəm, burda istisna çox ola bilər, ancaq nurlu simanın kədərsiz olması nadir istisnalardandı.

Hər bir insan kədərli simaya daha çox inanır, nəinki kədərsiz simaya. İnsan tək dərdini yox, pulunu da kədərli simaya (adama) daha asanlıqla etibar eləyir.

16 iyun 2002-ci il

Tüstü

Qəmli, kədərli anlarında, o vaxtlar ki, od tutub odlanırsan, yandığından bilmirsən neyləyəsən, bir siqaret yandırırsan. Tüstüsünü ciyərinə çəkib üfürürsən və hamı görür ki, doğrudan da sənin başından tüstü çıxır. Sonra da öz tüstünün arxasınca baxa-baxa sakitləşirsən... Yoxsa ki, çapalaya-çapalaya, boğula-boğula qalardın.

Ona görə də mən bəzilərinin «dərdimdən çəkirəm» deməsinə inanıram.

1994-cü il

3. Xoşbəxtlik

Bütün hisslərin qarışığı var

Bütün hisslərin qarışığı var. Demək olmaz ki, mən bu anda ancaq kədər hiss eləyirəm, yaxud yalnız sevirəm və ya tam xoşbəxtəm.

10 yanvar 2006-cı il

Kədərsiz il yoxdu

Hər ilin kədəri var. Kədərsiz il yoxdu. Həm də bu kədər fərqli deyil. Yəni hər ilin öz kədəri yoxdu, bütün illərin kədəri eynidi. Hər il eyni kədər var. Dünyanın, zamanların kədəri birdi.

31 dekabr 2005-ci il

Xoşbəxtliyə mane olan hiss

Mənim xoşbəxtliyimə iki hiss mane olur: qorxu və yaddaş – kədər yaddaşı, doğmalarımın faciəsi.

Avqust 2005-ci il

Min illərdi insanlar axırda hansısa nəslin xoşbəxt yaşamağı uğrunda mübarizə aparır

Min illərdi insanlar axırda hansısa bir nəslin xoşbəxt yaşamağı uğrunda mübarizə aparır. Ən maraqlısı da odu ki, həmin xoşbəxt nəsil doğrudan da xoşbəxt ola bilməkdən ötrü əvvəlki nəsillərin əzabını unutmalıdı.

9 may 2005-ci il

Üçüncü adam

Ruslarda belə bir məsəl var: «Tretiy lişniy». Yəni üçüncü (adam) artıqdı, üçüncüyə ehtiyac yoxdu.

Sosial psixologiyada qrupun aşağı həddi kimi üç nəfər götürülür. Yəni qrupun yaranması üçün ən azı üç adam olmalıdı. İki nəfər qrup deyil. Qrup, deməli, cəmiyyət, ictimaiyyət, ictimai mühit, sosial həyat üçüncü adamın gəlişiylə, müdaxiləsiylə yaranır.

Üçüncü adam yoxa çıxandan (gedəndən) sonra cəmiyyət də yoxa çıxır.

İctimai bəlaları, sıxıntıları, insan azadlığını boğan qaydaları, ənənələri də üçüncü adamın mövcudluğu yaradır. «Üçüncü adam» – cəmiyyət, qayda-qanunlar, adət-ənənələr, ictimai qınaqlar, nəzarət, sıxıntı, azadlığın məhdudlaşması, sərbəstliyin (iki nəfərin sərbəstliyinin) azalması, bir sözlə, iki nəfərin bədbəxtliyinin başlanması deməkdi.

Sevən adam xoşbəxtliyi həmişə iki nəfərdə görür: bir özündə, bir də sevdiyi adamda. Sevən adam üçün sevdiyi adamla bir yerdə olmaq xoşbəxtliyin yeganə formasıdı. İki sevənin bədbəxtliyinə həmişə üçüncü adam səbəb olur. Hətta sevdiyi adam sevən adamı sevmirsə də, bu, üçüncü adamın varlığıyla bağlıdı. Deməli, o, üçüncü – başqa bir adamı sevir. Əgər üçüncü adam olmasaydı, iki nəfər əvvəl-axır bir-birini sevəcəkdi.

Üçüncü adam olmasaydı, iki nəfər özünü tamam başqa cür aparardı. Ola bilsin, çox iyrənc aparardı («Yüz il tənhalıq»ın sonundakı kimi), bu da düzdü, amma hər halda başqa cür aparardı.

24 avqust 2004-cü il

Həyat təcrübəsi, peşmanlıq

Bir ömür bitkin bir həyat təcrübəsinə yiyələnmək üçün bəs eləmir. İnsan nə qədər yaşa dolsa da, nə qədər görüb-götürsə də, yenə naşıdı. Yenə də elə hadisələrlə qarşılaşacaqsan ki, bilməyəcəksən neyləyəsən. Məlum olacaq ki, həyat səni hələ də bu hadisəyə hazır böyütməyib. Həyat sənə hələ də bunu öyrətməyib.

Həyat bizi ömürlük şagirdliyə götürüb. Dünya bizi uşaq yerinə qoyub. O elə hey bizə dərs deyir, qulaqburması verir. Elə bil mən elə ancaq səhvimi başa düşmək üçün yaranmışam. Dünya məni peşman eləməkdən doymur. Elə bil o məndən nəyinsə acığını çıxır. Guya ki, ona böyük pisliyim dəyib.

Zalım dünya, niyə sən öz təcrübəni damla-damla öyrədirsən? Niyə sən həmişə peşman eləyə-eləyə müdrikləşdirmək istəyirsən? Sonrakı peşmançılıqdan mənə nə fayda? Olan olub, keçən keçəndən sonra bu təcrübə, bu bilik, bu ağıl mənim nəyimə lazımdı? Hər şeyi geriyə qaytarıb bu həyatı yenidən, özü də başqa cür yaşamaq istəyim, ötən ömrümü indiki ağılla, indikindən də ağıllı yaşamağı arzulamağım, səhvlərimi düzəltmək üçün bu ömrə bir də ehtiyac duymağım sənə bu qədərmi vacibdi? Niyə sən elə eləyirsən ki, mən həmişə hər şeyi geriyə

qaytarıb bu həyatı yenidən, özü də başqa cür yaşamaq istəyim, ötən ömrümü indiki ağılla, indikindən də ağıllı yaşamağı arzulayım, bu ömrə bir də ehtiyac duyum?

Həyatda düzəldilməsi mümkün olmayan səhvlərimi xəyalımda düzəldirəm və xəyalən xoşbəxt oluram. Mənim peşmançılığım göstərir ki, bu xoşbəxtlik xəyal yox, gerçək ola bilərdi. Peşmançılıq – mənim gerçəkliyə uyğun gələn, ancaq gerçəkləşməyən xoşbəxtliyimin qınağıdı. Peşmançılıq – gerçəkliyə uyğun gələn, ancaq gerçəkləşməyən xoşbəxtliyə görədi.

18 mart 2004-cü il

Darıxmaq

Biz adamların ən çox darıxdığı əsrdə – XX əsrdə doğulmuşuq.

15 mart 2004-cü il

Mənasızlıqdan əzab çəkmək

«…Öz puç olmuş həyatının xarabalıqlarına səpələnən mənaları axtarır, mənasız görünən şeylərdən əzab çəkir…» – Herman Hessenin «Yalquzaq» romanından. (Herman Hesse, «Yalquzaq». Bakı, «Yazıçı», 1990. səh. 91).

Mən də Hessenin Yalquzağı kimi mənasızlıqdan əzab çəkirəm. Təkcə öz həyatımda gördüyüm mənasız şeylərdən yox, bütün dünyadakı mənasızlıqlardan. Əslində mənim əzablarımın kökündə elə mənasızlıqdan əzab çəkmək durur. Mən Absurddan ləzzət almıram, mən Absurddan əzab çəkirəm. Düzdü, absurdu dərk eləmək, absurdu duymaq məni hərdən yüngülləşdirir də, ancaq bu da nəsə çox kədərli, nisgilli, qüssəli, ağrılı bir yüngüllük olur. Absurd məndə daha çox tragizm və əzab oyadır.

18 mart 2003-cü il

Yaşamağa mane olan nədi: dünya, yoxsa xarakter?

Bəzən mən başqa dünya, bəzən başqa xarakter arzulayıram. Onda ki, mən başqa xarakter arzulayıram, onda mən dünyanı yox, özümü dəyişmək haqda düşünürəm. O vaxt ki, mən başqa dünya arzulayıram, onda mən özümü yox, dünyanı dəyişmək haqda düşünürəm. Bütün bunlar əzabların səbəbini bəzən dünyada, bəzən xarakterdə görməyimin nəticəsidi.

Yaşamağa həyatın özü, dünya mane olur, yoxsa xarakter?

Amma hər halda mənim dünyadan narazılığım xarakterimdən narazılığımdan çoxdu. Ona görə də mənim dünyanı başqa cür görmək istəyim xarakterimi başqa cür görmək istəyimdən yəqin ki, xeyli güclüdü.

Bəlkə də ən yaxşısı həm başqa dünyada, həm də başqa xarakterdə olmaq olardı.

Mənə nə lazımdı: başqa dünya, yoxsa başqa xarakter? Dünyanı dəyişmək mümkün deyil (ola bilsin, dünya nə vaxtsa mənim arzuladığım kimi olacaq, amma hər halda bu, mənim yaşadığım dövrdə olmayacaq), elə xarakteri də. Deməli, xarakterindən, yaxud dünyadan əziyyət çəkən insan çıxılmaz vəziyyətdədi, onun arzusu gözündə qalacaq.

«Əgər mən başqa cür ola bilsəydim, olardım» – bu sözü elə indicə televiziyadan, «Nyu-Yorkda payız» (səhv eləmirəmsə, film belə adlanır) filmində baş qəhrəman rolunda oynayan Riçard Girin dilindən eşitdim.

Dəyişə bilməmək, dəyişdirə bilməmək əzabı.

24 dekabr 2002-ci il

Xarakter və həyat tərzi

Mən nə yaxşı, nə də pis yaşaya bilərəm, mən yalnız öz xarakterimə uyğun yaşaya bilərəm.

Bütün fəlsəfələr, xeyir-şər haqda bütün arqumentlər xarakter qarşısında acizdi.

İnsan öz xarakterinə zidd gedə bilərmi? Öz xarakterinə zidd getməyin özü xarakterik xüsusiyyət, xarakter deyilmi? İnsana «Nə yaxşı, nə də pis yaşa. Öz xarakterinə uyğun yaşa!» demək olarmı? Bu, təhlükəli deyilmi? Əgər insan öz xarakterinə zidd gedə bilməzsə, onda çıxış yolu nədədi?

İnsanın öz xarakteriylə mübarizə aparması nə deməkdi? Əgər xarakter mənəmsə, onda mən özümlə nə cür mübarizə apara bilərəm? Özümlə – xarakterlə mübarizə apara bilməyim üçün bir başqa mən də olmalıdı. Əgər başqa mən də varsa, onda xarakter nə cür mənim özüm ola bilər?

İnsana «Öz xarakterinə uyğun yaşama!» demək olarmı? Bu, absurd deyilmi?

Arqument xarakter qarşısında acizdi. Bəlkə aciz deyil?

Mən nə yaxşı, nə də pis yaşamaq istəyirəm, mən yalnız öz xarakterimə uyğun yaşamaq istəyirəm. Və inanıram ki, bundan dünyaya çox az ziyan dəyə bilər. Ancaq mənə deyə bilərlər ki, bu çox təhlükəli prinsipdi, çünki elə adamlar var ki, öz xarakterinə uyğun yaşasalar, dünyanı qana çalxayarlar. Mən bəri başdan bildirmək istəyirəm ki, insanın öz xarakterinə uyğun yaşamasını bir prinsip kimi qəbul eləmirəm, yəni mən demirəm ki, insan öz xarakterinə uyğun yaşamalıdı, yox, sadəcə deyirəm ki, mən öz xarakterimə uyğun yaşamaq istəyirəm və inanıram ki, mənim bu isətyim cəmiyyət üçün çox az təhlükə doğurur.

Dövlət ideyası təbiətən (irsən, anadangəlmə) cinayətkar adamların öz xarakterinə uyğun yaşamasının qarşısını almaq üçün yaranıb. Bu baxımdan Azərbaycan dövləti tamamilə dövlət ideyasına zidd işləyir.

6 dekabr 2002-ci il

Taleyimin taleyi

Görən mən niyə beləyəm? Ona görəmi ki, filan dövrdə, filan ölkədə, filan millətin üzvü kimi, filan ailədə, filanıncı övlad kimi dünyaya gəlmişəm? Əgər mən buna görə beləyəmsə, onda ola bilərdimi mən başqa dövrdə, başqa ölkədə, başqa millətin üzvü kimi, başqa ailədə dünyaya gəlim? Bəlkə mənim bu cür olmağım vaxtdan, yerdən-yurddan asılı deyil? Bəlkə mən harda, nə vaxt, nə kimi dünyaya gəlsəm də, elə belə olacaqdım? Bu suallar mənə öz taleyimin təsadüf, yoxsa zərurət olduğunu bilmək üçün lazımdı. Bu suallara cavab verən adam insan taleyinin təsadüfi, yoxsa zəruri olduğu haqda hökm vermiş olacaq. Əgər mən bu dövrdə, bu ölkədə, bu millətin üzvü kimi, bu ailədə dünyaya gəldiyimə görə beləyəmsə və bu dövrdə, bu ölkədə, bu millətin üzvü kimi, bu ailədə, bu sırada məndən başqa adam dünyaya gələ bilməzdisə, deməli, mənim taleyim zərurətdi, alın yazısıdı. Yox, əgər mənim əvəzimə bir başqası da doğula bilərdisə, deməli, mənim taleyim təsadüfdü (eləcə də başqasının taleyi). Əgər mənim taleyim vaxtdan, yerdən asılı deyilsə, yəni mən hansı dövrdə, hansı ölkədə, hansı millətin üzvü kimi, hansı ailədə, hansı sırada dünyaya gəlsəm də bu xarakterdə, bu əxlaqda olacaqdımsa, deməli, mənim taleyim yenə zərurətdi.

Məndən ötrü bunun hansı daha təsəllivericidi: taleyimin təsadüf, yoxsa zərurət olması? Heç biri. Hər iki halda mən özümü oyun-oynancaq kimi hiss eləyirəm.

Bəlkə mənim taleyim mənim özümdən asılıdı? Əgər belədisə, onda niyə harda, nə vaxt, nə kimi dünyaya gəlməyim mənim taleyimdə bu qədər rol oynayır? Əgər mən səhv düşünürəmsə, harda, nə vaxt, nə kimi dünyaya gəlməyim əslində heç bir təsir göstərmirsə, onda yenə belə çıxmırmı ki, mənim taleyim bu dünyadan asılı olmayaraq mövcuddu. Mən harda, nə vaxt dünyaya gəlsəm də belə olacaqdım və bu yenə də o demək deyilmi ki, mən öz taleyimlə bərabər hələ dünyaya gəlməmişdən mövcudam? Hər şey məndən o vaxt asılı ola bilər ki, mən – mənim xarakterim, iradəm, taleyim heç nədən asılı olmasın. Əgər belədisə, onda bu o deməkdi ki, mən dünyaya gəlməmişdən hansısa bir formada (daha doğrusu, məzmunda) mövcudam və onu heç kim dəyişə bilməz. Onda belə çıxmırmı ki, mən özümdən asılı olmaya bilmərəm? (Paradoksdu bu). Əgər mən bu dünyada nələrdənsə asılıyamsa, onda taleyimin taleyində hər şey məndən asılı ola bilməz.

Hər şey məndən asılıdı? Mənim özüm də? Mən özümdən asılı olmaya bilərəmmi? Və kimdi ümumiyyətlə bu Mən? Əgər o mənəmsə, onda niyə mən özümü ondan ayıra bilirəm? Mən neçə dənəyəm? Mən hansıyam?

4 dekabr 2002-ci il

Cəmiyyət idealı ictimai prosesin sonsuzluğuyla ziddiyyət təşkil eləyir

Hər hansı bir cəmiyyəti ideallaşdıranda onda hesab eləyirsən ki, ya mövcud (indiki) cəmiyyət yerində möhkəm dayanmalıdı, nə irəli, nə də geri getməlidi (bu, yaşadığı dövrü, quruluşu ideal sayanlara aiddi); ya irəli getməlidi, inkişaf eləməlidi (bu, hansısa gələcək cəmiyyəti, gələcəyi ideallaşdırana aiddi); ya da geri qayıtmalıdı (keçmişi, onun hansısa mərhələsini ideallaşdıranlara aiddi). Hər üç halda cəmiyyətin öz idealına çatandan sonra neyləyəcəyi sualı ortaya çıxır. Birinci variantda olduğu kimi qalan iki variantın da tərəfdarları nə vaxtsa cəmiyyətin irəli, yaxud geri getməsinə mane olmağa məcburdular, mane olmalıdılar. İstənilən bir dövrü (xəyali, yaxud real) ideallaşdıranda qalan bütün dövrləri ona qurban verməyə məcbursan.

Mark Terensi Varronun «Altmışillik» satirasında 60 il yuxuya getmiş adamın oyanandan sonra gördüyü Roma təsvir olunur. Roma onu məyus eləyir, çünki bu, qədim Romanın köhnə dövrünü ideallaşdıran qatı respublikaçı Varronun qəhrəmanıdı. (Казимеж Куманецкий, «История культуры древней Греции и Рима». Москва, «Высшая школа», 1990. səh. 257).

Mən fikirləşirəm: görəsən, hansı dövrdə oyansam, dünya məni qane eləyər? Belə dövr yoxdu: nə keçmişdə, nə də gələcəkdə. Ancaq məni daha çox məyus eləyəcək dövr ola bilər. İnsanın faciəsini cəmiyyətdə yox, yaranışın, varlığın özündə görən adamı qane eləyə biləcək dövr yoxdu. Azıx mağarasından çıxanda ayağını əzmiş uşağın ağrısı bütün dövrlərdə bütün dünyanı faciəvi saymaq üçün kifayət eləyir.

İdeal cəmiyyət yoxdu, ola da bilməz. Sadəcə, hər bir dövrdə insanın ağrılarını azaltmaq üçün yararlı olan, işə yarayan üsullar var. Cəmiyyət idealından imtina eləyib, ictimai dəyişiklikləri sonsuz proses kimi götürmək və hazırkı anda insanın əzablarını sakitləşdirə biləcək üsullardan yararlanmaq lazımdı.

İctimai dəyişikliyi sonsuz proses sayan adamın cəmiyyət idealı ola bilməz. Çünki bayaq dediyimiz kimi, cəmiyyət idealı ictimai prosesi mütləq sonluğa çatdırmaq istəyən adamlarda

ola bilər və belə adamlar müəyyən bir dövrdə bütün ictimai dəyişikliyi rədd eləməli, durğunluğu, tam sabitliyi qorumağa çalışmalıdılar.

Mən ictimai prosesin sonu olduğuna inanmıram. Məndən ötrü bu, sonsuz prosesdi. Deməli, ictimai ideal mütləq, müqəddəs ola bilməz, ictimai kult yanlışdı. Yəni Azərbaycan Respublikası yalnız bu anda lazımdı və yaxşıdı. Başqa vaxtsa onun dəyişəcəyi, rədd olunacağı təbiidi və yaxşıdı (o dövr üçün). Hər şey dəyişəcək, dəyişməz olan yalnız yaranışın faciəviliyidi. Ola bilsin, insanın faciəsi azalacaq, amma yaranışın faciəviliyi (bəraətsizliyi) zərrə qədər də azalmayacaq.

1 oktyabr 2002-ci il

Xatirə

Heç tanımadığımız bir adamın ölümünü biz çox soyuqqanlı qarşılayırıq, onun ölümü bizə adi gəlir, çünki onunla bağlı heç bir xatirəmiz yoxdu. Tanımadığımız bir adamın ölümünə biz tanıdığımız adamın ölümünü yada salanda acıya bilirik.

Mənim heç tanımadığım adam o adamdı ki, onunla bağlı mənim heç bir xatirəm yoxdu.

22 sentyabr 2002-ci il

Kişilər arvad-uşaq sahibi olandan sonra öz canlarından qorxmağa başlayırlar

Ailə insanı qorxaq eləyir. Kişilər arvad-uşaq sahibi olandan sonra öz canlarından qorxmağa başlayırlar. Əlbəttə, bu zaman onların qorxaqlığı adicə bir özünüqoruma deyil. Yəni onların qorxaqlığı özlərini yox, ailələrini qorumaq üçündü. Ailəli adamın qorxusu təkcə özünü yaşatmaq üçün deyil. Ailəli adam öz qorxusunda müstəqil deyil. Özü də təkcə ailə başçısı (ata, ana) yox, sadəcə ailə üzvü olan, yəni bacı-qardaşı, ata-anası olan hər hansı subay bir adam da öz qorxusunda müstəqil deyil.

Bir insanın qorxusunda çox vaxt bir neçə adam iştirak eləyir, yəni həyatı təhlükə altında olan insan tək özünə görə yox, başqalarına görə də qorxur. İnsanın həyatına təhlükə yarananda dərhal onun gözü qabağında doğmaları canlanır və insanın həmin adamlara yazığı gəlir. İnsanda başqalarının xətrinə sağ qalmaq istəyi (motivi) özünün yaşamaq istəyi qədər güclüdü.

İnsan iki nəfər üçün yaranıb (iki nəfərlik yaranıb). Bir özü, bir də başqası üçün. İnsanın mütləq təkliyi və tənhalığı mümkün deyil. Şopenhauer tənhalığa çəkilmişdi və it saxlayırdı. Amma o, itinə dost deyirdi. Yəni bu artıq Şopenhauer üçün it deyildi, dost idi, insan idi. İnsan yarı yaranıb. O, yalnız başqa bir insanla bütövləşir.

1 sentyabr 2002-ci il

İndiki nəslin hüquqları

Gələcəkdən ötrü çalışan adam öz zəhmətinin də olmasa, hər halda öz zəhmətkeşliyinin faydasını indiki anda görməlidi. Tutaq ki, 65 yaşlı bir adam 50 illik bir layihə hazırlayıb həyata keçirməyə başlayırsa, o bu layihənin nəticəsini görməyəcək, amma heç olmasa o, bu çalışmasına görə yaxşı maaş, qonorar almalıdı.

Üzərinə ictimai vəzifə götürməyən adamın gələcəyə işləməkdən imtina eləməyə haqqı çatır.

Gələcək bizim həyatımıza kobud müdaxilə eləməməlidi. Gələcəyin, gələcək nəsillərin mənafeyilə indiki nəslin mənafeyi tarazlaşdırılmalıdı. Gələcək nəsillər mənim (indiki nəslin) hüquqlarımı pozmamalıdı. Mən hələ doğulmamış nəsilləri indiki nəslin hüquqlarını pozmamağa çağırıram.

30 avqust 2002-ci il

Xoşbəxtlik başqasının bədbəxtliyi hesabına qurulmamalıdı

Heç bir nəsil öz xoşbəxtliyini başqa nəslin bədbəxtliyi hesabına qurmamalıdı.

(Mövzu üzrə Dostoyevskinin Puşkin bayramında dediklərinə bax: Ф.М. *Достоевский*, «*Дневник писателя*». Москва, «Современник», 1989. səh. 529-530).

5 avqust 2002-ci il

«Bu nəsil qurban verməlidi ki, gələn nəsil xoşbəxt olsun» məntiqinin sonsuzluğu haqda

Bəzən deyirlər, bu nəsil qurban verməlidi ki, gələn nəsil xoşbəxt olsun. Bu məntiqi qəbul eləyən onda belə bir məntiqi də inkar eləməməlidi ki, heç bir nəsil tam xoşbəxt ola bilməz, o bir çox ümidini, yəni hər bir nəsil bir çox ümidini (xoşbəxtliklə bağlı) istər-istəməz gələcək nəslin timsalında görməyi arzulayacaq, arzulamağa məhkumdu. Deməli, o da, gələn nəsil də öz idealı uğrunda (gələcək uğrunda) qurban verməlidi. Əgər xoşbəxtlik, doğrudan da, qurban istəyirsə, tələb eləyirsə, onda insan ömürlük qurbandı, qurbanlıqdı deməli.

Gələcək xoşbəxtlik üçün qurban tələb eləmək gələcəyin özündən də qurban tələb eləmək deməkdi. İndiki nəsildən qurban tələb eləyənlər bilməlidi ki, həmin məntiqlə gələcək nəsillərdən də qurban tələb olunacaq. Ancaq onlar – indi qurban tələb eləyənlər bunu bilmirlər, onlara elə gəlir ki, bu, son qurbandı. Onlar həmişə bu illüziyayla yaşayırlar. Görünür, gələcək nəsillərin özündən də qurban tələb olunacağına inanmaq indiki nəslin idealını, inamını şübhə altına saldığına, şübhə yaratdığına, indiki qurbanların faydasızlığı hissini, düşüncəsini doğurduğuna görə insanlar bu cür fikirlərini şüurlarına yaxın buraxmırlar.

Amma bir sual da yaranır burda: haqqında danışdığımız məntiqin sonsuzluğu onun yanlışlığına dəlalət eləyirmi? İndiki nəsildən qurban tələb olunması keçmiş nəsillərin verdiyi qurbanların mənasızlığınımı göstərir?

3 avqust 2002-ci il

Gələcək və insan təbiəti

«Yazıçının gündəliyi»ndə Dostoyevski adını çəkmədiyi, «Paradoksalist» adlandırdığı bir köhnə tanışıyla bəzi söhbətlərini, mübahisələrini də qələmə alıb. (Həmin Paradoksalist haqda bax: Ф.М. *Достоевский*, «*Дневник писателя*». Москва, «Современник», 1989. səh. 209, 290. Yeri gəlmişkən, məncə, Dostoyevski bu obrazı özündən uydurub, yəni Paradoksalist Dostoyevskinin özüdü. Hökm vermirəm, amma mənə elə gəlir, hansısa səbəbdən – senzuraya görəmi, yoxsa daxilən özünün də qəbul eləmədiyi bəzi düşüncələrin cəmiyyətə onun fikri kimi nüfuz eləməsinin qarşısını almaqdan ötrümü Dostoyevski publisistikasında da ədəbi qəhrəmanlar yaratmaq məcburiyyətində qalıb). Söhbətlərin birində (yenə deyirəm: məncə, Paradoksalistlə söhbət Dostoyevskinin özüylə söhbətidi) Paradoksalist deyir: «Uşaqlar –

© A.Qaraçənli

gələcəkdi, sevəndə də ancaq gələcəyi sevirsən, indinin qayğısına kimdi qalan…» («*Дневник писателя*», səh. 306).

Doğrudan da, insan elə bil gələcəyə işləməkdən ötrü yaradılıb. İnsanın təbiəti, psixologiyası belədi: gələcək onu bu gündən çox narahat eləyir.

Gələcəksiz nəsil olmayacaq. İnsanın sabahı sonsuzdu. İnsan yalnız bu günlə yaşaya bilmir, onun psixologiyası, təbiəti buna imkan vermir.

Bir var öz sabahını düşünməyənlər, bir də var başqasının sabahını düşünməyənlər. Bu iki tipin hər ikisində gələcəyə oriyentasiya var: birincilər başqasının, ikincilər özünün gələcəyini düşünür. Nə özünün, nə də başqasının gələcəyini düşünmək – insan təbiətinə ziddi, bu cür adam, ola bilsin, var, amma mən onun hansısa cəmiyyətdə normaya çevrilyəcəyinə inana bilmirəm. Elə anormallıqlar var ki, o yalnız bu gün belə görünür, sabahsa onu norma kimi qəbul eləyir, normal sayırlar. Nə özünün, nə də başqasının gələcəyini düşünməyi, məncə, insan çoxluğu heç vaxt normal qarşılamayacaq, bunu davranış normasına çevirməyəcək.

Gələcəksiz yaşamaq mümkün deyil. Hətta fiziki baxımdan da belədi.

28 iyun 2002-ci il

Dünya haqda həqiqəti heç kimin bilməməsi həqiqəti

Yalnız dünyadan xəbərsiz adam xoşbəxt ola bilər. Ancaq bu, dünya haqda yalan danışmağa əsas vermir. İnsana həqiqəti demək lazımdı. Amma həqiqət nədi, onu kim bilir? Məncə, bunun özü də bir həqiqətdi. Yəni insana dünya haqqında həqiqəti heç kimin bilməməsi həqiqətini demək lazımdı. Təbii ki, bu iki nəticə verəcək:

1) İnsan düşünəcək ki, onun bildiyi əsl həqiqətdi, yəni baxma ki, həqiqəti heç kim bilmir, o, həqiqəti bilir və həqiqəti heç kimin bilməməsi buna sübutdu. Bir qisim insanda belə mövqe formalaşacaq, daha doğrusu, formalaşıb da.

2) İnsan başa düşəcək ki, onun bildiyi – həqiqət olmaya da bilər, yəni ola bilsin, o, səhv mövqedədi. Bir qisim insanda da belə mövqe formalaşıb.

Dünya haqda həqiqəti heç kimin bilməməsindən sui-istifadə eləyənlər çoxdu.

Xoşbəxt dəliləri (psixi xəstələri) sağaltmaq onları bədbəxt eləmək deməkdi. Ancaq bu, onları sağaltmamaq üçün əsas deyil. Onları sağaltmaq lazımdı.

18 iyun 2002-ci il

Gələcəyin hambalı

Bütün dinlər, diktaturalar, böyük gələcək haqda təmtəraqlı vədlər insanı gələcəyin hambalına çevirir. Fərdi baxımdan insanı, siyasi-ictimai (tarixi) baxımdan bütöv bir nəsli gələcəyə işlətmək faktiki olaraq onu – insanı və onun nəsildaşlarını adam saymamaqdı.

Yalnız insana hambal kimi baxanlar böyük gələcəkdən, «qızıl əsr»dən dəm vura bilərlər.

Bir nəsli başqa bir nəslin hambalına çevirmək diktaturaların keçmiş adətidi. Real bir nəsli naməlum bir nəslə hambal kimi işlətmək. O nəsildən ötrü ki, sovet xalqları hamballıq eləyirdilər, o nəsil indi yoxdu. O nəsildən ötrü ki, gənc nasistlər özlərini qurban verirdilər, qan tökürdülər, o nəsil indi yoxdu. O nəsil gəlib çıxmadı və heç vaxt da gəlib çıxmayacaq.

Artıq neçə ildi Azərbaycan da gələcək nəsillərin xoşbəxtliyi uğrunda çalışıb-vuruşur. Və həmişə (bütün ölkələrdə və bütün dövrlərdə) olduğu kimi, fırıldaqçılar bundan gen-bol bəhrələnirlər. Gələcəyə işləyən və işlədilənlərin sayəsində onlar özlərinin bu günlərini,

indilərini təmin eləyirlər. İnsanın bu günü, indisi nə qədər rahat, xoşbəxt olsa, bir o qədər yaxşıdı və mən həmin fırıldaqçıların komfort «indi»sinə ürəkdən sevinərdim, əgər onların bu rahatlığı başqalarının «indi»sini istismar eləməklə, hətta böyük gələcək vədləriylə adamları küyləyib gələcəyin «indisini» də qamarlamaq, istismar eləmək hərisliyilə qazandıqlarını görməsəydim.

Mən gələcək nəsillərə işləmək fikrində deyiləm. Qoy gələcək nəsillər mənim gələcəyə hamballıq eləmək istəməməyimdən nəticə çıxarsınlar, özlərinə örnək götürsünlər. Qoy gələcək nəsillərə məndən gələcəyə hamballıq eləmək istəməməyim nümunə qalsın. İnanıram ki, bu, onlar üçün daha faydalı bir örnəkdi (mirasdı).

7 iyun 2002-ci il

İnsanın əxlaqa inamı var, amma əxlaqi gücü yoxdu

İnsanın əxlaqa inamı var, amma əxlaqi gücü yoxdu. Ona görə də insan əxlaqa hörmət eləyir, amma əməl eləyə bilmir.

17 aprel 2002-ci il

Öz həyatına məna vermək cəhdi

Övlad – çoxları üçün öz ömrünü mənalı eləmək vasitəsidi. Uşaq istəməyin bir səbəbi də öz həyatına məna vermək cəhdiylə bağlıdı. Uşaq olanda onlar heç olmasa bilirlər niyə yaşayırlar.

17 aprel 2002-ci il

Xoşbəxtlik. İndiki və gələcək nəsillərin xoşbəxtliyi

Şopenhauer deyir: «...Xeyir heç vaxt şəri aradan qaldıra və ya tarazlaşdıra bilməz, istər həmin xeyir şərlə eyni vaxtda ortaya çıxsın, istərsə də ondan sonra... Mənim indiki uğurlarım keçmiş əzablarımı aradan qaldırmadığı kimi, minlərlə adamın xoşbəxtlik və rahatlıq içində yaşaması da hansısa adamın əzab-əziyyətini aradan qaldırmır. ...Mənim gələcək sevincim indiki əzabımı əvəz eləmir: indiki əzab kimi, gələcək sevinc də ancaq öz vaxtının yerini doldurur». (Артур Шопенгауэр, «Мир как воля и представление». Минск, «Попурри», 1999. II cild, səh.727-728).

Azərbaycanda tez-tez belə şüarlar səslənir: «Gələcək nəsillərin naminə!..», «Gələcək nəsillər üçün!..»

Ümumiyyətlə, diktaturaların hamısında gələcək nəsillərin xoşbəxtliyi ilham mənbəyi olub.

Fəlsəfi mənada xoşbəxtliyin mümkünsüzlüyünü qoyaq bir qırağa, məsələyə sosial-psixoloji aspektdən yanaşaq: bəlkə gələcək nəsil, doğrudan da, xoşbəxt ola bilər, ancaq bu, indiki nəslin əzablarının heç milyonda birinin də sağalması demək deyil. Gələcək xoşbəxtlik mənim indiki əzablarıma hətta mən həmin gələcəkdə yaşasam da məlhəm ola bilməz. Əgər məlhəm ola bilməzsə, deməli, bəraət də ola bilməz. Onda bir nəsli başqa nəslə qurban vermək, bir nəsli başqa nəslə işlətmək nə dərəcədə düzgündü?

İndiki nəslin bədbəxtliyini gələcək nəslin xoşbəxtliyi üçün təməl daşı saymaq – indiki nəslin bədbəxtlərinə görməyəcəkləri xoşbəxtliklə təsəlli verməkdən daha absurddu. Artıq neçə ildi ki, Azərbaycanda bu iki cəfəngiyyatı xalqa sırımaqla məşğuldular.

İkinci cəfəngiyyat barədə: Əvvəla, bədbəxt nəslin (bədbəxt atanın) tam xoşbəxt varisi (xoşbəxt oğlu) ola bilməz, əgər o (varis, oğul) özünü tam xoşbəxt duyursa, deməli, sadəcə olaraq sələfinin (atasının) əzabları onun vecinə deyil.

Gələcək nəslin xoşbəxtliyi üçün yeganə real baza (əsas, zəmanət) indiki nəslin xoşbəxtliyidi. İndiki nəslin bədbəxtliyi gələcək nəslin xoşbəxtliyinə ən böyük maneədi. Ona görə də balaları xoşbəxt eləmək istəyən – ataları bədbəxt eləməməlidi. Gələcək nəsli xoşbəxt eləmək üçün elə eləmək lazımdı ki, o, gözünü açıb az-çox xoşbəxt nəsil görsün. İndiki subay oğlan və qızların övladları gələcək nəsildi. Onların xoşbəxt olması üçün gözlərini açanda ata-analarını xoşbəxt görmələri vacibdi. Əvvəla, biz özümüz bədbəxt ola-ola onları xoşbəxt eləyə bilmərik. İkincisi, əgər onlar bütün maneələri aradan qaldırsalar belə (həm bizim, həm də özlərinin səyi nəticəsində), öz ata-analarının bədbəxt taleyi onlara mane olacaq, onlar çatdıqları xoşbəxtlikdən doyunca həzz ala bilməyəcəklər. Bizim taleyimiz onların sevincinə həmişə yük olacaq. Bəyəm siz çox rahat şəraitdə yaşayan, ancaq daim valideynlərinin bu günü görə bilməməsinin dərdini, xiffətini çəkən adamlara heç rast gəlməmisizmi?

Xoşbəxtlik təkcə bu günlə, sabahla yox, həm də dünənlə bağlıdı. İnsanın xoşbəxt olması, özünü xoşbəxt hiss eləyə bilməsi üçün onun keçmişi, uşaqlığı, xatirələri də işıqlı olmalıdı. Ona görə də biz gələcək nəsli xoşbəxt eləmək istəyiriksə, onlara xoşbəxt keçmiş qoyub getməliyik, yəni maksimum çalışmalıyıq ki, özümüz xoşbəxt ola bilək. Biz gələcək naminə özümüzü xoşbəxt eləməyə çalışmalıyıq. Əlbəttə, burda «gələcək naminə» sözünü işlətməmək də olardı, ancaq mən bunu indiki xoşbəxtliyin gələcəyə heç bir maneə törətmədiyini göstərmək üçün belə deyirəm, kim əksini düşünürsə, yəni hesab eləyirsə ki, indiki nəslin xoşbəxtliyi gələcək nəsillərə mane ola bilər, onda həmin ifadəni çıxarsın.

Qoy indiki nəsil xoşbəxt olsun! Bundan gələcəyə heç bir ziyan dəyməyəcək.

Gələcək nəsil xoşbəxt olmaq üçün bizim nəslin çəkdiyi əzabların heç olmasa real şahidi olmamalıdı. Yəni indiki uşaqlar heç olmasa cavanlıqlarında lazımi şəraiti görməlidilər ki, uşaqları onların çətinliklərini nə vaxtsa real hadisə kimi xatırlaya bilməsinlər.

31 mart 2002-ci il

İnsana ağlamağı öyrətmirlər, insana ağlamamağı öyrədirlər

İnsana ağlamağı öyrətmirlər. O, ağlamağı doğulduğu andan bacarır. İnsana ağlamamağı öyrədirlər. Bir məsələ bizi çaşdırmamalıdı: uşaq böyüklərə baxıb ağlamağın müxtəlif qaydalarını öyrənə bilər, amma bu, ağlamağı öyrənmək deyil, sadəcə, onun qaydalarını öyrənməkdi. Məsələn, insana yeriməyi öyrətməsək, yeriyə bilməz. Amma ağlamağı öyrənməmiş ağlayır.

10 fevral 2002-ci il

Xoşbəxtlik və məna

Sən dünyanın mənasızlığını dərk eləyəndə xoşbəxt, öz mənasızlığını dərk eləyəndə bədbəxt olursan.

1993-cü il

Sual

Dünyanın ən xöşbəxt ölkəsinin ucqar kəndində yaşayan adamdan soruşmaq istərdim: Azərbaycanda axıdılan qanlara görə sən özünü də günahkar sayırsan?

1993-cü il

Laqeydlik

Laqeydlik o deməkdi ki, «mən bu işdən ötrü yararsızam».

1993-cü il

Gülüş faciəyə üstün gəlir

İnsanın əyləncəyə, gülüşə olan meyli. Kinoteatrda kinokomediyadan əvvəl dramatik-faciəvi sənədli filmin (jurnalın) göstərilməsi zamanı keçirilən hisslər: 1. Sənədli film göstəriləndə adam heyfsilənir ki, bundan sonra o, gülməli olacaq, yəni bundan sonra kinokomediya göstəriləcək. 2. Sənədli filmdəki faciələrə insan acıyır. 3. İnsanlar kinoteatra gülmək (!) üçün yığışdıqlarından bu filmi çəkənlərə də, filmi göstərənlərə də, filmdə iştirak eləyənlərə də acıqları tutur. 4. İnsanlar bu faciəyə baxanda ordakılara acımaqdan çox dramatik-faciəvi filmdə gülməli şeylər axtarırlar. Məsələn, qadının köklüyü, kişinin burnunun yekəliyi, danışanların ləhcəsi, adamların məcburiyyət üzündən sınıq-salxaq bir avtobusun içində yaşaması (tamaşaçılar bu avtobusda yaşayan ailəninin faciəsinə – evsiz-eşiksiz qalmasına acımaqdansa avtobusun sınıq-salxaq olmasında nəsə bir komik şey tapıb güldülər), balaca bir uşağın maraqla videokameraya baxması və s. 5. Kinokomediya göstərilən kimi adamlar sevinirlər. Halbuki kinokomediyadan əvvəl faciəvi jurnal yox, gülməli jurnal (məsələn: «Yeralaş», komik multfilm və s.) göstəriləndə insanlar təəssüflənirlər ki, jurnal kaş uzun çəkəydi. 6. Kino qurtarandan sonra bir nəfər də olsun (!) kinojurnalı (yəni faciəvi-dramatik sənədli filmi) yada salmır. Hamı kinonun maraqlı, gülməli yerlərini bir-birinin yadına salıb gülür. 7. Nəticə: İnsan başqasının dərdinə, faciəsinə şərik olmaqdansa, acımaqdansa, öz əhval-ruhiyyəsini, kefini pozmamağı – gülüşü (!) üstün tutur. (Bu cür vəziyyətdə düşünürsən: «Eh, bunlar da adamın kefinə soğan doğrayır»). Gülüş, əyləncə faciəyə üstün gəlir.

Təxminən 1991-ci il

4. Hiss və həqiqət

Şübhələr

1) Haqlı olduğuna şübhə;
2) situasiyanı (hadisələri, arqumentləri, nə baş verdiyini) düzgün dərk elədiyinə şübhə;
3) və bu şübhələrdən azad ola bilməməyin ağrısı, kədəri – həqiqətin xiffəti.

Mən təkcə öz həqiqətimi yox, mən öz şübhələrimi də ortaya qoymalıyam. O cümlədən öz həqiqətimə şübhələrimi.

Həqiqətin axtarışı, tapıntılar və məyusluq. Sonra yenə axtarış, yeni tapıntı və yenidən məyusluq. Həqiqətin axtarışı kimi həqiqətin xiffəti də sonsuzdu. Həqiqətdən ötrü darıxmaq həqiqəti tapan adamların alnına yazılıb, həqiqəti yeyən adamların yox.

Axtaran inanandan imanlıdı. İnananın insafı olmaz, axtaranın insafı olar. İnanan yox, axtaran obyektivdi. Axtaran – tapmasa da olar. Axtarın – tapmasanız da olar.

3 noyabr 2004-cü il

Həqiqət və yalan

Nəyisə həqiqət saymaq ona münasibətdə bütün fərqli fikirləri yalan saymaqdı. Nəyisə yalan saymaq həqiqəti bilməkdi. Əgər sən yalanı bilirsənsə, deməli, həqiqəti bilirsən. Həqiqəti bilmədən nəyisə yalan saymaq olarmı?

1 iyun 2003-cü il

Həqiqətə yox, səmimiyyətə iddia eləmək

Mən düz danışmaq istəyirəm ki, daha az səhvə yol verim. Az səhvə yol verməkdən ötrü düz danışmaq lazımdı.

Ola bilsin, mən yalan danışıram. Amma mən bilmirəm ki, yalan danışıram. Bununla belə, mən həqiqəti dediyimə də şübhə eləyirəm. Mən həqiqətə yox, səmimiyyətimə (düz danışmağıma) iddia eləyə bilərəm.

22 dekabr 2002-ci il

Hər şeyi bilənə qədər öz həqiqətinə iddia yox, istinad eləməklə daha az səhvə yol vermək

Mənim yolum hər şeyi bilənə qədər öz həqiqətinə iddia yox, istinad eləməklə daha az səhvə yol verən adama doğrudu.

21 dekabr 2002-ci il

Heç nəyə inanmamaq mümkündümü?

Heç nəyə inanmayan adam heç nəyə inanmadığına inanmalıdımı? Heç nəyə inanmayan adam heç nəyə inanmadığına inananda o, nəyəsə inanan adama çevrilir. Amma paradoks bununla bitmir. Məsələ burasındadı ki, o, heç nəyə inanmadığına inanmayanda da nəyəsə inanmış adama çevrilir.

19 oktyabr 2002-ci il

Şübhə və inam

«Dostoyevski və ata qətli» məqaləsində Freyd deyir: «O, (*yəni Dostoyevski – A.Q.*) yalnız dini sferada kifayət qədər azad idi – o, həyatının son dəqiqələrinə kimi Allah bəndələri üçün bir növ qadağan edilən şübhələrin oduna tutaşıb inam və etiqadla Allahsızlıq arasında vurnuxmuş,

sərgərdan ruhuna rahatlıq tapa bilməmişdi». (Cavanşir Yusifli, «Bir söz söylə, bu dünyadan olmasın...». Bakı, «Mütərcim», 2002. səh. 104).

«Karamazov qardaşları» işıq üzü görəndən sonra yazıçıya qarşı yönəlmiş tənqidlərlə bağlı Dostoyevskinin qeyd dəftərində ömrünün son ilinə (1880-1881) aid bu fikirləri qalıb: «Əclaflar məni əsəbiləşdirdilər, savadsız və cahil Allaha inamdan danışır deyirlər. Mənim «İnkvizitor»da və ondan əvvəlki bölmədə qoyduğum, cavabını bütün romanla verdiyim inkar kimi bir inkar bu sarsaqların heç yuxusuna da girməyib. Mənim Allaha inamım axmaq (fanatik) inamı deyil. Mənə dərs keçmək istəyənlərə, geridəqalmışlığıma gülənlərə bax! O inkardan ki, mən keçmişəm, o qüvvədə bir inkar bunların axmaq təbiətinin heç yuxusuna da girməyib. Mənə bunlarmı dərs keçəcək?!

...İnkvizitor və uşaqlar haqqında bölmə. Bu bölmələrə görə siz mənə hardasa elmi cəhətdən yanaşa bilərdiniz, ancaq fəlsəfi cəhətdən yox, özü də bu cür yekəxana yox, baxmayaraq ki, fəlsəfə heç də mənim ixtisasım deyil. Avropada da bu gücdə ateist fikirlər olmayıb, indi də yoxdu. Mən İsaya uşaq kimi inanıb ibadət eləyənlərdən deyiləm, mənim ibadətim, həmin romanımdakı şeytanın dediyi kimi, nəhəng şübhələr əjdahasının ağzından çıxıb».

Dostoyevskinin inamı ona görə əzəmətlidi ki, o, dəhşətli şübhələr sınağından salamat çıxıb. Dostoyevskinin inamı sözün əsl mənasında dahi inamıdı, çünki o, dahiyanə şübhələrə, inkara, suallara tab gətirib. Dostoyevski heç bir şübhəni özünə qadağan eləməyib, bu mənada Freydin onu «dini sferada kifayət qədər azad» insan kimi xarakterizə eləməsi təsadüfi deyil.

Dünyada şübhələrin qadağan olunduğu dövrlər də olub. Ancaq dini və başqa ideoloji dövlətlər indi çox az qalıb. 19-cu əsrdən dünyada şübhə azadlığı kütləvi şəkil alıb. Ancaq şübhə azadlığı inamı (Allaha, dinə inamı) aradan qaldırmadı. Əksinə, daha da gücləndirdi.

Şübhə azad olanda inam könüllü olur. Şübhə azadlığı əlindən alınmış insanın inamında könüllü, azad olduğuna inanmaq mümkün deyil.

Şübhəsi böyük olan adam uşaq deyil. «Mən İsaya uşaq kimi inanıb ibadət eləyənlərdən deyiləm» deyən Dostoyevski haqlıdı. Bu boyda şübhə uşaq-muşağın ağlına gələ bilməz.

Mənəviyyat, əxlaq məsələsində heç bir şübhə qadağan olunmamalıdı. Bu ilk növbədə əxlaqın tələbidi, əxlaqi tələbdi. İnsan şübhəni nə özünə, nə də başqalarına qadağan eləməlidi. Şübhə azad olmalıdı ki, adamların öz inamına hörməti artsın, öz inamlarında azad olduqlarını hiss eləyə bilsinlər.

Demokratiya, plüralizm şübhə azadlığına ictimai qadağanı ləğv elədi. Beləliklə də o, inam üzərində ictimai məcburiyyəti, təzyiqi, təhriki aradan qaldırdı.

Şübhə azadlığı olan yerdə şübhəsiz inanmaq daha asandı.

24 avqust 2002-ci il

İnanmaq üçün nə qədər hiss verilibsə, inanmamaq üçün də bir o qədər hiss verilib

Əgər hisslər həqiqətdən xəbər verirsə, onda ölüm qorxusu onu demirmi ki, bu həyat son həyatdı, ömür insana bir dəfə qismət olur, ona görə də bacardıqca bu dünyada yaşamaq lazımdı.

Bir adamı itirəndə günlərlə, bəzən illərlə özümüzə gələ bilmirik. Hamı dəfndə göz yaşı axıdır, hamının ölənə yazığı gəlir. Bütün bunlar, bütün bu matəm mərasimləri, qara paltarlar, göz yaşları, ağılar ondan xəbər vermirmi ki, bu insan daha yaşamır, bu dünyadan başqa dünya yoxdu, həyat ondan ötrü birdəfəlik itirilib və biz bir daha onu görməyəcəyik. Bütün dini

qadağalara baxmayaraq qatı müsəlmanlar da başdaşlarını itməyə qoymurlarsa, qəbirlərin üstündə türbələr, əsrlər uzunu duruş gətirə biləcək mərmər abidələr ucaldırlarsa, bu o demək deyilmi ki, insan, hətta ən dindarı da öz doğmasını yaşatmağın bundan başqa yolu olduğuna inanmır, ona görə heç kim əzizinin bu dünyanın üstündən tamam itib getməsinə imkan verməmək istəmir... Bu onu göstərmirmi ki, həyatın bu dünyayla sona çatdığını deyən (diktə eləyən) hiss başqa bir dünyadan xəbər verən hissdən daha güclüdü – hətta ən dindar adamda da, ona görə heç kim bu dünyaya son mənzil kimi baxdığını gizlədə, ört-basdır eləyə bilmir.

İnsanın xırdaca yaxşılıq eləyəndə, hətta üzdə gizlətsə də, cəmiyyətin ondan axır-əvvəl xəbər tutacağına ürəyində ümid eləməsi o demək deyilmi ki, insanda bu dünyanın mükafatına canatım, inam hissi Allaha inamdan daha güclüdü.

Və nəhayət, insan Allaha inamını dəf eləyə bilmədiyi kimi, Allaha inamsızlığını da dəf eləyə bilmir. İnsana Allaha inanmaq üçün nə qədər əsas verilibsə, inanmamaq üçün də bir o qədər əsas verilib. Deməli, inanan da realistdi (reallığa əsaslanır), inanmayan da. İnsan inandığı qədər də inanmır. İki yoldan birini seçənin inandığı qədər də inanmadığı həqiqət var. İki yoldan birini həqiqət sayan adamın saymadığı qədər də həqiqət var.

17 avqust 2002-ci il

Gözəgörünməz varlığa inamın əsasını nə təşkil eləyir?

Ən ibtidai qəbilələrdə, tarixin ibtidai icma quruluşu dövründə də ruha – gözəgörünməz aləmə (dünyaya) inanıblar. Maraqlıdı, necə olub ki, ibtidai insan gözüylə görmədiyi varlığın mövcudluğuna inanıb? Əslində gözəgörünməz varlığın mövcudluğuna yalnız müasir – son əsrlərin adamı inanmalıydı. Məsələn, radionu açıb qulaq asırsan və başa düşürsən ki, dalğalar gözə görünməsə də var və o, bağlı qapını, divarı da vurub keçir – otur dörd divarın arasında, radionu aç, qulaq as. Deməli, müasir insanın ruha inanmaq üçün daha çox əsası var, nəinki ibtidai insanın.

Görünür, ibtidai insanın da bu sayaq əsasları olub: məsələn, yuxu, külək, göy gurultusu, ildırım, səs...

Ancaq axirətə inam bunlardanmı doğub, yoxsa gözüylə görmədiyi varlığın mövcudluğuna inam başqa şeylərə əsaslanır? Gözəgörünməz varlığa inamın əsasını nə təşkil eləyir?

17 avqust 2002-ci il

İnsanın bəraəti. İnsanın günahı varmı?

Deyəsən, mən insanı günahlandırmaq meylini, qabiliyyətini itirirəm. İnsanı günahlandırmaq olarmı?

Vəkillər müttəhimə bəraət qazandırmaq üçün onun cinayət törətdiyi anda anlaqsız olduğunu sübut eləməyə çalışırlar. Ancaq anlaqlı olmaq nə deməkdi? Vəkilin özü anlaqlıdımı? Bəraətə bizim hamımızın ehtiyacı var və o vəkilə bəraət qazandırmaq müttəhimə bəraət qazandırmaq qədər, bəlkə hələ ondan da artıq çətin deyilmi? Eyni zamanda o kimdi ki, ondan ötrü bəraət yoxdu? Və o bəraət ki, bizim hamımız üçün var, o elə bizim hamımızı anlaqsız eləmirmi? Hamını anlaqsız eləyən (bəraət) hamını xilas eləmirmi?

İnsanı qınamaq primitivlik deyilmi? Dünyada yalnız Allahın bəraəti yoxdu. Allahın olmağının da bəraəti yoxdu, olmamağının da.

6 iyun 2002-ci il

Hiss və həqiqət

Bəzən nəyisə sübut eləmək və nəyisə inkar eləmək üçün insanın hissini əsas gətirirlər. Doğrudan da, elə bir həqiqət yoxdu ki, insanın hissi onu təsdiqləməsin. Və elə bir həqiqət yoxdu ki, insanın hissi onu rədd eləməsin.

28 aprel 2002-ci il

Həqiqi yox, sərfəli izah

İnsan həqiqi yox, sərfəli izaha uyğun yaşaya bilər. Çünki həqiqi izah yaşamaq üçün heç bir əsas vermir. Ona görə də insan həqiqi yox, sərfəli izah istəyir.

17 aprel 2002-ci il

Bizim yaşımız bizə yad görünən hissləri doğmalaşdırmaqla məşğuldu

Bizim yaşımız bizə yad görünən (yad olan yox, yad görünən) hissləri, düşüncələri doğmalaşdırmaqla məşğuldu. Qocaldıqca biz bu «doğmaları» da itiririk, onlar barəsində təsəvvür və xatirələr qalır.

1 fevral 2002-ci il

Ovqatlar

Müxtəlif ovqatlar.

Kamyu – qiyam ovqatı.

Sufilik – ekstaz.

Budda – ehtirassızlıq.

Bir ovqatı meyar (əxlaq norması) kimi götürəndə o, insanın başqa ovqatında insan təbiətinə zidd gələcək.

Hələ yaş ovqatları da var. Uşaqlıq, gənclik, qocalıq ovqatları…

2002-ci il

Duyğular, psixika və şüur

İnsan potensial heyvan kimi doğulur. Şüur onu potensial insana çevirir.

Psixika duyğuların sonu, şüurun başlanğıcıdı. Şüursuzluq anlayışı psixikaya aiddi, şüursuz olan psixi olandı. Psixika strukturdu, duyğuların cəmidi. Duyğular (görmə, eşitmə, dadbilmə...) şüura müstəqil şəkildə yox, psixikanın vasitəsilə, yəni başqa duyğulara qarışmış, başqa duyğularla cəmləşmiş şəkildə daxil olur. Şüur üçün konkret duyğu yoxdu, yalnız duyğular var. Bu mənada hər hansı bir duyğunun yoxluğu (məsələn, görmənin olmaması – korluq) xalis şəkildə yalnız psixikada hiss olunur, şüurdasa o, nisbətən hiss olunur. Psixika şüura daxil olduğu vaxt onun tərkibindəki başqa duyğuların (eşitmə, toxunma, iybilmə...) sintezi artıq şüur üçün hansısa görməni, görüntünün təsəvvürünü, obrazını yaradır. Yəni kor adam yalnız öz psixikasında tamamilə kordu, şüurundasa «zəif görən» adamdı.

© A.Qaraçənli

28 sentyabr 1996-cı il

Tarixi öyrənmək öz duyğularının, şüurunun keçdiyi yolu öyrənməkdi

Yaroşevskinin «*История психологии*» («Psixologiya tarixi») kitabının yüz səhifəsini oxumuşam. İndi bu kitab mənə daha çox ləzzət eləyir. Elmi biliyə tarixi ardıcıllıqla yiyələnəndə adamda qəribə bir rahatlıq yaranır, çaşmırsan, qarışıq duyğular burulğanına düşmürsən, hiss eləyirsən ki, sənin şüurun da həmin elmə qoşulub ibtidaidən aliyə doğru yavaş-yavaş yüksəlir, hər səhifəni çevirdikcə maneəsiz irəliləyirsən, çünki ondan əvvəlki bütün səhifələrin təcrübəsinə bələdsən, çünki sən yüzüncü səhifəni ondan əvvəlki doxsan doqquz səhifənin gücüylə açırsan... yalnız tarixin insanla bunca harmoniyasına düşəndən sonra inanırsan ki, tarixi öyrənmək öz duyğularının, şüurunun keçdiyi yolu öyrənməkdi.

9 avqust 1996-cı il

Şüur

Şüur dünyanın başlanğıcı deyil, dünyanın davamı və sonudu.

24 iyul 1996-cı il

Kefin necədisə, fikrin də elədi

Ovqatımıza uyğun düşünürük. Ovqat dəyişdikcə fikirlər də dəyişir. Ona görə də insanın hansı ovqatda olduğunu bilməklə onun necə düşündüyünü bilmək olar. Kefin necədisə, fikirlərin də elədi. Ovqatını mənə denən, deyim nə fikirləşirsən.

Müsiqinin insanı düşündürmək, düşüncələri idarə eləmək qabiliyyəti var. Ona görə ki, musiqi ovqat yaratmağı, ovqatı dəyişdirməyi bacarır. Estradaya qulaq asanda bir şey düşünürük, muğamata qulaq asanda başqa şey.

Yan-yörəmiz – adamlar, hadisələr, təbiət ovqata təsir eləməklə insanda düşüncə tərzi formalaşdırır. Dilənçini görəndə nə fikirləşirik, uşaqların göyçəmənlikdə oynadığını görəndə nə... dağa baxanda nələr gəlir, səhraya baxanda nə... mitinqçiləri, qiyamçıları görəndə necəsən, hökmdarın qarşısında əl çala-çala ayağa qalxanları görəndə necə...

Şüur ruhun fəaliyyətidi. Şüur – işləyən ruh, işlək ruh deməkdi. Ona görə də şüur təcrübəli ruhdu. Şüur ruhun zəhmətidi. Fikirlərsə bu zəhməti çəkən, işləyən fəhlələrdi. Onların nə cür və necə işləməsindən asılı olaraq şüur formalaşır, ruh qazanır, ya da kasıblayır. Şüur dəzgah, fikirlər usta, ruh xammaldı.

29 dekabr 1995-ci il

Həqiqət axtarışı

İntuitiv cavablar özündən narazı adamlar kimidi – o, yenidən nəsə eləmək istəyəcək və bu «nəsə» onu həmişə axtarışlara çıxaracaq.

1991-ci il

Cavablardan suallara

© A.Qaraçənli

Bütün cavablar özündən ağır suallar yaradır.

1991-ci il

5. Çıxılmazlıq

Yeganə çıxış yolu

Çıxılmazlıqdan yeganə çıxış yolu:
1) Sükunət (tam hərəkətsiz, fəaliyyətsiz qalmaq).
2) Sükut (susmaq).
İstənilən hərəkət və söz insanı çıxılmazlığa aparır.

27 dekabr 2002-ci il

Həqiqəti axtaran axırda onun olduğuna da şübhə eləyəcək

Həqiqəti axtaran axırda onun olduğuna da şübhə eləyəcək. Amma bu şübhə – axtarışı başa çatdırmağa, dayandırmağa əsas vermir.

İki cür həqiqət axtaran var. Birincilər inanırlar ki, həqiqət var və hesab eləyirlər ki, indi onu tapmaq lazımdı. İkincilər bilmirlər ki, həqiqət var, ya yox, amma onlar axtarırlar və hesab eləyirlər ki, bu axtarışın nəticəsində məlum olacaq ki, həqiqət var, ya yox. Birincilər əsasən simvolları açmaq, hər şeyin ifadə elədiyi (eləmək istədiyi) mənanı tapmaq metodundan istifadə eləyirlər. İkincilərsə bunun simvol olduğuna şübhə eləyirlər və düşünürlər ki, ola bilsin, birincilər şeylərin mənasını açmaqla yox, ona eləcə məna verməklə (məna uydurmaqla) məşğuldular. Birincilər kainatın çoxlu-çoxlu simvoldan ibarət olduğuna inanırlar, ikincilərsə buna şübhə eləyirlər.

27 dekabr 2002-ci il

Ola bilsin, hardasa çıxış yolu var

Mən demirəm ki, ümumiyyətlə çıxış yolu yoxdu. Mən yalnız onu deyirəm (və yalnız bunu deyə bilərəm) ki, xarakteri, taleyi və düşüncəsi mənim kimi olan adam üçün çıxış yolu yoxdu. Ola bilsin, hardasa çıxış yolu var, amma mən onu görmürəm.

Mənim həqiqətim mənim başa düşdüyüm yeganə həqiqətdi. Amma bu o demək deyil ki, başqa həqiqət yoxdu.

21 dekabr 2002-ci il

Seçim var, amma çıxış yolu yoxdu

Çıxış yolu yoxdu, yalnız seçim var. Seçim var, amma çıxış yolu yoxdu. İstənilən hərəkət seçməkdi. Gedib səsvermə məntəqəsində namizədlərdən birinə səs vermək də seçməkdi, evdə oturub seçkini boykot eləmək də, yaxud gedib bütün namizədlərin üstündən qara xətt çəkib qayıtmaq da, heç nəyi vecinə almayıb seçki kampaniyasıyla ümumiyyətlə maraqlanmamaq da,

kor-koranə hansısa namizədə səs verib bülleteni qutuya tullamaq da... hamısı seçməkdi. İntihar da seçməkdi, yaşamaq da. İtaət də, qiyam da.

21 dekabr 2002-ci il

Axtaran tapmır

Məsəl var, deyərlər, axtaran tapar. Amma bunu həqiqətə, həqiqətin dərkinə aid eləmək mümkün deyil. Həqiqətə münasibətdə belədi ki, axtaran tapmır.

21 dekabr 2002-ci il

Yaşamaq istəyən çıxış yolu tapa biləcək, dərk eləmək istəyən yox

Yaşamaq üçün çıxış yolu var, dərk eləmək üçünsə çıxış yolu yoxdu.

Yaşayan üçün çıxış yolu var, axtaran üçün yox.

Çıxış yolu onu axtaran adamdan ötrü yoxdu.

Çıxılmaz – axtarışın təkcə başlanğıcı deyil, həm də sonudu.

Yaşamaq istəyən çıxış yolu tapa biləcək, dərk eləmək istəyən üçünsə həyat həmişə çıxılmazdı.

20 dekabr 2002-ci il

Həqiqəti demək, yoxsa çıxış yolu göstərmək?

Həqiqəti demək, yoxsa çıxış yolu göstərmək? Bunların hansı vacibdi? Hər ikisi. Amma həqiqət heç bir çıxış yoluna əsas (sübut) vermirsə, deməli, heç bir çıxış yolu göstərmirsə, onda neyləməli? Belə bir vəziyyətdə həqiqəti deyə-deyə çıxış yolu göstərmək olarmı?

Həqiqət çıxılmazdı. Çıxılmazlıq – həqiqətdi. Deməli, çıxış yolları yalandı. Həqiqəti deyən çıxış yollarını bağlayır, çıxış yolu göstərən həqiqətə göz yumur.

Heç bir yalan danışmadan doğruyla yalanı birləşdirmək – həqiqəti deyə-deyə çıxış yolu göstərməyin yeganə üsulu budu.

Həqiqətdən (çıxılmazdan) çıxış yolu yoxdu, guya həqiqətdən düzgün nəticə, düzgün çıxış yolu tapan (dəxli yoxdu, istər intihara çağırsın, istər yaşamağa və dəxli yoxdu nə cür yaşamağa çağırır) adam yalan danışır. Həqiqət nə yaşamaq, nə də ölmək üçün əsas verir, deməli, yaşamaq da yalandı, ölmək də, sadəcə birini seçmək və bu seçimin (qərarın) həqiqət olmadığını, bəlkə də həqiqət olduğunu demək. «Bəlkə»ni unutmamalı.

Doktor Riyenin simasında doğruyla yalan tam aşkarlıq şəraitində birləşib.

Stalin də yalanı seçib, Mahatma Qandi də. Sadəcə mən Qandiyə məhz o yalanı seçdiyinə görə hörmət eləyirəm. O yalan (humanizm) mənim xoşuma gəlir.

Sübut yoxdu. Bütün qərarlar əsassızdı. Bundan doktor Riye kimi də nəticə çıxarmaq olar, İvan Karamazov kimi də.

Ən vacibi insanın hansı nəticə çıxarmağındadı. Filosofları həmişə narahat eləyən o olub ki, onların nəzəriyyəsindən başqa nəticələr də çıxara bilərlər. Hər bir filosof bunun qarşısını almaq üçün xeyli əziyyət çəkib, ancaq heç birisi buna nail ola bilməyib. «Başqa nəticə»nin qarşısını almaq mümkün deyil. Ona görə də nəticəni (qərarı) tam arqumentləşdirməyə, tamamilə əsaslandırmağa heç ehtiyac da yoxdu. Sadəcə demək lazımdı ki, mən bu qərarı, filan nəticəni çıxarıram. Niyəsinə gəlincə... onsuz da heç bir qərarın əsası yoxdu.

İstənilən nəticəni istənilən arqumentdən çıxarmaq olar.

Nəticə çıxarmalı, qərar qəbul eləməli və unutmamalı: sən bu nəticəni istənilən arqumentdən çıxara bilərsən; sən bu qərara istənilən arqumentlə gələ bilərdin. Ona görə əsaslandığın arqumentin başqa nəticəyə də aparması səni qorxutmamalıdı. Dayandığın yerə diqqətlə bax: bura gələn yolla hər yerə getmək olardı! Qoy sənin əsasından, arqumentindən min nəticə çıxsın. Bunun qorxusu yoxdu, çünki ən vacibi odu ki, sən hansı nəticəni çıxarmısan.

Həqiqətdən bir nəticə çıxacağını, yaxud çıxdığını düşünən yanılır. «Həqiqətdən min bir nəticə çıxarmaq olar, sadəcə, mən bir nəticə çıxarmışam» – hər kəs öz qərarını (nəticəsini) bu cür təqdim eləməlidi.

Mən İvan Karamazovun arqumentini qəbul eləyirəm, mən sadəcə, onun çıxardığı nəticəni qəbul eləmirəm. Mən həmin arqumentlə başqa nəticəyə (Riyeyə doğru) gedirəm və bu yolun neçə-neçə Karamazov döngəsi olduğunu danmıram.

7 dekabr 2002-ci il

Hansı tərəfə gedirəmsə gedim, özümlə o biri tərəfin qüssəsini aparacam

Bir halda ki, eyni adam eyni vaxtda eyni yerdən iki əks istiqamətdə gedə bilməz, deməli, ya o yana, ya bu yana addım atmalıdı. Amma mən bilirəm: hansı tərəfə gedirəmsə gedim, özümlə o biri tərəfin qüssəsini aparacam. Heç bir qərar (addım), heç bir tərəf məni qüssədən qurtara bilməz.

Dekabr 2002-ci il

Dünyanın sirri dünyanı qoruyur

Heç kim həyatın sirrini axıracan bilmir. Ona görə də heç kim həyatın axırına çıxa bilməz. Dünyanın sirri dünyanı qorumaq üçündü.

14 iyun 2002-ci il

Heç bir qərar insanı xilas eləmir

İnsan həyatında heç bir qərar – söhbət fəlsəfi, həyatın mənası, məqsədi, həyat tərzinin seçilməsi haqda qərardan gedir – heç bir qərar insanı xilas eləmir.

26 may 2002-ci il

Çıxılmazlıq

Mən fantaziyalarımda özümü həmişə çıxılmaz bir vəziyyətə gətirirəm. Məsələn, özümü xoşbəxt, gözəl bir situasiyada, həyatda təsəvvür eləyirəm, sonra birdən (yaxud yavaş-yavaş, bu o qədər də əhəmiyyətli deyil) bu gözəl həyatda başqasının, özü də yad yox, mənə yaxın, doğma adamın günahı ucbatından konflikt yaranır. Bir daha vurğulayıram ki, günah həmişə başqasında olur, olsa-olsa onun çox cüzi bir hissəsi mənim payıma düşə bilər və konflikt, inciklik də həmişə mənimlə yaxın adamın arasında baş verir.

Mən fantaziyamda heç vaxt xoşbəxt vəziyyətdə qalmıram, tezliklə gəlib belə bir münaqişəli vəziyyətə çıxıram və hadisənin çoxu da məhz bu vəziyyətə aid olur. Elə bil xoşbəxt bir adamın faciəsi haqda kino çəkirsən, onun xoşbəxtliyini filmin əvvəlində bir neçə süjetlə,

nüansla (kadrla) tamaşaçıya anladırsan, sonra nəsə kədərli, bu xoşbəxtliyi pozan bir hadisə baş verir və sən də dayanırsan bu hadisənin üstündə, yəni gəlib çıxırsan faciənin üstünə və dayanırsan, filmin qalan hissəsini ona həsr eləyirsən və yalnız sonda tamaşaçı başa düşür ki, bu film xoşbəxtlik yox, bədbəxtlik haqdaymış. Çünki sən heç vaxt o situasiyadan çıxış yolunu göstərmirsən, əksinə, ən kritik, ən çıxılmaz anda filmi bitirirsən.

Mənim fantaziyalarım belədi. Mən öz xoşbəxtliyimi pozuram (daha doğrusu, başqaları pozur, sadəcə, başqaları və onların davranışı mənim öz uydurmam olduğuna görə «pozuram» deyirəm) və heç cür bu vəziyyətdən çıxa bilmirəm. Sonralar, sonrakı günlər, aylar, illər həmin fantastik situasiyaya qayıtsam belə, yenə heç nə dəyişmir, yenə qısaca xoşbəxt kadrlar, yenə qəfil hadisə, çıxılmaz vəziyyət və beləcə «filmin» sonunadək. Mahiyyət dəyişmir. Olsa-olsa faciəli, kədərli, qüssəli yaşantılarımı əks elətdirən nüanslar, kadrlar dəyişə, zənginləşə, yaxud yoxsullaşa bilər. Ancaq bütün hallarda hadisələrin əksəri, «filmin» əsas hissəsi məhz faciəyə aid olur.

Onu da deyim ki, mən bu cür xəyallara adətən yerimdə uzanıb fikrə gedəndə (gecələr yatmamışdan qabaq, yaxud adi vaxtlar uzanıb dincələndə) qapılıram. Tutaq ki, metroda, avtobusda yol gedəndə, yaxud boş-bekar hardasa oturub xəyala dalanda belə şeylər olmur; bu cür vəziyyətlərdə mən adətən (hətta həmişə də demək olar) özümü xoşbəxt situasiyalarda təsəvvür eləyirəm (təbii ki, söhbət real vəziyyəti əks elətdirən xəyallardan yox, qeyri-real, uydurma, fantastik situasiyalardan, xülyadan gedir), «bədbəxtlik» həmişə yerimdə uzananda gəlir.

Çıxılmazlıq məsələsində mənim yuxularım fantaziyalarımla üst-üstə düşür – mahiyyətcə. Deyəsən, yuxularımda mən həmişə çıxılmazlığa dirənirəm və yalnız bu vaxt oyanıram. Deyəsən, yuxularımda mən heç vaxt çıxılmazlığa dirənməmiş oyanmıram və məhz çıxılmazlıqdan çıxmamış, problemi həll eləməmiş oyanıram.

Bu nəylə bağlıdı? Niyə belədi? Çıxılmazlıq elə bil məndən ötrü yaşamağın, həmin uydurma həyatı (xoşbəxtliyi və faciəsiylə bərabər) yaşatmağın yeganə üsuludu. Elə bil o vəziyyətdən çıxsam, o həyatı davam elətdirə bilməyəcəm, daha doğrusu, davam elətdirəcəm, ancaq tezliklə tükənəcək, sonu gəlib çatacaq və o həyat əbədiliyini itirəcək. Elə bil mən o həyatı çıxılmaz vəziyyətə salmaqla ona əbədiyyət verirəm və elə bil bu, həyatı əbədi eləməyin, ona hər dəfə, həmişə qayıtmağı, onu təkrar yaşamağı mümkün və mənalı eləməyin yeganə yoludu. Çıxılmazlıq bir növ həmin həyatı öz əlimdə saxlamaq üsuludu. Bu üsulun sayəsində o həyat bitmir, ölümə getmir, ölmür; mənasını itirmir – sən ondan çıxış yolu tapmalısan və bu onu yenidən, başlanğıcdan təkrar yaşamağı mümkün və əhəmiyyətli, zəruri eləyir – bilmək istəyirsən, «səhv» nədədi, bəlkə onu elə ordaca «düzəltmək» mümkündü?.. Ancaq səhvə yol verənlər bunu heç cür «başa düşmək istəmirlər» – onlar, ola bilsin, bir az başqa formada, bir az gec, ancaq yenə də ciddi səhv eləyirlər; bəlkə də sadə, adi səhvdi, ancaq bunun dəxli yoxdu, əsas odu ki, bu, sənin üstündən keçə bilmədiyin, bağışlaya, laqeyd qala bilmədiyin və həllini görmədiyin səhvdi.

Çıxılmazlıq – həyatı sonsuzluğacan uzatmağın, ölümə qalib gəlməyin yeganə yoludu.

Mən çıxılmazlığı əbədi, əbədiyyəti çıxılmaz görürəm.

Çıxılmazlıq – dünyada yeganə əbədi mövzu budu. Qalan bütün mövzular tükənəndi.

22 aprel 2002-ci il

6. Bilmirəm

Mən yazıram: «Bilmirəm»

Kafka deyir, sənə evdən çıxmaq lazım deyil, otur yerində qulaq as, heç qulaq da asma, eləcə gözlə, heç gözləmə də, eləcə sus, tənha qal, dünya öz sirrini açacaq, o başqa cür eləyə də bilməz, yavaş-yavaş özü sənin ayağına gələcək... Bunu Kafka deyir...

Mənsə bilmirəm. Heç evdən də çıxmamışam, oturub yerimdə qulaq asıram, heç qulaq da asmıram, eləcə gözləyirəm, heç gözləmirəm də, eləcə susmuşam... Ancaq dünya öz sirrini açmır.

Bilmirəm.

Bəlkə də onun heç bir sirri yoxdu, bəlkə də o, ağ lövhədi, «tabula rasa»dı, bütün mənaları insandan alır, ona görə insan ona nə yazsa yapışır.

Mən yazıram: «Bilmirəm».

May 2003-cü il

«Bilmirəm»lə yaşamağın yolu

Mən indi «bilmirəm»lə yaşamağın yolunu axtarıram. Məni indi ən çox narahat eləyən də odu ki, görəsən, «bilmirəm»dən ölən olubmu? Çoxmu olub?

18 dekabr 2002-ci il

«Bilmirəm»

Dünyanın mənasız olduğunu demək onu izah eləməkdi. Dünyanın mənalı olduğunu demək də onu izah eləməkdi.

«Bilmirəm»lə yaşamaq mümkündümü?

Mənsə eyni zamanda eyni yerdən iki zidd istiqamətə gedə bilmərəm. Deməli, mən bütün hallarda yarımçıq (yarımçıq həqiqətlə) yaşamağa məhkumam.

Həqiqətlə (tam həqiqətlə) yaşamaq mümkün deyil. Həyat bizi yarımçığı (yarı yalanı, yarı həqiqəti) seçməyə məcbur eləyir. Həyat bizi bilmədiyimizi seçməyə məcbur eləyir. Mənsə «bilmirəm»i seçirəm.

Hər bir qiymətləndirmə zamanı mən «bilmirəm»dən uzaqlaşıram. Ancaq heç vaxt qiymətləndirməsəm, onda yenə belə çıxacaq ki, mən nəsə bilirəm. Sükut, susmaq da qiymət verməkdi. «Bilmirəm» – danışmağı da tələb eləyir.

Mən vicdanı inkar eləmirəm, ancaq onu da qəbul eləyirəm ki, vicdansız yaşayan adamın səhv yaşadığını demək mümkün deyil.

«Bilmirəm»lə ölmək mümkündümü?

Sentyabr 2002-ci il

Dünyanı adsız vəziyyətə gətirən söz

Elə söz tapmaq ki, dünyanı izah eləmir, ona məna vermir. Dünyada olmayan söz. Dünyanı adsız vəziyyətə gətirən, adsız vəziyyətə qaytaran söz. Məsələn, qədim yunan filosofu Anaksimandrın «apeyron»unu qismən bu cür söz saymaq olar.

Sentyabr 2002-ci il

Olmalıdı? «Olmalıdı» hökmünü kim verə bilər?

«Olmalıdı» hökmünü kim verə bilər? Kim deyə bilər ki, bu cür olmalıdı? İnsan «olmalıdı»nı «ola bilər» əsasında müəyyənləşdirir. Ancaq bəlkə olmadı?

Bu dünyada heç kim deyə bilməz ki, var! Və heç kim deyə bilməz ki, yoxdu! Nə «yox» yoxdu, nə də «var» var.

Heç kim deyə bilməz ki, yoxdu (Allah) var. Və yaxud var (Allah) yoxdu.

Bu dünyada hökm yoxdu. Güman var. Gümanla hökm vermək mümkün deyil.

Heç kim deyə bilməz ki, insan belə olmalıdı. Çünki ondan soruşsan ki, niyə, görəcəksən ki, «ola bilər»dən başlayır. Ehtimala əsaslananın hökm verməyə haqqı çatmır.

11 avqust 2002-ci il

7. Susmaq

Susmaq

Susmaq böyük müdriklikdi, mənim ona gücüm çatmaz.

Susmaq. Budda kimi, Selincer kimi susmaq. Elə susmaq ki, bütün dünya sənin susmağından xəbər tutsun, bütün dünya bu sükutu eşitsin. Bunun da bir yolu var: sözü deyib sonra susmaq.

24 noyabr 2002-ci il

Sükutu yaradan səs

Akutaqavanın «Cırtdanın sözləri»ndən» əsərində belə bir yer var: «Bağdakı köhnə nohura tullanan qurbağa yüz ilin kədərini dağıtdı. Ancaq o qurbağa ki, köhnə nohurdan çıxırdı, ola bilsin, yüz illik kədər içindəydi. Basyö ömrunü həzz almağa həsr eləmişdi. Amma nə cür baxırsansa bax, bu həm də əzabla keçmiş bir ömürüydü. Üzündə təbəssüm həzz ala bilmək üçün üzün gülə-gülə əzab çəkmək lazımdı». (Акутагава Рюноскэ, «Новеллы». Москва, «Художественная литература», 1974. səh. 526).

Basyö böyük yapon şairidi. Üçmisralı şeirlər (xokku və ya xaykaylar) yazıb. 1644-1694-cü illərdə yaşayıb. Akutaqava novellasındakı obrazı Basyönün «Köhnə nohur» şeirindən götürüb:

Köhnə nohur!
Qurbağa tullanır,
Su sıçrayır.

Rabindranat Taqor bu şeirə maraqlı şərh verib: «Mənim eşitdiyim bütün yapon şeirləri şeir-nəğmə yox, şeir-şəkillərdi. «Köhnə nohur. Qurbağa tullanır, Su sıçrayır». Vəssalam! Başqa heç nə lazım deyil. Yapon gözləriylə düşünür. Köhnə nohur, çiskin, sakitlik, kimsə yox. Qurbağa tullanır, səs yayılır və yalnız bu səs göstərir ki, burda necə bir sükut varmış». (Т.Григорева, «Японская литература XX века». Москва, «Художественная литература», 1983. səh. 98).

Susmaq. Sükuta dalmaq. Elə bir sükuta ki, içindəki hər pıçıltını eşidə biləsən, hər balaca tərpənişi duya biləsən.

Sükut arzusu. Elə bir sükut ki, orda milçək uçanda vızıltısından qulaq tutulsun.

Tanrının yanında sükutdu. Elə bir sükut ki, orda bir çöp qırılsa, səsi milyard kilometr uzaqda eşidilər.

17 dekabr 2002-ci il

Sükut, sükunət, boşluq

Sükut. Elə bir sükut ki, cınqırını çıxarsan, milyard kilometr uzaqda eşidilər.

Sükunət. Elə bir sükunət ki, azca yerindən tərpənsən, milyard kilometr uzaqlara gedib çıxarsan.

Həm sükut, həm də sükunət. Elə bir sükut ki, onun nə boyda olduğunu eşitmək üçün bircə mehin əsməyi də bəsdi, amma meh də susub. Bu sükutu sən ancaq öz səsinlə duyursan. Elə bir sükunət ki, onun nə boyda olduğunu görmək üçün qarışqanın bircə addım atmağı da bəsdi. Amma qarışqanın buna bircə qırıq da həvəsi yoxdu. Bu sükunəti sən ancaq gözünü qırpmaqla görürsən. Səsini udsan, gözünü yumsan, hər şey yoxa çıxacaq. Ancaq bu elə bir yoxluqdu ki, onun var olmağından sənin xəbərin var. Sən gözünü açıb onu yenidən var eləyə bilərsən. Mənsə gözümü, səsimi də itirmək istəyirəm.

Boşluq. İndi mən gözümü zilləsəm də görmərəm, qulağımı şəkləsəm də eşitmərəm. Burda nə sükut, nə də səs var, nə sükunət, nə də hərəkət var. Mən heç bilmirəm hardayam, kiməm, nəçiyəm. Bircə onu bilirəm ki, hardasa varam. Amma mən heç orda da olmaq istəmirəm. Mən tamam, axıracan yox olmaq, yoxa çıxmaq istəyirəm. Mən təkcə bədənimin yox, ruhumun da ölməyini istəyirəm. Mən bu dünyadan da, o dünyadan da getmək, gedib-gedib itmək istəyirəm.

19 dekabr 2002-ci il

İndi sussam...

Mən indi sussam, nə biləcəklər ki, mən susmuşam? Selincer «Çovdarlıqda uçurumdan qoruyan»ı yazmamış sussaydı, nə biləcəkdilər ki, Selincer susub? Mən sözümü deməmiş sussam, sükutum batacaq. Mənim sözümü (səsimi) eşitməyənlər susduğumu başa düşə bilməzlər. Kim istəyirsə ki, sükutundan bütün dünyanı xəbərdar eləsin, sözünü bütün dünyaya eşitdirməlidi. Yalnız sözünə qulaq kəsildiyin adamın sükutundan xəbər tuta bilərsən.

Səssiz sükut məni qane eləmir. Mən susmaq istəyirəm, amma öz sükutumu batırmaq istəmirəm. Elə-belə susanın sükutu hədərə gedir. Mən sükutdan əvvəl aləmə səs salmaq istəyirəm ki, sükutumdan bütün aləm xəbərdar olsun.

21 mart 2003-cü il

Guya nəsə bilirsən

Danışmaq bütün hallarda özünü elə aparmaqdı ki, guya nəsə bilirsən.
Yaşamaq artıq özünü elə aparmaqdı ki, guya nəsə bilirsən.

5 iyun 2003-cü il

8. Hər şeyi sıfırdan başlamaq istəyi. Ada arzusu

Hər şeyi sıfırdan başlamaq istəyi

İnsan keçmişdən azad ola bilmir. Bir öz keçmişindən, bir də tarixdən. İstər insan üçün, istərsə də tarix üçün sıfır vəziyyəti yoxdu. Və insan həm fərdi, həm də tarixi sıfırın nostaljisiylə yaşayır.

Hər şeyi sıfırdan başlamaq insanın daimi arzusudu, ancaq heç nəyi sıfırdan başlamaq olmur. Keçmiş – insanın ən ağır yüküdü. Tarix – bizim yükümüzdü. Bizi bu yükdən ya dəlilik, ya da ölüm qurtara bilər.

Bəzən insanın həyatında elə məqam olur ki, o hər şeyi sıfırdan başlamaq qərarına gəlir. O özündə buna güc duyanda hədsiz ləzzət alır, özünü son dərəcə azad, xoşbəxt hiss eləyir; həyat onun gözünə gözəl və bir az da qüssəli görünür. Ancaq belə məqamda o özünü zəif duyursa, sıfırdan başlamağa gücü çatmayacağını düşünürsə, onda onu vahimə basır, hiss eləyir ki, onun təhlükəsizliyi sıfırsızlıqdadı; o, tarixi, həyatın ona min cür bəla gətirmiş düzümünü qaytarmaq, bərpa eləmək istəyir; o, taleyə sığınmaq qərarına gəlir.

Və o adam ki, sıfır vəziyyətindən həzz almışdı, sıfır ovqatı onu xoşbəxt eləmişdi, onun xoşbəxtliyi də az sürür. Çox keçmir ki, o, nələrisə yenidən arxada qoyur, balaca bir keçmiş, yeni tarix qazanır və bir gün bütün keçmişi, bütün tarixi yenidən yaşamaqla qırılmış əlaqəni bərpa eləyir, tozlanmış arxivi canlandırır; onda başa düşür ki, «sıfır» illüziyaymış, hər şey uzun bir keçmişin davamıdı, keçmiş öz axarındadı; yükü hələlik unutmaq olar, amma həmişəlik atmaq olmaz, o öz ağırlığını bir gün mütləq hiss elətdirəcək. Deməli, sıfır yoxdu, buna nə keçmiş, nə də gələcək imkan verir.

Heç nəyi sıfırdan başlamaq mümkün deyil. Biz olsa-olsa tarixin uzun rəqəminə əlavə olunmuş sıfırıq. O sıfırın da öz tarixi var. Heç bir sıfıra aldanmaq lazım deyil. Onun görünüşü sıfırdı, əslindəsə neçə-neçə vahidin cəmidi və cəm halında da başlanğıc və son deyil, nəyinsə davamıdı.

İnsanda sıfıra təkcə fərdi yox, kollektiv şəkildə də canatma olur. Yəni bəzən görürsən bir adam yox, bir topa adam, kiçik və ya böyük qrup şəklində, bəlkə də bütövlükdə cəmiyyət halında hər şeyi sıfırdan başlamaq istəyir, hər şeyi sıfırdan başlamaqdan ötrü birləşir, bir yerə toplaşır.

Bir də görürsən son dərəcə pozulmuş, əxlaqsızlaşmış, korlanmış bir sahədə (tutaq ki, siyasətdə, mədəniyyətdə, jurnalistikada və s.) iyrəncliklərdən bezən, daha doğrusu, murdarlıqlardan iyrənən nisbətən (və ya xeyli dərəcədə) təmiz adamlar, özlərini çirkaba bulaşmaqdan qoruya bilmiş (yaxud qorumaq uğrunda mübarizə aparan) adamlar bu çirkabın, bataqlığın bir gün onları da batıracağından qorxub əl-ələ vermək, həmin sahənin alternativini

yaratmaq, bütün təmiz adamları cəlb eləmək, bulaşmış adamların heç birini yeni sahəyə buraxmamaq qərarına gəlirlər. Bax, bu, hər şeyi sıfırdan başlamaq istəyinin toplu halında, cəmiyyətdə özünü büruzə verməsidi.

Yəni bir var hansısa sahəni təmizləmək istəyəsən, bundan ötrü ordakı bulaşmış adamlarla mübarizə, müharibə aparasan, onlardan bəzisini neytrallaşdırmağa, bəzisini islah eləməyə çalışasan, orda nəzarəti öz əlində cəmləməyə, orda hakimiyyəti götürməyə cəhd göstərəsən – bu, başqa şeydi, bu, sıfırdan başlamaq deyil. Bu, bir növ qiyamdı, hakimiyyətin daha ləyaqətli adamların əlində olması, bulaşmış adamların filan sahədə meydan sulamaması, təmiz adamların boğulmaması uğrunda mübarizədi. Burda bir növ məqsəd odu ki, bulaşmış adamlar təmiz adamlara yox, təmiz adamlar bulaşmışlara nəzarət eləsinlər, qərarların qəbulu ləyaqətli insanlardan asılı olsun. Bu, başqa metoddu. Bu, sıfırdan başlamaq deyil, bu, təkamül yoludu. Yəni metodlarında nə qədər radikallıq, qiyamçılıq olsa da, üsulları inqilabi görünsə də, mahiyyətcə təkamül yoludu, inqilab deyil.

Sıfırdan başlamaq istəyəndəsə adamlar, qruplar (hələ formalaşmamış, mənən bir-birinə yaxın olan, qeyri-formal qruplar; psixologiyada buna qeyri-rəsmi, şərti, yaxud nominal qruplar da deyirlər) bulaşmış sahədə mübarizə aparmırlar, sahədaxili mübarizəni dayandırıb oranı tərk eləyirlər.

Yeri gəlmişkən deyim ki, bu, sahədaxili mübarizədə məğlubiyyətdən sonra başlayır. Deməli, sıfırdan başlamaq istəyi, ovqatı – təkamül cəhdinin, mübarizəsinin mümkünsüzlüyünü, uğursuzluğunu görəndə yaranır. Məhz buna görədi ki, sıfırdan başlamaq istəyən qruplarda güclü optimizmlə güclü pessimizm qoşa, bərabər olur. O sahənin ki, içindəydilər, oranı ləyaqətsiz adamlar zəbt eləyiblər, onların içində olduqları sahədə ləyaqətsiz adamlar hər şeyi əllərinə cəmləyiblər, çirkab boğaza çıxıb, onlar bu nəticəsiz mübarizədən yorulublar, beziblər («axı nə qədər döyüşmək olar?..»), indi də tüpürüb o meydanı, o sahəni tərk eləyirlər. Ona görə də pessimistdilər, dilxordular və bir növ mübarizədən qaçana oxşayırlar.

Ancaq həm də optimistdilər, özlərində böyük bir qüvvə, sevinc duyurlar (yadına sal: insan fərdi şəkildə, yəni şəxsi həyatında hər şeyi təzədən, sıfırdan başlamaq qərarına gələndə nə qədər gümrah, xoşbəxt hiss eləyir özünü), son dərəcə gümrah, enerjili, hətta xoşbəxt görünürlər. Qoy çirkli meydan çirkinlərin özünə qalsın, öz əlləri-öz başları, neyləyirlər eləsinlər, biz daha onların işinə qarışmayacağıq, ancaq indi yenidən, ayrıca, qıraqda bir meydan açırıq və onların da bu meydana soxulmasına, işimizə qarışmasına imkan verməyəcəyik, bulaşmışlardan heç kimi yeni sahəyə buraxmayacağıq, yalnız təmiz adamlar, yalnız təmiz adamlar! Bulaşmışlarla heç bir əməkdaşlıq, əlaqə, iş birliyi olmayacaq. Yalvaracaqlar! Amma olmayacaq. Razılaşmayacağıq. Biz onlara çox dedik, başa düşmədilər. Onlar başa düşmədilər ki, biz o meydanı çirkabdan təmizləməyə çalışmaqla, tamam çirkaba batıb getməsinə imkan verməməklə onların özlərini də xilas eləyirdik. Qoy indi nə qədər istəyirlər çirkləndirsinlər, axırda özləri boğulacaqlar. Onlar bizi görüb birləşmişdilər. Biz çıxdıq, qoy indi bir-birilərini qırsınlar...

Bax, cəmiyyət sıfırdan başlamaq istəyəndə bu ovqatda olur. Pessimist-optimist ovqat.

Ancaq... hər şeyi sıfırdan başlamaq bir fərdin taleyində hansı nəticəni verirsə, bir kollektivin, cəmiyyətin də taleyində eyni nəticəni verir. Yəni bir adam sıfırdan başlayanda nəyə gəlib çıxırsa, nəyə «nail» olursa, bir cəmiyyət sıfırdan başlayanda da ona gəlib çıxır. Əvvəlcə yeni sahəyə tamamilə təmiz, pak, əqidəli adamların toplaşması, cəlb olunması, sonra təsadüfi adamların, daha doğrusu, o qədər də etibarlı, dayanaqlı olmayanların oranı bulaşdırmağa

imkan verilməməsi, sonra yeni meydana tək-tük atılan zir-zibilin təmizlənməsi, sonra zir-zibilin meydanın ortasına çıxmasına imkan verilməməsi, sonra meydanın heç olmasa bir hissəsinin təmiz qalması, sonra zibilin dizə çıxmasına, sonra boğaza çıxmasına imkan verilməməsi, axırda da çirkabda batıb getməmək, boğulub ölməmək uğrunda mübarizə başlayır.

Yəni yeni sahə istər-istəməz zibillənir, zibillənir... əvvəlcə zibil əl-ayağa dolaşır, sonra topuğa, dizə, qurşağa, boğaza çıxır, axırda da başdan aşır. Yenə də köhnə sahədə olduğu kimi, daxili mübarizə başlayır, yenə bulaşmışlar güclü çıxır, çünki onlar daha mütəşəkkil və həyasızdılar, yenə yorulursan, bezirsən, yenə hər şeyə tüpürüb getmək və yenə də hər şeyi yenidən başlamaq...

Və sual yaranır: buna ehtiyac varmı? Ona ehtiyac vardımı? Daha doğrusu, ehtiyac vardı və yenə var, amma ona getməyə dəyərdimi? Buna getməyə dəyərmi? Yenə «köhnə hamam» olmayacaqmı – köhnə tası və çirki çıxmayan adamlarıyla...

Cəmiyyətdə hər şeyi yenidən başlamaq təxminən o deməkdi ki, sən pas atmış stəkanı qırağa tullayıb, daha doğrusu, ondan əl çəkib təzə stəkan alırsan. Və fikirləşirsən ki, mən bu stəkanı işlədəcəm, amma elə eləyəcəm ki, heç vaxt çirklənməsin. Bu mümkün deyil. Ancaq sən ruhdan düşməyəcəksən. Çünki əvvəl-əvvəl bir balaca yaxalayan kimi, suya çəkən kimi yenidən təmiz olduğunu görəcəksən stəkanın. Bir az da keçəcək və stəkanı təmizləmək, əvvəlki görkəminə qaytarmaq üçün bir dəfə yaxalamaq yox, onu bərk-bərk sürtmək lazım gələcək. Bir də görəcəksən ki, bir-iki sarı ləkə var, nə qədər yusan da getmir. Sonra o ləkə böyüyüb-böyüyüb pasa çevriləcək. Və günlərin bir günü məlum olacaq ki, bu stəkan atılasıdı, atılmağa layiqdi.

Təzə stəkan lazımdı, elədimi?.. Mən ki stəkandan danışmıram. Axı, təzə stəkanın paslanacağıyla barışmaq asandı, çirkin bir aqibətin gözlədiyini bilə-bilə də ondan su içmək asandı. İnsan cəmiyyəti belə deyil axı. Çirkli bir aqibətə düçar olacağını, bir gün səni iyrəndirəcəyini bilə-bilə ondan nə cür yapışasan?! Adamların çirklənməsi stəkanın çirklənməsindən heç olmasa milyon dəfə ağır iş olsaydı, yenə də buna getmək (yəni hər şeyi təzədən başlamaq istəyən topluma qoşulmaq) olardı. Amma bu müqayisədə milyardlar da balaca rəqəmdi.

Mən demək istəmirəm ki, cəmiyyətdə heç nəyi yenidən başlamağa çalışmaq lazım deyil. Yox. Mən bunu demirəm, ən azı ona görə ki, bu da bir zərurətdi, ondan qaçmaq qeyri-mümkündü və bu cəhdlər geniş mənada faydasız, təsirsiz qalmır, izsiz ötüşmür. Mən sadəcə onu deyirəm ki, qaçmaq istədiyindən qaça bilməzsənsə, hərlənib-fırlanıb yenə də qaçdığın nöqtəyə dirənəcəksənsə və bütün bunları bilirsənsə, onda neyləməlisən? Bütün bunları qabaqcadan görən, özünü aldatmaq, beynini dumanlandırmaq istəməyən (əslində heç bunu bacarmayan), eyni zamanda bu reallıqla heç cür barışmayan, vəziyyəti dəyişmək eşqiylə yaşayan adam, sizcə, belə bir vəziyyətdə neyləməlidi? Sizə elə gəlmirmi ki, onun vəziyyəti çıxılmazdı?

Kimsə elə düşünməsin ki, ondan ötrü yeganə çıxış yolu gedib özünü dənizə atmaqdı. Əgər özünü dənizə atmaq çıxış yolu olsaydı, onda insan heç vaxt çıxılmaz vəziyyətə düşməzdi, bu dünyada heç bir çıxılmazlıq, o cümlədən burda haqqında danışdığımız məsələdə çıxılmazlıq olmazdı.

Hər şeyi yenidən başlamaq istəyinin fərdi təzahürüylə kollektiv təzahürü arasında böyük fərq var. Birincisində fərd özündən narazıdı, özünü dəyişmək istəyir. İkincisindəsə o, ətrafından narazıdı, ətrafını dəyişmək istəyir. İkinci variantda insan hətta xeyli dərəcədə

özündən razı da olur. O, hesab eləyir ki, özünü dəyişməli yox, özünü qorumalıdı. Yəni birincisi insanın özünü dəyişmək, ikincisi özünü qorumaq cəhdidi.

5 may-23 iyul 2002-ci il

Ada arzusu

Hardasa 4-cü, ya 5-ci sinifdə oxuyurduq. Sinif yoldaşım Zəfərlə Yeni Günəşli tərəfdəki qayalıqların üstündə dayanıb dənizə tamaşa eləyirdik. Zəfər birdən qayıtdı ki, bilirsən nə arzulayıram? Bir ada olaydı, qəşəng, ləzzətli ada, adam orda təkcə yaşayaydı. Bunu eşidəndə elə bil gözlərimə işıq gəldi – həm təəccübdən, həm də sevincdən. Dedim mənim də ürəyimdən həmişə keçir ki, bir adada təkcə yaşayasan, heç kimin səndən xəbəri olmaya, amma sənin hər şeyin ola – yemək, içmək, siqaret... Ömrünün axırınacan bəs eləyə.

Başladıq fantaziyamızı işə salmağa. Adadakı hər şeyi – heyvanların növünü, sayını, iqlimi, meşəliklərin sıxlığını, düzənlikləri... yerbəyer elədik. Düzdü, bir-iki problem qalırdı. Məsələn, evdəkilərin səndən, sənin onlardan narahatlığın və s. Deyəsən hətta yetim olmamağımıza yüngülvari təəssüfləndik də. Ancaq heç bir problem (burdakı problem, ordakı – adadakı yox; orda heç bir problem yox idi, ortaya çıxan kimi də dərhal həllini tapırdı) bizim ikimizin ayrı-ayrılıqda adaya köçməyimizə mane olmurdu – hər kəs öz adasında!

O gün mənim iki şeyə çox təəccüb elədiyim yadıma gəlir. Birincisi mənim ürəyimdən keçən, bir növ sirr kimi saxladığım arzunun başqalarının da ürəyindən keçməsi, ikincisi bunun məhz Zəfər kimi adamın ürəyindən keçməsiydi. Zəfər çox mərd oğlanıydı, biz əsl dostuyduq, ancaq mənə elə gəlirdi ki, məhz bu cür «filosofluq» məsələsində bizim aramızda böyük fərq var və məndən fərqli olaraq o, bu cür düşüncələrə qapılmır, ona görə də belə arzular onun ürəyindən keçə bilməz. Ümumiyyətlə götürəndə mən kimsənin bu cür düşüncələrə, xəyallara qapıla biləcəyini ağlıma gətirmirdim. Fikirləşirdim, elə bilirdim ki, məndən başqa heç kim belə şeyləri, bu cür müdrikilkləri, dərinlikləri başa düşməz.

Ancaq indi mənə aydın olurdu ki, hamının ürəyindən belə şeylər keçə bilər. Və bu kəşfin dostdan başlanması, dostumda bunu kəşf eləməyim məni sevindirirdi. Biz bu qayalıqlara, adətən, siqaret çəkməyə və başqa uşaqları qumarda udmağa gəlirdik. Ancaq o gündən sonra və o günlərdə mənə elə gəlirdi ki, bizim bundan da böyük sirrimiz var.

İndi mən bilirəm ki, bu, təkcə mənim və dostlarımın yox, bütün insanların – milyonların, milyardların, hətta üzdən son dərəcə hissiz, duyğusuz görünən adamların da arzusudu.

Niyə? Bu «ada arzusu» nədən doğur? Bu sualın cavabını tapmaqda Kamyunun fikirləri mənə yardımçı oldu: insan öz taleyinə, həyatına bir forma vermək istəyir; dünyasa sonsuzdu, sonsuzluq formanı müəyyənləşdirməyə mane olur.

Mənə elə gəlir, uzaq, yaşıl ada arzusu öz taleyinin, öz həyatının konkret formasını görməyə, formasını tapmağa çalışan insanın bu işdə ona mane olan məkan sonsuzluğunu, məkanda sonsuzluğu dəf eləmək cəhdidi. Yəni bu artıq elə bir dünyadı ki, onun sənin payına düşən hissəsinin sərhədi, forması dəqiq, birmənalıdı, konkret bilirsən ki, bax, bu, sənin dünyandı, onun şəriki yoxdu, səndən başqa ağası yoxdu, o, əbədi olaraq sənindi. Kamyunun «Çökmə» povestində Jan-Batist Klamans deyir: «Mən adaları sevirəm. Orda hökmranlıq eləmək asandı». (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 366).

Ada arzusu bu gün də mənim ürəyimdən çıxmayıb və mən bilirəm ki, min illər sonra da insanlar bu arzuyla doğulacaqlar.

18 may 2002-ci il

© A.Qaraçənli

9. İnsanın nəyinə qiymət verməli?

Sadəlik, yoxsa sadəlövhlük

Sadəlikdə ağıl var. Yəni sadə adam o adamdı ki, sadə olduğu onun özünə də məlumdu.

Sadəlikdə bir məqsədyönlülük, şüurluluq var. Sadəlik təkcə təbii deyil, bir az da düşünülmüş şeydi.

Sadəlövhlüksə kortəbiidi. Sadəlövh adam heç vaxt qarşısına məqsəd qoymur ki, sadə olsun. O, təbii şəkildə, özü bilməyə-bilməyə sadədi. Onun təbiiliyi tam təbiidi. Sadəlikdəsə təbiilik bir az bilərəkdən yaradılır. Sadəlikdə təbiiliyə cəhd var (təbii olmaq cəhdi, istəyi var). Sadəlövhsə istəməyə-istəməyə təbiidi.

Ən təbii adam sadəlövh adamdı. Təbiilik məhz sadəlövh adamda tam, bütöv görünür.

Bir var sadəliyi yaradasan, bir də var sadəliklə yaşayasan. Nəyisə yarada bilmək üçün ondan ayrılmaq, onu mücərrədləşdirə bilmək lazımdı. Sadəliyi yaradan adam sadə adam deyil. Sadəlövh adamsa həqiqətən sadə adamdı, çünki o, sadəliyi yaratmır, onun eləcə içində, onunla iç-içə yaşayır.

Bəs bunun hansı daha yüksəkdi: sadəlik, yoxsa sadəlövhlük? Hansı daha yüksək adamdı? Şübhəsiz ki, hərəsinin öz yeri, öz üstünlüyü var. Amma mənim qəlbim bir az sadəlövhün tərəfindədi.

Sadəlik hardasa məndə ikrah doğura bilər, amma sadəlövhlük heç vaxt ikrah doğura bilməz.

8 may 2004-cü il

Dəniz səviyyəsi

İnsana nə cür qiymət verməli? İnsan səviyyəsini nəyə əsasən ölçməli? Dəyişməz səviyyə, sabit səviyyə dəniz səviyyəsidi. Hər şey ona münasibətdə ya aşağıdı, ya yuxarı, ya yüksəklikdi, ya da çökəklik. Dəniz səviyyəsi mütləq, bəşəri ölçüdü. Hansısa dağ, təpə bizim gözümüzə yüksəklik kimi görünə bilər, hansısa dağ, təpə yerli, regional səviyyəni ötə bilər, ancaq onu dəniz səviyyəsiylə – bəşəri, mütləq səviyyəylə yanaşı qoyanda bilinəcək ki, o həqiqətən yüksəklikmiş, yoxsa yox. Bizim gözümüzü qaraldan zirvələrin çoxu bu bəşəri qiymətləndirmədən təpə, çökəklik, dərə kimi çıxa bilər. Ya da əksinə. Çökəklik adlanan çox dərə var ki, əslində yüksəklikdi. Dəniz səviyyəsindən yüksəkdə dayanmış çox zirvə var ki, ölkəsində, regionunda təvazökarcasına başını aşağı salıb və nadanlar elə bilirlər ki, o, balaca bir təpədi; onlar bu «təpə»dən qat-qat aşağıda dayanan dikbaş «zirvə»lərə pərəstiş eləyirlər və ağıllarına da gəlmir ki, ucalığın yox, çökəkliyin qarşısında diz çöküblər.

Təpələr, ay təpələr! Mən sizin uca bir dağ olduğunuzu bilirəm. Onu da bilirəm ki, siz öz ətrafınızı təhqir eləmək istəmədiyinizə görə belə təvazökarcasına başınızı aşağı salmısız. Nə yaxşı ki, bu dünyada dəniz səviyyəsi var və o, milli, regonal dağların, təpələrin, dərələrin əsl qiymətini verir. Və sübut eləyir ki, bütün yerli ölçülər nisbidi, öz yerində, öz ölkəsində, öz

regionunda ətrafını təhqir eləməkdən zövq alan dikbaş qayalar dünyanın dəniz səviyyəsinin quyusunda görünməz ola bilər.

Təbiətdə vahid ölçü var, bəs mənəviyyatda necə? İnsanın da dəniz səviyyəsi varmı? Əgər varsa, onda o, ya azadlıqdı, ya ədalət, ya da sevgi. Yaxud bunların hər üçü birlikdə insanın dəniz səviyyəsini, insani dənizi, mənəviyyat dənizini yaradır. Ancaq bunu hələ sübut eləmək lazımdı, əks halda bu, gəlişigözəl sözə çevrilir.

Məncə, tarix – «insanın dəniz səviyyəsi» ola bilməz.

Kim inkar eləyə bilər ki, Tolstoy insanın dəniz səviyyəsindən yüksəkdə dayanıb. Deməli, müəyyənləşdirə, aydın ifadə eləyə bilməsək də, hər halda qəbul eləyirik ki, mənəviyyatın da dəniz səviyyəsi var və yalnız ona münasibətdə nəsə yüksək, nəsə alçaq sayıla bilər. Yerli, milli, regional, tarixi qiymətləndirmələr, ölçülər yalnız ona münasibətdə özünü ya nisbətən doğruldur, ya da tamamilə yalan, saxta çıxır.

Əgər heç bir dəyəri mütləq dəyər kimi götürmək mümkün deyilsə, bununla belə kimlərinsə, hansısa şəxsiyyətin, yaradıcılıq işinin yüksək, ali, yəni «dəniz səviyyəsindən» yuxarı olduğu şübhə doğurmursa, onda bəlkə elə insanın dəniz səviyyəsi kimi mücərrəd anlayışları, dəyərləri yox, tarixi şəxsiyyətləri, dahiləri, böyük yaradıcılıq işlərini götürək? Ancaq bu da mümkün deyil. Çünki bir-birinə daban-dabana zidd olan dahiyanə şəxsiyyətlər, yaradıcılıqlar var. İnsanın dəniz səviyyəsi kimi Buddanı götürsək, İsa peyğəmbər necə olacaq?

17-18 may 2002-ci il

İnsanın nəyinə qiymət verməli? İstedad və adamlıq

Birisinin istedadı var, adamlığı yoxdu, birisinin adamlığı var, istedadı yoxdu. Şəxsən mən ikincini daha yüksək qiymətləndirirəm. İstedasız, amma xeyirxah, xoşxasiyyət adam mənə daha əzizdi, nəinki istedadlı bədxasiyyət. Və təbii ki, məndən ötrü ən əzizi, həm istedadı, həm də adamlığı olanlardı. Məncə, insanın əbədiyyət qazanması üçün onda bu iki keyfiyyətin ikisi də olmalıdı. Ancaq faciə orasındadı ki, bundan ötrü istedadın olması daha vacibdi, nəinki insaniyyətin. Ona görə də istedadlı adamayovuşmazın (bivecin) əbədiyyəti qazanmaq şansı daha böyükdü, nəinki istedadsız mehribanın (canıyananın).

Deməli, istedad insaniyyətdən qiymətlidi, sənin-mənim necə qiymətləndirməyimizdən asılı olmayaraq bir kilo istedad bir kilo adamlıqdan üstündü. Bu da o deməkdi ki, insan ən yüksək qiyməti istedadıyla qazana bilər, yəni insanlığı ən yüksək həddə olan istedadsız adam heç vaxt istedadı ən yüksək həddə olan bivecdən çox bal toplaya bilməz.

İstedada verilən qiymət insanın ən yüksək və ən dəyişməz qiymətidi. Mən bunu insaniyyətin ən böyük faciəsi sayıram və qəbul eləyirəm ki, başqa cür olsaydı, onda faciənin miqyası daha böyük olardı.

17 fevral 2002

Prinsip, prinsipiallıq

Mən insanları yox, prinsipləri müdafiə eləməyə çalışıram. Ona görə prinsipini dəyişən adama mənim münasibətim də dəyişir. Prinsipini bir dəfə dəyişən adama mənim artıq iki münasibətim var. Prinsipini dəyişən adama münasibəti dəyişdirməmək prinsipini dəyişməyən adama münasibəti dəyişdirmək kimidi: hər ikisi prinsipsizlikdi.

Prinsipini dəyişən adama mənim münasibətim dəyişməyibsə, deməli, o adam ya mənim eqoizmimin qurbanıdı, ya da mənim eqoizmimə qurban olmalıdı.

Prinsipini dəyişməyən adama mənim münasibətim dəyişibsə, deməli, mən prinsipimi dəyişmişəm.

Subyektiv yanaşma (yaxud: şəxsi qərəz, şəxsi mənafe güdmə) – prinsiplərini dəyişməyən adama münasibəti dəyişmək, eyni zamanda prinsiplərini dəyişən adama münasibəti dəyişməmək deməkdi.

Dünyanın ən çətin işi sənə münasibətini dəyişən adama münasibətini dəyişməməkdi. Elə ona görə də prinsipiallıq dünyanın ən nadir hadisələrindəndi. Prinsipiallıq – prinsiplər dəyişməyincə münasibəti dəyişməmək deməkdi.

Prinsipsizliksə münasibət dəyişdikcə dəyişmək deməkdi.

...Mən insanları yox, prinsipləri müdafiə eləməyə çalışıram. Ancaq onu da yaddan çıxarmıram ki, insanı müdafiə eləmək – ən böyük prinsiplərdən biridi. İnsan olmasaydı, prinsiplər də olmazdı.

Dekabr 2001-ci il

Həyasızlıqla prinsipiallığın fərqi

Həyasızlıqla prinsipiallığın fərqi nədədi? Nəyə görə qarşısına qoyduğu məqsəd uğrunda çəkinmədən, yorulmadan mübarizə aparan adamlardan biri həyasız, o biri prinsipialdı?

Prinsip əxlaqlı olmalıdı. Ona görə də qarşısına qoyduğu məqsəd uğrunda mübarizə aparan ən dizibərk adam da əgər məqsədi əxlaqlı deyilsə, deməli, prinsipsiz adamdı. Belə adamın mübarizliyinə prinsipiallıq demək olmaz.

Amma maraqlıdı ki, biz azərbaycanlılar bu cür adamı prinsipli saymasaq da, «prinsipial» adlandırırıq. Yəni «prinsipial» sözünü əxlaqsız mübarizliyə, dönməzliyə də aid eləyirik, baxmayaraq ki, o yalnız əxlaqa aid olmalıdı.

Bizdə prinsip anlayışıyla prinsipiallıq anlayışı arasında ciddi fərq var. Biz prinsipsiz mübarizliyə də prinsipiallıq kimi baxırıq.

Həya – əxlaqlı adamın cəmiyyətə tərbiyəli çıxışıdı.

Həyasızlıq elə bir şeydi ki, onu görəndə düşünürsən: kaş həyasını qorumaq üçün də bu qədər iradə göstərəydi.

Dekabr 2001-ci il

10. İnsan adları

Hər kəs dünyanı ən müasir dövrdə yaşayır

İnsan dünyanı həmişə müasir vaxtda görür. Yəni hamı dünyanın müasir vaxtında yaşayır. Bu gün həyatın ən yeni günüdü, bu səhər dünyanın ən yeni səhəridi, bu axşam dünyanın ən son axşamıdı. Bu gün həyatın ən son buraxılışıdı, yaşadığımız – bax, nəfəs aldığımız bu an həyatın ən təzə, ən son anıdı. Bu baxımdan biz həmişə ən müasir vaxtda yaşayırıq.

Dünyanın ən müasir texnikası biz yaşadığımız dövrdə olur. Ola bilsin, biz yaşadığımız yerə gəlib çatmır, amma hər halda texnikanın bu günə qədərki elə bir nailiyyəti yoxdu ki, bu gün biz yaşadığımız dünyada olmasın. İnsan həmişə ən son nailiyyətlərin əldə olunduğu dövrdə yaşayır.

Hər kəs dünyaya dünyanın ən inkişaf elədiyi vaxtda gəlir, dünyadan dünyanın ən inkişaf elədiyi vaxtda köçür. Allah hər kəsə ömrü dünyanın ən inkişaf elədiyi vaxtda verir.

7 yanvar 2006-cı il

İnsan adları

Hər xalqın dilində qızılgülün bir adı var. Amma Qızılgül dünyanın hər yerində Qızılgüldü. Çünki adam adları tərcümə olunmur. Məmməd – Məhəmmədin türkləşmiş variantı olsa da, ərəb türkün Məmmədini elə Məmməd kimi qəbul eləyir, daha durub onu Məhəmmədə çevirmir. İnsan adları toxunulmazdı.

Qızılgül adında bir gül var. Amma Qızılgül adında yüzlərlə adam ola bilər. Bir adda müxtəlif güllər ola bilməz, amma bir adda müxtəlif adamlar olur. Ona görə də qızılgülləri qızılgül adı altında cəmləmək mümkün olsa da, Azərləri Azər adı altında cəmləmək mümkün deyil. Güllərin adaşı olmur, çünki ad gülün özünə verilmir, «qızılgül» – indi mənim əlimdə tutduğum qızılgülün öz adı deyil, o bütün qızılgüllərin adıdı, hər bir qızılgül bu ad altında doğulur. Azər adısa mənə verilib və mənə başqa ad da verilə bilərdi, çünki qızılgüldən fərqli olaraq mən adsız doğulmuşdum. Qızılgülsə adsız doğulmur, adsız doğula bilmək üçün onun fərdiliyi olmalıydı.

Ayrıca olaraq bir gülə ad qoyman mümkün deyil. Bir gülə ad qoyanda minlərlə gülə ad qoymuş olursan. Qızılgül – cəm mənasındadı, cəmi qızılgüllərin adıdı, Azərinsə cəm mənası yoxdu, Azərlərin sayı çox olsa da, Azər deyəndə bir adamdan söhbət gedir, əgər iki Azərdən söhbət gedirsə, onda bura cəm şəkilçisi əlavə olunmalıdı, iki Azər artıq Azər deyil, Azərlərdi.

3 yanvar 2006-cı il

İtən adlar

Ad var itir, ad var qalır. İtən qalandan çoxdu. Heç bir ad birdən-birə itmir. Bir az qohum-əqrəbanın, dost-tanışın yaddaşında yaşayır. Bir az gələn nəsilə ötürülür. Sonra yavaş-yavaş yaddan çıxır, hansısa mərhələdə onu nə gözüylə görən, nə də qulağıyla eşidən bir adam qalır, beləcə bir ad yaddaşlardan silinib gedir, yoxa çıxır. Allah bilir hər il dünyada neçə ad batır. Kiminsə son xatirəsi kiminləsə ölüb gedir.

Nəsillər dəyişdikcə neçə-neçə ad it-bata düşüb gedir, neçə-neçə adam xatirələrdəki ömrünü də başa vurur. Bundan sonra o adamı heç harda tapmaq mümkün deyil. Yaddaşlardan silinib getmiş adamı heç harda tapmaq mümkün deyil.

Əlbəttə, adamlar istəyirlər ki, yadda qalsınlar, çünki yaddaşlardan silinib getmiş adamı heç axtarmaq da mümkün deyil.

17 dekabr 2005-ci il

İnsanın özünü qıdıqlamaq imkanı yoxdu

İnsanın özünü qıdıqlamaq imkanı yoxdu. İnsan özünü qıdıqlayanda qıdığı gəlmir. Ona görə də hər bir «qıdıqlanmada» başqasının əli var. Hər bir «qıdıqlanma»ya başqası səbəbkardı.

4 mart 2003-cü il

Fakt və münasibət

Bir var fakt, bir də var ona münasibət. Məsələn, hansasa kişi arvadının seksual tələbatını ödəmir. Bu, faktdı. Həmin qadın başqa kişiylə əlaqədə olsa, tələbatını ödəyə bilər. Bu da faktdı. Ancaq qadın o yolu tutsa, onda onun öz hərəkətinə, özünə münasibəti, yəni fakta münasibəti yaranacaq. Nəticədə onda yeni bir gərginlik – xof, vicdan əzabı və s. – əmələ gələcək. Deməli, faktı münasibətsiz yoxlamaq, faktı münasibətsiz götürmək olmaz. Xalis, müstəqil, insan münasibətindən kənar fakt bioloji, fizioloji, fiziki həyatda ola bilər, psixoloji həyatda, yəni insanın həyat tərzində, ömür-günündə belə şey olmur. Ona görə də ərindən narazı qalan qadına başqa kişilərlə əlaqəyə girməyi məsləhət görmək seksual tələbata (ümumiyyətlə, insan tələbatına) sırf bioloji, fizioloji hadisə kimi baxmaqdı. Bu da yanlış yanaşmadı. Münasibətlə faktın üst-üstə düşməməsi, hətta bəzən münasibətin faktı tamamilə rədd eləməsi bunu bir daha sübuta yetirir ki, insan tələbatına xalis bioloji fakt kimi baxmaq köküdən yanlışdı.

Deməli, fakt hələ hər şey demək deyil, biz münasibəti də öyrənməliyik. Məsələn, bir insanın həyatında problem yaradan biloji, fizioloji, maddi faktları müəyyənləşdirmək hələ işin başlanğıcıdı. Bundan sonra müəyyənləşdirmək lazımdı ki, bu faktları, yəni problemi aradan qaldırmağın neçə yolu var və həmin insanın münasibəti bu üsullardan hansının tətbiqinin yeni (və bəlkə də daha ciddi, daha böyük) problemlər yaratmayacağını mümkün eləyir, buna zəmanət verir. (Mövzuyla əlaqədar bax: «Мир философии». Москва, «Политиздат», 1991. I cild, səh. 643-656; Бертран Рассел, «Факт, вера, истина и познание».).

Yanvar 2002-ci il

Məqsəd və vasitə

İnsan nəyi özünə məqsəd seçirsə, onun uğrunda vasitəyə çevrilir. Ona görə də insan elə şeyi məqsəd seçməlidi ki, orda vasitəyə çevrilməsin. Bu, nə ola bilər?

Bəlkə də insan nə məqsəddi, nə də vasitə. İnsan, sadəcə, səbəbdi. İnsan müəyyən məqsədlər və vasitələr doğuran motivdi. O, sadəcə durmadan səbəblər, motivlər ixrac eləyir və onları həyata keçirməkdən ötrü məqsədlər tapır, formalaşdırır, fikirləşir, bəzən də sadəcə, hazır məqsəd və vasitələrdən istifadə eləyir.

Onda ki məqsəd insanın özü deyil, hansısa kənar bir şeydi (pul, hakimiyyət və s.), o vaxt insan həmin məqsəddən ötrü, məqsədə uyğun dəyişməyə, özünü – duyğu, arzu, fikirlərini dəyişdirməyə məcbur olur. Və bu zaman məqsədlə vasitə, yəni pulla insan, hakimiyyətlə insan arasında toqquşma, ziddiyyət yaranır. İnsan tərəddüd keçirir, əzab çəkir, nəynənsə nəyinsə arasında ötürücü olmaq onu sıxır. Təsadüfi deyil ki, insanla insan arasında vasitəçi olmaq adama qalan vasitəçiliklərdən daha çox ləzzət eləyir. Bu vaxt insan özünü daha əhəmiyyətli, lazımlı duyur.

Özünü məqsəd, başqalarını vasitə seçən – diktator, özünü vasitə, başqalarını məqsəd seçən – kölə, özünü həm məqsəd, həm də vasitə seçən – azad insan, şairdi.

10 yanvar 2002-ci il

İnsan paltarı həm də özündən utandığına görə geyinir

İnsan paltarı təkcə ona görə geyinmir ki, ayıbını başqalarından gizlətsin, həm də ona görə geyinir ki, ayıbını özündən gizlətsin. Tamam lüt gəzmək insan üçün asan iş deyil, lap heç kim görməsin, lap bürkü olsun, yenə də adam əyninə nəsə geyinəcək. Məncə, Adəmə əncir yarpağı hər şeydən əvvəl özündən utandığına görə lazım olub.

Niyə insan tək olanda da daim lüt anadangəlmə soyunub qalmır, tutaq ki, bütün günü lümlüt evin içində o yan-bu yana gəzmir? (Bu suala cavab vermək lazımdı. Yəni müşahidəni qeyd eləmək azdı, həm də onun mahiyyətini açmaq lazımdı).

27 iyun 2002-ci il

İnsanın özünü sirr kimi duyması

Hər bir insan özünü dünyaya sirr kimi duyur. Adamların yanında, başqalarının, onu ən yaxından tanıyan insanların içində belə o özünü başqalarının başa düşə bilmədiyi, dərk eləmədiyi qapalı, sirli bir varlıq kimi hiss eləyir. Və insan bu duyğudan, sirr kimi qalmaqdan həzz alır. Baxmayaraq ki, ətrafın yadlığı, uzaqlığı həm də insanın əzablarının mənbəyidi.

İnsan cəmiyyət qarşısında lüt deyil, əksinə, son dərəcə örtülü, qapalı, qılaflı varlıqdı. Onun ürəyindən, beynindən keçənləri başqaları görmür. O, yaddı və ona yaddılar. O, sirrdi. Tənhadı. Onun fikri var, deyə bilmir, hissi var, ifadə eləyə bilmir. Ancaq bu ona daxili bir güc, əminlik də verir: o düşünür ki, başqalarının qiymətləndirdiyindən daha böyükdü, daha güclüdü. Qapalılıq insanı öz gözündə ucaldır. Mənim sirrim – mənim gücümdü.

13 iyun 2002-ci il

Elə adam varmı ki, onunla öz-özünə danışdığın kimi danışa biləsən?

«Alçaldılmış və təhqir edilmiş insanlar»da Katyayla (Katerina Fyodorovna) Vanyanın (İvan Petroviç) dialoqunda belə bir məqam var: «Mən sizinlə, öz-özümə danışan kimi, ona görə belə açıq danışıram ki...». (F.M.Dostoyevski, «Alçaldılmış və təhqir edilmiş insanlar». Bakı, «Gənclik», 1979. səh. 251).

Qədim Roma filosofu Seneka «Lutsiliyə mənəvi məktublar»ında Lutsilinin dost adlandırdığı bir adama etibar eləməməsini qınaqla qarşılayır: «...Əgər sən dost saydığın adama özünə inandığın kimi inanmırsansa, deməli, yanılırsan və əsl dostluğun nə olduğunu bilmirsən... Bir adamla dost olmaq istəyəndə yaxşı-yaxşı fikirləş, qərara gələndən, yəni onunla dostlaşandan sonra onu bütün qəlbinlə qəbul elə və onunla danışanda ürəkli ol, elə bil ki, özünlə danışırsan... Niyə mən hansısa sözü dostumun yanında deyə bilməyim? Niyə onun yanında öz-özümə danışdığım kimi danışmayım?». (Əlisa Nicat, «Dünya filosofları». Bakı, «Sabah», 1995. səh. 166; Eyni zamanda bax: «Антология мировой философии: Античность». Минск, «Харвест», Москва, «Издательство АСТ», 2001. səh. 692).

Frans Kafka Felitsa Bauerə məktubunda yazır (bu məktubla mən Kafkanın gündəliyində – 1916-cı ilin 18 oktyabrındakı qeydində tanış olmuşam): «Mən sənինlə o qədər açıq danışıram ki, elə bil özümlə danışıram, sən yəqin bundan inciməzsən...». (Франц Кафка, «Избранное». Москва, «Радуга», 1989. səh. 483).

Görəsən, dünyada elə bir adam varmı ki, insan onunla öz-özünə danışdığı kimi danışa bilsin? Məncə, hər bir insanın belə bir adama ehtiyacı var: elə adama ki, onunla özünlə

© A.Qaraçənli

danışdığın kimi danışa biləsən. Bəs kimdi həmin adam: valideyn, dost, həyat yoldaşı, sevgili, məşuqə, yoxsa təyyarədə, qatarda, avtobusda təsadüfi yol yoldaşı?

Əslində vacib sual bu deyil. Ən vacibi odu ki, belə bir adam varmı? Və əgər insan «var» deyəndən sonra «kimdi?»yə cavab olaraq təsadüfi yol yoldaşlarını və yaxud gecə qonaqlarını göstərirsə (misal gətirirsə), bu o deməkdi ki, onun belə adamı yoxdu.

7 iyun-4 noyabr 2002-ci il

İnsan olmasaydı, dünya necə olardı?

İnsan olmasaydı, dünya necə olardı? Şəxsən mən dünyanı insansız belə təsəvvür eləyirəm: hər şey – torpaq, su, hava, günəş, canlı-cansız varlıqlar, ağaclar, bitkilər çox gərgin, əzab çəkə-çəkə yaşayır; inkişaf çox ləng gedir – bitkilər indiki sürətlə boy atmır, heyvanlar ağır-ağır hərəkət eləyir, qaça bilmir, indiki sürətlə doğub-törəyə bilmir; hər şeydə bir süstlük, yorğunluq görünür, elə bil bütün varlıqlar hamilədi, doğmaq istəyir, elə bil bütün varlıqların çəkisi özündən artıqdı; ancaq bütün bunlarla bərabər inkişaf var və hər şey elə bir istiqamətdə inkişaf eləyir ki, onun sonu mütləq insanın yaranmasına gətirib çıxaracaq.

14 iyun 1997-ci il

Nənəmlə söhbət

Bir dəfə evdə uzanıb kitab oxuyurdum. O biri çarpayıda nənəm oturmuşdu. Nənəm təbii ki, bizdə – şəhərdə darıxırdı və beyni kənd qayğılarıyla doluydu.

Ermənilər bizim kəndi yandırıb gedəndən sonra kənd camaatından bəzisi yavaş-yavaş kəndə qayıdırdı. Əmim də öz ailəsiylə birlikdə kəndə qayıtmışdı. Nənəm kənddəki qayğılardan, əmimdən, əmim uşaqlarından danışırdı. Otaqda nənəmlə məndən başqa heç kəs olmadığından qıraqdan baxan elə başa düşərdi ki, nənəmlə mən söhbətləşirəm. Əslində mən kitab oxuyurdum və nənəm çox yaxşı bilirdi ki, mən onun dediklərini eşitmirəm, ümumiyyətlə ona qulaq asmıram. Nənəm əslində öz-özünə danışırdı. Onun öz-özünə bərkdən danışmağının səbəbkarısa mən idim. Çünki mən bu otaqda olmasaydım, nənəmin öz-özünə belə bərkdən danışmasını ya qocalığın, ya da dəliliyin ayağına yazmaq olardı. Mənim bu otaqda olmağım ona öz dərdini, qayğılarını, ürəyindəkilərini belə açıq deməyə imkan verirdi.

İnsanın ürəyini boşaltmağa (gözəl ifadədi: "ürəyini boşaltmaq"), dərd-sərini, qəm-qüssəsini kiməsə danışmağa ehtiyacı var. Bununla insan bir az sakitləşir və elə bil öz üzərinə düşən yükün yarısını başqasının çiyninə qoyur. Ona görə də insan tək qalanda ya bərkdən öz-özünə danışır, ya da itlə, pişiklə, ev əşyalarıyla "söhbət" eləyir.

1992-ci il

11. Xalq və hakimiyyət

Biz qərarların alternativlərindən xəbərsizik

Azərbaycanda hakimiyyət heç bir qərarını müzakirəyə çıxarmadığından, qərarları müzakirəsiz qəbul elədiyindən demək mümkün deyil ki, filan qərar öz alternativləri içində ən yaxşısıdı. Biz – bizə təqdim olunan qərarların alternativlərindən xəbərsizik.

20 aprel 2008-ci il

Qarabağ danışıqlarında ulduzların sanı qədər variant var

Birdən durub desəm ki, Qarabağ danışıqlarını davam elətdirmək üçün mümkün olan bütün variantları sayın, saya bilərsizmi?

Qarabağ danışıqlarını uzatmağın ulduzların sanı qədər variantı var. Kim inanmır, saysın.

Neçə ildi tərəflər bu variantları xərcləyirlər, ancaq qurtarmır ki qurtarmır.

Danışıqlardakı bu qədər imitasiya məhz danışıqlar imkanının genişliyindən xəbər verir. İmitasiya ona görə mümkündü ki, variant həddən artıq çoxdu.

Və gedişlər sonsuz olduğuna görə vasitəçilər tərəflərin əlini-ayağını yığışdıra bilmirlər; heç kimi tora salmaq olmur – nə Azərbaycan Ermənistanı tora sala bilir, nə Ermənistan Azərbaycanı, nə də vasitəçilər Azərbaycanla Ermənistanı.

2007-ci il

Hər bir azərbaycanlının başlıca ictimai vəzifəsi

Əgər insanın doğrudan da ictimai vəzifəsi varsa, onda bu gün hər bir azərbaycanlının başlıca ictimai vəzifəsi ürəyi o tayda da, bu tayda da azadlıq, ədalət, sevgi və birlik hissiylə döyünən xalqının ruhuna sadiq qalmaqdı.

Dekabr 2006-cı il

Ən böyük çatışmazlıq

Bizim ölkəmizdə çox şey çatmır, amma ən çox çatışmayan azadlıqdı.

20 oktyabr 2006-cı il

Xalqlar öz müqavimətiylə fəxr eləyir

Hamı öz müqavimətiylə fəxr eləyir. Hər bir xalq öz müqavimətiylə fəxr eləyir. Bizim də fəxr olunası müqavimətimiz var. Bu diktatura bir gün də müqavimətsiz olmayıb. O bir gecə də rahat yatmayıb, yəni tam rahat yatmayıb.

9-10 yanvar 2006-cı il

Bizə ayıb olsun ki, ölkəni bu günə qoymuşuq

Azərbaycan – taleyi bizim əlimizdə olan yeganə ölkədi. Bizə ayıb olsun ki, bu ölkəni bu günə qoymuşuq.

8 yanvar 2006-cı il

Yalnız sinoptiklərin proqnozuna inanmalı

Bizim ölkəmizdə yalnız bədbin proqnozlar özünü doğruldur.

Əslində bizim ölkəmizdə heç bir proqnoz özünü doğrultmur. Sinoptikləri çıxmaq şərtiylə, bu il heç bir proqnoz düz çıxmadı.

5 dekabr 2005-ci il

Diktatura dövründə yaşayan xalqların problemi bütün dünya üçün aktual olmalıdı

Dünyanın bir hissəsi o biri hissəsinin hiss eləmədiyi suallarla üz-üzədi.

Diktatura dövründə yaşayan xalqlar demokratik ölkələri narahat eləməyən suallara cavab axtarırlar. Bu sualların başında «belə bir dövrdə ləyaqətli yaşamaq nə deməkdi», «nə cür ləyaqətli yaşamaq olar», «mən xeyirin, yoxsa şərin tərəfindəyəm», «barışmayıb məhrumiyyətlər içində yaşamaq, yoxsa barışıb firavanlığa çatmaq», «qurban getmək, yoxsa qurban vermək» kimi suallar dayanır.

Bizim və diktatura dövründə yaşayan başqa xalqların problemi – əsas problemi, diktatura problemi – bütün dünya üçün aktual olmalıdı.

Demokratik ölkədə insanı həyat, diktaturadasa həm də zaman sınağa çəkir. Demokratik cəmiyyətdə zaman – sınaq deyil. Diktaturadasa əksinə, zaman böyük bir sınaqdı. Diktaturada zamanın ictimai əhəmiyyəti var, demokratiyadasa o yalnız fərdi əhəmiyyət daşıyır.

Əgər bir səhər gözümüzü açıb Azərbaycanı demokratik görsək, onda daha aydın başa düşəcəyik ki, biz nə qədər ciddi sınaq dövründə yaşamışıq. İndisə ola bilsin, biz bunu o qədər də yaxşı dərk eləmirik.

Diktatura dövrünün adamına qiymət verəndə onun zamanın sınağından nə cür çıxıb-çıxmadığına da fikir verirlər.

Bizə qiymət verəndə yaşadığımız dövrü nəzərə alacaqlar. Yaşadığımız dövrdən bizə qiymət vermək üçün istifadə eləyəcəklər.

Mən bu sınaq dövrünün tez başa çatmasını istəyirəm.

Diktatura dövründə zaman – yükdü. Demokratiya, bu yükü bizim çiynimizdən götür!

4-5 dekabr 2005-ci il

Özünü doğruldan üsullar

Əgər prezident saxta seçkilərin nəticəsində qalib gəlibsə, bu o deməkdi ki, həmin cəmiyyətdə seçkilərin saxtalaşdırılması bir metod, bir üsul kimi özünü doğruldur. Belə cəmiyyətdə siyasi mübarizənin uğur gətirən yollarını göstərmək istəyən kəs seçkiləri saxtalaşdırmağı da tövsiyə eləməlidi.

Əgər milyonçu korrupsiya, rüşvətxorluq, qətl, dələduzluq yoluyla milyonçu olubsa, onda bu ölkədə adamları halal yolla varlanmağın mümkünlüyünə inandırmaq mümkün olmayacaq. Çünki bu ölkədə artıq varlanmağın hansı üsulunun sınaqdan çıxdığı məlumdu.

Azərbaycanda normal cəmiyyət uğrunda mübarizə aparanlar sınaqdan çıxmamış üsulların təbliğatıyla məşğuldular.

Qalib və məğlub üsullar. Onların tərbiyəvi təsiri çox böyükdü.

Adamları məğlub üsullarla qalib gəlməyə inandırmaq – bu da bir paradoksdu.

Məğlub üsullarla mübarizə aparmaq çətindi.

Məğlub üsullara sadiq qalmaq çətindi. Bu gün Azərbaycanda istər siyasi, istər iqtisadi, istərsə də mədəni sahələrdə əxlaqlı, halal yolla getməyində davam eləmək məğlub üsullara sadiq qalmaq deməkdi.

Mən məğlub üsullara sadiq qalacam.

2005-ci il

Siyasi şüurun inkişafı

Heç kim hakimiyyət uğrunda mübarizənin qurbanı olmaq istəmir. Bu, siyasi şüurun inkişaf göstəricisidi.

2003-cü ilin yayı

Xalq effekti

"Xalq effekti"nin yaranması üçün etirazın olması vacibdi. Məhz etiraz olanda (yəni aksiya təkcə dəstək verməkdən – "xalis dəstək aksiyası"ndan ibarət olmayanda) iştirakçıların xalq olduğu duyulur.

Hazırda sivil ölkələrdə siyasi kampaniyalar zamanı keçirilən aksiyaların, demək olar, hamısı yalnız dəstək aksiyasıdı (hansısa namizədə, partiyaya). Bu aksiyalarda iştirakçılar eləcə alqışlayır, dəstək verir, rəqs eləyir, göyə şar uçurdurlar. Bir növ seçki bayramı. Ona görə onlar xalq kimi görünmürlər, demək olmur ki, bu, xalqdı. Əgər onlar (elə həmin sayda) etiraz eləsəydilər, onda dərhal xalq kimi görünərdilər.

Etirazın xalq ruhunu göstərmək imkanı daha çoxdu, nəinki şounun. Xalqın ruhu etiraz zamanı qabarıq görünür. Eyni zamanda etirazın xalq ruhunu oyatmaq, ona təsir eləmək, kütləviliyi təmin eləmək, hansısa bir məsələni adamlara yaşatmaq, onları uzun müddət o məsələylə yaşamağa, düşünməyə məcbur eləmək imkanı çoxdu. Bayram keçicidi – gəldi, oynadı, sevindi, çıxdı getdi, yadından da çıxdı; amma etirazın yaşantısı dərinə işləyir, tez keçib getmir, adamı adi günlərdə də müəyyən bir ovqatın, ruhun təsiri altında saxlayır.

Heç nədən böyük etiraz mümkün deyil. Amma heç nədən böyük əyləncə, şou mümkündü.

29 dekabr 2003-cü il

Demokratiya və ruh yüksəkliyi

Eradan əvvəl VI əsrdə Qədim Yunanıstanda Afina şəhər-dövlətində Pisistratların tiranlığına son qoyulandan sonra Meqaklın oğlu Klisfen bir sıra demokratik islahatlar həyata keçirdi. Kazimej Kumanetski yazır: «Klisfenin islahatlarının əhəmiyyətini artıq öz müasirləri də qiymətləndirirdi: Herodot afinalıların sonrakı qələbələrini daha tiran uğrunda yox, həmvətənlərinin azadlığı uğrunda döyüşən ordunu ilhamlandırmış demokratik ruhun göstərdiyi təsirlə izah eləyirdi». (Казимеж Куманецкий, «История культуры древней Греции и Рима». Moskva, «Высшая школа», 1990. səh. 57).

Demokratiya haqda anlayışı, təsəvvürü olan, demokratiyadan xəbəri olan adamlarda diktatura ruh yüksəkliyi yarada bilməz. Hansı sahə olursa-olsun – idman, iqtisadiyyat, ordu,

mədəniyyət və sair – orda böyük ruh yüksəkliyi birbaşa ölkədəki ümumi vəziyyətlə, ümumi ovqatla bağlı olur.

Demokratik islahatlar bütün sahələrdə ruh yüksəkliyi, böyük həvəs yarada bilər. Yalnız demokratiya...

23 sentyabr 2002-ci il

İdarəçilik fəlsəfəsi, əxlaqı

İdarəetmənin fəlsəfəsinə insan kiçik işlərdə, kiçik vəzifələrdə yiyələnir. Məsələn, hardasa üç-dörd işçisi olan şöbənin müdiri, yaxud on beş-iyirmi nəfərlik kollektivin rəhbəri və ya rəhbərlərindən biri olduğu vaxt insanda effektli idarəçilik haqda əsas (baza) təsəvvürlər formalaşır. Sonralar o, daha böyük vəzifələrə keçəndə də həmin fəlsəfəylə hərəkət eləyir və həmişə ona elə gəlir ki, həyat onun fəlsəfəsini doğrultmaqla məşğuldu, adamlar onun düşündüyü kimidi – dəyişməyiblər, heç dəyişən də deyillər. İnsanlar (rəhbərlər) idarəni dəyişə bilərlər, amma heç vaxt ilk rəhbərlik dövründə qəbul elədikləri idarəçilik fəlsəfəsini dəyişmirlər. Sonrakı bütün dövrlərdə onların rəhbərliyi formaca başqa cür olsa da, mahiyyətcə dəyişmir.

Əgər kiminsə, tutaq ki, partiya sədrinin, yaxud funksionerinin gələcəkdə ölkəni, hökuməti nə cür idarə eləyəcəyini bilmək istəyirsinizsə, onların indiki idarəçilik fəlsəfəsinə diqqət yetirin. Görün onlar öz tabeçiliklərində olanlarla nə cür davranırlar, özlərindən asılı olanların əhatəsində hansı pozanı alırlar, bu davranışın, pozanın kökündə insana münasibət formalaşdıran hansı fəlsəfə dayanır...

İnsanın idarəçilik fəlsəfəsini bilməklə onun keçmiş, indiki və gələcək idarəçiliyini gözüyumulu təsəvvür eləmək olar. Leytenant taqıma hansı əxlaqla komandirlik eləyirsə, general olanda da orduya o əxlaqla komandanlıq eləyəcək.

İnsan idarəçilik fəlsəfəsini yalnız ilk dövrdə, rəhbər vəzifədə işlədiyi dövrün ilkin mərhələsində dəyişə bilər. Sonrakı dövrlərdəsə bu fəlsəfə (idarəçilik əxlaqı) dəyişməz qalır.

6 sentyabr 2002-ci il

Müxalifət, partiya mənafeyi və milli birlik

Müxalifət milli birliyə vasitə kimi baxır. Yəni hamı birləşsin hakimiyyəti yıxsın, sonra kim istəyir yenə parçalansın. Azərbaycanda milli birlik ideyası hakimiyyət dəyişikliyinə (bir də Qarabağ probleminin ədalətli həllinə) nail olmağın bir üsulu, vasitəsi kimi təbliğ olunur.

Halbuki milli birlik vasitə yox, məqsəd olmalıdı. Millət üçün milli birlikdən böyük ideya, məqsəd yoxdu (olmamalıdı).

Müxalifət üçün birlik vasitədi, ona görə ki, məqsəd mənafedi. Və məqsəd mənafe olduğuna görə onlar məqsəd naminə vasitədən – birlikdən asanlıqla imtina eləyə, müəyyən taleyüklü anlarda yaranmış birliyi asanlıqla poza bilirlər. Və hətta bunun səbəbinin öz partiyalarının mənafeyi olduğunu söyləməkdən də çəkinmirlər.

Birliyə dəyişməz ideya kimi baxmaq lazımdı. Milli birlik tarixin hansısa anlarında çətinlikdən çıxmaq üçün yararlı olan müvəqqəti vasitə deyil. Birlik tarixin bütün dövründə insanlığın can atdığı əbədi (işıqlı) ideyadı. Birlik vasitə deyil, məqsəddi.

Xalq (millət) hansısa təhlükə (aclıq, müharibə, təbii fəlakət və s.) qarşısında, təhlükədən-təhlükəyə birləşməməlidi, xalq (millət) həmişə bir olmalıdı; sadəcə, təhlükəyə qədər bu birlik

ayrı-ayrı fərdlər, kiçik qruplar arasında, kollektivlərin içində duyulmalıdı, yaşanmalıdı, yaşamalıdı, ümummilli təhlükə gələndəsə həmin birlik, sadəcə, küçələrdə görünməlidi, meydanlarda görünməlidi. Təhlükə birliyin mahiyyətini, keyfiyyətini yox, formasını ümumiləşdirməlidi, kəmiyyətcə ümumiləşdirməlidi.

Bizdə müxalifət partiyaları birliyə nail olmaqdan ötrü öz partiya mənafelərinə uyğun forma, model axtarırlar. Milli birliyi partiya mənafeyinə uyğunlaşdırmaq istəyirlər. Əgər belə bir modeli yaratmaq mümkün olsaydı, yaxşı olardı. Amma məsələ burasındadı ki, partiyaların mənafeyinə uyğun milli birlik mümkün deyil. Milli birlik partiya mənafeyinin qurban verilməsini tələb eləyir, deməli, o, partiya mənafeyinə zidd ideyadı.

Mənafe birliyi, mənfəət birliyi partiya daxilində olur. Və partiyada adamlar bu motivlə birləşə bilirlər, birləşirlər. Partiyadan kənar birliklərdəsə həmin mənafelər istər-istəməz az, ya çox dərəcədə (baxır partiya xaricindəki birliyin miqyasına: əgər iri birlikdisə, onda partiya mənafeləri də iri həcmdə qurban verilir) pozulur. Mənafe üzərində, mənfəət motiviylə yalnız partiya həddində, çərçivəsində birləşmək mümkündü. Yəni necə deyərlər, mənafe üzərində birliyin maksimumu budu, bundan o yana mənafe motivi birləşdirici yox, parçalayıcı rol oynayır.

Hər bir motivin maksimumu var – ən azı birləşdiricilik funksiyası baxımından. Yəni hansı motiv hansı həddə insanları birləşdirə bilər məsələsi var. Tutaq ki, ailəcanlılıq. Ailəcanlılıq, ailə təəssübkeşliyi də insan davranışını idarə eləyən motivlərdən biridi. Ancaq ailə motivi yalnız bir ailə, bir nəsil çərçivəsində birləşdirici rol oynayır. Ailə motivinin maksimumu budu. Bundan o yana – kənd, şəhər, region, ölkə, bəşəriyyət səviyyəsinə çıxanda ailə motivi birləşdirici yox, parçalayıcı, dağıdıcı təsir göstərir. Yəni biz deyə bilmərik ki, ailə motivi dağıdıcıdı, biz sadəcə, deməliyik, göstərməliyik ki, o hansı həddə qədər birləşdiricidi.

Partiya motivi, təəssübkeşliyi də belədi. Partiya və müttəfiqlər çərçivəsində birləşdiricidi. Ancaq bu, partiya motivinin maksimumudu. Burdan o yana o, parçalayır.

Milli birlik başqa motivlər tələb eləyir. Milli birlik başqa motivlər üzərində qurulur.

Formul: mənafe üzərində milli parçalanma, mənafeyə zidd milli birlik.

Birliyi mənafeyə uzlaşdırmaq parçalanmanın əsasını qoymaqdı. Kim milli birliyi partiya mənafelərinə uzlaşdırmağa çalışırsa, o birliyin (hansısa məqamda baş tutsa belə) parçalanmasının bünövrəsini indidən qoyur.

31 avqust 2002-ci il

Xalq sevgisi və insan ləyaqəti

Siyasətçilər öz ləyaqətlərini xalqın sevgisiylə sübut eləməyə çalışırlar. Şübhəsiz, xalqın sevgisi, rəğbəti böyük şərtdi – öz əməlində haqlı olduğunu sübut eləmək üçün. Ancaq burda bir məsələ var: ola bilərmi ki, xalq səni sevsin, amma sən o sevgiyə layiq olmayasan? Yəni söhbət ondan getmir ki, sevgi etimadını sonradan doğrultmayasan; yox, söhbət sonrakı dövrlərdən, gələcəkdən yox, elə indiki andan gedir. Söhbət ondan gedir ki, xalq səni sevdiyi halda, sevildiyin andaca sən ona layiq olmaya bilərsən. Deməli, xalqın sevgisi, rəğbəti insanın ləyaqəti haqda yekun, qəti fikir söyləmək üçün kifayət deyil. Xalqın sevgisi insanın ləyaqəti haqda fikir söyləmək üçün kifayət deyil, çünki ola bilsin, xalq səni sevir, amma sən o sevgiyə layiq deyilsən.

Eləcə də əksinə: ola bilsin ki, xalq kimisə sevmir, halbuki həmin adam bu cür sevgiyə layiqdi. Biz o qədər tarixi şəxsiyyət tanıyırıq ki, sağlığında xalq onu nəinki sevməyib, hətta

nifrət eləyib ona, döyüb, söyüb, daşqalaq eləyib, məsxərəyə qoyub, işgəncə verib, öldürüb də. Amma həmin adam bu nifrətə yox, tam əksinə, sevgiyə layiq olub. Belə adamlar sağlığında da olmasa, sonralar – illər, əsrlər keçəndə xalqın sevgisini qazanırlar. Baxın, bu gün Axundovun, Mirzə Cəlilin, Sabirin... heykəllərinə. Bunların hamısı göstərir ki: ən əsası o deyil ki, bu gün xalq səni sevir, ya yox. Yəni sözsüz ki, bu da əsasdı, az şey deyil. Amma ən əsası bu deyil, ən əsası odu ki, sən özün-özlüyündə belə bir sevgiyə layiq olasan, qoy xalq səni bu gün heç sevməsin, amma sən biləsən ki, sevilməsən də, sevilməyə layiq idin.

17 avqust 2002-ci il

Milli birlik formulunu kim axtarır

Bizdə milli birlik formulunu millətindən aralı düşmüş adamlar axtarırlar.

31 iyul 2002-ci il

«Sınıq» imtahanı. Ürəyində günahsız saydığını dilində ittiham eləmək

Azərbaycan cəmiyyətində insanları sındırmaq üçün istifadə olunan metodlardan, üsullardan biri də budu: insandan günahsız saydığı adamı da ittiham eləməyi tələb eləyirlər. Məsələn, jurnalistdən tələb eləyirlər ki, günahkar saymadığı adamı yıxıb-sürüsün, nazirdən tələb eləyirlər ki, onu işdən çıxartsın, polisdən tələb eləyirlər ki, üzünə dursun, hakimdən tələb eləyirlər ki, tutub həbsxanaya salsın...

İctimai-siyasi prosesdən tamamilə qıraqda dayanan adamı da hansısa məqamda bu cür (yəni məhz bu üsulla) içindən sındıra bilirlər. Məsələn, bir gün qapısını döyüb deyirlər ki, rayonumuzun ictimaiyyəti adından filankəsin hərəkətini pisləyən müraciət hazırlamışıq, pasportunuzun nömrəsini burdan yazın, burdan da qol çəkin. Yaxud onu kənd camaatının ümumi yığıncağına çağırıb orda çıxış üçün ona söz verə bilərlər ki, qoy bu da sınsın və yaxud qoy bir də sınsın.

Ürəyində günahkar saymadığı adamı dildə ittiham eləyən adamın çıxışı diktatora təkcə insanları «sınıq imtahanı»ndan keçirtmək baxımından lazım deyil, bu, həm də ondan ötrü həzz mənbəyidi, əyləncədi.

Ancaq günahkar saymadığını ittiham eləmək təkcə diktaturalara aid deyil. Demokratik cəmiyyətdə də bu cür hallar var. Məsələn, vəkillərin günahkar saydığı (yəni öz içində, öz vicdanında bu cür münasibət bəslədiyi) adamı müdafiə, günahsız bildiyi adamı ittiham eləməsi bütün dünyada, xüsusən demokratik cəmiyyətlərdə adi hal kimi qəbul olunur. Dostoyevski öz dövrünün məşhur vəkillərindən olan Spasoviçin bu cür məhkəmə proseslərindən birində 7 yaşlı qızına işgəncə verdiyinə görə mühakimə olunan atanı «təmizə» çıxarıb bütün günahı qızın boynuna yıxmasına cavab olaraq deyirdi: «...Bu ciddi görkəmi yığışdırın, özünüzü elə aparmayın ki, guya onun günahkar olduğuna inanırsınız». (Ф.М. Достоевский, «Дневник писателя». Москва, «Современник», 1989. səh. 176).

21 iyul 2002-ci il

Ədalətli mexanizm

Biz elə bir dövlət qurmalıyıq ki, orda mexanizm işləsin: iki vur iki həmişə dörd eləsin. Və biz elə bir dövlət qurmalıyıq ki, orda mexanizm ədalətə əsaslansın: yəni «dörd» həmişə ədalət yaratsın.

Biz həm elə bir dövlət qurmalıyıq ki, orda iki vur iki həmişə dörd eləsin və biz həm də elə bir dövlət qurmalıyıq ki, orda «dörd» həmişə ədalət yaratsın.

29 iyun 2003-cü il

Siyasi uğur(suzluq) və insan ləyaqəti

Ləyaqətli adamın siyasi uğursuzluğu təəssüfləndirici haldı. Amma heç bir halda siyasi uğursuzluq insan ləyaqətini yenidən dəyərləndirmək vasitəsinə çevrilməməlidi. Siyasi uğursuzluq yalnız insanın müəyyən bacarıqlarını yenidən dəyərləndirmək üçün vasitə ola bilər. Amma siyasi uğursuzluq heç bir halda insan ləyaqətini şübhə altına almaq üçün əsas ola bilməz.

Siyasi uğurla (və ya uğursuzluqla) insan ləyaqəti arasında birbaşa asılılıq yoxdu. Hər halda demokratiya belə bir asılılığı yaratmır, çünki o, siyasi uğuru müəyyən bir zamanda müəyyən yerdə müəyyən adamların rəyindən (rəğbətindən) asılı vəziyyətə salır və nəinki başqa zamanda başqa yerdə başqa adamların rəyinin başqa cür ola biləcəyini, hətta həmin zamanda həmin yerdə başqa rəylərin olduğunu da inkar eləmir.

İnsanlar təkcə kütlənin rəğbətini qazana bildiklərinə görə ləyaqətli sayıla bilməzlər. Tarix, o cümlədən Azərbaycan tarixi kütlənin nifrətini qazanmış, kütlənin nifrətiylə qarşılanmış ləyaqətli adamlarla doludu.

18 iyun 2003-cü il

Siyasi tənha

İnsan tənhalığında azaddı. O öz ürəyində nə istəsə arzulaya bilər, nə istəsə düşünə bilər, nəyi istəsə devirə, dəyişdirə bilər – təbii ki, təxəyyülündə, xəyalında. Daxili fikir, hisslər aləmində, beynində, ürəyində o, həmişə azaddı, ona görə də insanın azadlığını heç vaxt tam məhdudlaşdırmaq mümkün olmayıb. O, hansısa fikri deməkdən, hansısa hisslə yaşamaqdan qorxanda da bu fikri deyir – özüylə söhbətdə deyir, nədənsə danışmaqdan qorxanda da danışır – özüylə danışır, nəyisə duymaqdan qorxanda da duyur. Ancaq bütün bunlar tənhalıq söhbətləri, duyğularıdı. Bu, tənhalıqda azadlıqdı.

Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti məhz bu cür tənhalıqda azaddı. Fəlsəfi mənada bütün dünya sakinləri tənhadı, amma məsələ burasındadı ki, biz azərbaycanlılar siyasi baxımdan da tənhalıqdan qurtulmamışıq. Bu da təbii ki, diktaturayla, repressiv rejimlə bağlıdı. Demokratiya insanları siyasi tənhalıqdan qurtarır. Adamlar siyasətə, dövlətə, hökumətə, siyasətçilərə, ölkə başçısına münasibət bildirməkdən çəkinmirlər. Bizdəsə tənhalığında, təklikdə, öz-özlüyündə rejimə nifrət eləyən adam cəmiyyətdə, adamların arasında ona sevgilərini bildirir. Hətta əksinə də var. Bəziləri rejimlə həmfikirdi, amma üzdə onunla rəqabət aparır.

Biz siyasi tənhalarıq. Kiminin boynuna müxalifətçilik, kiminin boynuna iqtidarçılıq düşüb. Və öz roluna zidd fikir, hiss ürəyimizdən keçəndə onu ifadə eləməkdən çəkinirik.

Bir var mənəvi, psixoloji yadlıq, bir də var siyasi yadlıq. Siyasi yadlıq ictimai problemdi (və təbii ki, bütün ictimai problemlər kimi onun da mənəvi, psixoloji səbəbləri, nəticələri var), onu aradan qaldırmaq insanın o biri yadlığını (əbədi yadlığını) aradan qaldırmaqdan asandı.

13 iyun 2002-ci il

Hakimiyyətə gəlmək və unutmamaq

Hakimiyyətə gəlmək və azadlıq uğrunda mübarizəni unutmamaq – hər adamın işi deyil.

Hakimiyyətdə olmaq və azadlıq uğrunda mübarizə aparmaq – bunu hər adam bacarmaz.

Hakimiyyətə gəlmək və xalqa münasibətini dəyişməmək, hakimiyyətə gəlmək və bu hakimiyyətdə olanları vaxtilə nəyə görə bəyənmədiyini yaddan çıxarmamaq, hakmiyyətə gəlmək və ona nifrətini saxlamaq – çətin məsələdi...

2 may 2002-ci il

Mənəvi qələbə

Mənəvi qələbə Xeyirin daxilən məğlubedilməzliyinə aiddi. Ona görə də mənəvi qələbəni zahirən təsvir eləmək, görmək, real bir fakt kimi, əşyayi-dəlil kimi saxlamaq mümkün deyil. Mənəvi qələbəni yalnız duymaq, praktik yox, intuitiv qavramaq mümkündü.

Mənəvi qələbə fakt deyil, hissdi.

23 aprel 2002-ci il

Azərbaycanda materializm

Azərbaycanda materialist ideyalar gün-gündən güclənir. Çoxları əqidə adamlarının pulla asanlıqla satın alınmasına təəccüblənirlər və bunun səbəbini insanların iqtisadi vəziyyətinin ağırlığında axtarırlar. Ancaq iqtisadi vəziyyət elə əvvəllər də ağır olub və əqidə adamlarının satılmasının başlıca səbəbi cəmiyyətdə pula materialistcəsinə yanaşmanın güclənməsidi. İnsanların xalis iqtisadi maraqları güdməsi normaya çevrilib və artıq ayıb saylımır. Hətta indi sözün hərfi mənasında satılmamış adam kimi görünənlər də artıq əqidə uğrunda yox, pul, qazanc, hakimiyyət uğrunda çalışırlar, deməli, onlar da materialistləşiblər. Azərbaycanda əqidə adamlarının sayı gün-gündən azalır. Səbəb onların ölməsi deyil, şübhəsiz, ölənlər də var, amma əsas səbəb bu deyil, əsas səbəb onların Yer adamına çevrilmələridi və ölənlərin də çoxu elə yerə – torpağa Yer adamı kimi gedir.

Bizdə hakimiyyət hərisliyinin güclənməsinin (bütün dairələrdə) də əsas səbəbi dünyaya materialistcəsinə yanaşmanın güclənməsindədi. Və bütün bu prosesləri, dəyişkənliyi müşahidə elədikcə görürsən ki, insanlar materialistləşdikcə daha iyrənc olurlar. Bu bir daha onu sübut eləyir ki, insanın gözəlliyi, xilası idealizmdədi. Təsadüfi deyil ki, materialistləşmə həddini aşanda cəmiyyətdə çalxalanma baş qaldırır, idealizmə qayıdış baş verir. Azərbaycanda da idealizmə qayıdış olacaq...

Yəqin ki, ölkəmizdə dini icmalara, təriqətlərə, sektalara meyllənmələrdə də cəmiyyətin başqa sahələrindəki materialistləşmənin rolu az deyil.

Fikir verin, indi Azərbaycanın heç bir siyasi partiyasında ideoloji parçalanma yoxdu. Partiyalar yalnız şəxsi münasibətlər zəminində parçalınır. AXCP-nin parçalanmasının da səbəbi ideologiya deyildi. Buna belə bir görüntü verməyə çalışsalar da, belə deyil.

Bu gün Azərbaycanda sağçı, solçu, millətçi, liberal parçalanmalar, qarşıdurmalar yoxdu. Əgər şəxsi münasibətləri qaydasındadısa, onda sağçılarla solçular, millətçilərlə liberallar çox asanlıqla birləşirlər, heç aralarındakı ideoloji fərqlər, problemlər yadlarına da düşmür. Yox, əgər şəxsi münasibətlər gərgindisə, onda qarşıdurmanın səbəbini bir neçə il əvvəl olduğu kimi, ideoloji fərqlərlə yox, şəxsi münasibətlərlə (kiminsə kiməsə dediyi ifadələr, yazdığı tənqid, təhqir, kompromatlar və s.) izah eləyirlər və bundan heç utanmırlar da.

İnsanlar prosesləri, hadisələri əqidə baxımından qiymətləndirmək qabiliyyətini itirirlər.

İndi məsələlərə əqidə baxımından yanaşma hətta ironiyayla qarşılanır.

Mövzuyla əlaqədar bax: Ф.М. *Достоевский*, «*Дневник писателя*». Москва, «Современник», 1989. səh. 131. (Gündəliyin 1876-cı ilin yanvar buraxılışında).

2 fevral 2002-ci il

Əməl eləmədiyini təbliğ eləmək

Əməl eləmədiyi ideyanı təbliğ eləyənlər təbliğ olunan ideyaya əməl eləməyənlərdən daha nadan və təhlükəlidilər.

Əməl eləmədiyi yaxşılığı təbliğ eləyənlər əməl elədiyi qəddarlığı təbliğ eləyənlərdən az təhlükəli deyillər.

Getmədiyi mitinqi təbliğ eləyənlər təbliğ olunan mitinqə getməyənlərdən daha çox qınağa layiqdi.

1 fevral 2002-ci il

«Aşağı» avtoritarlaşmayınca «yuxarı» demokratikləşmir

Erix Fromm «Azadlıqdan qaçış» əsərində göstərir ki, insanların əksəri öz azadlıqlarına tab gətirə bilmir və azadlığın yaratdığı həyəcandan, qorxudan, məsuliyyətdən, tənhalıqdan qurtulmaq üçün nəyəsə tabe olmağa can atır. Azadlıqdan qaçışa müxtəlif zamanlarda müxtəlif insanlar və sosial institutlar (tutaq ki, yaşla götürsək – uşaqlıqda valideyn, tarixlə götürsək – ibtidai dövrdə tayfa, qəbilə, sonralar din, hakimiyyət və s.) kömək göstərir.

...Sovet hakimiyyəti dövründə totalitar rejim – vahid ideologiya, partiya vardı və insanların «azadlıqdan qaçmaq tələbatını» o ödəyirdi.

Azərbaycan müstəqilliyini bərpa eləyəndən sonra insanlar həmin sığınacağı itirdilər, azadlığın ağır məsuliyyəti altında qaldılar.

Mütəllibov və Elçibəy hakimiyyəti xalqı bu yükdən xilas eləyə bilmədi.

Əliyev avtoritarizmi «boşluğu» doldurdu.

Hazırda Azərbaycanda müxtəlif partiyalar, özəl şirkətlər, qurumlar, müəssisələr fəaliyyət göstərir. Yəni artıq insanların azadlıqdan qaçmasına kömək eləyən, tabeçilik tələbatını ödəyən çoxlu mexanizm yaranıb, işə düşüb. Dövlət müstəqilliyimizin ilk dövründə bu mexanizmlər yoxudu, olanları da avtoritar funksiyanı yerinə yetirmədiyinə görə (yadımıza salaq: siyasi, ictimai təşkilatlar, birliklər demokratik idi) insanların tabeçilik, «mənsubiyyətdə ərimə» tələbatı ödənmirdi.

Biz sovet dövründən çıxmışdıq. Bütün sosial institutlar dövlətə məxsus idi. Dövlət hakimiyyətisə həm zəiflədiyinə, həm də demokratikləşdiyinə görə «azadlıqdan qaçış» tələbatını ödəyə bilmirdi. Yəni hakimiyyət bu tələbatı ödəyə biləcək qədər avtoritar deyildi, müxalifət və

qeyri-dövlət qurumlarısa hələ təzə-təzə yaranmışdı, üstəlik də demokratik idi. Beləliklə, xalqın tabeçilik tələbatı nə dövlət, nə də qeyri-dövlət səviyyəsində ödənirdi.

İndi vəziyyət dəyişib. Siyasi partiyalar da avtoritarlaşıb, özəl şirkətlər, müəssisələr də. Artıq xalq tabeçilik tələbatını tək dövlətin yox, qeyri-dövlət sahəsinin, müxalifətin köməyilə də ödəyir. Hakimiyyətə tabe olmayanları müxalifət partiyalarında, supermarket, bank müdirləri qarşısında boynuqısıq görəndə təəccüblənməyin – bu hələ uzun müddət belə olacaq. Heydər Əliyevin hakimiyyətdən getməsini hazırda xalqın sözügedən tələbatını hakimiyyətin vasitəsilə ödəyən hissəsi ağrılı qarşılayacaq, hakimiyyət dəyişikliyi xalqın bu hissəsi üçün daha gərgin, həyəcanlı keçəcək. Ancaq o hissə ki, başqa sahələrdə «köləlik sığınacağı» tapıb, onlar hakimiyyətin dəyişməsini daha rahat, daha az həyəcanla ötüşdürəcəklər. Azərbaycanda demokratik hakimiyyəti məhz bu hissə (hakimiyyətdən asılı olmayan hissə) daha tez, daha az tərəddüdlə qəbul eləyə bilər, nəinki o biri hissə – yəni o hissə ki, demokratik hakimiyyət onlar üçün yenidən azadlıq məsuliyyətinin ağır yükü altında qalmaqdı.

Əgər birinci hissə (hakimiyyətdən asılı olmayanlar) çoxluq təşkil eləyirsə, onda artıq Azərbaycanda dövlət avtoritarizminə son qoymaq, demokratik hakimiyyət qurmaq mümkündü və mümkün olacaq. Əgər ikinci hissə (hakimiyyətdən asılı olanlar) çoxluq təşkil eləyirsə, onda əksinə.

Hələ Əliyev hakimiyyətindən sonra da yuxarıdan avtoritarizm tələb olunacaq.

«Aşağılar» avtoritarlaşmayınca «yuxarılar» demokratikləşməyəcək. Azərbaycanın gələcək problemi «aşağılar»dadı. Azadlıq problemi müasir dünyanın, demokratik cəmiyyətin də problemidi. Çox təəssüf ki, demokratik cəmiyyət, bazar iqtisadiyyatı da azadlıq problemini həll eləyə bilmir.

8 yanvar 2002-ci il

Xalqın diktator, prezidentin diktatura arzusu

Diktatura problemi yalnız o halda tam aradan qalxacaq ki, daha Azərbaycan xalqı diktator, Azərbaycan prezidentisə diktatura arzusuna düşməsin, belə bir istək yerli-dibli olmasın. Əgər bu istək varsa, onda ən demokratik hakimiyyət olsa belə, diktatura problemini tam aradan qalxmış saymaq düz deyil.

Əgər biz istəyiriksə daha Azərbaycanda diktatura olmasın, onda diktatura istəyini yaradan səbəbləri aradan qaldırmalyıq. Hansısa prezidentin diktatorluq eləməsinə imkan verməyən mexanizmin qurulması (tutaq ki, Türkiyədə, Hindistanda olduğu kimi) hələ diktatura probleminin həlli demək deyil. Elə Türkiyə və Hindistan təcrübəsindən bunu görmək mümkündü. Zorla diktatura olur, ancaq zorla demokratiya olmur.

16 dekabr 2001-ci il

«Hər bir hakimiyyət öz xalqına layiqdi» fikri haqqında

Hər bir hakimiyyət öz xalqına, hər bir xalq öz hakimiyyətinə layiqdi, deyirlər. Əgər söhbət ləyaqətli hakimiyyətdən gedirsə, onda bu fikirlə razılaşmaq lazımdı. Əgər söhbət ləyaqətsiz hakimiyyətdən gedirsə, onda yox, razılaşmaq olmaz. Heç bir ləyaqətsiz hakimiyyət xalqa və heç bir xalq ləyaqətsiz hakimiyyətə layiq deyil.

Ancaq onu da etiraf eləmək lazımdı ki, bu, məsələyə əxlaqi-fəlsəfi yanaşmadı, yəni ləyaqətsiz hakimiyyətin xalqa layiqliyini etik, mənəvi prinsiplər baxımından qəbul eləməməkdi.

Psixoloji baxımdansa ləyaqətsiz hakimiyyətin də xalqa layiq olmaq imkanı var, çünki o da xalqın hansısa keyfiyyətləri üstündə bərqərardı. Deməli, «hər bir hakimiyyət öz xalqına layiqdi» deyiminə yalnız psixoloji həqiqət kimi baxmaq olar, mənəvi həqiqət kimi yox.

1998-ci il

Şairlərin halı

Pis şairlərin Azərbaycana vurduğu ziyan yaxşı şairlərin verdiyi xeyirdən az olmayıb. Ancaq xeyir və şər mübarizəsində onlar heç də həmişə ayrı-ayrı cəbhələrdə dayanmayıblar. Bəzən qarışıq olub, pis şair də yaxşı şairlə birgə xeyirin, yaxşı şair pis şairlə birgə şərin tərəfində dayanıb. Ona görə də, ola bilsin, pis şairin vurduğu ziyandan yox, ümumiyyətlə şairin vurduğu ziyandan danışmaq daha düzgündü.

Biz ictimai mübarizədə həmişə şairi öndə görmək istəmişik. Bu da cəmiyyətin şairə vurduğu ziyanlardan biridi. Şairlər çox tez-tez bu istəyə aldanıblar. Bir də onda ayılıblar ki, cəmiyyət ona "get otur, şeirini yaz" deyir. Ancaq gedib oturub şeirini yazanda da onu rahat buraxmırlar. "Qaçdı" deyirlər. Beləliklə, cəmiyyət şairi yenidən küyləyib ictimai həyata qaytarır, sonra yenidən ağız-burnunu büzüb onu rədd eləyir. Beləcə, cəmiyyətlə şairin arasında qovğa yaranır: şair başa düşmür ki, o, xalqa ictimai varlıq kimi də lazımdı, ya yox. Bunu heç cəmiyyət də düz-əməlli başa düşə bilmir.

Bizdə şair siyasətə yolüstü qoşulsa yaxşıdı. O, iclaslara təsadüfən gəlib çıxanda hörmətli olur. Bu gün Azərbaycanda şairin üzləşdiyi təhlükələrdən biri də onun aşığa çevrilməsidi. Bir vaxt aşıqlar Azərbaycanın ən hörmətli adamları olublar. Onlar saz çalıb oxuyanda bəylər, xanlar öskürəklərini boğurmuşalr ki, hörmətdən düşməsinlər. Ancaq indi aşıq deyəndə adamın gözünün qabağına araq içməkdən sifəti qızarmış bir sürü qarınqulunun oturduğu məclisdə araya düşüb ora-bura tullanan bambılının birisi canlanır. Şübhəsiz, başqa cür aşıqlarımız da var. Ancaq indi bu obraz o qədər güclüdü ki, hətta ciddi aşıqları da ciddi qarşılamağa çətinlik törədir. Azərbaycan şairləri özlərini məclis aşığına çevrilməkdən qorumalıdılar. Bunun bir şərti odu ki, şair hər məclisdə söz alanda şeir deməməlidi. Xüsusən siyasətçinin iştirak elədiyi məclisdə o, şeirlə yox, nəsrlə danışmalıdı. Şair şeirini o auditoriyada oxumalıdı ki, ordakılar onun şeirlərini əzbər bilirlər. Və əgər həmin məclisdə onun şeirini əzbər bilməyən bir nəfər varsa, həmin nəfər gedənəcən gözləmək lazımdı...

Təxminən 1998-ci il

Demokratiyadan sonrakı cəmiyyətdə

Demokratiyadan sonrakı cəmiyyətdə prezidenti xalq yox, prezident aparatının işçiləri seçəcək.

1997-ci il

Yaltaqlıqla pərəstişin fərqi

Yaltaqlıq ona görə nifrətə layiqdi ki, o, səmimi deyil. Səmimidisə, demək, bu, yaltaqlıq deyil, pərəstişdi.

28 dekabr 1995-ci il

Napoleon özü ağıllı adam olmayıb, ancaq çox ağıllı sözlər deyib

Evdə oturub söhbət eləyirik. Söz gəldi Napoleondan düşdü. Musa babam dedi ki, Napoleonun çox ağıllı sözləri olub. Kimsə cavab verdi ki, hə, Napoleon ağıllı adam olub. Babam dedi, yox, Napoleon özü ağıllı adam olmayıb, ancaq çox ağıllı sözlər deyib.

5 fevral 1994-cü il

Diktator və şair

Diktator da şair kimidi: qanunlara tabe olmaq istəmir.

1993-cü il

Zal səmimiyyəti alqışlayırdı

Bir dəfə oturub televizora baxırdım. Prezident Əbülfəz Elçibəyin Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetində keçirdiyi görüş göstərilirdi. Əbülfəz Elçibəy universitetin müəllim və tələbələri qarşısında çıxış eləyib qurtardı və çıxışının sonunda çox səmimiyyətlə dedi ki, bağışlayın, vaxtınızı aldım, sizi yordum və s. Onun bu cür səmimiyyətlə, mehribanlıqla üzr istəməsindən sonra zaldakılar gurultuyla əl çaldılar. Əbülfəz Elçibəyin zalda oturan adamlara bu cür hörmətlə yanaşması, onlara üstdən aşağı baxmaması və bütün bunları səmimiyyətlə (Bu sözə diqqət yetirmək lazımdı. Qeyd eləməliyik ki, onun üzr istəməsində, sözlərində və üz-gözündə zərrə qədər də olsun saxtakarlıq yoxuydu. O, tam səmimiydi.) eləməsi zaldakı adamların çox xoşuna gəlmişdi.

Səhv eləmirəmsə, bu verilişə 1992-ci ilin sonlarında baxmışam.

1992-ci il

Mitinqlərə maraq haqqında

Yaşadığımız dövrün tarixi şəraitindən asılı olaraq bizim maraq obyektimiz də dəyişir. Mitinqdə iştirak eləməyə gedən adamın mitinqin canlı şahidi olmağa olan marağı mitinqin irəli sürdüyü, həll eləmək istədiyi problemə olan marağından qat-qat üstündü. Mitinqə toplaşanlara ağıllı, dəyərli çıxışlardan çox maraqlı informasiyalar təsir eləyir.

Mitinqçilər mitinqin keçdiyi vaxt ərzində heç olmasa bircə dəfə maraqlı hadisənin baş verməsini səbirsizliklə gözləyirlər. Mitinqi dağıtmaq üçün çağırılan əsgərlər, milislər mitinqi dağıtmadan çıxıb getsələr, bu, mitinqçilərin yalnız təəssüfünə səbəb olar. Mitinqin hər bir iştirakçısı hadisələrin şahidi olmağıyla fəxr eləyir, başqalarının yanında bu hadisəni danışmaqdan həzz alır.

1991-ci il

12. Əxlaqi nəzarətçilik iddiası və əxlaq

Başqası üzərində əxlaqi nəzarətçiliyə iddia və əxlaq

1) Başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləmədən əxlaqlı yaşayan adam.

2) Başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləmədən əxlaqsız yaşayan adam.

3) Əxlaqlı yaşayan və başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləyən adam.

4) Əxlaqsız yaşayan, amma başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləyən adam.

Bunlardan birincisi ən nadir hadisədi, ikincisi nadir hadisədi. Üçüncüsünə bəzən arabir, bəzən tez-tez rast gəlmək olur. Dördüncüsü ən çox yayılmış hadisədi, ona addımbaşı rast gəlinir.

Birincisi ən ləyaqətli tipdi.

İkinci və üçüncü ləyaqətli tiplərdi.

Ən ləyaqətsizi dördüncü tipdi.

Birincisində iki yüksək keyfiyyət birləşib: başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləmir; əxlaqlı həyat tərzi sürür. İkincisində bir yüksək (başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləməmək), bir alçaq (əxlaqsız həyat tərzi) xüsusiyyət birləşib. Üçüncüsü də həm yüksəkdi (əxlaqlı həyat tərzi sürür), həm də alçaqdı (başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləyir). Dördüncüsü alçağın alçağıdı: əxlaqsız yaşayır, üstəlik başqası üzərində əxlaqi nəzarətçiliyə iddia eləyir.

Alber Kamyunun doktor Riyesi («Taun» romanı) birinci tipdi. Merso («Yad» povesti) daha çox ikinci tipə yaxındı. Halbuki doktor Riyedən soruşsan, heç vaxt Merso haqda bu cür (mənim kimi) fikir yürütməzdi.

Mənim idealım birinci tipdi (doktor Riye). Amma mən özüm o cür ola bilərəmmi? Hətta nə vaxtsa özümü əxlaqsızlıqdan bir az qoruya bilsəm, özümü başqası üzərində əxlaqi nəzarətçilikdən də azcana saxlaya bilərəmmi? Bəlkə də nə vaxtsa bir az əxlaqlı ola bilərəm, amma nə vaxtsa özümü başqası üzərində əxlaqi nəzarətçilik iddiasından azcana çəkindirə biləcəyimə zəmanət vermirəm.

Əxlaqlı yaşayan adamlar başqası üzərində əxlaqi nəzarətçiliyə daha az iddia eləyirlər, nəinki əxlaqsız yaşayan adamlar. Başqası üzərində əxlaqi nəzarətçiliyə iddia çox güclü ehtirasdı, çox nadir hallarda insan tamahını ondan saxlaya bilir. Və təbii ki, bu, əxlaqsız adama daha çətin başa gəlir, nəinki əxlaqlıya.

Başqası üzərində əxlaqi nəzarətçiliyə iddia əxlaqsız ehtirasdı. Yalnız əxlaqlı adamın simasında o, bir az abıra minir. Bir az. Amma bu heç də az deyil.

6 dekabr 2002-ci il

Əxlaqi nəzarətçilik iddiası yazılmamış qanunlardan başlayır

Başqası üzərində əxlaqi nəzarətçilik iddiası yazılmamış qanunlardan başlayır.

9 noyabr 2002-ci il

Yazılmamış qanunlar. Başqası üzərində əxlaqi nəzarətçilik iddiası

Biz hamımız yazılmamış qanunların həm hakimi, həm də müttəhimiyik. Hakimiyik – həmin qanunların adından mühakimə eləyəndə, müttəhimiyik – mühakimə olunanda.

Cəmiyyət, xalq nə qədər geridəqalmışdısa, onun üzvlərinin bu cür hakim və müttətim olmaq imkanı da bir o qədər çoxdu.

O vaxt ki biz öpüşən oğlanla qıza tərəf tərs-tərs baxırıq, o vaxt biz hakim rolunda çıxış eləmiş oluruq. Burda «müttəhimlərin» kim olduğunu söyləməyə ehtiyac yoxdu. Mən özündən böyüyə durub yer vermədiyinə görə metroda, avtobusda hansısa qadının, kişinin cavan bir oğlanı təhqir elədiyini az görməmişəm. Ənənələr insana nə qədər çox hakimlik iddiası verirsə, bir o qədər də müttəhimlik qorxusu verir.

Azad, sivil cəmiyyətdə insanlar yalnız yazılmış qanunlar çərçivəsində özlərini başqaları, başqalarını da özləri üzərində nəzarətçi sayırlar. Yalnız yazılmış qanunlar mənim sənə, sənin mənə nəzarət eləməyinə haqq verə bilər və əgər qanun bizə bu haqqı vermirsə, onda biz bu rolda oynamırıq.

Avropalı adam hesab eləmir ki, oğlanla qız onun onlara tərəf baxdığını görəndə öpüşməyi dayandırmalıdılar. O özünü insanların sevgisi üzərində nəzarətçi saymır, ona görə də belə mənzərələrə tərs-tərs, tərbiyəçi, nəzarətçi iddiasıyla baxmır. Mən burda həmin oğlanla qızın özünün daxili azadlıqlarına, sərbəstliklərinə toxunmuram. Burda məni şüurun mühakimə olunmaq qorxusu, ənənə qarşısında xof yox, şüurun hakimlik iddiası, özünü əxlaq himayəçisi, əxlaq keşikçisi saymaq meyli (təkəbbürü) maraqlandırır. Baxmayaraq ki, bunlar bir-birinə bağlı məsələlərdi, ancaq hələ ki, mən iddiadan danışıram, qorxudan yox.

Sivil cəmiyyətdə şüur qanunla qadağan olunmayanı qadağan saymamağa vərdiş eləyir. Şüur başqasının üzərində əxdaqi nəzarətçilik iddiasını itirməyə doğru gedir. Əlbəttə, əgər siz uşağınızı döysəniz, o dəqiqə alman qonşunuz zəng vurub polis çağıracaq, bu başqa məsələdi, bunun səbəbləri də başqadı, cəmiyyət nə qədər inkişaf eləyibsə, nə qədər sivildisə, ədalətsizliyə qarşı da bir o qədər dözümsüzdü və ədalətsizliyə dözümsüzlük elə cəmiyyətin inkişafının, azadlığının göstəricisidi və biz şüurun başqasına nəzarətçilik iddiasını itirməsindən danışanda haqsızlığa laqeydləşməsini, mənən keyləşməsini nəzərdə tutmuruq, əksinə, şüurun öz haqqını tanımasını, əxlaqın, mənəviyyatın, azadlığın sərhədini görməsini nəzərdə tuturuq. Bir-birinə sarmaşmış iki cavanın təcili bir-birindən ayrılmasını tələb eləyən kənar tərs baxışlar əslində çox tərbiyəsiz, həyasız baxışlardı və bu, həm özünün, həm də başqasının azadlığını, haqqını tanımamağın nəticəsidi.

Özünüz təsəvvür eləyin: bu cür mənzərəyə əsəbiliklə tamaşa eləyən azərbaycanlı qadının (yaxud kişinin) tərs baxışları və bu mənzərənin yanından olsa-olsa yüngülvari bir təbəssümlə ötən amerikalının laqeyd addımları. Sizcə, onların hansı daha tərbiyəli, əxlaqlı adamdı? «Bir-biriylə həyasızcasına öpüşən oğlanla qız» təfəkküründən çıxmaq lazımdı və bilmək lazımdı ki, bir-biriylə həyasızcasına öpüşmək yoxdu, yalnız onlara həyasızcasına baxmaq var.

Bizdə hər kəsə elə gəlir ki, onu başqasının üzərində nəzarətçi qoyublar, ona görə də hər kəs başqasının onun üzərində nəzarətini təbii qarşılayır.

Hamını hamıya nəzarətçi saymaq ibtidailiyin, totalitar təfəkkürün nəticəsidi. İbtidai qəbilələrdəki, tayfalardakı davranış formalarında biz bu nəzarətçiliyin, hakimliyin və müttəhimliyin ən yüksək, ən sərt çalarlarını görürük.

O vaxt ki qanunlar yazılmağa başladı, onda məlum oldu ki, nə qədər mənasız, artıq, lazımsız yazılmamış qanunlar var.

Yazılmamış qanunlar – onları ona görə yazmayıblar ki, onlara ehtiyac yoxdu. Yazılmış qanunlar göstərir ki, cəmiyyət yazılmamış qanunlarsız da yaşaya bilər.

Hansı qadağalara ki ehtiyac var, onlar qanunlarda yazılıb, hansılar ki, yazılmayıb, deməli, qadağan deyil və onlara əməl eləmək cəmiyyət üçün təhlükə törətmir.

22 aprel 2002-ci il

13. Ədalət və cəza

Heç bir cəza zərərçəkəni xilas eləmir

Heç bir cəza (söhbət cinayətkara, günahkara verilən cəzadan gedir) zərərçəkəni xilas eləmir. Məsələn, qatilə verilən cəza ölmüş adamı diriltmir. Oğruya verilən cəza oğurluqdan xəbər tutduqları vaxt ev yiyələrinin keçirdiyi həyəcanı, qorxunu, gərginliyi yaddan çıxartmır. Sürücüyə verilən cəza piyadanın maşına çırpıldığı anı geri qaytarıb onun tərcümeyi-halından, yaddaşından, psixikasından silmir.

Cəzanın məhz bu mənada absurdluğunu, əhəmiyyətsizliyini, acizliyini (başqa mənalarda cəza, əlbəttə ki, absurd, əhəmiyyətsiz və aciz deyil) çox vaxt zərərçəkən tərəfin müttəhimə verilən ən ciddi cəzaya münasibətində də görmək olur. Məhkəmədə müttəhimin cəzalanmasına var qüvvəsiylə çalışan zərərçəkənlər çox vaxt axırda – arzuladıqları məhkəmə qərarı oxunandan sonra əllərini yelləyib «Noolsun e... Onsuz da biz çəkdiyimizi çəkmişik» deyirlər. Bu hiss hətta düşmənçiliyi, kimisə cəzalandırmaq qətiyyətini, qisas almaq arzusunu birdəfəlik aradan qaldıra da bilir. Yəni bəzən adamlar qisasın, cəzanın onlara dəymiş zərəri ödəməyəcəyini, istənilən halda günahkarın artıq onlara yüklədiyi iztirabdan xilas ola bilməyəcəklərini düşünüb heç bir qisasa cəhd göstərmirlər.

Heç bir cəza – Allahın verdiyi cəza da zərərçəkəni xilas eləyə bilməz. Bununla belə mən Yer kürəsində, bu dünyada cəza verməyin mənasını başa düşürəm – aqressiv meylləri cəmiyyətdən təcrid eləmək, cəmiyyəti azğınlaşmış adamlardan qorumaq, cinayətin təkrarlanmaması, eyni zamanda başqalarına yoluxmaması üçün cinayətkar əməl sahiblərinə dərs vermək zəruridi. Ancaq mən o dünyada, ruhlar aləmində cəzanın mənasını başa düşmürəm. Ruhun əzab çəkməsi nəyə lazımdı ki? Bunun hansı faydası ola bilər ki?

16 mart 2002-ci il

Ədalət və cəza

Günahsıza ağır cəza vermək olar, günahkara yox. Məsələn, körpəni qətlə yetirən ona ağır cəza verib. Bəs həmin qatilə ağır cəza, onun layiq olduğu cəzanı vermək mümkündümü? Yox. Qatilə verilən heç bir cəza qatilin günahsız qurbanına – körpəyə verdiyi cəzanın əvəzini ödəyə bilməz. Qatil – ona verilən bütün cəzalardan daha artıq cəzaya layiqdi. Deməli, qatil heç vaxt layiq olduğu cəzanı almır. Dünyanın heç bir qatili layiq olduğu cəzanı almayıb. İnsanın – qatili layiqincə cəzalandırmaq imkanı yoxdu.

İnsanın insana layiq olmadığı cəzanı vermək imkanı var, layiq olduğu cəzanı vermək imkanı yoxdu.

Dünyanın quruluşu belədi: böyük cinayətkarın layiq olduğu böyük cəzanı ona vermək mümkün deyil. Əslində cəzalar nəinki böyük cinayətin – yəni qətlin, hətta kiçik cinayətin, məsələn, bir haqsız şillənin də əvəzini ödəyə bilmir.

Dünya belə yaranıb: elə bil kimsə günahkara cəza vermək məsuliyyətini öz üzərinə götürüb. Yəqin bunda məqsəd insanın cəzalandıra bilməyəcəyi, cəzalandırmağa macal tapmayacağı cinayətkarlar sarıdan da narahatlığını aradan qaldırmaq olub. Ən böyük cəzanı bu

dünyada vermək mümkün olsaydı, onda Allah, o dünya cəza vermək məsuliyyətindən azad olmalıydı. Onda pessimizmə qapılmaq üçün daha çox əsas olardı, çünki insan bütün cinayətkarları yaxalayıb məşhər ayağına çəkə bilməyəcəkdi. Onda insan kiçik cəzalarla kifayətlənib ən böyük cəzalandırmaq imkanını yenə Allaha verəcəkdi, çünki insandan yayınmaq mümkündü, Allahdan yox. Bir halda ki, belədi, onda niyə ən böyük cəzalandırma imkanı Allahda olmasın ki? Deməli, bütün cinayətlərin əvəzini ödəmək, bütün cinayətlərə layiqincə cəza vermək imkanının, səlahiyyətinin Allahın ixtiyarında olması ədalətlidi, düzgündü. Bircə qalır Allahın varlığına tam əminlik. Vəssalam. Bu olsa, Hitler sarıdan da narahat olmağına dəyməz.

Belə bir sual yarana bilər: olmazdımı ki, qatilin layiq olduğu cəzanı vermək imkanı həm insanda, həm də Allahda olsun? Bu təxminən o deməkdi ki, olmazdımı ki, insan Allah olsun və Allah özü (yəni insandan kənar Allahın özü) olmasın? Məsələ burasındadı ki, həmin imkanın insanda olandan sonra Allahda olmasına, yəni insandan, bu dünyadan kənar Allaha ehtiyac qalmır. Çünki ədalətin, konkret mövzuya uyğun desək, körpə qətlinin layiqli, tam ədalətli əvəzini ödəməkdən ötrü ilk növbədə körpəni diriltmək (!) lazımdı. Bunsuz qatilə verilən bütün cəzalar indiki insanın verdiyi cəzalardan artıq olmayacaq. (Ədalətinə görə artıq olmayacaq. Məşəqqətinə görə artıq ola bilər – məsələn, əbədi və daha dözülməz ola bilər, ancaq burda yenə ədalətin bərpası baxımından çatışmazlıq olacaq.). Deməli, ədalətin bərpası üçün həm cinayətkar cəzalanmalıdı, həm də zərərçəkən zərər çəkdiyi andan əvvəlki vəziyyətinə qaytarılmalıdı. Bu başqa məsələdi ki, bunun ikincisi (zərərçəkənin zərərdən əvvəlki vəziyyətinə qaytarılması) mümkün olandan sonra birincisinə (cinayətkarın cəzalandırılmasına) nə ehtiyac qalır?

Çox qəribə bir paradoks yaranır (sualın cavabını axtaranda): Allah cəzalandırdığı anda da bağışlamalıdı! Çünki ilahi cəza ədaləti elə bərpa eləyir ki, artıq burda cinayəti, cinayətkarı günahkar vəziyyətində saxlayan vəziyyət tamamilə aradan qalxır. Yəni cinayət körpənin öldürülməsindən ibarətdisə, cəzada, tam ədalətli cəzada körpənin dirilməsi hökmən lazımdısa, körpə hökmən dirilirsə, deməli, avtomatik olaraq cinayət – qətl aradan qalxır. Əlbəttə, burda belə demək mümkündü ki, körpə qətlə yetirilmədiyi ana, vəziyyətə qayıdır, amma qatil qatil olmadığını, yəni körpəni öldürmədiyi vəziyyətə qayıtmır. Bu təxminən ona bənzəyir ki, mənim oğurlanmış pulumu özümə qaytarırlar, amma oğrunu da cəzalandırırlar, həbs eləyirlər. Ancaq bu vaxt mənim pulumun qayıtması oğrunun cəzasını yüngülləşdirmirmi? Əlbəttə, yüngülləşdirir. Deməli, cəzanın ağır olması üçün mən arzulamalıyam ki, oğru pullarımın hamısını xərcləmiş olsun. Ancaq bu halda cəza ağırlaşsa da, ədalət bərpa olunmur. O biri haldasa (pullar qayıdanda) ədalət bərpa olsa da (mən zərər çəkmədiyim vəziyyətə qayıtsam da), cəza yüngülləşir. Ədalət prinsipi ilahi mənada cəza prinsipiylə uyğun gəlmir! Mənim bayaqdan demək istədiyim bu idi!

Ədalətlə cəza başqa-başqa anlayışlardı. Ədalət prinsipiylə cəza prinsipi eyni prinsip deyil, hətta zidd, daha dəqiq desək, bir-birinin çatışmazlığından yaranmış prinsiplərdi. Ədalət varsa, cəzaya ehtiyac yoxdu, cəza varsa, demək, ədalət (tam ədalət) yoxdu.

Ədalət o deyil ki, insan ona əzab vermiş adamı əzab çəkən görür. Ədalət odu ki, insan özünün əzab çəkmədiyini, ona əzab vermək cəhdinin puça çıxdığını görür (burda «görür»lərin yerinə «görsün» kəlməsini də işlətmək olar), görür ki, ona əzab vermək istəyən öz arzusuna çatmayıb – yəni o, heç bir əzab çəkməyib(miş).

Ədalətsizlik ondadı ki, körpəni öldürmək istəyən adam körpəni öldürə bilir, bu cəhd baş tutur, ədalətsizlik odu ki, körpəyə tuşlanmış tapançadan da atəş açmaq mümkün olur, ədalət də odu ki, sən bu istəyin baş tutmadığını, yəni körpənin ölmədiyini görürsən, görürsən ki, demə,

güllə körpəyə dəyməyibmiş, demə, o tapançadan atəş açılmayıbmış. Deməli, ədalət, əsl ədalət cinayətin bütövlükdə aradan qalxmasındadı, əsl ədalət cinayətin puça çıxmasında, heçə enməsindədi. Əsl ədalət o deyil ki, sənə şillə vuranı cəzalanan görürsən, əsl ədalət odu ki, sən görürsən ki, o sənə şillə vura bilməyibmiş, sənə şillə dəyməyibmiş. Körpə ölməyibsə, əzab olmayıbsa, şillə dəyməyibsə, demək, cinayət olmayıb. Cinayət olmayıbsa, demək, qatil olmamalıdı. Cinayət yoxdusa, demək, qatil də yoxdu. Qatil yoxdusa, demək, cəza da olmamalıdı. Deməli, nə qatil, nə də cəza var, çünki ədalət var! Yəni ədalət varsa, nə qatil, nə də cəza olmalıdı. Bunlardan (cinayət və cəzadan) birinin olması ədaləti heçə endirir, ədalətin yoxluğunu göstərir. Bunların ikisinin olması da ədalət deyil (ilahi, əsl ədalət baxımından). Ədalət olan yerdə cinayət ola bilməz. Cinayət olmayan yerdə cəza ola bilməz.

Əgər cinayət yoxdusa, qətl, şillə yoxdusa, bu o demək deyilmi ki, qatillə, xuliqanla xeyirxahın, eyni zamanda qatillə xuliqanın arasında heç bir fərq yoxdu?

Qatil! Əgər ədalət varsa, sən məni öldürə bilməzsən. Əgər sən əlindəki tapançanın darağını mənim sinəmə boşaltdığın anda da məni öldürmürsənsə, öldürə bilmirsənsə, onda mənim sənə qatil deməyə haqqım çatırmı? Onda bu o demək deyilmi ki, sənin tətiyi çəkməyinlə çəkməməyinin arasında da heç bir fərq yoxdu? Və bu o demək deyilmi ki, sənin istənilən anda tətiyi çəkməyə mənəvi (!) haqqın çatır?! Eləcə də... mənim.

Sənin qatil olmağından ötrü ədalətsizlik, özü də əbədi, ilahi ədalətsizlik zəruriymiş. Bəs mənim bu ilahi, əbədi ədalətsizlik içində qatil olmağı istəməməyim nə deməkdi? Bu absurd deyilmi ki, ədalətsizlikdi, amma mən qatil olmaq istəmirəm. Və bu absurd deyilmi ki, ədalət var, amma sən qatil ola bilirsən...

16 iyun 2002-ci il

İlahi cəza yalnız mühakimədən ibarət ola bilər

İlahi cəza yalnız mühakimədən ibarət ola bilər. Əgər buna cəza demək mümkünsə. Dostoyevskinin «Cinayət və cəza»sında Marmeladov deyir: «Allah hamını mühakimə eləyib bağışlayacaq...». («Cinayət və cəza». Bakı, sovet dövrünün nəşri (təxminən 1960-cı illər). səh. 35).

«Karamazov qardaşları»ndasa Lizanın «o dünyada ən böyük günaha görə Allah insana neyləcəyək» sualına Alyoşa belə cavab verir: «Allah insanı məzəmmət eləyəcək». (Ф.М. Достоевский, «Братья Кармазовы». Москва, «Художественная литература», 1973. səh. 594).

Ən böyük cəza ən kiçik günahı yuya bilərmi? Yox.

22 avqust 2002-ci il

Yasaq və cəza. Cəzanın məqsədi nədi?

İnsana niyə cəza verirlər? Qadağan olunmuş işi gördüyünə görə. Yalnız buna görə adama cəza vermək olar. Ona görə də cəza üçün mütləq qadağa lazımdı. İnsanı cəzalandıra bilmək üçün əvvəlcə ona nəyisə qadağan eləmək gərəkdi.

Bəs qadağa nədən ötrüdü? Yasaq adamların, ətraf mühitin təhlükəsizliyini qorumaq üçündü. Cəzasa qadağanın özünü qorumaq üçündü. Cəzanı yalnız yasağı qorumaq cəhdi kimi başa düşmək olar. Yəni cəza yasağın sərhədidi, vuran əlidi, onu keçəndə adama güllə atırlar.

Yasaq hansısa işlərin, hərəkətlərin qabağını almaq, davranışların, münasibətlərin sərhədini cızmaq, cəzasa həmin sərhəddən kənardakı (xaricdəki) həyatı çətinləşdirməklə,

əzablı, məşəqqətli eləməklə adamları daxildə dayanmağa, «xaricə» qaçmamağa məcbur eləməkdi.

Bəziləri elə bilir ki, cəza ədaləti bərpa eləməkdi. Halbuki cəza heç bir halda ədaləti bərpa eləyə bilməz.

Bəziləri fikirləşir ki, adamları başqalarına ibrət olsun deyə cəzalandırmaq gərəkdi. Bu, cəzaya daha mənfur yanaşmadı. Hər kəs öz günahının cəzasını çəkməlidi. İnsanı hələ törədilməmiş cinayətlərə və hələ doğulmamış cinayətkarlara görə cəzalandırmaq olmaz. Başqalarına ibrət kimi verilən cəza hələ törədilməmiş cinayətlərə, hələ doğulmamış cinayətkarlara, yəni hələ mövcud olmayan günahlara görə verilən cəzadı.

Cəzanı başqalarına nümunə, ibrət kimi tətbiq eləyənlər gərək müqəssirin çəkdiyi əzabları da ictimai baxışa çıxaralar. Üstəlik, həmin əzabları daha da artıralar. Əks halda onların niyyəti puça çıxacaq.

Viktor Hüqo «Ölümə məhkumun son günü» povestində yazır: «Üçüncü və axırıncı dəlil qalır – bədnam məsələnin nəzəriyyəsi. Nümunə olmaq lazımdı! Cinayətkarı təqlid eləmək fikrinə düşənləri lərzəyə salmaq və onların aqibətinin necə qurtara biləcəyini əyani surətdə göstərmək lazımdı; bu məlum məsələ Fransanın beş yüzə yaxın məhkəməsində səslənən ittihamnamələrdə bütün variantlarıyla, demək olar ki, olduğu kimi, nöqtəbənöqtə təkrarlanır. Nə olsun?! Əvvəla biz «nümunə» sözünün özünü, bu sözün doğurduğu fikri, eləcə də ölüm cəzasının doğurduğu mənzərəni, onun xalqa göstərdiyi təsiri rədd eləyirik. Xalq bu mənzərədən nəinki ibrət almır, hətta bu, xalqın bütün nəcib hisslərini öldürür, xalqın mənəviyyatını pozur...

Yox, əgər siz həqiqətin əksinə olaraq mühafizəkar nəzəriyyə üsulunu üstün tutursunuzsa, onda bizi on altıncı əsrə qaytarın, mühafizəkarlığınızda təkid eləyin, həqiqətən nəyə qadir olduğunuzu göstərin, edamın, ölüm cəzasının müxtəlif üsullarını bizim üçün bərpa eləyin, bizə qaytarın: bizə Farinası qaytarın, cəlladları, dar ağacını, tonqalı, işgəncə alətini, adamı təkərə sarıyıb ölənə kimi sümüklərini necə sındırmağı, qulaqlarının kəsilməsini, insanın şaqqalanmasını, onu diri-diri basdırmağı, diri-diri qaynar qazana atmağı bizə qaytarın; Parisin hər yerində həmişə açıq olan dükanlar kimi lap təzə bir dükan açın, qoy cəlladın iyrənc ət dükanı həmişə təzə insan ətiylə dolu olsun. Monfokonu, onun yonulmamış daşlardan hörülmüş on altı sütununu, sümüklə dolu zirzəmilərini, tirlərini, onun qənarələrini, zəncirlərini, xırda-para skelet qalıqlarını, dəstə-dəstə qarğaların zilindən ağaran təpələri, hər cür dar ağaclarını və şimal-qərb küləyinin əsməsiylə bütün Tampl qəsəbəsinə yayılan insan cəsədinin boğucu iyini qaytarın. Paris cəlladının bu əzəmətli, nəhəng tikintisini bütün əvvəlki görkəmi və vücuduyla bizə qaytarın, bunları bərpa eləyin. İşiniz avand olsun! Bu ən böyük nümunə, dəlil olar». (Viktor Hüqo, «Seçilmiş əsərləri». Bakı, «Nasir», 2002. səh. 33-35).

25 may 2003-cü il

Ayrıca olaraq bir nəfəri cəzalandırmaq mümkün deyil

«Ölümə məhkumun son günü»ndə oturub edamını gözləyən məhbus (onun anası, arvadı və bir qız övladı var) düşünür: «Deməli, mən öləndən sonra üç qadın oğuldan, ərdən və atadan məhrum olacaq: qanunun törətdiyi üç yetim, üç başsız adam. Tutalım, mən haqlı olaraq cəzalanmışam; bəs, anam, arvadım, qızım? Onlar ki, günahsızdılar, onlar ki, heç nə eləməyiblər. Axı, onlar rüsvay olacaqlar, müflisləşəcəklər! Budumu ədalət?». (Viktor Hüqo, «Seçilmiş əsərləri». Bakı, «Nasir», 2002. səh. 71).

Ayrıca olaraq bir nəfəri cəzalandırmaq mümkün deyil. Hər bir cəzadan – istər qanuni olsun, istərsə də qanunsuz – neçə-neçə kənar adam (cəzalananın ailə üzvləri, qohum-əqrəbası, dost-tanışı, iş yoldaşları və başqa yaxınları) da ziyan çəkir. Hər bir cəza – istər ədalətli olsun, istər ədalətsiz – neçə-neçə günahsız adamı da cəzalandırır, onlara əzab verir. Çünki heç kim tək deyil, hamının doğması var və hər bir cəzadan insana (cəzalanan şəxsə) doğma olan günahsız adamlar da əziyyət çəkdiyinə görə heç bir cəza tam ədalətli ola bilməz. Yəni cəzanın ədalətli ola bilməməsinin səbəbi çoxdu, biri də budu: ondan günahsız adamların ziyan çəkməsi.

26 may 2003-cü il

Döyülsəydi tərgitməzdi

Xalamoğlu Qoşqarın 16 yaşı var. "Siqaret çəkməyi tərgitmişəm, - deyir, - çünki atam məni siqaret çəkdiyim yerdə tutdu". Soruşanda ki, atan səni döydümü, cavab verdi ki, yox, döymədi, elə ona görə də tərgitdim, döysəydi tərgitməzdim.

1993-cü il

14. İntihar

İnsan niyə özünü öldürməməlidi?

Şopenhauer «Dünya iradə və təsəvvür kimi» əsərində stoisizmdən danışanda yazır ki, bu təlimi yayanlar əzablardan xilas olmağa çağırırdılar, eyni zamanda insanın özünü öldürməsinə qarşı çıxırdılar, ancaq heç biri əsl səbəbi göstərə bilmirdi ki, insan niyə özünü öldürməməlidi, intihar niyə qadağan olunmalıdı. (Артур Шопенгауэр, «Мир как воля и представление». Минск, «Попурри», 1998. I cild, «Birinci kitab», səh. 139).

Bu sualın cavabı mütləq tapılmalıdı: İnsan niyə özünü öldürməməlidi? Kamyu bu sualı, daha doğrusu, intihar məsələsini fəlsəfənin ən əsas sualı, problemi sayırdı.

Belə bir məqalə də hazırlamaq olar: fəlsəfi təlimlər insanın özünü öldürməməsinin vacibliyini nəylə əsaslandırır? Məqalədə dini, fəlsəfi, etik təlimlərin intihara münasibəti əks olunmalıdı. Ancaq bu məqalədə söhbət, sadəcə, münasibətdən getməməlidi, söhbət ondan getməlidi ki, onlar insanın özünü öldürməsinin və yaxud öldürməməsinin vacibliyini əsaslandıra bilirmi? Onlar intihar eləmək istəyən, yaxud istəməyən insanı səhv və ya düz yol seçdiyinə inandıra bilirmi? Görəsən, dünyada elə fəlsəfə varmı ki, intiharın yanlış yol olduğuna inandıra bilsin?

«İnsan özünü niyə öldürməməlidi?» – bu, fəlsəfənin sualıdı. «İnsan özünü niyə öldürür?» – bu, psixologiyanın sualıdı. İkinci sual birincidən daha asandı. Biz insanın keçmiş həyatını, başına gələnləri araşdırıb onun özünü niyə öldürdüyünə müəyyən qədər aydınlıq gətirə bilərik. Düzdü, bu zaman da həmişə müəmma qalacaq. Nəinki özünü öldürmüş adamı, hətta intihara cəhd göstərmiş, ancaq sağ qalmış adamı da axıracan başa düşmək mümkün deyil.

İntiharın qarşısını almaq üçün Kantın irəli sürdüyü etik prinsiplərə toxunan Şopenhauer (Артур Шопенгауэр, «Свобода воли и нравственность». Москва, «Республика», 1992. səh.

168-169, 141-142) deyir ki, bu cür arqumentlər yəqin həyatdan bezmiş bir adamı da, bir anlığa da olsa, ləngitməyib. (Sitat 169-cu səhifədəndi).

Doğrudan da, intihar əleyhinə arqument gətirəndə onun praktik təsir gücünü hesablamaq lazımdı. Düşünmək lazımdı: bu arqumentlər insanı intihar fikrindən döndərə bilərmi?

İntihar fikrinə düşmüş konkret bir insanı yolundan döndərmək istəyəndə biz təxminən bilirik ki, hansı arqumentləri gətirmək lazımdı. Hətta həmin adamı tanımayanda belə biz bir neçə dəqiqəlik söhbət zamanı təxminən müəyyənləşdirə bilərik ki, ona nə cür təsir eləmək olar, hansı arqumentlər, ifadələr, intonasiya onun xarakterinə, temperamentinə, ovqatına təsir göstərə bilər.

Özünü öldürmək istəyən adamı hansısa arqumentlərlə fikrindən daşındırmaq olar, ancaq həmin arqumentlər fəlsəfi baxımdan o qədər absurd görünəcək ki, istər-istəməz düşünəcəksən: sən bu adamı aldatmısan.

Fəlsəfi baxımdan yalan danışmadan insanı intihar fikrindən daşındırmaq mümkün deyil. Bu, istisnasız olaraq bütün insanlara aiddi. Bəzi insanlarısa həyata bağlamaq üçün siyasi, ictimai, iqtisadi, etnik, irqi, məhəlli, tibbi, bioloji yalanları da danışmaq lazım gəlir.

14 fevral-5 aprel 2002-ci il

İntihar. İnsanın öz daxilində obyektə və subyektə bölünməsi

İntihar zamanı qətlin subyekti də, obyekti də eyni adamdı. Qatil də mənəm, qurban da. Deməli, mən özümü öldürə bilməkdən ötrü özümü obyektə çevirməyi bacarmalıyam. Əks halda intihar mümkün deyil. Mənim özümə əl qaldırmağım – «mən»i «öz»ümdən (yaxud tərsinə) ayırmağımdı, artıq burda «mən»lə «özüm» arasında fərq var, onlardan birini subyekt kimi götürürüksə, o birini obyekt kimi götürməliyik; hansını obyekt kimi götürürüksə, bax, qətlə yetirilən, intiharın qurbanı olan odu, sui-qəsd zamanı insan ona qəsd eləyir.

«Mən»lə «özüm»ün ikisi də eyni zamanda obyekt ola bilməz, çünki bu halda yenə də bir «mən»ə ehtiyac yaranır. «Mən»lə «özüm» eyni zamanda subyekt də ola bilməz. Çünki bu halda yenə bir obyektə ehtiyac yaranır, elə bir obyektə ki, o, məndən qıraға çıxmasın, mənim öz varlığımı əks elətdirsin.

Əgər mənim özümü öldürməyim subyektin subyekti öldürməyi demək olsaydı, insan heç vaxt intihar eləyə bilməzdi. İnsanın özünə əl qaldırması artıq əli özündən ayıra bilməsi deməkdi. Deməli, insanın özünü bir obyekt kimi dərk eləməsi nəyin nəticəsidisə, intihar da onun nəticəsidi. Deməli, insanın özünü obyekt kimi görməsi hadisəsi harda baş verirsə, intihar da orda baş verir.

Təsadüfi deyil ki, intihar təkcə insanlar arasında yox, özünü obyekt kimi görməyi bacaran, müəyyən mücərrəd siqnalları ayırmağı, müəyyən qədər mücərrəd intellektual əməliyyatlar aparmağı bacaran heyvanlar arasında da baş verir.

Deməli, hər bir intiharda istər-istəməz insanda belə bir ümid qalmalıdı ki, o, tamamilə, axıracan ölmür. Qətli törədənin, qatilin yaşayacağına inana-inana özünü qətlə yetirir insan.

İntihar qətlini törədənin kimliyi mənə məlum deyil. Ancaq qətlə yetirilənin kimliyi göz qabağındadı.

Mən qatili tanımıram, mən qurbanı tanıyıram. Mən qatili görmürəm, mən qurbanı görürəm.

25 aprel 2002-ci il

Həyatın yüksək mənası varmı?

İntiharın qarşısını yalnız həyata daha yüksək məna verməklə almaq olar. Ancaq həyatın belə bir mənası varmı? Hansı fəlsəfə həyatın ölümdən daha yüksək olduğunu birmənalı sübut eləyə bilir?

Bir dəfə qədim Yunanıstanın ilk filosofu Fales (eradan əvvəl 625-547-ci illər) deyəndə ki, həyatla ölümün heç bir fərqi yoxdu, eşidənlərdən biri soruşub: «Bəs onda niyə ölmürsən?». Fales cavab verib: «Çünki fərqi yoxdu». (Əlisa Nicat, «Dünya filosofları», Bakı, 1995. səh. 81).

Ancaq Falesin məntiqi ikibaşlıdı. Bu məntiqin insanı intihardan saxlamaq gücü nə qədərdisə, onu intihara yuvarlamaq, onu intihara itələmək gücü də o qədərdi. Fərqi yoxdusa, onda ikisinə də əl atmaq olar. Özü də seçmək yox, məhz əl atmaq. Çünki seçim fərqdən, fərqləndirməkdən xəbər verir. Seçim eləyə bilmək üçün fərq olmalıdı. Fərq yoxdusa, onda yaşamaq da ölmək kimi təsadüfdən, ovqatdan asılıdı.

8 sentyabr 2002-ci il

Elə intihar varmı ki, orda başqasının günahı olmasın?

Frans Kafkanın gündəliyindən (1914-cü ilin 14 fevral qeydindən): «Özümə qəsd eləsəydim, buna görə heç kəsi zərrə qədər günahlandırmaq olmazdı…» (Франц Кафка, «Избранное». Москва, «Радуга», 1989. səh. 448).

Elə bir intihar varmı ki, orda başqaları, heç olmasa bircə nəfər günahkar olmasın? Bu dünyada yalnız öz günahı ucbatından özünü öldürən olubmu? Elə olubmu ki, özünü öldürən təkcə öz günahı ucbatından ölsün?

Ümumiyyətlə, yalnız öz günahın ucbatından özünü öldürmək mümkündümü? Yalnız özünü günahkar sayan adam intihar eləyə bilərmi?

1 noyabr 2002-ci il

Vaxtın qatili

Mən öz vaxtımın qatiliyəm.

Vaxtı ya yaşamaq, ya da öldürmək lazımdı. Heç birini bacarmayanda adam darıxır, bilmirsən neyləyəsən.

Mən öz vaxtımı yaşamaqla yox, öldürməklə məşğulam.

Mən özümü yaşamaqla yox, öldürməklə sakitləşdirirəm.

20 avqust 2005-ci il

15. Dərin məna içində

Balaca qiyamət

Bilirsənmi nə istəyərdim? İstəyərdim sakit, gözdən-könüldən uzaq bir yerə çəkilim, özünüaldatmanın bütün mexanizmlərindən azad olum, bütün yaxşı-pis əməllərim gözümün qabağına gəlsin, yaxşı əməllərimin sevincini, pis əməllərimin ağrısını yaşayım, dözüm, dözüm, onun sonsuz sevincinə, hədsiz əzablarına da dözüm, beləcə təmizlənim, yaxşını-pisi dərk eləyim, sonra yenidən adam içinə çıxım...

"Quran"da deyilir ki, qiyamət günü Allah insanı bütün əməllərindən xəbərdar eləyəcək. Mən hərdənbir, vaxt ötdükcə, yəqin ki, üç-dörd ildən bir balaca qiyamətdən keçmək istəyərdim. İstəyərdim ömrümün bəzi mərhələlərində bütün həqiqətlə üz-üzə durum, cənnəti də, cəhənnəmi də görüm qayıdım, təmizlənim, kamilləşim, sakitləşim, yolumu tapım, ancaq bu «qiyamət» uzun sürməsin, «qiyamətlər» arasındakı vaxt da uzun sürməsin, yoxsa günahlar üst-üstə yığılar, «qiyamət günü»nə tab gətirmək çətin olar.

«Qiyamət»in özü də uzun sürməsin ki, cəmiyyətə qayıtmaq, yeni yola qədəm qoymaq mümkün olsun.

Bir sözlə: balaca qiyamət. Bu həm də böyük qiyamətə daha az günahla gedib çıxmağın yolu ola bilər.

Əslində hər kəs öz ömründə bu cür balaca qiyamətlərdən keçir. Hər kəsin ömründə qiyaməti andıran böhranlar olur. Mən hərdən mənəvi süstlük hiss eləyəndə, mənalı düşüncələrdən, duyğulardan uzaq düşəndə, cisimlərə, hadisələrə mənalar vermək qabiliyyətimin korşaldığını görəndə böhranlı anlarım üçün darıxıram. Qəlbimdə fəlsəfi kirimişlik yarananda qiyamət istəyirəm. Düzdü, o mənim istəməyimlə deyil, amma gəlib çıxır. Bəzən istəmədiyim vaxtda gəlsə də, gəlib çıxır.

28 may 2008-ci il

Dərin məna içində

Stüardessalar təyyarənin içində vurnuxur. Biri çay, biri qəhvə verir, o biri əyilib nəsə soruşur. Elə bu anın özündə Yer kürəsində milyonlarla həyat mənzərəsi var: Parisin üstüylə təyyarə uçur, Bakıda anam eyvana çıxıb baxır, atamın qəbiri üstünə gün düşür, işğal olunmuş kəndimizə qüssə yağır... Bu milyon-milyon mənzərənin içində əlini çənəsinə dayayıb fikrə getmiş mən də varam.

Mən bilirəm, bu mənzərələrin hamısı eyni mənadan xəbər verir. Hamısı həyatın eyni mənasını ifadə eləyir. Hamısı bir mənadan doğan müxtəlif şəkillərdi.

Stüardessaların xəbəri də yoxdu ki, onlar dərin bir məna içindədilər.

Mənim eyvandan baxan anama baxmaq bəs eləyər ki, həyatın bütün mənasını dərk eləyəsən. Atamın işığa bürünmüş qəbirində bütün dünyanın mənası yatır. Bizim işğıl olunmuş kəndimizin kədəriylə min il əvvəlki və milyon il sonrakı kədər arasında heç bir fərq yoxdu.

16 aprel 2008-ci il

Qızın yer süpürməyi

Qızın yer süpürməyinə məhəbbətlə baxıram. Qızın yer süpürməyi yox, ona məhəbbətlə baxmağım xoşuma gəlir.

Avtobus sürüb gedir. Avtobusun şüşəsindən başqa adamlar, başqa küçələr görünür. Ancaq mən bayaqkı anın qayıtmasını istəyirəm. İstəyirəm qızın yer süpürməyi yox, mənim ona məhəbbətlə baxmağım əbədi olsun.

9 aprel 2008-ci il

Hamı dərdlidi

Hamı dərdlidi, İlahi, sənin yaratdığın dünyada hamı dərdlidi.

6 mart 2004-cü il

Yoxluq

Yoxluq, elə bir yoxluq ki, orda yox da yoxdu.
Heçlik, elə bir heçlik ki, orda heç də heçdi.

19 mart 2003-cü il

Bir gün baxıb görürsən ki, nə qədər adam yoxdu...

Böyüdükcə uşaqlıqdan sənə doğma olan adamları itirə-itirə gedirsən. Bir gün gözünü açırsan ki, o yoxdu, o biri gün gözünü açırsan ki, bu yoxdu, bu biri gün baxırsan ki, o biri yoxdu. Beləcə itirə-itirə gedirsən və bir gün yan-yörənə boylanıb görürsən ki, nə qədər adam yoxdu, İlahi!..

29 may 2003-cü il

Ölüm şəkli

Başdaşları üstündə şəkillər. Heç kim başdaşı üçün şəkil çəkdirmir, amma çəkdirdiyimiz şəkillərin hansısa ölüm şəklidi – yasımızda mağardan asacaqlar, qırxımızda qəbirimizin üstünə vuracaqlar.

Kim bilir hansı şəklimiz ölüm şəklidi, nə bilək hansı şəkli həm də başdaşımız üçün çəkdirmişik...

Heç kimin öz ölüm şəklindən xəbəri yoxdu.

25 may 2003-cü il

Özünü öldür

Özünü öldür, İlahi! Özünü öldür, İlahi!

2002-ci il

Allah bilir nəsən sən...

Mən sənə Allah deyirəm, göy üzü – Allah bilir nəsən sən.
Nənəm sənə maral deyir, mor inək – Allah bilir nəsən sən.
Mən sənə vətən deyirəm, Azərbaycan – Allah bilir nəsən sən...

29 avqust 2002-ci il

Yad

Hərdən gecənin bir aləmində eyvana çıxıb dünyaya tamaşa eləmisənmi? Ağacların vahiməli titrəyişinə, göyün qəddar uzaqlığına, buludların soyuqluğuna baxmısanmı? Duymusanmı küləklərin yadlığını, binaların arxasında dünyanı boğmağa hazır dayanmış dənizin uğultusunu? Eşidirsənmi o dəniz necə bağırır? Görürsənmi bu dünya necə yaddı?

Bu dünya bizə yaddı, İlahi! Bəs bizim doğma dünyamız nə vaxt olacaq?

27 iyun 2002-ci il

Kainatdan qıraqda

«Gözəl bir gecə idi, elə gecə ki, sevimli oxucum, belə gecələri biz ancaq gəncliyimizdə hiss eləyə bilərik. Səma elə ulduzlu, elə parlaq idi ki, ona baxan qeyri-ixtiyari öz-özünə bu sualı verərdi: «Doğrudanmı belə bir səma altında müxtəlif xasiyyətli, acıqlı və şıltaq insanlar yaşayır?». Bu, yeni sualdır, sevimli oxucum, həm də çox yeni, ancaq Allah eləsin ki, bu sual sizin qəlbinizdə tez-tez oyansın!..». Dostoyevski, «Bəyaz gecələr». (F.M.Dostoyevski, «Seçilmiş əsərləri». Bakı, «Gənclik», 1985. səh. 5).

Hansısa kəndə, ya binaya qıraqdan baxırsan, çox gözəl görsənir: yaraşıqlı, dinc, mehriban, tənbəl... Ancaq düşünəndə ki, o kənddəki evlərdə, o binadakı otaqlarda (elə bu dəqiqənin özündə də!) hər cür şər, böhtan əməllər, niyyətlər, dünyanı məhv eləməyə hazır ehtiraslar qaynaşır, dəhşətə gəlirsən. Həm də təəccüb eləyirsən. Bəzən dünyanın çölü gözəldi, içi onu sevməyə mane olur, bəzən də əksinə: üzdən kifir olanları sevdirən içərilər də var. Sevginin mənbəyi həm daxili, həm də zahiri olandı, o cümlədən nifrətin mənbəyi.

Dünyaya başqa planetdən baxmaq maraqlı olardı. Sözsüz ki, ordan da Yer kürəsi dinc və tənbəl, sükunət halında görünür – Ay kimi, ulduzlar kimi.

Kağız parçasındakı molekullar bizdə kağıza ikili münasibət yaradır. Ancaq hətta fiziklərin də gözündə o hər şeydən əvvəl kağızdı. İnsan kağızı yalnız hərdənbir, özü də qısa müddətə molekul yığını kimi görə bilər, təsəvvür eləyə bilər. Şüurun kağıza bu münasibəti uzun müddət saxlamağa gücü yoxdu. Ona görə də azca ötən kimi şüur kağıza bütöv münasibətini (molekul yığınına «kağız münasibəti»ni) bərpa eləyir. Ancaq dünyaya münasibətdə belə deyil.

Biz dünyanı daha çox molekullar, atomlar şəklində görürük, çünki bütövdən qıraqda deyilik, onun içindəyik, zərrəciklərdən biriyik. Bununla belə aydındı ki, şüurun dünyanı, kainatı bütöv qavramaq qabiliyyəti də var və elə buna görə də o, şüurdu. Ancaq kağıza «molekul münasibətini» çox saxlaya bilməyən şüur bu dəfə əks keyfiyyətdə çıxış eləyir: o, dünyaya «kağız münasibətini» çox saxlaya bilmir. Necə ki kağızda molekulu təsəvvür eləmək üçün gərgin diqqət, bilik, təcrübə və intuisiya lazımdı, o cür də bir kənddə, şəhərdə, bir insanda, bir hadisədə bütün dünyanı görmək üçün şüur xüsusi bir gərginlik istəyir. Onun bu gərginliyə çox tab gətirməyə halı yoxdu, ancaq hər halda həmin gərginlik anında baş verənləri hifz eləməyə yaddaşı, təhlil eləməyə anlayışı var.

Mən bir kəndi, bir binanı qıraqdan bütöv gördüyüm anda bütün dünyanı bütöv görürəm. O kəndin, binanın özü də zərrəcikdi, bü dünyanın özü də zərrəcikdi, bu kainatın özü

də zərrəcikdi... Mən bir kəndin yox, bir kainatın qırağında dayanmışam. Kainatın qırağında dayanmaq nə qədər qüssəlidi, Allah!...

23 may 2002-ci il

Heyvanın günahı

KEÇ-in həyətində heyva ağacları var. Ağacların birində heyva yetişib. O gün KEÇ-in qarovulçusu 73 yaşlı Atabala kişiyə dedim ki, deyəsən heyvanın hamısını yeyib qurtarıblar (yeyənlərdən biri də elə mən özüməm).

– Adə, nə vecimə. Onsuz da dişim yoxdu, hamısı tökülüb. Kim istəyir yesin.

Onda başa düşdüm ki, Bobbi (mən onu belə çağırıram: Bobbi – Atabala Bobbi, əlbəttə, onun öz yanında yox) heyvanı dərənlərin qarasınca niyə deyinmirmiş. Fikirləşirdim nə əcəb belə sakit qalıb. Deməyəsən, Bobbinin dərdi varmış. Sən demə, Atabala dişi tutanı, dişi də yox e, damağı tutanı qoruyurmuş. Haqq-ədalət, vicdan, abır-həya, böyük-kiçik mövzusunda söylədiyi moizələrin kökündə elə həmin damağı, bir də pomidor-xiyarı, ənciri, narı, üzümü çeynəmək qabiliyyətini hələ itirməmiş iki-üç kötük dişi dayanırmış. Heyva Atabalanın nəyinə lazımdı. Kim istəyir yesin.

Heyva Atabalanın nəyinə lazımdı. Dünən görürəm dediyim o heyva ağacının yarıdan çoxunu Atabala baltadan keçirib.

– Niyə belə eləmisən, Atabala dayı?

– Adə, bu nədi e… Kol-kos olub basıb buraları. Belə yaxşıdı. Kəsəciyəm.

Kəsəcək. Heyva Atabalanın nəyinə lazımdı. «Kim istəyir yesin». Dilində deyir Atabala bu sözləri. Atabalanın dili qarnındadı. Atabalanın da qarnı var axı. O da heyva istəyir. Ancaq yeyə bilmir. Onda niyə başqaları yesin. Kəsəcək. Heyva Atbalanın nəyinə lazımdı. Hamısını kəsəcək!

10 oktyabr 1996-cı il

Payız

Payızın ilk günləri idi. Yolla gedirdim. Balaca bir tikili tikirdilər. Deyəsən aptek idi. Binanın yanı, üstü tikilmişdi, ancaq hələ pəncərələri yox idi. Binanın yanında bir balaca uşaq dayanmışdı. Mən ordan keçəndə hələ şüşəsiz və çərçivəsiz olan pəncərə yerindən gördüm ki, işıq kölgələri düşür. Binanın içi qaranlıq idi. Başa düşdüm ki, içəridə elektrik qaynaqçıları var və onlar qaynaq elədikcə alınan qığılcımın, alovun işığı tavana düşür, buna görə də tavan hərdənbir işıqlanır.

Mən binanın yanından ötüb keçirdim. Birdən həmin o balaca uşaq qışqırmağa başladı: «Urraa, yağış yağır!..»

Doğrudan da, işığın tavana saldığı titrək kölgələr elə bil ki, ildırımdı. Qaranlıq tavanda – yəni gecə vaxtı göydə – ildırım çaxır. Və bu gözəl bir poeziyadı. Mən bu poeziyanın yanından soyuqqanlı ötüb keçirdim. Mən bu poeziyanı görmürdüm. Çünki mən bilirdim ki, bu işıq içəridə əlində elektrik qaynağı tutmuş, gözünə iki dəmiri bir-birinə qaynaq elədikcə alınan güclü qığılcımdan qorunmaq üçün qara eynək taxmış bir qaynaqçının yaratdığı işıqdı. Bu balaca uşaqsa tavanda titrəyən işığı ildırım sanır və qışqırırdı: «Ura, yağış yağır».

Bu tutqun, cansıxıcı, küləkli payız havasında çatışmayan bircə şey vardısa, o da yağış idi. Narın, ya da şıdırğı yağış yağsaydı və külək öz quru soyuqluğu əvəzinə bu yağışı üzümə çırpsaydı, mən kimsəsiz yola, nəfəssiz binalara bu yağışın altında tamaşa eləyə bilsəydim, nə

© A.Qaraçənli

qədər gözəl olardı. Bu yağış mənim qurumuş damarlarımda sellənib susuzluqdan çat-çat olmuş beynimi cana gətirərdi.

...İldırım çaxırdı. Narın payız yağışında islanmaqdan ləzzət alan bapbalaca uşağın yanından ötüb keçirdim. O yağışın bir damcısı da mənim üstümə düşmürdü.

15 oktyabr 1992-ci il

16. Mən niyə yazıram?

Mən niyə yazıram?

Mən gündəlik yazmıram. Nə vaxtsa yazmışam, amma indi yazmıram. Həm özümü, həm də başqalarını aldatmaq istəmirəm. Onsuz da heç kim başqasının əsl taleyini, əsl tərcümeyi-halını bilmir. Yəni onsuz da mən də başqaları kimi yaşadığım çox-çox hadisəni, hissi gizlətmişəm, gizlədirəm, indi bunu bir gündəlik yazmaqla da gizlətməyə, yəni bunu gizlətmək üçün bir gündəlik də yazmağa nə ehtiyac...

Mən gündəlik yazmıram – yaşadığım hadisələrin və hisslərin yazılı qeydiyyatını aparmıram.

Mən yalnız maraqlı, mənalı saydığım fikirlərimi və məndə müəyyən bir fikir əmələ gətirən hissləri, hadisələri, müşahidələrimi yazıram. Yəni müşahidələrimi də ona görə yazıram ki, məndə fikir oyadıb, fikrimi yazım. Müşahidələr də iki cür olur: daxili (hissi) və xarici (görünən). Məndə maraqlı, mənalı bir fikir oyatmayan hadisələri, hissləri yazmıram. Belə hadisə və hisslər mənim üçün maraqsızdı. Mən ona görə gündəlik tutmağı mənasız iş sayıram və ona görə gündəlik oxumağa marağım yoxdu ki, gündəlik hər cür (!) hadisə və hisslərin, fikirlərin yazılmasını tələb eləyir. Yəni janrın stili, tələbi belədi. Çox ədəbsiz, həyasız janrdı. Bu başqa məsələdi ki, gündəlik yazanlar janrın bu tələbinə əməl eləyirlər, ya yox. Söhbət indiki anda ümumiyyətlə janrın xüsusiyyətindən gedir.

Bəs mən fikirlərimi niyə yazıram?

Bunun dörd səbəbi var.

Birincisi, onların yadımdan çıxmasına yol verməmək, onları tutub saxlamaq, nə vaxtsa onlardan yazılarımda (yəni məqalələrimdə) istifadə eləmək üçün. Bəzən elə olur, nə vaxtsa qeyd elədiyim bir cümləni sonralar bir yazıya çevirirəm.

İkincisi, həmin fikri inkişaf elətdirmək üçün. Bəzən fikir yazıldıqca daha sürətlə inkişaf eləyir, nəinki beyində qaldıqca. Bəzən beynimdəki bir cümləni yazmaq üçün qələmi əlimə götürürəm, yazanda iki-üç, hətta dörd-beş səhifə çıxır. Təbii ki, hər fikri, cümləni yazanda belə olmur. Ancaq yazmayınca bunu bilmirsən. Ona görə də mən unudulmaq təhlükəsi altında olmayan, yazılmağa, kağıza can atmayan cümləni də beynimdən kağıza köçürməyə çalışıram.

Üçüncüsü, başqa fikirlərin yaranışına şərait yaratmaq, yol açmaq üçün. Kal və ya yetişmiş olmasından asılı olmayaraq fikir beyində qalanda başqa fikirlərin inkişafına maneçilik törədir. Necə deyərlər, fikir fikirləşməyə qoymur. Ona görə də mən başqa fikirlərin yaranmasına, yaxud inkişaf eləməsinə şərait yaratmaq üçün beynimi «təmizləməyə» çalışıram.

Dördüncüsü, fikirlərimi yazmaqla mən həmin fikrin ifadə elədiyi sahəylə, məsələylə bağlı münasibətimi dəqiqləşdirir və hazırcavablığımı formalaşdırıram. Bir növ qaralamaları

yazmaqla mən özümü xəyalən söhbətlərə, diskussiyalara, müsahibələrə hazırlayıram. Bu, birinci səbəbdə dediklərimə də oxşayır. Ancaq eyniləşdirmək olmaz. Birinci səbəbdə mən ümumiyyətlə fikrin yaddan çıxmasına imkan verməməkdən və gələcək yazılara hazırlıqdan danışıram. Sözsüz ki, bu məqsədlə qeyd elədiyim hansısa fikir hansısa söhbətdə, diskussiyada, müsahibədə mənim dadıma çata bilər. Burda – dördüncü səbəbdəsə mən belə bir təsadüfdən yox, hər hansı söhbətə məqsədli hazırlaşmaqdan, özümdə müxtəlif sahələr, mövzular, suallar üzrə hazırcavablıq formalaşdırmaqdan, müxtəlif məsələlər üzrə mövqeyimi, münasibətimi dəqiqləşdirməkdən, söz, fikir, aydın və təsirli cümlələr şəklində ümumiləşdirməkdən danışıram. Əlbəttə, bu məqsədlə yazdığım qeydlərin heç də hamısı lazımi məqamda tam şəkildə, sözbəsöz yadıma düşmür, hətta tamamilə yadıma düşməyə bilər, ancaq ümumiyyətlə götürəndə bu cür hazır cavablar aid olduğu sual, məsələ, sahə, mövzu üzrə məndə daxili arxayınçılıq, özünəinam, rahatlıq yaradır, cümlə, söz yadıma düşməyə bilər, ancaq məsələyə münasibətimi özümçün aydınlaşdırdığıma görə ortalığa sual çıxanda, söhbət mövzusu atılanda məndə çaşqınlıq yaranmır.

Hansı mövzuyla bağlı hazır cavablarım varsa, özümdə həmin mövzuların müzakirə olunduğu söhbətə maraq, canatımı duyuram. Bəzən də hiss eləyirəm ki, başqa mövzuda söhbət gedəndə hərləyib-fırlayıb müzakirəni daxilən hazır olduğum istiqamətə yönəldirəm, bir növ təxribat yaradıram ki, söhbət mənim hazır olduğum mövzu üzrə getsin. Bəzən mən bir cümləni, bircə cümləni deməkdən ötrü bu cür təxribatlara yol verirəm. Və həmişə çalışıram ki, adamlarda mənim həmin cümləni bədahətən dediyimə şübhə yaranmasın. Hesab eləyirəm ki, bu cür şübhənin yaranmasına imkan verməməyə mənim haqqım çatır. Çünki o cümləni mən nə vaxtsa doğrudan da bədahətən tapmışam. İndi nəyə görə həmin cümlə gözəlliyini və qiymətini yalnız qabaqcadan hazırlandığı bilindiyinə, hiss olunduğuna görə azaltmalıdı ki? Fikrin gözəlliyinin və dəyərinin yalnız bu səbəbdən azalması ədalətsizlikdi. İnsanlardasa bu cür ədalətsizlik var: onlar hazırcavablığa heyran olurlar, hazırlanmış cavablarısa elə dinləyirlər ki, elə bil ikinci dəfədi eşidirlər.

Beləliklə, mən fikirlərimi qaralama şəklində yazmağımın səbəblərini göstərdim. Burda bir məsələ təəccüblü görünə bilər. Mən heç demədim ki , fikirdən qurtulmaq üçün, tələbatdan yazıram, yəni ona görə yazıram ki, yazmaya bilmirəm, məsələyə münasibət, yaxud özünüifadə, özünütəsdiq məcbur eləyir ki, yazım. Bəli, mən bu səbəbi göstərmədim. Ona görə ki, dörd səbəbdən danışanda mən fikirlərimi qaralamaya, özüm üçün qeyd eləməyimin səbəblərindən danışırdım. Mən fikirlərimi hansısa yazıda birləşdirməyimin, məqalə şəklində çap elətdirməyimin səbəblərindən danışmırdım. Əgər bundan da danışsam, onda deməliyəm ki, özümçün qeyd elədiyim fikirlər mənim özünüifadə, özünütəsdiq, şöhrət tələbatımı ödəmir. Həm də həmin fikir bir yük kimi məndən qopmur. Onun qaralamaya qeyd olunması mənim beynimdə müəyyən yüngülləşmə yaradır, ancaq uzun müddət kağızda, qaralamada qalanda artıq mənə ağırlıq eləməyə başlayır. Qaralamaya qeyd olunmuş fikrin ikinci dəfə doğulmaq, mətbuata, ictimaiyyətə çıxmaq şansı var və bu şansın yaratdığı istək, həvəs məni rahat qoymur.

Qaralamadakı fikir nə qədər işlənmiş, yetişmiş, redaktə olunmuş olsa da, yenə mənə qaralama kimi görünür. Onu çapa göndərəndə mənə elə gəlir ki, nəyisə düzəltmək, nəyisə dəyişmək lazımdı. Və yazı çapa getdiyi son ana qədər nəyisə qaralamaq, nəyisə düzəltmək, dəyişmək cəhdindən özümü saxlaya bilmirəm. Qəzet məndən ötrü ağlamadı. Hər bir müəllifin öz yazısını ağlamada görmək, yəni onu aydın şəkildə, tamamlanmış, bütöv görmək arzusu, tələbatı var. Mən də öz yazımı ağlamada görmək istəyirəm. Özümçün yazdığım qeydlər,

dediyim kimi, hətta ən son variantını hazırladığım səliqəli yazılar belə qəzetdə çıxmayınca gözümə ağlama kimi dəymir.

Yazı qəzetdə çap olunana qədər mən onu tam real varlıq, müstəqil varlıq kimi, ölüm qorxusundan (!), ölmək təhlükəsindən (!) xilas olmuş bir varlıq kimi görə bilmirəm. Elə ki çap olundu, danılmaz real varlığa çevrilir, müstəqil varlığa çevrilir, daşlaşır, mənə elə gəlir ki, daha ona nəsə eləmək ayıbdı, daha ona toxuna bilmərəm. Bu bir yandan kədərlidi, çünki sən yazınla öz arandakı intimliyi itirirsən, onun üzərində artıq sahibi-mütləq deyilsən. Ancaq o biri yandan da sevindiricidi: çünki yazı nə qədər toxunulmazdısa, düşünürsən ki, bir o qədər uzunömürlüdü.

Mənim yazılarımdan bircə umacağım var: ölməsinlər. Ancaq mən istisnasız olaraq bütün yazılarımı dünyanın fikir (söz) qəbiristanlığında görürəm. Onları çoxdan basdırıblar. Azərbaycanın fikir qəbiristanlığındasa hələ hamısı basdırılmayıb. Bir neçəsi qalıb. Onlar məndən qabaq öləcək, yoxsa sonra – deyə bilmərəm. Bircə onu deyə bilərəm ki, mən özümdən sonraya nəsə qoyub getmək fikrindəyəm. Mən özümdən sonra təkcə başdaşı qoyub getmək fikrində deyiləm.

Hələ ki, mənə bu dünyada uğur gətirən yeganə iş yazılı (mətbuatda) və şifahi (tribunada) monoloq söyləməkdi. Mən özümü ən çox bu işə hazırlıqlı sayıram və bir qayda olaraq heç vaxt hazırlıqsız sözə başlamıram.

5 yanvar 2002-ci il

17. Qərar, qərarsızlıq

Ovqat və qərar

«Təkcə öz ovqatıyla hesablaşmaq – iri heyvanların işidi». Alber Kamyunun «Çökmə» povestindən. (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 345).

Güclü – ovqatla, zəif – ağılla qərar çıxarır.

Güclü adam yalnız özünü zəif hiss elədiyi situasiyalarda düşünməklə, götür-qoy eləməklə qərar verir.

Əgər biz diktatorların davranışına diqqət yetirsək, bunun bariz nümunəsini görərik. Hansı diktator özünü arın-arxayın hiss eləyir, qurduğu diktaturaya böyük təhlükə görmürsə, başlayır kefi istədiyi kimi, ovqatına uyğun davranmağa.

Çətin vəziyyət insanı ağılla davranmağa məcbür eləyir. İradəli adamlar belə vəziyyətə gec-gec, iradəsizlər tez-tez düşürlər.

18 mart 2003-cü il

Qərar. Qərarsızlıq

İradənin qərar qəbuluna aidiyyəti yoxdu. İradə qərarın icrası üçündü. Qərar qəbulusa iradədən kənar, iradəyə qədər, bir sözlə, iradəsiz çıxarılır.

İradəli adam – qərarın icrası üçün yaranmış, qərarın icrası üçün yararlı olan adamdı. O, qərar qəbul eləmir, qərarı dəyişmir, təftiş eləmir. O, qərarı şübhə altına almır, çünki icrasıyla

məşğuldu. Əgər qərar icra üçün yararsız olsa, dərhal onu tullayıb, başqa qərardan yapışır. O, qərarsız dayana bilməz. Enerji (iradə) onu daim fəaliyyətə təhrik eləyir, itələyir. Bu mənada iradə qərar qəbuluna mane olan amildi. İradəli adam qərar çıxara bilməz, o, yalnız qərarı təhvil ala bilər.

«İslah koloniyasında» hekayəsində Kafka səyyah-alimi belə xarakterizə eləyir: «... O, səyahətə yalnız dərk eləmək məqsədilə çıxır, xarici ölkələrdə məhkəmə quruluşunu dəyişmək məqsədilə yox». (Франц Кафка, «Рассказы. Пропавший без вести (Америка)». Харков: «Фолио», Москва: «АСТ», 1999. səh. 181).

Var dünyanı dəyişməyə gələnlər, var dərk eləməyə gələnlər.

Mən dünyanı dəyişməyə yox, dərk eləməyə gəlmişəm. Dünyanı dərk eləməyə çıxan adam üçün bir həqiqətdə qərar tutmaq çətindi.

21 oktyabr 2002-ci il

18. Sevgi

Sevgi özündən başqa dəyər tanımır

Sevgi – dəyərləri əxlaqlı və əxlaqsıza ayırmır, o, dəyərləri – istər əxlaqlı olsun, istərsə də əxlaqsız – neytrallaşdırır. Ona görə də sevgi əxlaqlı olanı da qəbul eləyir, əxlaqsız olanı da.

Sevgi özündən başqa dəyər tanımır.

1 may 2002-ci il

Sevgi və ideal

Bütün insanlar sevilməyə can atır.

İnsan sevilməyə başlayanda dərhal onda öz nöqsanlarıyla birgə, bütövlükdə, yaxşı-pis cəhətləriylə bərabər sevilməyəcəyi sarıdan qorxu yaranır. O qorxur ki, birdən onun nöqsanlarını, qüsurlarını görməzlər, təkcə yaxşı xüsusiyyətlərini sevərlər. Qorxur ki, birdən onu ideallaşdırıb sevərlər, yəni yarımçıq sevərlər. Və görəndə ki, doğrudan da belədi, onda o, tez öz nöqsanlarını büruzə verib bütövlükdə sevilməyə nail olmaq istəyir.

«Yalquzağın da həyatı belə idi. Onu da danmaq olmaz ki, çox vaxt bədbəxt olur, hətta sevib-sevildiyi adamları da bədbəxt eləyə bilirdi. Çünki Harrini sevən adamlar onun yalnız bircə tərəfini görürdülər. Bəziləri onu nəcib, ağıllı, özünəməxsus bir adam kimi sevir, ancaq daxilindəki canavarı görən kimi dəhşətə gəlir, bütün ümidləri alt-üst olurdu. Onlar bunu görməyə bilməzdilər, çünki Harri də yer üzündəki bütün varlıqlar kimi bütövlükdə sevilmək istəyirdi, ona görə də daxilindəki canavarı gizlədərək məhəbbətini əziz tutduğu adamları aldatmaq istəmirdi. Ancaq elələri də vardı ki, məhz ondakı canavarlığı – sərbəstliyi, vəhşiliyi, ramedilməzliyi, təhlükəni, əyilməzliyi sevirdi və birdən görəndə ki, bu vəhşi, qəzəbli canavar həm də insandı, o da adamdan mehribanlıq, nəciblik umur, Motsarta qulaq asmaq, şeir oxumaq, bəşəri idellara sahib olmaq istəyir, həddən artıq kədərlənir, məyus olurdular. Belələri daha çox məyus olur, qəzəblənirdilər və beləliklə də Yalquzaq özündəki qoşalığı, ikili təbiəti

təmasda olduğu yad talelərə də calayırdı». Herman Hessenin «Yalquzaq» romanından. (H.Hesse, «Yalquzaq». Bakı, «Yazıçı», 1990. səh. 97-98).

Ancaq bəzən elə olur ki, insan öz nöqsanlarını büruzə verib bütövlükdə sevilməyə nail olmaq istəsə də, yəni bu bir istək kimi onun ürəyində yaşasa da, o belə bir addım atmaqdan çəkinir, nöqsanlarını, qüsurlarını göstərəndə sevgini itirəcəyindən, onu sevən adamı (yaxud adamları) məyus eləyəcəyindən qorxur. Belə olanda o, onu sevən adamlardan uzaq gəzməyə, özü barəsində formalaşmış təsəvvürü, deməli, sevgini qorumağa çalışır. O, həmin təsəvvürlərdən, idealdan asılı vəziyyətə düşür. Bu ideal insana yük olur, onu sevən adamlara yaxınlaşmaq, özünü azad, sərbəst aparmaq, özünü olduğu kimi göstərmək imkanı vermir. O yalnız həmin sevgini itirməkdən qorxmadığı halda yenidən azadlıq qazana bilər. Əgər o, azad olmaq, bu ideal yükündən, mənasız və üzücü özünügöstərmələrdən (həm də özünü göstərməmələrdən) xilas olmaq, qurtulmaq istəyirsə, onda elə belə də eləməlidi: yarımçıq, ideallaşmış sevgini itirməyə hazır olmalıdı. Ola bilsin, öz azadlığına yiyə durub, öz xarakterini bütünlüklə göstərdiyi anda möcüzə baş verəcək: onun idealını sevənlər onun özünü də sevəcəklər. Ya da onun idealına laqeyd qalanlardan kimlərsə onu olduğu kimi görəndə sevməyə başlayacaq.

İnsanın idealını sevmək onu özündən (yəni seviləni sevən adamdan) qaçaq salmaqdı. Çünki çox az adam onu sevdirən təsəvvürləri dağıtmaq riskinə gedir, əksəriyyət həmin təsəvvürləri qorumaq yolunu, yəni özünün bütöv xarakterini onu sevən adamdan uzaqda saxlamaq yolunu tutur. Çünki insanın *sevilmək* istəyi *bütövlükdə sevilmək* istəyindən də güclüdü.

19 mart 2003-cü il

19. Diktatorun öldüyü gün

Diktatorun öldüyü gün

(hekayə)

Otağın qapısı zərblə açılanda bildi ki, yuxudan ayılıb. Deyəsən, hələ üç-dörd saniyə əvvəl tappaturupla gələn ayaq səsinə oyanmışdı, ancaq nə baş verdiyini anışdırmamış yatdığı otağın qapısı şaqqıltıyla açılmışdı:

– ...Öldü! – demişdilər. – ...Öldü!

Ayağından ehmalca vurdular, yorğanı yavaşca dartdılar.

– İnanmır e...

Yerində qurcalandı, dodağının altında mızıldadı, yorğanı başına çəkmək istədi, bacarmadı, aşağıdan tutub saxlamışdılar.

– İnanmır e... Odey televizor deyir. Eşitmirsən? Ölüb e! Vallah!

Səsi qulağından qovurmuş kimi başını silkələdi, yastığın dərinliyinə kəllə vurdu, bir-iki taqətsiz təpik atdı:

– Eşitdim də, eşitdim. Yaxşı eləyib ölüb.

Onu rahat buraxsalar da, qapının açıq qalmasından, televizor otağından gələn səsdən, mətbəxə qaçanların tələsə-tələsə aparıb-gətirdikləri stəkanların cingiltisindən başa düşdü ki, birdəfəlik oyanıb.

Bir azdan yenidən qapıdan boylandılar, ən son məlumatın ən qısa xülasəsini verib getdilər. Gözünü tavana zillədi, televizorun səsinə qulaq kəsildi, sonra yaxınlıqda ayaq səsi eşidib, qışqırdı ki, bu qapını örtün. Qapı çırpılan kimi yerindən durdu.

Saçını darayanda üzünü güzgüyə yaxınlaşdırıb diqqətlə gicgahına baxdı. Elə bil saçının diktatura dövründə nə qədər ağardığını yadında saxlamaq istəyirdi.

«Qatıq var, qatı-ı-ıq!» – binanın qabağında qışqırdılar. Beş-on dəqiqə sonra dəhlizdə ayaqqabısını geyinəndə qapının zəngi çalındı.

Orta yaşlı qadındı:

– Qatıq var, istəmirsiz?

– Qatıq?.. Qoy soruşum.

– Lazım deyil, varımızdı – o biri otaqdan səs gəldi.

Qapını örtüb gözlədi. Qadın getsin sonra. Nəsə yadından çıxmayıb ki? Əliylə ciblərinin üstündən vurdu: telefon, pul, siqaret...

– Qatıq vaxtıdı? Camaat nə hayda, bu nə hayda.

«Camaat nə haydadı ki?..» – fikirləşdi. «Gələndə balaca batareya almağı yaddan çıxartma» – arxasınca səsləndilər. «Nə qədər demək olar, batareya al. Balaca batareya!»

Aşağı mərtəbədə kimsə kiməsə tapşırdı ki, axşamüstü nənəgilə baş çəksin, sonra həmin adam blokdan çıxanda liftlə düşən başqa bir adamla salamlaşan kimi təəccübləndi ki, lifti nə əcəb düzəldə biliblər?

Dükanın qabağında göy-göyərti, mer-meyvə satanlardan biri tərəzinin gözünü, o biri yeşiklərin ağzını qurdalayırdı, biri arabanı sürüyə-sürüyə aparırdı, o biri lal satıcıdan nəsə alan oğlanın əl-qol işarələrinə tamaşa eləyirdi, dükanın iri şüşəsini silməyə dırmaşmış qız çöldən qəribə bir səssizliyin içində görünürdü, dayanacaqda «dəqiqə yarım», «maşını qova-qova», «yalançının», «interval» qışqırıqlarından belə başa düşülürdü ki, mübahisə marşrutların qrafiki üstündə gedir, avtobusda «müxalifət», «hökumət», «dərəbəylik», «çörək» sözləri, radiodan qaboy səsi eşidilirdi.

Redaksiyada telefonlar işə düşmüşdü, televizorda kanallar dəqiqədəbir ordan-bura dəyişdirilirdi, dizaynerə diktatorun ən düşkün şəkillərini tapıb çıxarmaq, mədəniyyət, idman müxbirlərinə heç nəyə fikir verməyib öz işləriylə məşğul olmaq tapşırılmışdı.

Yaddaş kitabçasını çıxarıb bu günə görməli olduğu işləri sıraladı, ötən gündən qalma, üstündən xətt çəkilməmiş bir sətirlik qeydləri təzə səhifəyə köçürdü, ən axırda da yazdı: «Balaca batareya».

Üç-dörd saata bu qeydlərin bir neçəsinin üstünü xətlədi. Günortaya yaxın möhürü cibinə qoyub o biri redaksiyanın binasına, müqavilə imzalamağa yollandı.

Bir topa adamın yarı işıqlı, yarıqaranlıq proqnozları içinə düşdü. Arqumentləri puça çıxdığına görə pərt olmuş birisi pörtmüş üzünü çevirib «obyektiv bir adam kimi» sualına ondan cavab almaq istədi: «Sən denən, bax, sən denən, anarxiyanın qarşısını başqa nə cür almaq olar?!» O, siqaretin külünü çırpdı, çiynini çəkib soruşdu: «Hansı anarxiyanın?»

Günorta dostlarına zəng vurdu, çay içdi, xəbərləri dinlədi, ona zəng vurdular, dedilər yadından çıxmayıb ki, bu gün filankəsin qırxıdı, dəyib qayıtmaq lazımdı.

Metroya düşəndə tanış polisə rast gəldi. Yenə jetonu əlində qaldı, polis yenə ona «rəis» deyə-deyə qoluna girib küncdəki pulsuz keçidə dartdı. İstədi keçən dəfəkinə oxşar zarafatyana bir söz desin, keçən dəfə «sən on ildi imkan vermirsən mən metro sənayemizin inkişafında iştirak eləyim» demişdi, ancaq polis onu qabaqladı:

– Keç, rəis, keç, – dedi. – Onsuz da bundan sonra sizə işləyəcəyik.

Güldülər. Keçidi keçmişdi ki, polis yenə dedi:

– Rəis, bir ildi «povışeniye» gözləyirəm a...

Keçidin o biri tərəfindən gülümsəyə-gülümsəyə başını yellədi.

Polis:

– Düzələr?

– Hörmət eləyərsən, düzələr.

Polisin gözləri bərəldi:

– Sizdə də hörmət?..

– Bəyəm biz adam döyülük?

İkicə addımdan sonra arxadan səs gəldi. Bu dəfə bərkdən:

– Bunlar insaflıydılar... Heç olmasa tanışlığa-zada baxırdılar.

Üzünü çevirdi. O da bərkdən:

– Bizdə elə söhbət yoxdu, – dedi.

– Ancaq hörmət?

– Ancaq!

Polis qəşş eləyib getdi.

Eskalatorla enəndə dönüb arxaya baxdı. Polis hələ də gülürdü.

Molla cəmi ölənlərin ruhuna dua oxudu, fatihə verdi. Dedi ölüm haqq dünyasıdı, bu dünyaya baxmayın, o dünyada hər kəs, hər şey öz yerindədi, ona görə ona haqq dünyası deyirlər, ona görə də arxayın ola bilərsiz, Allah hər kəsin əməlinə görə cəzasını verəcək, bəlkə yaxşı əməli də olub? – əgər işdi-şayəd, belə bir şey də olubsa, onda onun da mükafatını ayrıca verəcək. Sonra dedi, bildiyiniz kimi, bu gün, mərhumun qırxı günü xalqımıza böyük faciə üz verib, padşahımız rəhmətə gedib, gəlin onun da ruhuna salavat çevirək, Allahdan onun ailə üzvlərinə, onun övladlarına səbir diləyək, dünyanın işi belədi, dünyanın işini nə bilmək olar, heç kim deyə bilməz sabah nə olacaq...

Hamı pıçıldaşa-pıçıldaşa bir mövzuda danışırdı. Uzun stolun o biri başında oturanların arasında hökumət qəzetində işləyən tanış jurnalist də vardı. Baxışları toqquşdu. Yüngülvari təbəssümlə bir-birini salamladılar. Sonra hər ikisi qəfildən təbəssümü yığışdırıb ciddi görkəm aldı.

Çöldə əl-ələ görüşdülər.

– Nə var, nə yox?

– Əşi, nə olacaq – dilxorçuluq.

– Noolub ki?

– İki ildi ev almışam, hələ hamam-tualeti düzəltdirə bilməmişəm. Ustalar başıma oyun açır.

Sonra izah elədi ki, gül kimi kafel – ən yaxşısından – alıb vurdurubmuş, amma altından keçən borular su buraxıb, indi bütün kafeli söküb yerə qoyublar.

– Vay-vay-vay-vay...

Geriyə jurnalistin maşınında qayıtdı. Parlamentin yan-yörəsində polis çoxalmışdı. Jurnalist soruşdu ki, bu işlərin axırı necə olacaq? Maşına oturandan bu işlərdən danışırdılar. Jurnalist deyirdi ki, o, anarxiyadan qorxur, başqa heç nədən yox, anarxiyadan. O soruşdu ki, hansı anarxiyadan? Ancaq jurnalist sözünü qurtarmamışdı, deyirdi onsuz da kim hakimiyyətdə olur-olsun, hərə bir tikə çörək tapacaq, əslində kimin hakimyyətdə olmağının qara camaata elə bir dəxli də yoxdu, ona görə də əsas odu ki, anarxiya olmasın.

Parkla gəzə-gəzə üzüaşağı getdi. Dayanıb fəvvarələrə tamaşa elədi. Mobil telefonuna zəng gəldi. Şəhər telefonuyla zəng eləmişdilər. Salam-əleykdən sonra soruşdu ki, nə var-nə yox? Cavab verdilər ki, heç nə, buralarda bərk külək əsir.

Təəccübləndi. Lap bu yaxınlıqdan, özü də iş otağından zəng vurmuşdular. Necə olur ki, burda gün çıxıb, orda külək əsir.

Zəng vuran soruşdu ki, sən indi hardasan? Dedi bağda, fontanlara tamaşa eləyirəm. Soruşdu orda havalar necədi? Dedi aydınlıqdı, gün çıxıb, bircə qırıq da külək yoxdu, yox, deyəsən, var, azca meh var.

Telefonun o başında susqunluq əmələ gəldi. Sükutu güclə eşidilən pıçıltı pozdu.

– Oranı demirəm e... Oranı deyirəm...

Qəfildən ayıldı ki, söhbət nədən gedir. Zəng eləyən həmişə onunla işarələrlə danışırdı, çünki deyirdi sizin telefonlara qulaq asırlar, çox güman, əl telefonlarınıza da qulaq asırlar.

Qayıtdı ki, hə, oranı-oranı... bu gün dəymişdim ora... orda da bərk külək əsir.

Redaksiyaya girən kimi dedilər xəbərin yoxdu, ölkə dağılır. Soruşdu hansı ölkə?

Redaktorun qapısı taybatay açılmışdı, stullar boş olsa da, bir neçə nəfər ayaq üstə dayanıb gözünü televizora dikmişdi. Yaxınlaşdı, redaktorun qulağına pıçıldadı, redaktor əlini cibinə atıb balaca bir kağız bükülü çıxardı, sonra onu stolun altında açıb içindən bapbalaca bir şey çıxardı, sakitcə onun ovcuna basdı. O, o biri otağa keçdi, qapını örtdü, ağ vərəqi səliqəylə stolun üstünə qoydu, sonra qələmi ağ vərəqin üstünə qoydu, sonra mobil telefonun arxasını açıb ordan bapbalaca bir şey çıxardı, əvəzində redaktordan aldığını taxdı, sonra telefonu yandırıb zəng elədi, istədi birbaşa desin ki, bayaq sözlü adama oxşayırdın, nəsə var? Ancaq fikrini dəyişdi, qayıtdı ki, alo, salam, mənəm, orda havalar necədi?

Yenə yüzlərlə, minlərlə adam əl-ələ, qol-qola tutub gəzirdi, fəvvarələr işığa qərq olmuşdu, rəssamlar şəkilləri yığışdırıb getmişdi, əlində çörək qırığı tutan yaşlı qadın yemləməyə quş axtarırdı, yolda bir uşaq qaça-qaça özünü onun dizinə çırpdı, audiokasetlərin satıldığı yerdə maqnitofon oxumadı, ağ xalatlı qız bulkaları vitrindən çıxarana qədər bulka alan qızın əli havada qaldı, tələbəyə oxşayanlar şagirdə oxşayanlara söz atdı, qocalar cavanlara pis baxdı, gülsatan son dəstəni gəlib-keçənə müftə uzatdı, maşınların siqnalı bir-birinə acıqlandı, heykəl fikrə getdi, metroda qapını tutub vaqonu saxladı, məhlədə salam verən adamı qaranlıqda tanımadı, köşkün qabağında yenə kimsə lal dilində danışdı, yeşiklər aşdı, dükana baxanda qulağı batdı, bloka girəndə ağacların budağı saçını yoldu, pilləkəndə heç kimə rast gəlmədi, heç kimdən heç nə soruşmadı, işığı keçirtmək yadından çıxdı, dikəlib əlini uzatmağa ərindi, elə arxası üstə bir az aşağı sürüşüb elektrik açarına təpik atdı, uşaq vaxtı evdə idman eləyəndə işığı bu cür söndürməyi yadına düşdü, polisin şaqqanağı yadına düşdü, batareya almağı yenə yaddan çıxarmağı yadına düşdü, güldü, güldü, güldü, uğunub getdi...

Hər kəs öz harmoniyası içindədi. Buna harmoniya deyən – demokrat, anarxiya deyən – diktatordu.

13-14 iyun 2002-ci il

20. Gündəliklər haqqında

Gündəliklər haqqında

Mən də bir neçə dəfə gündəlik yazmağa cəhd eləmişəm, gündəlik tutmuşam və öz təcrübəmdən dəqiq bilirəm ki, dünyada tam səmimi, həqiqi gündəlik yoxdu, olmayıb və olmayacaq da.

İki cür gündəlik var: hadisələri təsvir eləyən, günlərin, saatların, səhər-günorta-axşamın qeydiyyatını aparan gündəlik və hissləri təhlil eləyən, arzuları, qorxuları, düşüncələri qeydiyyata alan gündəlik. Bunlardan birincisi ikincisindən daha saxtadı. Nisbətən səmimi gündəlik ikincisidi. Əvvəla ona görə ki, səni utandıran hadisəni yazmaq, etiraf eləmək daha çətindi, nəinki səni utandıran hissi yazmaq. Ona görə də birinci tip müəlliflər daha çox şeyi gizlədirlər, nəinki ikincilər.

İkincisi, insan hadisəni hissiylə qavrayır. Hər hansı bir hadisə insan üçün hiss kimi, hiss şəklində mövcuddu və o hissi təhlil eləmədən hadisəni nə düzgün başa düşmək mümkündü, nə də düzgün başa salmaq, təsvir eləmək. Yəni hissin təhlil olunmadığı, görünmədiyi gündəliklərdə hadisənin həqiqi təsvirini vermək, onu olduğu kimi göstərmək mümkün deyil.

Hər bir hadisəni insan hiss kimi yaşayır, ona görə də hissi ayırmaqla hadisəni həqiqi, səmimi təsvir eləmək mümkün deyil. Ümumiyyətlə, hiss görünməyəndə hadisə əsl mahiyyətini itirir.

Üçüncü, bütün gündəliklər oxucu üçün yazılır. Ən səmimi gündəlik belə oxucu qorxusu altında, «bunu nə vaxtsa oxuya bilərlər», «ələ keçə bilər» xofuyla yazılır. Ona görə də heç bir gündəlik insanın başına gələnləri, keçirdiyi hissləri tam açıqlığıyla göstərmir.

İnsan gündəlikdə hisslərindən yazanda hadisəni, hadisədən yazanda hissləri gizlədir. Və o vaxt ki, bunlardan birini gizlətmək mümkün deyil, yəni hissi yazsan – hadisə, hadisəni yazsan – hiss açıq-aşkar duyulacaq, görünəcək, onda o, heç birini yazmır, ikisini də gizlədir.

Kimin ki gündəliyində hadisələrin təsviri üstünlük təşkil eləyir, deməli, onun həyatında utandırıcı hisslər daha çoxdu. Və əksinə.

Mən eləcə hadisələri qeydiyyata alan gündəlikləri oxumuram, mən oxusam, hissləri qeyd eləyən gündəliyi oxuyuram. Bu o deməkdi ki, mən gündəlik yox, nəsə başqa bir şey oxumaq istəyirəm.

Məndə, doğrudan da, gündəlik oxumaq istəyi, həvəsi yoxdu və əslində mən heç gündəlik oxumuram da.

Gündəlik yazmaq – özündən qəhrəman düzəltmək cəhdinin bir formasıdı.

Lev Tolstoy deyir: «Məncə, insanı təsvir eləmək mümkün deyil; sən insanın ancaq sənə nə cür təsir elədiyini təsvir eləyə bilərsən».

Tolstoyun bu sözlərini tərtib elədiyi «Л.Н. Толстой, «Счастье, которое меня ожидает...» kitabında (Москва, «Молодая Гвардия», 1988) misal gətirən (bax: səh. 41) Vladimir Porudominski haqlı olaraq yazır: «İnsanı təsvir eləmək mümkün olmadığı kimi, hadisəni, baş verənləri də təsvir eləmək mümkün deyil; əgər sən hadisənin səndə oyatdığı təəssüratı təsvir eləyirsənsə, onda bu başqa məsələ». (Bax: səh. 147).

Doğrudan da, Tolstoy insanlardan, hadisələrdən yazanda yalnız onun «mən»ə (bu mən Tolstoyun özü də ola bilər, əsərlərinin qəhrəmanları da) nə cür təsir göstərməyindən yazıb. Çünki insanı sadəcə təsvir eləmək mənasız işdi və bu, insan haqda heç bir bilgi vermir: «İnsandan danışanda onun orijinal, mehriban, ağıllı, axmaq, sadə... olduğunu demək insan haqqında heç nə deməməkdi». (Yenə orda, səh. 41).

Hadisələrin sadəcə təsviri də belədi: ondan nəsə öyrənmək çətin məsələdi. Ona görə də Tolstoy, Porudominskinin yazdığı kimi (orda, səh. 147), müharibəni tarixçilər sayaq təsvir

eləməyib, o, yalnız müharibənin insanlara göstərdiyi təsiri, insanlarda buraxdığı izləri təsvir eləyib. Təsadüfi deyil ki, Tolstoy «Qaçış» (volontyorun hekayəti) hekayəsini yazanda, işinin qızğın çağında oxuduğu tanınmış hərb tarixçisi A.İ.Mixaylovski-Danilevskinin «1812-ci il Vətən müharibəsinin təsviri» kitabı barədə özü üçün belə bir qeyd eləyib: «plosko». Yəni dayazdı. («Л.Н. Толстой, «Счастье, которое меня ожидает...». Москва, «Молодая Гвардия», 1988. səh. 147). Həmin «Qaçış» hekayəsində kapitan Xlopov «1812-ci il Vətən müharibəsinin təsviri» kitabını belə xarakterizə eləyir: «Əla kitabdı, hər şey yerli-yataqlı təsvir olunub – korpus hardaydı, döyüş necə gedirdi». (Yenə orda, səh. 147).

Gündəlik onda maraqlı ola bilər ki, o, insanları, hadisələri yox, onların müəllifə göstərdiyi təsirləri əks elətdirsin. Və müəllifin bu təsirlərlə bağlı yazdıqları yalnız o zaman (!) oxucu üçün maraqlı ola bilər ki, o, həmin təsirləri, hadisələrin, insanların onda doğurduğu hissləri, düşüncələri səmimi (!) təsvir eləsin. Qorxanda qorxusunu, sevinəndə sevincini yazsın. Ancaq problem də ondadı ki, belə səmimiyyət yalnız Tolstoyun gündəliyində ola bilər.

Mən bilirəm ki, gündəlikdə insanın başına gələnlərin hamısını səmimi şəkildə yazmağı qeyri-mümkündü. Ancaq mən gündəliklərdən heç bunu tələb də eləmirəm. Demirəm ki, nə olursa, hamısını yazmaq lazımdı. Yox. Amma heç olmasa nədən yazırsansa, onu səmimi yazmaq lazımdı. Nəyi səmimi yaza bilməyəcəksənsə, yazma. Ancaq nəyi yazırsansa, saxtakarlıq eləmə.

Təəssüf ki, gündəliklərin böyük əksəriyyətində nəinki ən əsas tələb (nə varsa, hamısını səmimi şəkildə yazmaq, heç nəyi gizlətməmək), hətta bunun xeyli yumşaldılmış formasına (nədəsə nəyisə gizlədəcəksənsə, onda ondan ümumiyyətlə yazmamaq, nəyi tam səmimi yaza bilərsənsə, ondan yazmaq; gizlədəndə heç nə yazmamaq, yazanda heç nəyi gizlətməmək) da əməl olunmur.

Yaxşı olardı ki, ümumiyyətlə yazanda (yəni təkcə gündəlik yazanda yox, başqa yazılarda da), danışanda da bu prinsipə əməl olunsun: nəyisə gizlədirsənsə, heç nə deməmək, nəyisə deyirsənsə, heç nəyi gizlətməmək.

5-6 yanvar 2002-ci il

Romanın sirri. Tolstoy niyə gündəlikdən romana keçdi?

Mənə elə gəlir ki, Lev Tolstoyu yazıçı olmağa sövq eləyən səbəblərdən biri də onun hiss, həyəcan, düşüncələri haqqında bütün həqiqətləri gündəliklərində etiraf eləyə bilməməsi olub. Tolstoyun gündəlikləri dünyanın ən səmimi gündəliklərindən biridi, amma o özü haqda həqiqətləri güngəliyində tam açıqlığı, tam sərtliyilə ortaya qoya bilsəydi, romana keçməzdi, eləcə gündəlik yazmaqla kifayətlənərdi. Bu mənada Tolstoyu yazıçı eləyən bir səbəb də onun utancaqlığıdı. O öz hissləri, düşüncələri haqda bütün həqiqətləri gündəliyində yazmağa cəsarət eləyə bilməyib və həmin həqiqətləri romanlarında qəhrəmanlarının timsalında göstərib. Əgər Tolstoy romanlarında etiraf elədiklərini gündəliklərində etiraf eləsəydi, onda dünya ona nifrət eləyərdi. Biz Tolstoyu sevirik, düşünürük ki, bütün qəhrəmanları onun özü deyil, o özünü yalnız bəzi qəhrəmanların timsalında yaradıb, romanlarında uydurduğu, yaxud müşahidə elədiyi, rastlaşdığı hisslər, düşüncələr, hərəkətlər də var. Və bu, gözəl bir yalandı. Çünki bütün qəhrəmanları Tolstoyun özüdü. Tolstoyun əsərlərində daxilən ona yad olan, hissində, düşüncəsində, davranışında yaşamadığı, nə vaxtsa özündə müşahidə, yaxud kəşf eləmədiyi, özündə tapmadığı heç nə yoxdu.

İndi görün bütün bunları o, gündəliklərində yazsaydı, tərcümeyi-halına salsaydı, biz Tolstoyu nə cür qəbul eləyərdik!..

Yazıçı özü haqda, daha doğursu, öz hissləri, həyəcanları, düşüncələri, münasibətləri haqda həqiqəti demək, hər şeyi tam səmimiyyətiylə etiraf eləmək istəyir. Ancaq bu həqiqətləri deyəndən sonra adam içinə çıxa bilməkdən ötrü, həm də dediklərinin bütövlükdə insan haqqında, hamı haqqında həqiqət kimi yox, yalnız onun özü haqqında həqiqət kimi, tövbə kimi qəbul olunacağından ehtiyatlandığı üçün o, başqalarını – qəhrəmanları qabağa verir.

Yazıçı ən səmimi sənətkardı, ancaq o da həqiqətin çoxunu başqalarının dilindən deyir, qəhrəmanlarında gizlənir. Yazıçı – başqa-başqa adlar altında gizlənmiş bir nəfərdi, roman – ayrı-ayrı ömürlərə bölünmüş bir ömürdü, əgər o, hər şeyi öz adıyla çağırsaydı, hər şeyi öz adına çıxsaydı, ömürlərin arasındakı süni bölgünü götürüb baş verənlərin yalnız öz başına gəldiyini və yaxud ürəyindən keçdiyini, arzusundan, qorxusundan doğduğunu etiraf eləsəydi, onda onun heç bir yazısını çapa verməyə cəsarəti çatmazdı, çatsaydı da çap eləməzdilər, çap eləsəydilər də onu tək bir nəfərin tərcümeyi-halı kimi başa düşüb özlərini orda axtarmazdılar.

Hərdən mən də hiss eləyirəm ki, bir çox həqiqəti deyə bilmirəm, cəsarətim çatmır, utanıram, qorxuram; həm adamların mənim eybəcərliklərimdən xəbər tutacağından, məndən iyrənəcəyindən, biabır olmaqdan qorxuram, həm də bundan – mənim taleyimdən əyləncə kimi istifadə eləyəcəklərindən qorxuram. Bax, onda məndə də romana oxşar nəsə yazmaq, həqiqətləri başqa-başqa adların, talelərin köməyilə demək həvəsi oyanır. Bu həvəs məndə nəinki öləziməyib, əksinə, günü-gündən güclənir. Görünür, həm də ona görə ki, mən günü-gündən daha eybəcər adam oluram... Ancaq mən roman yox, nəsə qarışıq, naməlum bir janrda yazmaq istəyirəm.

7 yanvar 2002-ci il

21. Şeir necə yarandı

Şeir necə yarandı

(esse)

Tanrı insanları çox sevdiyindən yaratdığı hər insanın ürəyinə bir şeir parçası da yazdı. Tanrı özüylə insan arasında olan uçuruma bu şeir parçasını körpü kimi uzatdı. Bununla da insanlara təsir eləyən – onları diksindirən, ağladan, sevindirən qüvvələr içərisində ən güclüsü poeziya oldu. İnsan ölənə kimi bu poeziya, bu bir parça şeir onun ürəyini silkələdi, üşütdü...

İnsan tufanda, qarda-yağışda daldalanmağa yer tapmadığı an, yan-yörəsində dolaşanların sifətində nur, əllərində mərhəmət görmədiyi an özünə sığındı: girib öz içində, öz ürəyində gizləndi. Birdən o, bu təklikdən, bu kimsəsizlikdən həzz aldı. Birdən o, gördü ki, burda nə tufan, nə qar, nə yağış var. Burda sifətlərin nuruna, əllərin mərhəmətinə də ehtiyac yoxdu. İnsan başa düşdü ki, dincliyin, sevincin, azadlığın bircə yolu varsa, o da burdan keçir. Bununla da insan öz ürəyindəki şeir parçasından xəbərdar oldu, bu bərəkətin nübarını elədi. Bu an, Nikolay Berdyayevin yazdığı kimi, insanın Tanrıyla üz-üzə durduğu və hələ ifadə olunmamış yaradıcılığının başlandığı andı. Bu an ədəbiyyat və incəsənət əsərlərinin qaynağıdı.

O olmasaydı, ədəbiyyat və incəsənət əsərləri yaranmazdı. «İncəsənət əsəri – ağıl gerçəklik haqqında mühakimələrdən imtina eləyəndə yaranır» (Alber Kamyu).

İnsan hər dəfə bu dünyanın gözlə görünə bilən gerçəkliyindən – tufanından, qarından, yağışından... adamlarından qorxduqca öz içinə çəkildi, öz ürəyində gizləndi. Ürəyindəki şeir parçasının misralarını oxumağa başladı. Oxuduğu sözlər onun ürəyini sığalladı, onu ovundurdu, qorxusunu götürdü. Bundan sonra insan əjdaha kimi qorxmaz oldu. O qədər ürəkləndi ki, durub içindən çölünə çıxdı. Adamların gözlərinə baxanda gördü ki, bu gözlər onun ürəyini, ürəyindəki şeir parçasını görmür. Bu gözlər onun içində əjdaha kimi bir qorxmaz insanın yaşadığına inanmır. İnsan bu gözlərdə o qədər inamsızlıq gördü ki, özündən şübhələndi. Bu şübhələrin, inamsızlığın kökünü kəsmək üçün əlinə qələm-kağız götürdü. Dağların dolayı yollarından, şəhərin dümdüz küçələrindən öz ürəyinə, ürəyindəki şeir parçasına doğru yol aldı. İnsan ürəyinə yaxınlaşdıqca dağların dolayı yollarında, şəhərin dümdüz küçələrində qoyub gəldiyi tanış-tunuşdan, dost-düşməndən, başdan aşan qayğılarından uzaqlaşır, onları unudurdu. Çünki «yazanda başqaları haqqında düşünmürsən» (Tomas Vulf). İnsan ürəyindəki şeir parçasının misralarını kağıza köçürtdükcə özündə bir yüngüllük duyurdu. Ürəyindəkini üzə çıxartdıqca, yazdıqca insana aydın oldu ki, «həyatın bütün sevinci – yaratmaqdadı» (Romen Rollan).

İnsan bir topa kağızı qoltuğuna vurub öz içindən, ürəyindən çölə çıxdı. Dağların dolayı yollarına, şəhərin dümdüz küçələrinə düşdü. Küçələrdə, evlərin həyətində toplaşan adamların yanından ötəndə onun canından bir gizilti keçdi. Bu boyda dünyadan, bu qədər adamın içindən elə beləcə, səs-soraqsız, ad-sansız çıxıb gedəcəyindən, bu dünyada izi-tozu da qalmayacağından qorxdu. Bu – ölüm qorxusudu. Bu qorxu insanda şöhrətpərəstlik duyğusunu – ad-san qazanmaq, daha çox nəzərə çarpmaq, hamıdan yüksəkdə durmaq duyğusunu yaratdı. Bu qorxuyla bu duyğu insanı adamları başına yığıb yazdıqlarını onlara oxumağa, sonra yazdıqlarını çap elətdirməyə, üstəlik, çap elətdirdiyi kitabda iri bir şəklini verdirməyə, sonra kitabı haqqında məqalələr yazdırmağa, sonra əsərlərini kütlələrin istəyinə uyğun dəyişdirməyə, sonra müsahibələr verməyə, sonra da bütün bunlara görə fəxri adlar, mükafatlar almağa məcbur elədi. Uilyam Folkner müsahibələrinin birində deyir ki, ola bilsin, yazıçını yazmağa vadar eləyən ilkin səbəb dünyanın yaddaşına «mən burda yaşamışam» sözlərini həkk eləmək istəyi olub. Onun fikrinə görə, bütün yazıçılar ömrü boyu buna can atır.

İnsan ürəyini ələk-vələk elədi. Ürəyindəki şeir parçasının misraları, nöqtə-vergülləri arasında əsir-yesir oldu. Bu misraların, nöqtə-vergüllərin arasında bir sözü – ürəyindəki şeir parçasının canı olan Sözlər Sözünü tapa bilmədi ki bilmədi. Ürəyindən qan-tər içində çıxdı. Yorğun-ərğın kitablarının yanına gəldi. Kitablarını vərəqləyib oxuduqca başa düşdü ki, bu vərəqlərə yazıb doldurduğu sözlərin hamısı o bir sözü tapmaqdan ötrüymüş. Fyodor Dostoyevski «İdiot» əsərində yazır: «...Hər bir dahiyanə, yaxud yeni bəşəri fikirdə, ya da sadəcə olaraq hətta hər hansı bir şəxsin başında yaranan hər bir ciddi bəşəri fikirdə həmişə nəsə elə bir şey qalır ki, siz bütöv cildlər yazıb öz fikrinizi otuz beş il şərh eləsəniz də bunu başqa adamlara çatdırmaq heç cür mümkün olmayacaq; həmişə elə bir şey qalacaq ki, o sizin qafatasınızın altından qətiyyən çıxmaq istəməyəcək; əbədi olaraq öz başınızda qalacaq. Bəlkə də öz ideyanızın ən əsas cəhətini heç kəsə verə bilməyib elə bu cür də öləcəksiniz».

İnsan hələ ümidini itirməmişdi. İnsan hələ də o bir sözü tapacağına inanırdı. Bu inam onu dönə-dönə ürəyindəki şeir parçasına sarı yola saldı. İnsan bu yürüşlərdən həmişə əliboş, uğursuz qayıtdı. «Ola bilsin, uğursuzluğa belə tez-tez ürcah gəlməyimiz o qədər də pis əlamət deyil: əgər biz uğursuzluğa düçar oluruqsa, demək, neçə ki damarlarımızda qan axır, yeni-yeni

cəhdlər eləməkdən usanmayacağıq, yox, əgər arzulara əlimiz çatarsa, ideallarımızla bir boyda olarıqsa, kamilliyin zirvəsinə çatarıqsa, onda bizə bu zirvədən atılıb özümüzü öldürməkdən başqa bir yol qalmaz» (Uilyam Folkner).

İnsan bir parça şeirin min bir sirrini düşünə-düşünə, bu şeirin tapa bilmədiyi bircə sözünü axtara-axtara ağzınacan adamla tıxalı küçədən keçirdi. İnsan bu adamların heç bir işinə qarışmadan, heç birisinə baş qoşmadan dinməzcə yeriyirdi... Bu, adamların xoşuna gəlmədi. Adamlar onu səsləyib dedilər ki, o da hamı kimi onlara qoşulsun, onların yerişini yerisin, dediyini desin, düşündüyünü düşünsün. İnsan adamlara cavab vermədi, heç onlara tərəf baxmadı da. Bu, adamları hirsləndirdi. Onların hərəsi əlinə bir dəyənək alıb insanın yolunu kəsdilər. Onun üstünə tökülüşüb vurmağa başladılar. O qədər vurdular ki, dəyənəklər dözmədi: qırıq-qırıq oldu. Adamların ürəyi soyumadı. Bu dəfə yumruqla-təpiklə vurmağa başladılar. O qədər vurdular ki, əlləri-ayaqları yeyildi.

...İnsan hələ də ürəyindəki bir parça şeiri axtarırdı. Tanrının onun ürəyinə yazdığı şeiri olduğu kimi – bütöv, necə vardısa eləcə də tapmaq istəyirdi.

Adamlar lap təngnəfəs olmuşdular. Havanı ciyərlərinə o qədər tez-tez, o qədər çox alırdılar ki, küləklər də onları doyuzdura bilmirdi. Axırda bir hovur nəfəs dərmək üçün qıraға çəkildilər. Birdən adamlar gördüklərinin qarşısında qurudular: gözləri bərəldi, ağızları açıla qaldı, tir-tir əsdilər, dizüstə yerə çökdülər.

Adamlar baxıb gördülər ki, səhərdən vurduqları insan yox, bir şeir parçasıdı.

1991-ci ilin sonu – 1992-ci ilin əvvəli

«Şeir necə yarandı» essesinin əsaslandığı tezislər

İnsan dünyaya ilahi bir qüvvəylə (essedə bu qüvvə simvolik olaraq «şeir parçası» adlanır) gəlir.

Təbiətin və başqa adamların soyuqluğu, biganəliyi insanda özünəqapılma yaradır. Nəticədə insan öz içindəki qüvvədən xəbər tutur, onun nübarını dadır. İnsan bu kimsəsizlikdən, təklikdən həzz alır. O özünü rahat, azad duyur və sevinir.

Real aləm – təbiət və insanlar qarşısındakı qorxu insanda tez-tez özünəqapılmaya, tənhalığa səbəb olur. Bu cür «qapılma», tənha qalma anları insanın qorxusunu götürür. O özünü güclü, qüvvəli duyur. Məhz yenidən qorxmazlıq vəziyyətinə qayıtdığına, özünü güclü duya bildiyinə görə insan yenidən başqalarıyla ünsiyyətini, münasibətini bərpa eləyir, necə deyərlər, yenidən cəmiyyətə qayıdır.

Ancaq cəmiyyət onun daxilindəki qüvvəni görmür, onun cəsarətini duymur. İnsan anlayır ki, cəmiyyət onun «qayıdışının» səbəbini başa düşmür. Nəticədə insan özündən şübhələnir, öz gücünə, qüvvəsinə özündə şübhə yaranır.

Bu şübhələrin (həm xarici, həm də daxili) kökünü kəsmək, ilahi qüvvəsini həm özünə, həm də başqalarına sübut eləmək üçün insan yaradıcılığa başlayır.

Ancaq yaratdığı anda o, onu bu işə vadar eləmiş motivi – özünütəsdiqi unudur. «Yazanda başqaları haqda düşünmürsən» (Tomas Vulf). İnsan bu vaxt sadəcə, yaradıcılıq prosesindən zövq alır.

Yaradıcılıq prosesi səngiyəndən, «başı açılandan» sonra insan ətraf aləmə baxır və onda dünyadan ad-sansız çıxıb getmək qorxusu (ölüm qorxusu) yaranır. Yaddaşlardan silinmək qorxusu. Nəticədə insanda şöhrətpərəstlik əmələ gəlir. İnsan cəmiyyət üçün işləməyə, şöhrətini möhkəmlətməyə girişir. «Mən burda yaşamışam» (Folkner).

Ancaq bütün bu şöhrətin, zahiri fəallığın qızğın dövründə də insanda daxili yaradıcılıq prosesi gedir. Onda özündən narazılıq (hətta bunu açıq etiraf eləməsə də) yaranır. O, əsl həqiqəti tapmaq, həqiqəti axıracan tapmaq, həqiqətin son nöqtəsini qoymaq, Sözlər Sözünü demək istəyir.

Ancaq buna nail ola bilmir. Dəfələrlə uğursuz axtarışı insanda yorğunluq, ətraf aləmə, cəmiyyətə, şöhrətə, ictimai işlərə laqeydlik yaradır.

Nəticədə insan cəmiyyətin qınağına tuş gəlir. Cəmiyyət onu yenidən şöhrət qazanmaq üçün canfəşanlıq elədiyi dövrdəki vəziyyətinə qaytarmaq istəyir.

Ancaq insan cəmiyyətə qoşulmur və nəticədə onunla cəmiyyət arasında ciddi toqquşma yaranır. Cəmiyyət onu vurmağa başlayır.

İnsan öz yaradıcı axtarışlarını davam elətdirməkdə, cəmiyyət də onu vurmaqda. İnsan ölür. Təbii ki, o, axtardığını tapmadan, axtarışını sona çatdırmadan dünyadan köçür.

İnsan öləndən sonra cəmiyyət onun qarşısında diz çökür, onun dahiliyini, nəhəngliyini sağlığında olduğundan daha artıq, qat-qat artıq səviyyədə qəbul eləyir...

P.S. Bütün dahilər bu mərhələlərdən keçirlər. Bu mərhələlərin hər hansı birində ilişib qalan insanın yaradıcılığı natamam olur. Kim daha tez, daha aşağı mərhələdə ilişirsə, o daha artıq yarımçıq, natamamdı. Bu mərhələlərin hər hansı birində ilişib qalması insanda tənəzzül əmələ gətirir.

2002-ci il

22. Qəhrəmanlıq

Qəhrəmanlıq

Kamyu öz Mersosunu («Yad» povesti) belə xarakterizə eləyirdi: qəhrəmanlığa iddia eləmədən həqiqət uğrunda ölməyə razılaşan adam. (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 15).

«Taun»dakı doktor Riye də həmin tipdi: qəhrəmanlığa iddia eləmədən özünü ölümün pəncəsinə atıb. Samari Velikovskinin yazdığı kimi, Riye öz peşəsiylə məşğuldu, müalicə eləyir və doktorun öz sözüylə desək, «bu, qəhrəmanlıq deyil, adicə mərdlikdi». Velikovski yazır ki, quru «peşəni» təmtəraqlı «şücaət»dən üstün tutan doktorun adama xəcalət verən sakitliyilə Kamyu heç də qəhrəmanlığı gözdən salmaq məqsədi güdmür: «Əksinə, o, süniliyi götürməklə qəhrəmanı ucaldır. Təmtəraqdan uzaq bu sakitliyin arxasında ən müqəddəs niyyətləri, əməlləri gurultulu sözlər altında qoya biləcək küyçülərə inanmayan bir namuslu əsgərin ciddiliyi hiss olunur. Ən başlıcası, burda ilahiyyatçılar kimi insanı yaranışından günahkar, mayasından cılız varlıq kimi götürdüyünə görə fədakarlığı nadir hadisə sayan, beləliklə, insanı alçaldan, kiçildən kəslərin baxışlarıyla razılaşmamaq var. Riyedən və onun köməkçilərindən ötrü borcunu yerinə yetirmək – nəsə görünməmiş bir igidlik deyil, eləcə ürəkdən gələn adi işdi: getdikcə adamı lap çox yoran qara işdən yapışmısansa onda bunu könüllü eləməyin daha vacibdi, nəinki özünü buna məcbur eləməyin». (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 22-23).

Doğrudan da, Samari Velikovskinin dediyi kimi, Kamyunun məqsədi heç də qəhrəmanlığı gözdən salmaq deyil, əksinə, fədakar bir hərəkətin motivindən bütün

təmənnaları, şəxsi mənafeləri silməklə yazıçı həmin hərəkəti əxlaqlı eləyir. «Süniliyi götürməklə qəhrəmanı ucaldır».

Fədakarlıq o zaman əxlaqlı, səmimi, hörmətə layiq ola bilər ki, onun kökündə heç bir təmənna – şöhrət qazanmaq, tarixə düşmək, kimlərdənsə «çox sağ ol» eşitmək, o dünyada cənnətə düşmək və bu kimi motivlər olmasın. Və əgər bəzi şəkkakların (məsələn, yadına sal Şopenhaueri) dediyi kimi, bu, mümkün deyilsə, təmənnasız fədakarlıq olmursa, deməli, insanın əxlaqlı, ləyaqətli olmaq imkanı yoxdu, insan təbiətən cılızdı, alçaq varlıqdı və buna qalib gəlmək mümkün deyil.

Kamyu fədakarlığı adi bir hərəkətə çevirməklə, onu, necə deyərlər, səsə-küyə salmamaqla, gündəlik işdən ayırmamaqla, fövqəl, qeyri-adi bir hadisə kimi seçdirməməklə onun insan təbiəti üçün istisna yox, səciyyəvi olduğunu göstərib. Qəhrəmanlığı məişət səviyyəsinə endirməklə insanı qat-qat ucaldıb. Doğrudan da, əgər fədakarlıq nadir xüsusiyyətdisə, onda insana nə cür hörmət eləyəsən? Belə olanda hətta fədakara da hörmət eləmək olmur.

Doktor Riyenin fədakarlığında heç bir daxili zorakılıq yoxdu. O, çox sərbəst, sakit hərəkət eləyir, öz davranışında qeyri-adi, pərəstişə layiq heç nə görmür, nəticədə biz ləyaqəti insan təbiətinin ayrılmaz hissəsi kimi qavrayırıq.

«Taun»un salnaməçisi (romanın sonunda məlum olur ki, o, Riyenin özüdü) romanda bu barədə açıq yazır. O qeyd eləyir ki, taun xəstəliyinə tutulanlara yardım eləyən könüllülülər dəstəsini, «bizim bəzi vətəndaşlar» kimi, tərifləyib göylərə qaldırmaq fikrində deyil. O hesab eləyir ki, xeyirxah əməllərə həddən artıq qiymət verəndə biz dolayısıyla şərin özünü də tərifləmiş oluruq: «Çünki xeyirxah əməllərə çox yüksək qiymət verəndə asanca belə nəticəyə gəlib çıxırsan ki, insanları daha çox kin-küdurət, laqeydlik idarə eləyir, xeyirxahlıqsa yalnız nadir hadisə olduğuna görə qiymətlidi. Bax, bu yanaşma tərzini salnaməçi qətiyyən bölüşmür.

...Ona görə də salnaməçi könüllülüyə və qəhrəmanlığa kifayət qədər hörmət bəsləsə də, onun şəninə tərif deyib dastan açmaq fikrində deyil...

Özünü fədakarcasına sanitar dəstələr yaratmaq işinə həsr eləmiş adamların xidməti o qədər də böyük deyil, çünki onların heç ağlına da gəlməyib ki, başqa işlə də məşğul olmaq olar və təəccüblüsü o olardı ki, onlar ayrı işdən yapışaydılar…

Lap yaxşı. Amma indi kim durub iki vur ikinin dörd elədiyini öyrədən müəllimi tərifləmək fikrinə düşər?..». (Альбер Камю, «Избранное». Москва, «Правда», 1990. səh. 210-211).

Beləliklə, Kamyu fədakarlığı insan təbiəti üçün iki vur ikiyə çevirir. Və hesab eləyir ki, insanın bəxtindən bu cür fədakarlıq eləyən çoxdu, «çoxlarının güman elədiyindən də çoxdu, hər halda salnaməçi buna möhkəm inanır». (Bax: göstərilən kitab, səh. 211).

Könüllülərdən biri də Qrandı. «Məlum yanaşmadan çıxış eləyən (*salnaməçi bayaq gətirdiyim sitatlarda ortaya qoyduğu yanaşmanı deyir – A.Q.)* salnaməçi hətta Qranı sanitar dəstələrin işinə ilham verən həmin sakit fədakarlığın daha yüksək nümayəndəsi saymaq istəyir, nəinki Riyeni və ya tutalım, Tarrunu. Qran tərəddüd eləmədən, özünəməxsus bir səmimiyyətlə, ürəkdən «hə» deyir... Bircə xahiş eləyir ki, onu elə də çətin işlərə buyurmasınlar, çünki çətin işlərdən ötrü o artıq qocadı». (Yenə orda, səh. 212). Və bu qoca sutkada 18-20 saat doktor Riyenin ixtiyarında olur. Riye ona atəşin minnətdarlığını bildirəndəsə Qran təəccüblənir: «Mən ki ən çətin işdən yapışmamışam. İndi taundu, aydın məsələdi ki, onunla mübarizə aparmaq lazımdı. Kaş elə dünyada hər şey belə aydın olaydı!». (səh. 212).

Doktor Riye Orana (tauna tutulmuş şəhərə) göndərilən yardımlarla bağlı qəzetlərdə, radioda gedən tərifləri eşidəndə əsəbiləşir. «Hər dəfə də onların bu dastanvari üslubu, bəlağətli tonu doktoru özündən çıxarırdı. Əlbəttə, o başa düşürdü ki, bu təriflər heç də boğazdan yuxarı deyil. Ancaq onlar öz hisslərini elə dildə ifadə eləyirdilər ki, insan ancaq bəşəriyyətə bağlılığını ifadə eləmək istəyəndə bu dildə danışır. Bu elə bir dildi ki, onunla, tutalım, Qranın gördüyü gündəlik, xırda işlərdən danışmaq, epidemiyanın baş alıb-getdiyi vaxtda Qranın nə demək olduğunu başa salmaq heç cür mümkün deyil». (səh. 215).

Doktor Riye Ramberlə söhbətində deyir:

« – ...Burda qəhrəmanlıq nədədi ki? Bu qəhrəmanlıq deyil, adicə mərdlikdi. Ola bilsin, sizə gülməli gələcək, amma tauna qarşı yeganə silah – mərdlikdi.

– Bəs mərdlik nədi? – Ramber tam başqa, ciddi tərzdə soruşdu.

– O ümumiyyətlə nədi, heç özüm də bilmirəm. Amma mənim qarşılaşdığım vəziyyətdə onun nə demək olduğunu deyə bilərəm: mərdlik – öz işini yerinə yetirməkdi». (səh. 234).

Riyenin astma xəstəliyinə tutulmuş qocayla söhbətindən: Qoca Riyeylə görüşəndə Tarrunu soruşur. Riye deyir ki, o, taundan ölüb.

« – Hə, – qoca bir az susub dilləndi, – yaxşı adamlar həmişə ölür. Həyat belədi. O nə istədiyini bilən adamıydı.

– Bunu niyə deyirsiz? – doktor stetoskopu yığa-yığa soruşdu.

– Elə-belə. O boş yerə danışmazdı. Mənim xoşuma gəlirdi. Elə bu cür olduğuna görə xoşuma gəlirdi. Başqaları dil boğaza qoymur: «Taun, taun, bizdə taun olub». Görürsən, hələ bir orden də istəyirlər. Nədi axı bu taun, belə baxanda? O da həyatın bir parçasıdı, durub öz yerində, həyatın içində». (səh. 339).

***

Qəhrəman pozasında dayanan adam ləyaqətli ola bilərmi?

Qəhrəman pozası insan ləyaqətinə təhqirdi.

«Yaxşılığı elə, at dəryaya, balıq bilməsə də, xalıq bilər» məsəlində də təmənnaya, eqoistik marağa hesablanma var. Bu mənada yalnız Allaha inanmayan adamın dəryaya atdığı yaxşılığı təmənnasız saymaq, bu yaxşılığın təmənnasız olduğuna inanmaq mümkündü.

Yer kürəsində qəhrəmanlığa iddia eləmədən həqiqət uğrunda canını fəda eləyən adamdan böyük adam yoxdu.

Mən naməlum qəhrəmanları sevirəm. Məlum qəhrəmanlarasa yalnız qəhrəmanlığa iddia eləmədiklərini görəndə hörmət eləmək mümkündü.

Qəhrəmanın pozası onun qəhrəmanlığına şübhə eləməkdən ötrü ən tutarlı dəlildi. Mən hələ onu demirəm ki, bu həm də ona nifrət eləməkdən ötrü ciddi bir əsasdı. Təsadüfi deyil ki, elə belə də olur: insanlar qəhrəmanlıq pozası alanlara hansı fədakarlıqlardan keçməsinə baxmayaraq axır-əvvəl nifrət eləyirlər.

Qəhrəmanlıq pozası hər şeyi korlayır. Poza – qəhrəmanlığa ləkədi.

***

Bizdə indi hamı, hətta Allaha inananlar da yaxşılığı dəryaya jurnalistlərin iştirakıyla atır. Hətta bununla da kifayətlənmirlər. Az sonra jurnalistlərə dalğıc paltarı geyindirib balıqlardan müsahibə almağa göndərirlər.

Bizim Hacı Zeynalabdin Tağıyevə böyük hörmətimiz var və o, buna, əlbəttə ki, layiqdi. Ancaq mən bilirəm ki, hər bir azərbaycanlının içində ifadə olunmamış belə bir sualın havası dolaşır: niyə biz Tağıyevin yaxşılıqlarını bu qədər cikinə-bikinə kimi bilirik?

Xəsis milyonçu kimi tanınan Musa Nağıyevin heç yerdə açıb-ağartmadığı, yalnız öləndən sonra məlum olan bir çox yaxşılığı, xeyriyyə işləri bu gün Azərbaycanda onun rəğbətlə xatırlanmasının başlıca səbəbidi.

Sağ əlin verdiyini sol əl bilməməlidi. Azərbaycanda bu ən çox sevilən məsəllərdəndi. Ancaq onun ən çox əməl olunan qaydalardan biri olduğunu söyləmək sadəlövhlük olardı.

***

Həyat, cəmiyyət elə qurulub ki, insanlar çox vaxt nəyə – həqiqətə, düzgünlüyə, yoxsa qəhrəmanlığa iddia elədiklərini özləri də ayıra bilmirlər. Holdenin (Selincerin «Çovdarlıqda uçurumdan qoruyan» romanının qəhrəmanı) dediyi kimi: «Vəkil olmaq pis olmazdı, ancaq... O da mənlik deyil... Bilirsən, onlar məhz günahsız adamların həyatını xilas eləsəydilər, bu heç də pis olmazdı, ancaq iş ondadı ki, vəkil olandan sonra bu heç adamın yadına düşmür. İşin-gücün daha çox pul qazanmaq, bric, qolf oynamaq, maşın almaq, lovğa-lovğa kokteyl içmək, modabazlıq eləmək olur. İkincisi də, tutaq ki, vəkil olandan sonra sən həmişə yalnız günahsız adamların həyatını müdafiə eləməklə məşğulsan, onda hardan biləsən ki, bunu nəyin xatirinə eləyirsən – həqiqətən onların həyatını xilas eləmək istədiyinə görəmi, yoxsa məşhurlaşmaq, güclü vəkil kimi şan-şöhrət tapmaq naminəmi? Bəlkə sən də başqaları təki istəyirsən ki, hər dəfə bu andır məhkəmə prosesindən qalib çıxanda lap elə o sarsaq filmlərdəki kimi hamı əlini kürəyinə qoyub səni təbrik eləsin. Necə biləsən ki, sən bununla özünü gözə soxmaq istəmirsən? İş də burasındadı ki, bunu heç vaxt bilməyəcəksən». (Cerom Devid Selincer, «Roman, povest və hekayələr». Bakı, «Yazıçı», 1990. səh. 140).

«Öz cibindən ləyaqətlər bəxş eləməklə dostunu təhqir eləmə» – Rabindranat Taqor «Köçəri quşlar»ında deyir. (R.Taqor, «Mənsur şeirlər, hekayələr, roman». Bakı, «Yazıçı», 1988. səh. 94).

Bunu da Taqor deyib: «Tərifl ənmək məni utandırır, çünki gizlində onu arzulayıram». (Göstərilən kitab, səh. 103).

***

Qəhrəmanlığa iddia eləyən adam xalq uğrunda yox, şöhrət uğrunda döyüşür. Belə adam yalnız döyüş qurtarandan sonra başa düşəcək ki, xalq onu niyə bu qədər tərifləyirmiş. Ancaq ola bilsin, o bunu başa düşməyə macal tapmamış öləcək. Bax, onda xalq öz günahını yumaq üçün hələ bir müddət onu tərifləməyi dayandırmayacaq.

Öz hərəkətinə qəhrəmanlıq kimi baxan adam həmin hərəkətin təkcə yaşadığı cəmiyyət, mənsub olduğu xalq üçün yox, həm də şəxsən özü, öz xarakteri üçün nadir hal, istisna olduğunu göstərir. Ola bilsin, o, başqalarına bu cür münasibətində yanılır, yəni onun həmin hərəkətinin cəmiyyət, xalq üçün istisna deyil, səciyyəvi olması mümkündü. Ancaq o heç vaxt özünə münasibətdə yanıla bilməz. Deməli, öz hərəkətinə qəhrəmanlıq kimi baxan adam istənilən halda öz xarakteri, əxlaqı haqda çox düzgün informasiya verir (öz pozasıyla).

***

Qəhrəmanlığa iddia eləyən adam həqiqət uğrunda ölə bilməz. Yəni eyni zamanda həm qəhrəmanlığa iddia eləmək, həm də həqiqət uğrunda mübarizə aparmaq mümkün deyil.

Dostoyevski «Yazıçının gündəliyi»ndə, bu nəşrin 1877-ci ilin yanvar ayında çıxan buraxılışında (Ф.М. Достоевский, «Дневник писателя». Москва, «Современник», 1989. səh. 363-368) bir hadisədən danışır. 1875-ci ilin noyabrında 2-ci Türküstan atıcı batalyonunun unter-ofiseri (çar ordusunda kiçik zabit) Foma Danilovu müsəlmanlığı qəbul eləmədiyinə və qıpçaqların tərəfində döyüşməyə razılaşmadığına görə əsirlikdə işgəncəylə öldürüblər. Xanın özü ona vəd veribmiş ki, xristianlıqdan dönsə, onu bağışlayacaq, üstəlik, mükafatlandırıb şərəfə layiq görəcək. Danilovsa cavab verib ki, o, xaça xəyanət eləyə bilməz və əsir də olsa, bir çar təbəəsi kimi çar və xristianlıq qarşısında borcunu yerinə yetirməlidi. Ona ölüncə işgəncə vermiş qıpçaqların özü Danilovu batır, yəni bahadır, igid adlandırıblar.

Dostoyevski bu hadisənin cəmiyyətdə (yəni Rusiyada) heç bir təəccüb, heyrət doğurmamasına diqqət çəkib deyirdi ki, əslində xalq buna heç təəccüblənməməlidi də. Onun fikrincə, Fomanın hərəkəti rus xalqına qeyri-adi görünə bilməz, xalq olsa-olsa bu qəhrəmanlığa ürək yanğısıyla baxa bilər.

Dostoyevski deyirdi ki, ola bilsin, sağlığında Danilov yeyib-içməyə, əyləncəyə laqeyd adam olmayıb, ola bilsin, heç o qədər ibadət də eləmirmiş. «Ancaq Allahı, əlbəttə ki, həmişə xatırlayırmış». Və belə bir adamı qəfildən seçim qarşısında qoyurlar: ya dinini dəyişməlidi, ya da ölməlidi. Yaşadığı cəmiyyətdə heç vaxt gözə çarpmamış bu adi rus adamı əzablı ölümü qəbul eləyir. Dostoyevski deyirdi: «Hamının gözü qabağında əzab çəkmək hətta adama xoş da gəlir. Burdasa hər şey gözdən-könüldən uzaq yerdə, az qala tam qapalı şəraitdə baş verib. Fomanı heç kim görmürdü, yəqin heç özünün də ağlına gəlməzdi ki, onun qəhrəmanlığı bütün rus torpağına yayılacaq. Məncə, din şəhidləri, hətta xristianlığın ilk əsrlərində şəhid olanlar da öz ölümlərinin qorxaqlar və tərəddüd eləyənlər üçün örnəyə çevriləcəyini, Məsihin tərəfdarlarının sayını artıracağını düşünüb az-çox təsəlli tapırdılar. Foma üçünsə belə bir təsəlli yox idi. O, ona əzab verənlərin arasında tək idi. Hardasa cavan arvadı və bir qızı var. Bir daha onların üzünü görməyəcək. Ancaq nə olur olsun, «harda oluramsa olum, dözəcəm, vicdanıma xəyanət eləməyəcəm» – bax, həqiqət ancaq həqiqətə xidmət eləyəndə həqiqidi, özünü göstərməyə xidmət eləyəndə yox. ...Əsl mərdlik, əsrarəngiz, təbii mərdlik budu.

...Yenə deyirəm, bizim xalqdan ötrü, ola bilsin, Danilovun qəhrəmanlığı heç təəccüblü də deyil. ...Bizim xalq məhz bu cür – həqiqət üçün olan həqiqəti sevir, özünü göstərmək üçün olan həqiqəti yox. Qoy o lap köntöy, kifir, günahkar, xoşagəlməz olsun, ancaq məqamında, xalqın ümumi həqiqət işi başlayanda materializmin zülmü, ehtiraslar, pul, mülkiyyət şirnikləndirməsi, hətta ən dəhşətli ölüm qarşısında onun ortaya qoyacağı azad ruh sizi heyrətə gətirəcək. Və bütün bunları o adi bir iş kimi görəcək, təbii bir qətiyyətlə, heç bir mükafat, tərif ummadan, özünü gözə soxmadan». (Ф.М. Достоевский, «Дневник писателя». Москва, «Современник», 1989. səh. 366-367).

***

Qəhrəmanlıq odu ki, sənin bu işi yerinə yetirməməyə haqqın çatır, amma sən o işi görürsən. Ona görə də eyni iş, hərəkət qəhrəmanlıq ola da bilər, olmaya da. Tutaq ki, valideyn öz övladı yolunda böyük bir fədakarlıq eləyib. Biz bunu qəhrəmanlıq saymayacağıq. Ancaq həmin fədakarlığı yad adam eləsəydi, qəhrəmanlıq kimi qiymətləndirilə bilərdi. Ancaq burda

bir məsələ var: bu bizim, yəni kənar adamların, cəmiyyətin münasibətidi, qiymətləndirməsidi. Yəni biz baxırıq və belə qənaətə gəlirik ki, həmin yad adam istəsəydi, o işi görməyə bilərdi, buna haqqı çatırdı. Beləliklə də onun hərəkətini qəhrəmanlıq sayırıq. Amma ola bilsin, həmin yad adam başqa cür düşünür. Ola bilsin, o hesab eləyir ki, həmin işi görməsəydi, vicdanı ona əzab verərdi. Bu da o deməkdi ki, o hesab eləyib ki, həmin işdən yayınmağa haqqı çatmırdı. Deməli, öz münasibətinə görə, onun işi vicdanın diktəsi, tələbiylə görülmüş adi insani işdi, insani borcun ödənməsidi.

Vicdanın tələbiylə görülmüş heç bir işsə qəhrəmanlıq ola bilməz. Hansı işi ki yerinə yetirməyi insan özünə borc bilib, deməli, onun həmin işə əməl eləməsi, nə qədər çətin, qorxulu, riskli olsa da, qəhrəmanlıq deyil. Deməli, insan nə qədər vicdanlıdısa, vicdanın diqtəsini, tələbini nə qədər yaxşı eşidirsə, bir o qədər çox fədakarlıq eləyəcək və bir o qədər də buna adi iş kimi baxacaq, özünü qəhrəman saymayacaq. Və əksinə: insan nə qədər vicdansızdısa, vicdanın diktəsini, tələbini nə qədər pis eşidirsə, bir o qədər az fədakarlıq eləyəcək və hər fədakarlığına qeyri-adi iş kimi baxacaq, özünü qəhrəman sayacaq. Onun hərəkətinə onun öz hissiylə yanaşsaq, doğrudan da onu qəhrəman saymalıyıq. Çünki ona elə gəlib ki, bu işi görməsə də olar. Bununla belə o, həmin işi yerinə yetirib. Deməli, öz təbiətinə yad olan bir addımı atıb.

Qəhrəmanlıq – vicdansız yerinə yetirilmiş əxlaqlı hərəkətdi. Amma bu, vicdansız yerinə yetirilsə də, könüllü yerinə yetirilir. Yəni qəhrəmanlıq elə bir hərəkətdi ki, orda daxili (vicdani) təhrik olmadığı, daxili məcburiyyət olmadığı kimi, xarici təhrik, xaricdən məcburiyyət də yoxdu. Deyəcəksiniz bəs necə olur ki, nə vicdan məcbur eləyir, nə cəmiyyət, amma bununla belə insan hərəkət eləyir, fədakar addım atır, əxlaqlı iş görür? Bax, qəhrəmanlığın sirri də bundadı. O elə buna görə də qəhrəmanlıqdı, nadir və böyük bir işdi, istisnadı və tarixə yazılmağa, əfsanəyə, dastana çevrilməyə layiqdi. Biz elə ona görə onu qəhrəmanlıq adlandırır, ona heyrətlə, təəccüblə baxırıq ki, onun nə cür baş verdiyini anlamırıq. Yəni biz başa düşə bilmirik ki, necə olub insan bu cür fədakarlıq eləyib. Əgər biz düşünsəydik ki, onu buna vicdanı, yaxud başqaları məcbur eləyib, onda qətiyyən təəccüblənməzdik və həmin fədakarlığa da qeyri-adi hadisə kimi baxmazdıq.

Qəhrəmanlığı insanın (cəmiyyətin, xalqın) həmin hərəkətin mümkünsüzlüyünə inamı yaradır. Yəni adam(lar) düşünür ki, filan cür hərəkət eləmək mümkün deyil, insanın gücü, imkanı xaricindədi. İmkan çərçivəsində qəhrəmanlıq yoxdu, qəhrəmanlıq imkan xaricindədi. Elə buna görə də biz mümkünsüz saydığımız işə qəhrəmanlıq kimi baxırıq. Elə buna görə də biz qəhrəman bir hərəkətə baxanda onun mümkünlüyünə heyrətlənirik.

Qəhrəmanlıq zərurət deyil. Qəhrəman hərəkət o hərəkətdi ki, o, əslində olmamalıydı, baş verməməliydi. Bu mənada qəhrəmanlıq elə bir hərəkətdi ki, onun səbəbini izah eləmək mümkün deyil. O, sirrdi, möcüzədi. Qəhrəmanlıq – fenomendi.

Həddən artıq vicdanlı adamdan qəhrəman çıxmaz, çünki elə bir fədakarlıq, yaxşılıq yoxdu ki, bu adamın onun qarşısında vicdanı sussun. Elə bir əxlaqlı hərəkət yoxdu ki, onun vicdanı onu həmin hərəkəti yerinə yetirməyə çağırmasın.

Qəhrəmanlığın rekorddan fərqi əxlaqlı, fədakar, insanlıq üçün faydalı olmasındadı. Qəhrəmanlığın rekorddan fərqi xilaskar mahiyyətli olmasındadı. Əks halda (yəni qəhrəmanlıqla əxlaqın arasında bu cür ayrılmaz birlik olmasaydı) «Ginnesin rekordlar kitabı»nın yarısını qəhrəmanlıq dastanı saymaq lazım gələrdi.

Fikir vermisizmi, özünün adi bir yaxşılığına, adi bir insani borcuna qəhrəmanlıq kimi baxan və bunu ətrafdakılara hiss elətdirən adamdan həmişə iyrənirlər, ona nifrət eləyirlər. Niyə? Ona görə ki, bu zaman adamlar istər şüurlu, istərsə də şüursuz olaraq başa düşürlər ki,

sən demə, həmin hərəkət bu adam üçün vicdani norma deyilmiş, demə, bu yaxşılıq onun təbiəti, xarakteri üçün adi hal deyilmiş. İnsanlar başa düşürlər ki, hətta bu adi yaxşılıq, humanizm də bu adam üçün xarakterik deyilmiş. Və bu cür adi yaxşılığa belə yaramayan xarakterə, təbiətə nifrət eləyirlər. Amma adamlar bu cılız adamın həmin humanist addımı atdığı anda öz təbiətini aşa bilməsini, öz xarakterinə zidd dayanmağı bacarmasını da qiymətləndirməyi, razılıqla qarşılamağı unutmurlar. Fikir vermisizmi, murdar adamın hətta ən təmənnasız yaxşılığını eşidəndə adamda həm nifrət, həm də hörmət hissi yaranır. Bax, həmin hisslərin qoşa doğulmasının səbəbi budu. Biz bir yandan insanın öz murdar təbiətindən, ani də olsa, yüksəyə qalxa bilməsini rəğbətlə qarşılayırıq, o biri yandan da bu cür adi bir humanizmin həmin insanın təbiətinə yad bir hal olduğunu xatırlayıb, nifrət eləyirik.

***

Bəs qəhrəmanlıq nədən yaranır? Necə olur ki, nə əxlaqi, nə də qeyri-əxlaqi, nə daxili, nə də xarici təhrik, impuls olmadığı halda insan son dərəcə fədakar, əxlaqlı, ləyaqətli bir addım atır? Bayaq dedim ki, sirrdi, fenomendi, möcüzədi. Bu səbəbdən mən qəhrəmanlığın psixoloji izahını verə bilməyəcəm. Mən bunun səbəbini, yaranışını yalnız fəlsəfi, metafizik, deməli, fantastik şəkildə izah eləmək istəyirəm. Deməli belə. Allah insana hər cür fədakarlıq, yaxşılıq, mərdlik üçün, istənilən situasiyada əxlaqlı davrana bilmək üçün lazımi hisslər – vicdan, ləyaqət, sevgi, ədalət, mərhəmət verib. Və hesab eləyib ki, bu hisslər insanın əxlaqlı olması üçün kifayətdi. Ancaq necə deyərlər, hər ehtimala qarşı, nadir, istisna hallar üçün insana müstəqil, ayrıca bir keyfiyyət – qəhrəmanlıq qabiliyyəti də verib. Yəni qəhrəmanlıq tələb eləyən (əslində burda «tələb eləyən» ifadəsi doğru deyil, ona görə də belə desək daha dəqiq olar: çıxış yolu qəhrəmanlıqda olan, yalnız qəhrəmanlıqla yoluna qoyula biləcək) situasiya elə situasiyadı ki, əslində Allah insanı həmin situasiyalar üçün yaratmayıb. Ona görə də bu cür situasiyalarda hisslər, xüsusən vicdan hərəkətə gəlmir, insanı fədakarlığa çağırmır. Ona görə də qəhrəmanlıq tələb eləyən situasiyada qəhrəmanlıq eləməyən adam (söhbət ən vicdanlı adamdan gedir) heç vaxt vicdan əzabı çəkmir (yox, əgər çəkirsə, bu o deməkdi ki, həmin situasiya heç də qəhrəmanlıq tələb eləmirmiş).

Və Allah fikirləşib ki, birdən elə bir an gələr ki, həmin anda əxlaqlı hərəkət lazım olar, amma əxlaqi hisslərin insanı o hərəkətə təhrik eləməyə gücü çatmaz. Onda belə çıxmırmı ki, Allah insanı elə bir dünyaya göndərir (göndərib) ki, orda insanın subyektiv əxlaqıyla obyektiv əxlaq arasında boşluq ola bilər, əxlaqi hisslər obyektiv aləmdə hansısa situasiyanın əxlaqi mahiyyətini duymaya, dərk eləməyə bilər? Belə çıxmırmı ki, Allah insanı elə bir dünyaya göndərir ki, orda lap milyonda bir dəfə də olsa, hansısa anda insanın passiv dayanmağa haqqı çatacaq, yəni bu mövqe çox əxlaqlı, ləyaqətli bir mövqe olacaq, amma eyni zamanda obyektiv baxımdan bu zaman insan heç də əxlaqlı görünməyəcək? Bax, bunun qarşısını almaq üçün, «ehtiyat tədbir» kimi Allah insana qəhrəmanlıq hissi, qəhrəmanlıq qabiliyyəti verib. Bu, müstəqil bir hissdi, ayrıca qabiliyyətdi və obyektiv əxlaqla subyektiv əxlaq arasındakı ehtimali boşluğu doldurur, bundan ötrü yaranıb. Bu hiss, bu qabiliyyət son dərəcə vicdanlı, ləyaqətli insanın özünü tamamilə haqlı duyduğu andakı passivliyinə daxildən, eyni zamanda bütün hisslərdən kənar, azad təkan kimi nəzərdə tutulub. Yəni o, heç bir hissi – vicdanı, ədaləti, ləyaqəti, sevgini və s. gücləndirmir, onlara toxunmur, sadəcə, insanın passivliyini dəyişir.

Yox, əgər dediklərim doğru deyilsə, onda belə çıxır ki, qəhrəmanlıq yoxdu, ən ağlasığmaz fədakarlıq belə adi vicdani borcdu...

***

General, fəlsəfə elmləri doktoru, professor Dmitri Volkoqonovun «Döyüşçü etikası» kitabında belə bir məqam var: «Qəhrəmancasına hərəkət mahiyyətcə insan azadlığının ali təzahürüdü... Əxlaqi mənada qəhrəmanlıq – döyüşçünün öz üzərinə rəsmi sənədlərdə tələb olunduğundan artıq bir məsuliyyət götürməsi deməkdi». (*Д.А. Волкогонов*, «Воинская этика». Москва, «Воениздат» (Военное Издательство Министерства Обороны СССР), 1976. səh. 157).

Doğrudan da, qəhrəmanlıq anında insan həddinən artıq azaddı. Bu azadlığın azacıq pozulması, daxili, yaxud xarici təhrikin yaranması kifayət eləyir ki, davranış qəhrəmanlıq mahiyyətini itirsin. Qəhrəmanlıq könüllülükdü. Qəhrəman – bütün zərurətlərdən, təhriklərdən azaddı. Və bu cür azad vəziyyətində insan misilsiz bir əxlaqi addım atır. İnsan öz üzərinə Allahın verdiyindən, Allahın tələb elədiyindən də artıq əxlaqi məsuliyyət götürür. Bu mənada qəhrəmanlıq – ən böyük əxlaq, qəhrəman – ən əxlaqlı adamdı.

Yalnız azad insan qəhrəman ola bilər.

Qəhrəmanlıq – insanın öz üzərinə Allahın verdiyindən daha artıq əxlaqi məsuliyyət götürməsi deməkdi. Adi insani borcunu yerinə yetirdiyi halda özünü qəhrəman kimi aparan adamlar həm də bu baxımdan gülünc görünürlər. Yəni məsələyə onların öz hissindən yanaşanda burda gülməli heç nə yoxdu, ancaq məsələyə ümumiyyətlə insan təbiəti baxımından, obyektiv yanaşanda bu çox gülməli görünür. Çünki onların subyektiv münasibəti obyektiv baxımdan da həqiqət kimi qəbul olunmağa can atanda onda belə çıxır onlar sübut eləmək istəyirlər ki, Allah insanın üzərinə heç bir əxlaqi məsuliyyət qoymayıb, yaxud qoyubsa da, çox cüzi məsuliyyət qoyub, o qədər cüzi ki, tutalım, bu işi (yəni özünü qəhrəman kimi aparanların gördüyü işi) görməyə bəs eləyəcək qədər deyilmiş. Bu, doğrudan da, gülüncdü və Allaha sataşmaqdı.

Qəhrəmanlıq – qeyri-adinin adiyə çevrilməsi, normaya çevrilməsi deyil. Qəhrəmanlıq heç vaxt adiləşə, normaya çevrilə bilməz. O, tutaq ki, kütləviləşə bilər – bu başqa məsələdi. Qəhrəmanlıq nəinki təkrarlandığı, hətta kütləviləşdiyi anda da qeyri-adidi.

Qəhrəmanlıq borc deyil. Ona görə də qəhrəmanlıq eləyən adam heç vaxt başqalarını utandırmır. Əgər qəhrəmanlıq vicdani borc olsaydı, onda adamlar qəhrəmanı səmimi-qəlbdən sevə bilməzdilər, onlara xəcalət verdiyinə görə ürəklərinin dərinliyində ona nifrət eləyərdilər. Halbuki belə deyil. Qəhrəmanı ürəkdən sevirlər və ona pərəstiş eləyirlər. Amma heç vaxt adamlar özləri qəhrəmanlıq eləmədiklərinə görə utanmırlar. Qəhrəmanlıq – utandırmır. Utandırırsa, adamlar qəhrəmana gizli bir xəcalətlə baxırlarsa, deməli, onun hərəkəti (hünəri) heç də qəhrəmanlıq deyilmiş, sadəcə, vicdanın tələb elədiyi bir iş imiş.

Qəhrəmanlığa iddia eləmədən həqiqət uğrunda mübarizə aparan adam vicdanın böyüklüyündən xəbər verir. Bununla o, göstərir ki, vicdanın tələbi o qədər böyükdü, sonsuzdu ki, heç nədə qəhrəman kimi görünmək, buna iddia eləmək mümkün deyil. Amma ola bilsin, hansısa məqamda o, vicdanın tələb elədiyindən də əxlaqlı olacaq. Bax, həmin məqamda o, qəhrəmandı. Gör insan nə qədər vicdanlı olmalıdı ki, vicdanın sonundan o yana adlaya bilsin. Bu, mümkündümü? Qəhrəmanlıq mümkündümü? Yenə də bu sualın üstünə gəlib çıxırıq.

Qəhrəmanlığa inanmaq insanın vicdanın tələb elədiyindən artıq əxlaqlı, ləyaqətli ola bildiyinə inanmaq deməkdi.

Nə bilmək olar, bəlkə qəhrəmanlıq da vicdandan gəlir... Əgər belədisə, onda həmin anda vicdan çox zəif, cüzi iştirak eləyir. Həmin anda vicdan o qədər zəif, yavaşca dillənir ki, onu yalnız özünə son dərəcə həssas adamlar eşidir. Yəni elə yer var ki, orda vicdan tələb eləyir, orda qəhrəmanlıq mümkün deyil. Elə yer də var ki, vicdan orda hətta tələb də eləmir, sadəcə pıçıldayır, bir növ ehtiyatla təklif eləyir, məsləhət eləyir, deyir ki, bax da, özün bil, istəyirsən get, istəyirsən getmə. Əgər qəhrəmanlıq da vicdandan gəlirsə, yəni qəhrəmanlıq yoxdusa, bütün əxlaqlı hərəkətlər borcdusa, deməli, qəhrəman dediyimiz adamlar əslində o adamlardı ki, vicdanın hətta kiçicik məsləhətinə də əməl eləyiblər, vicdanın ehtiyatlı bir təklifini hökmə çeviriblər. Əgər belədisə, onda qəhrəman dediyimiz adam – vicdanın tərəddüdünü əxlaqın xeyrinə həll eləyən, vicdani tərəddüddən əxlaqi hökm çıxaran adamdı. Ancaq bu variantda da istər-istəməz belə çıxır ki, qəhrəman öz üzərinə vicdanın tələb elədiyindən artıq mənəvi məsuliyyət götürür.

Qəhrəmanlıq elə bil insanın əxlaqi normasını artırmaq cəhdidi. Elə bil sən (xüsusən müharibədə, qeyri-bərabər döyüş vəziyyətində) hansısa qeyri-adi, qeyri-normal davranış tərzini, fədakar reaksiyanı nümunəyə çevirməklə onu normaya daxil eləmək, normadan artıq olan bir şeydən norma yaratmaqla problemi həll eləmək istəyirsən. Həmin məqamda (xüsusən müharibədə, qeyri-bərabər döyüşdə) insan müəyyən bir davranış nümunəsi yaratmaqla onu kütləviləşdirə, beləliklə də, ümumi məqsədə nail oluna bilər. Amma bu o demək deyil ki, həmin davranış tərzi ondan sonra adi davranış normasına çevriləcək. Xeyr. Qəhrəmanlığın (təbii ki, biz əsl qəhrəmanlıqdan danışırıq) kütləviləşməsi belə onun adiləşməsinə gətirib çıxarmır. Qəhrəmanlığın sayı artacaq, ancaq orda qəhrəman hərəkətin özünün mahiyyətinə zidd hansısa proses baş verməyibsə, tutaq ki, məcburiyyət, küyədüşmə, vicdan təhriki olmayıbsa, mənəvi və hüquqi baxımdan insan həmin hərəkəti eləməmək haqqını itirməyibsə, deməli, sayı nə qədər çoxalsa da, mahiyyəti dəyişməyəcək.

Qəhrəmanlıq nümunəsi yalnız ona kömək eləyir ki, oxşar situasiyada insanın gözü qabağında müəyyən bir davranış forması canlanır, vicdanı onu həmin formada davranmağa səsləməsə də, o, başa düşür, daha artıq inanır ki, burda vicdanın tələb elədiyindən artıq da əxlaqlı olmaq mümkündü. Beləliklə, insan daha inamla, daha sürətli qərar qəbul eləyir və nümunəni təkrarlayır, təzələyir.

Qəhrəmanlığa iddia eləmək istəyənin öz vicdanını susdurması vacibdi.

Qəhrəmanlığı könüllülük yaradır. Müharibədə də qəhrəmanlar əsasən könüllülərin arasından (yəni müharibəyə, orduya könüllü gedənlərin arasından) çıxır. Və əlbəttə ki, məcburi hərbi xidmətini keçən əsgərlər və yaxud muzdlular da qəhrəmanlıq elədiyi anda könüllüdülər.

***

Çox qəhrəmanın heykəli var. Ancaq qəhrəmanlığa ucaldılan ən gözəl abidə naməlum qəhrəmana ucaldılan abidədi.

3-6 avqust 2002-ci il

23. Dövlət və din

Dövlət və din

Dövlətin dindən ayrılması dövlətin dini ideyalardan ayrılması deyil. Əksinə. Dövlət dindən ayrılandan dini ideyalara daha dərindən əməl eləməyə başlayıb. Məsələn, dövlət dindən ayrılandan bəri neçə-neçə ölkədə ölüm hökmü ləğv olunub. Ölüm hökmünün rədd olunması birbaşa dindən (xristianlıqdan) gəlir.

Dinlərin hamısında dinlər bərabər tutulur, qarşılıqlı hörmət ifadə olunur. Bu ideyaya da dövlət dindən ayrılandan sonra daha çox əməl olunur. Dini dövlətdəsə bu bərabərlik dərhal pozulur(du).

Dövlətlə dinin birləşməsi dini yüksəltmir, əksinə, alçaldır. Dövlətlə din birləşəndə dövlət yüksəlir, müqəddəsləşir. Dinsə onsuz da müqəddəsdi. Deməli, dövlətlə dinin birliyi, dini dövlət daha çox dövlətə (məmura) sərfəlidi. Çünki bu halda məmur sadəcə bir qulluqçu, qanun icraçısı deyil, o həm də müqəddəs bir insandı. Dövlət müqəddəsləşəndə vətəndaşın dövlətə və məmura qarşı çıxmaq imkanı əlindən alınır. Əvvəla, o, dövlətə qarşı çıxmaq istəyəndə çaşa bilər, hətta özü-özlüyündə ayıra bilməz ki, dövlətə qarşı çıxır, yoxsa dinə qarşı. İkincisi də, dinə qarşı heç bir iddiası olmayan adam dövlətə və hakimiyyətə qarşı iddia irəli sürəndə dərhal onu elə bir vəziyyətə qoya bilərlər ki, guya o, dinə qarşı çıxır. Halbuki o, çox dindar bir insandı. Eləcə də əksinə: dinə qarşı çıxmaq istəyəni dərhal dövlətə xəyanətdə günahlandıra bilərlər. Halbuki onun dövlətə qarşı heç bir iddiası yoxdu.

Beləliklə, dinin dövlətdən ayrılması hər ikisinin xeyrinədi.

Bəziləri hazırda dövlətin, dövlətçiliyin müqəddəsliyindən danışırlar. Bu adamlar başa düşmürlər ki, dövləti müqəddəsləşdirmək dövləti yenidən din səviyyəsinə, məmuru yenidən müqəddəs adam statusuna qaldırmaq deməkdi. Dövlətin müqəddəs olduğu yerdə din dövlətdən formal şəkildə ayrıdı. Yəni ola bilər ki, belə dövlətdə islam, xristianlıq dövlətdən ayrı olsun. Ancaq mahiyyətcə dövlət dindən ayrı deyil, çünki dövlətin özü din səviyyəsindədi.

Dövləti dindən ona görə ayırıblar ki, dövlətin müqəddəsliyinə, məmurun müqəddəslik iddiasına son qoyulsun, qanunu pozmağa günah kimi yox, cinayət kimi baxılsın. Dövləti dindən ona görə ayırıblar ki, dövlət, məmur öz adından, qanunların adından hökm versin, Allahın adından yox. Ancaq dövləti müqəddəsləşdirəndə dərhal bu iddialar baş qaldırır, cinayətkarın qarşısında hamı müqəddəslik pozası alır. Dövlətə qarşı qiyam – Allaha qarşı qiyam sayılmamalıdı.

Dövlət özünü müqəddəs saymamalıdı. Çünki ola bilsin, mən islamı, xristianlığı, yaxud başqa bir dini müqəddəs sayan adamam. Dövlət özünü elə bir səviyyəyə qaldırmamalıdı ki, mənim hansısa dini, sadəcə, müqəddəs saymağım onu (dövləti) təhqir eləmiş olsun. Məsələ burasındadı ki, dövlət müqəddəsləşəndə hansısa dini müqəddəs sayan insan avtomatik olaraq, istər-istəməz dövləti təhqir eləmiş olur. Dini dövlətdə (tutaq ki, İranda) heç olmasa elə bir din var ki, ona itaət, onu müqəddəs saymaq dövləti təhqirə çevrilmir. Dövlətin özünün din statusuna qaldırıldığı zamansa hətta bu imkan da, yəni heç olmasa bir dinin dövləti təhqir eləməməsinin də qarşısı alınır.

Dövləti müqəddəsləşdirmək müqəddəsliyi, müqəddəs inam və etiqadları, dinləri təhqir eləməkdi.

Dövlətin, sadəcə, toxunulmazlığı ola bilər ki, bu da həm müvəqqətidi, həm də dövlətin özünü qoruya bilməsi üçün zəruridi. Ancaq dövlət öz toxunulmazlığını cəmiyyətə mənəvi anlayış kimi yox, hüquqi anlayış kimi təqdim eləməlidi. Və dövlət toxunulmazlığını pozan adam cinayətkar kimi ittiham olunmalıdı, günahkar kimi yox. Yəni hüquqi motivlərlə ittiham

olunmalıdı, mənəvi motivlərlə yox. Kimsə bayrağa tüpürüb? Buyursun, cəriməsini versin. Daha ona demək olmaz ki, dur, Azərbaycan xalqından üzr istə, yaxud ona demək olmaz ki, sən xalq düşməni, vətən xainisən. Bayrağa tüpürmək – mənəviyyatsızlıq, əxlaqsızlıq deyil. Bayrağa tüpürməyin nə olduğunu bilmək istəyirsinizsə, açın, qanunlara baxın. Bax, orda nə yazılıbsa (yəni bayrağa tüpürməyə aid orda nə yazılıbsa), bayrağa tüpürmək odu, ondan artıq deyil. Və orda bayrağa tüpürənə qarşı hansı cəza nəzərdə tutulubsa, həmin adama da o həddə cəza verilməlidi. O adama ondan artıq heç bir cəza düşmür.

Əgər dövlət deyirsə ki, bayraq toxunulmazdı, onda mən biləcəm bayraqla necə davranmaq lazımdı. Ancaq dövlət deyirsə ki, bayraq müqəddəsdi, onda mən bilmirəm bayraqla necə davranmaq lazımdı. Sizcə bayraq müqəddəsdisə, onunla necə davranmaq lazımdı? Və sizə elə gəlmirmi ki, əgər bayraq müqəddəsdisə, onda onu təhqir eləyənin cəzasını bu dünyada heç cür vermək mümkün deyil, onun cəzasını yalnız Allah özü verə bilər. Deməli, bayraq müqəddəsdisə, onda onu təhqir eləyənə bu dünyada cəza düşmür. Deməli, onu cəzalandırmaq yox, sadəcə, Allaha tapşırmaq lazımdı. Vəssalam. Bayrağın müqəddəs olduğu halda onu təhqir eləyən kafirə qarşı bu dünyada yeganə tədbir bu ola bilər.

11 avqust 2002-ci il

24. Suyun iyi

Suyun iyi

Yay. Sakit, sərin yay gecəsi. Çöldə yüngülvari meh var, evimizin yel çəkən pəncərələrindən duyuram. 8-dən 9-na keçən gecə. Saat 5-ə işləyir. Bircə mən yatmamışam. Televizor olan otaqda oturub «Karamazov qardaşları»na verilmiş şərhi oxuyuram. Necə deyərlər, romanın özünə girişməkdən, romanın özünü oxumaqdan ötrü güc toplayıram. Birdən-birə burnuma yaş torpaq iyi dəydi. Fikirləşdim yəqin yağış damcılayıb, xəbərim olmayıb. Heç eyvana çıxıb baxmadım da. Hələ də baxmamışam. Amma çətin ki, yağış yağmış olsun. Əvvəla bu vaxt yağmaz, ikincisi də yağsaydı, eşidərdim. Yəqin birinci mərtəbədəki qonşular torpağı sulayıblar. Amma mən bu qoxunu niyə bayaqdan duymuram? Ola bilməz ki, indi durub sulasınlar, gecənin bu vaxtında. Bəlkə kimsə yerə su atıb? Elə olsaydı da eşidərdim. Biz üçüncü mərtəbədə yaşayırıq. Bu sakitlikdə birinci mərtəbədən yerə bir stəkan su atsaydılar da eşidərdim.

Nəysə. Mən niyə çıxıb eyvana baxmıram? Otaqda oturub bu qədər sualı verincə?.. Bilmirəm. Mən bu qeydi yalnız ona görə başlamışdım ki, deyəm burnuma yaş torpaq iyi dəydi, amma məncə, bu, torpağın yox, suyun iyidi. Bu mənim dünyada ən çox sevdiyim qoxudu. Get-gedə iy çəkilir deyəsən, yəqin su çəkilir, ona görədi.

Bu qeydin sonuna bir cümlə də yazmaq istəyirdim: «...Amma çıxıb eyvana baxmaq lazımdı, bəlkə elə dünyanı su basır?..». Ancaq qeydin son cümləsinə («Get-gedə iy çəkilir deyəsən, yəqin su çəkilir, ona görədi».) uyğun gəlmədiyinə görə yazmadım. Yəni bir yandan yazasan ki, suyun iyi çəkilir, o biri yandan da ardıyca yazasan ki, çıxıb baxmaq lazımdı, bəlkə elə dünyanı su basır – bu, düz olmazdı. Məntiq yoxdu. Amma maraqlıdı ki, suyun çəkildiyini düşünə-düşünə ağlıma gələn yeganə fikir bu idi – dünyanı su basması. Bununla belə zahiri

(Məhz zahiri. Çünki bu iki fikir arasında daxili məntiq var, olmasaydı, bir-birinin ardıyca ağlıma gəlməzdi. Bəlkə də bu iki fikrin daxili məntiqi bir hisslə (hansı hisslə?) bağlı olmasında, bir hissdən doğulmasındadı.) məntiqsizliyinə görə ağlıma gələn son cümləni yazmayıb, tarixi («9 avqust 2002») qoydum, vəraqi qeydləri yığdığım qovluğa tikdim. Gedib özümə bir stəkan çay süzdüm, içdim, bütün bu müddətdə, bilmirəm neçə dəqiqə çəkdi, beynimdə elə hey o fikir dolaşırdı: çıxıb eyvana baxmaq lazımdı, bəlkə elə dünyanı su basır?..

Çayı içib qurtaran kimi arxa eyvana, yəni oturduğum otaqdan açılan eyvana çıxdım. Bir az o yan-bu yana boylandım. Bu iy hardan gəlirmiş görəsən? Aşağı baxdım, yaş olsa da görmərəm. Fikirləşdim bəlkə də o biri binaların həyətini suvarıblar, o tərəfdən gəlir. Birdən... Əla! Bayaqdan gözümün qabağında ola-ola görmürəm. Nəyi? Öz eyvanımızdan asılmış paltarları. Sən demə, su iyi öz eyvanımızdan yuyulub asılmış paltarlardan, döşəkağından, yorğan üzündən gəlirmiş. Yəqin bayaq meh bir az üzübəri əsib, ya bərk əsib, yaş par-parçanın qoxusu məni vurub. Mən də bayaqdandı min cür sual verirəm. Bax, ona görə «əla!» deyirəm ki, (məni eyvanda gülmək tutmuşdu) insan belədi: nəticədən qayıdanda, nəticədən başlayanda min cür səbəb «tapır». «Bəlkə yağış yağıb», «bəlkə yerə su atıblar», «bəlkə yeri sulayıbılar»... Axırda da: bəlkə dünyanı su basır! Amma eyvana çıxırsan, görürsən ki, paltar asılıbmış, vəssalam.

Amma kim bilir, bəlkə bunu insanın (mənim) qələbəsi (qələbəm) saymaq lazımdı. Hər halda məlum oldu ki, mən o iyə «suyun iyi» deməkdə haqlıyammış. Çünki paltarın iyi olsaydı, torpağın iyinə oxşamazdı. Deməli, doğrudan da, suyun iyidi: torpağı yuyanda da, paltarı yuyanda da eyni cürdü.

Və kim bilir, bəlkə təfəkkürün hansısa məqamda nəticədən qayıtması yaxşıdı. Bəlkə də səbəb hərdən görünməməlidi ki, nəticədə çaşmayasan, nəticəni düzgün müəyyənləşdirə biləsən. Mən əvvəlcədən görsəydim ki, o iy paltardan gəlir, onda indiki kimi tam əmin ola bilərdimmi ki, yaş torpaqdan gələn torpağın yox, suyun iyidi?! Mən bunu əvvəl də düşünürdüm, amma indi qəti əmin oldum. Deməli, yuyulmuş torpaqla yuyulmuş paltar eyni iyi verir. Ancaq sən hərdən torpağın qoxusuna çıxıb paltar görməlisən ki, buna şəkk-şübhən qalmasın. Bax, onda sən qəti əmin olacaqsan ki, düz fikirləşmisən: torpaq da, paltar da, ümumiyyətlə hər şey yuyulanda öz iyini itirir, ona görə də təmiz nə varsa, eyni cür iy verir: bu, su iyidi.

Ola bilsin, mən bu dünyada həqiqətin yerini səhv salıram. Ola bilsin, mən torpaqda axtarıram, gedib görəcəm ki, paltardaymış. Amma bunun fərqi yoxdu. Əsas odu ki, mən suyun həqiqətini axtarırdım. Qoy lap paltardan çıxsın, nə dəxli var, paltarın özü ki, həqiqət deyil!..

Əgər mən fikirləşsəydim ki, bu, torpağın iyidi, yəni suyun iyi deyil, onda eyvana çıxanda bilərdim ki, səhv eləmişəm. Amma mən əslində bilməzdim ki, nədə səhv eləmişəm. Həyatda belə hallar (adamlar) çoxdu. Nə vaxtsa bilirsən (bilirlər) ki, səhv eləyiblər, amma yenə də bilmirlər ki, nədə səhv eləyiblər. Yəni səhvin özündə də yanılırlar.

Əgər mən düşünsəydim ki, bu, paltarın iyidi, onda (eyvana çıxanda) mənə elə gələrdi ki, düz bilmişəm. Amma mənim heç xəbərim də olmazdı ki, əslində səhv eləyirəm.

Həqiqət faktın özündə yox, havasındadı. Ola bilsin, mən faktın özündə yanılıram. Amma bu, əsas deyil. Əsas odu ki, faktların havasında yanılmayasan, havanı düz tutasan. Qoy o, torpaqdan yox, paltardan çıxsın, nə fərqi var. Əsas odu ki, yenə suyun həqiqəti çıxsın, yenə su həqiqi çıxsın.

Ola bilsin, kainatda ilahi ədalətin olduğuna inananların cənnət, cəhənnəm haqda təsəvvürləri yanlışdı. Ola bilsin, bütün yaxşılıqlarının, bütün əzablarının əvəzini bir gün huri-

mələklərdən alacağını düşünən adam tamamilə səhv eləyir. Ancaq əsas bu deyil axı. Əsas odu ki, onun ilahi ədalətə inamı düz çıxsın. Hansı formada olursa-olsun, amma olsun. Qoy o, mələklərə inamında yanılsın, amma təki ədalətə inamında yanılmasın.

Əgər kainatda həqiqətən ilahi ədalət varsa, bu o deməkdi ki, nə beş min il əvvəl ölüləri yemək-içməklə, qab-qaşıqla basdıranlar yanılıblar, nə də yüz illərdi cənnəti yerdə həsrətlə baxdıqları bağ-bağça kimi təsəvvür eləyənlər yanılırlar.

9 avqust 2002-ci il

Gecə. Adamlar şəhərdə əsl gecəni görə bilmirlər

Bütün Günəşlinin işığı keçib. Gecədi, saat 5-ə qalıb. Aydınlıqdı.

Adamlar şəhərdə əsl gecəni görə bilmirlər. Şəhərin, binaların işığı – lampaları gecəni (gecənin işığını da, qaranlığını da) görməyə imkan vermir. Lampa işıqları gecəni ayıq, oyaq göstərir. Şəhərdə gecə yatmır. Şəhər yatmır, şəhər həmişə oyaqdı. Amma şəhərin işıqları sönəndə – elektrik kəsiləndə şəhərdə də gecə bütün təbiiliyilə, butun təbiətiylə görünür. Budu, yay gecəsi. Tam hərəkətsizlik. Külək yoxdu. Binalar, maşınlar, ağaclar tam sükunət vəziyyətində, yuxu içindədi. Gecənin rəngi tam başqaymış. Elektrik işığı hərəkət effekti (görüntüsü) yaradır, ona görə də şəhərin işıqları hərəkətsiz gecəni, yay gecəsinin sükunətini görməyə mane olur. Amma Ayın işığı hərəkət effekti yaratmır, Ayın işığı gecəni tərpətmir. Ayın işığında Günəşin şənliyi, şenliyi yoxdu.

25 sentyabr 2002-ci il

25. Təzadlar

Gündə bir nəfər özünü qatarın altına atsa...

Mayın 15-i idi. «Nizami» metrosundan çıxıb 244-cü marşrut taksisinin son dayanacağına tərəf yollandım. Gecəydi. Sonuncu reysinə hazırlaşan bir «244» dayanıb müştəri gözləyirdi.

Mən yerlərin boş, havanın xoş olduğunu, mikroavtobusun hələ tezliklə yerindən tərpənməyəcəyini görüb bir siqaret yandırdım. Maşınının böyür-başında təkbaşına gəzişən sürücü məni söhbətə tutdu.

– Dünən burda bir nəfər özünü qatarın altına atmışdı, – əlini «Nizami» metro stansiyası tərəfə uzatdı.

– Hə, eşitdim, ANS göstərirdi, – dedim.

– Metronu bağlamışdılar. Bura millətlə doluydu, – dedi. Ani olaraq başını buladı, sonra: – Yaxşı oldu, – əlavə elədi. – Hamı avtobusla gedirdi. Marşrutlar ağzınacan doluydu. Müştəri sarıdan korluq çəkmədik. Yaxşı oldu.

Sürücü tam ciddi, daha doğrusu, tam səmimi danışırdı. Və mən başa düşdüm ki, o, dünənki sevincini çoxlarıyla, xüsusən də sürücülərlə, dispetçerlərlə bölüşüb.

– Uşaqlar cəld tərpəndilər, – dedi. – Metro açılmamış tez bir neçə reys eləyə bildilər.

Mənim gözümün qabağında sürətlə özünü «Nizami» metrosuna çatdırmağa tələsən marşrut taksiləri, yerdə qalan adamları da götürə bilməkdən ötrü ağzınacan tıxalı avtobusun

salonuna boylanıb bir-birinin belinə minmiş sərnişinlərə «camaat, bir az mehriban olun, hamı getmək istəyir, xahiş eləyirəm, bir az sıxlaşın» deyən sürücülərin işıqlanmış gözləri canlandı.

– Yaxşı oldu, – sürücü gülümsədi. – Deyirəm, elə hər gün bir adam özünü qatarın altına atsa bəsimizdi, planı artıqlamasıyla doldurmaq olar.

Və xatırlatdı ki, rəsmi məlumatlarda həmin adamın metro vaqonunun altına təsadüfən yıxıldığı bildirilib.

– Səhlənkarlıqdandı, deyirlər. Nə səhlənkarlıq, ə?! Niyə demirsən ehtiyacdandı, kasıbçılıqdandı. Bəyəm camaat birinci dəfədi metro görür? Balalarını dolandıra bilməyib, atıb özünü qatarın altına da. Vəssalam. Dolana bilmir də camaat. Gör nə qədər bezibmiş e...

Hökumətin, kasıbçılığın qarasınca deyinəndən sonra sürücü:

– Mən özüm, – dedi. – Gecə saat 12-də nə itim azıb burda? Bir tikə çörək puluna çıxmışam da. Gözləyirəm görüm beş adam olacaq ki, burdan Günəşliyə heç olmasa beş «məmmədə» gedim.

Ziddiyyət. Həm də məntiqi ardıcıllıq. Bir yandan dolanışığın çətinliyindən, hökumətin laqeydliyindən gileylənir, o biri yandan da eyni səbəbdən intihar eləmiş insanın ölümünə sevinir. Bir yandan intihar eləyənin vəkili, o biri yandan da düşməni, qatili kimi danışır. Kasıblara həm can yandırır, həm də onlardan birinin hər gün özünü «Nizami» metrosunda vaqonun altına atmasını arzulayır.

18 may 2002-ci il

Beşə qədər saymağı bacarana min dəfə beşə qədər saymaq təklifi

Bu gün avtovağzala, Fəxrini qarşılamağa gedirdim – Fəxri Quzanlıdan gəlirdi. Marşrut taksisində yanımda bir uşaq oturmuşdu. Yolda uşaq çevrilib arxamızda əyləşmiş ata-anasından soruşdu ki, hələ çox qalıb çatmağa? Atası cavab verdi:

– Beşə qədər saymağı bacarırsan?

– Hə.

– Min dəfə beşə qədər say, çatacağıq.

Düzü, mən bilmədim atası uşağıyla zarafat eləyir, yoxsa yox. Ancaq deyəsən, o bunu ciddi deyirdi, daha doğrusu, nə dediyini özü də başa düşmürdü.

Min dəfə beşə qədər saya bilməkdən ötrü minə qədər saymağı bacarmaq da lazımdı. Minə qədər saya bilən insanasa «beşə qədər saya bilirsən?» sualını verməzdilər.

...Beşə qədər saymağı bacarana min dəfə beşə qədər saymağı təklif eləmək. Həyatda belə təkliflər az olmur.

18 may 2002-ci il

Uşaqlarla söhbət

Lənkəran şəhəri. İki balaca uşağı söhbətə tuturam.

– Adın nədi?

– Əli.

– Sənin?

– Murad.

– Neçə yaşınız var?

– Beş.

– Dörd. – Murad Əlidən balaca olsa da çox diribaşdı, elə buna görə də daha «yaşlı» görünür.

– Siz bilirsiz haralısız? – Millətçilik mövzusunda yazmaq istədiyim dissertasiya mövzusu ətrafında «mini-eksperiment» keçirmək məqsədilə soruşuram.

Başlarını aşağı salırlar. Utanırlar. Altdan-altdan gülə-gülə mənə baxıb başlarını yelləyirlər.

– Bilmirsiz? Bax, sən haralısan?

– Evimizə bazarın yanından keçirik. – Murad deyir. – Evimizə bazarın yanından gedirik, sonra belə-belə gedirik, sonra belə gedirik...

– Biz də bazarın yanından gedirik, – Əli deyir. Və o dəqiqə Murad «qiyam» qaldırır:

– Yox, siz getmirsiz! Yalan deyir, onlar bazarın yanından getmirlər. Sizin eviniz orda olmur ki...

– Yaxşı, onda deyin görüm Azərbaycan nədi? Bilirsiz Azərbaycan nədi?

– Hə... – İkisi də başını yelləyir və bu dəfə daha utana-utana yox. Ancaq mən onlardan daha soruşmuram: «Nədi?..»

Başqa suallar da olur. «Ekspress-sorğu» belə qurtarır:

– Deyin görüm, dünyada adam çoxdu, yoxsa heyvan?

– Heyvan. – Murad deyir. Əli bu suala cavab tapa bilmir.

İnsan azdı, nadirdi. Bu təsəvvür böyüklü-kiçikli hamıda var. Balacaların təsəvvürünə görə o, heyvanlarla münasibətdə azdı, böyüklərə görəsə insan hətta insanların içərisində də azdı. Nəticə eynidi, sadəcə olaraq bu nəticəni şərtləndirən izahat başqadı.

10 iyun 1997-ci il

Avtobusda

«28 May» metrosunun yanında 303 nömrəli avtobusa mindim. Çox basabasıydı. Sürücü qapıları bağlamışdı. Ancaq iki-üç nəfər də gəlib çıxdı və sürücüdən xahiş eləyib, qapıları açdırıb, avtobusa mindi. Avtobusda bir az sıxlıq yarandı. Sərnişinlər sürücünün üstünə çığırmağa başladılar ki, nə üçün bu adamları da götürdün. Avtobusdakılar yeni sərnişinlərə nifrətlə baxırdılar. Qapının ağzında sıxlıqdan özlərinə yer tapmayan yeni sərnişinlər avtobusdakı adamlardan xahiş eləyirdilər ki, bir az ortalığa sıxlaşsınlar. Onlarsa yeni sərnişinlərə nifrətlə baxır, ortaya tərəf sıxlaşmır, sürücünün qabırğasına döşəyirdilər. Bəli, bütün bu adamlar – avtobusdakılar da, birtəhər özünü avtobusa yetirib minmək istəyənlər də çox gözəl bilirlər ki, buralarda avtobus çox gec-gec gəldiyinə görə həmişə adam çox olur, avtobusda basabas yaranır. Hamı, əlbəttə ki, öz ev-eşiyinə, getdiyi yerə çatmaq istəyir. Ancaq ən maraqlısı odu ki, artıq avtobusa minən adam başqasını tamamilə unudur və onu heç maraqlandırmır da ki, hamı onun kimi avtobusa minmək istəyir. Bunu ondan görmək olar ki, avtobusa minən adam avtobusa minmək istəyən adama yer vermək haqqında düşünmədiyindən elə mindiyi yerdə də donub qalır, o birisinə yer vermək üçün bir az o yan-bu yana tərpənmir. Çox vaxt avtobusun ortasında boşluq olsa da, qapının ağzında adam dolu olur. Və heç kim bu boş yerə çəkilmir ki, çöldə qalan adamlar da avtobusa minə bilsin. Çox vaxt çöldə qalan adamlar avtobusdakılardan xahiş eləyəndə ki, bir az ortalığa çəkilin, avtobusdakılar nəinki yerlərindən tərpənmir, hətta o birilərinin üstünə çığırıb deyirlər ki, burda boş yer yoxdu və bir də dünyanın axırı deyil ki, o biri avtobus gələr, minərlər. Yaxud da tutaq ki, avtobus gedir və yolda kimsə əl eləyib avtobusu saxlatdırır ki, minsin. O dəqiqə sərnişinlər sürücünün

© A.Qaraçənli "Fikir qovluğu"

üstünə çığırırlar ki, o, nə üçün dayanır, nəyə görə yoluyla düz getmir, nə üçün puldan gözü doymur, məgər bu qədər adamdan alacağı pul ona bəs eləmir?!

Əlbəttə, sürücü humanizm örnəyi deyil və o, yolda qalmış adama kömək eləmək üçün, onu mənzilinə çatdırmaq üçün deyil, sadəcə olaraq pul üçün avtobusu saxlayıb bu adamı götürür. Sərnişinlərinsə heç ağıllarına da gəlmir ki, bu işin özündə bir xeyirxahlıq var, yəni bir başqa adam da onlar kimi bu avtobusa minib mənzil başına çatacaq.

Demək, insanı həmişə özü maraqlandırır və əgər onu bir balaca narahat eləməklə başqasına rahatlıq gələcəksə, bu onu əsəbiləşdirir. O buna heç cür razı ola bilmir. Onu bir balaca narahat eləməklə rahatlıq qazanan adama o, nifrət eləyir. O, başqalarının pis vəziyyətdə (yolda, avtobusdan çöldə, avtobus qapısının ağzında və s.) qalmasına razıdı, təki özü azacıq da olsa narahat olmasın. O, baxmayaraq ki, özünü bir balaca narahat eləməklə başqasına yaxşılıq eləmiş olur, bununla belə, bu yaxşılığı eləmir.

27 yanvar 1993-cü il

26. Ədəbiyyat, Kafka, Kamyu

XX əsr romanının özünəməxsusluğu. Yeni dövrün romanlarında qəhrəmanlar niyə ölmür?

Əvvəllər, romanların yarandığı ilk dövrlərdə qəhrəmanlar mənən ölmürdülər, cismən ölürdülər. Sonralar onlar həm mənən, həm də cismən ölməyə başladılar. İndi – xüsusən XX əsrin ikinci yarısından üzübəri qəhrəmanlar cismən ölmür.

Artıq romanlar (povest, hekayələr...) qəhrəmanların mənən ölüb qurtardığı yerdə bitir. Elə yerdə ki, daha bundan sonra onun (qəhrəmanın) yaşamağının mənası yoxdu və bunu artıq onun özü (qəhrəmanın özü) də bilir. Təkcə müəllif yox, oxucu yox, qəhrəmanın özünün də özünü ölmüş bildiyi bir vaxtda sağ qalması XX əsr romanında faciəni hiss elətdirməyin və qəhrəmanı (bəlkə qəhrəmanlığı da) cəzalandırmağın əsas metodlarından biridi. Roman bitir. Qəhrəman sonda hansı ovqatdadısa, o ovqatda da elə bil əbədi sükunət, ətalət vəziyyətinə düşür və deyəsən, nə qədər yaşasa da, o özünü həmin vəziyyətdən, ovqatdan xilas eləyə bilməyəcək. Qəhrəmanla eyni vəziyyətə düşən, onun ovqatına köklənən oxucunun xoşbəxtliyi və aldığı (yaxud ala biləcəyi) ən böyük ibrət dərsi ondadı ki, onun üçün xilas yolu var, qəhrəmandan fərqli olaraq o öz vəziyyətini (həyatını), ovqatını dəyişə bilər. Ancaq təəssüf ki, oxucuların böyük əksəriyyəti həmişə bundan ibrət dərsi yox, təsəlli alıblar və hər romanın sonundan sonrakı xoşbəxtlikləri də bundan ibarət olub.

XX əsrin romanı elə yerdə bitir ki, daha ondan sonra nə müəllif yazmaq istəyir, nə oxucu oxumaq istəyir, nə də qəhrəman yaşamaq istəyir.

XX əsrin romanında qəhrəmanın fiziki ömrü mənəvi ömründən uzun olur. Və fiziki ölüm ümumiyyətlə hiss olunmur, görünmür, bilinmir ki, o olacaq, yoxsa yox. Bu, bir növ materializmdi. İnsan mənəvi ömründə qazandığı günahlara görə cəzanı (bu günaha və cəzaya onu ya tale, ya cəmiyyət, ya da öz təcrübəsizliyi, səfehliyi məhkum eləyib) bu dünyada, fiziki ömrünün davamında çəkəcək. Ancaq bu həm də bir növ idealizmdi. Çünki həmin fiziki ömrün nə vaxt başa çatacağı bilinmir, onun sonu görünmür, elə bil əbədidi və eynən o dünyadakı kimi

dəyişməzdi, sükunət vəziyyətindədi, günahı nə artan, nə azalandı, ömrün əvvəlki hissəsinin xatirələri, mənəvi ağrıları daimi oyanıq haldadı...

7 dekabr 2001-ci il

Ədəbiyyat və fəlsəfə. Zərurət

Xalis fəlsəfi ədəbiyyat cansıxıcıdı. Romanı fəlsəfi qəlibə salmaq, fəlsəfi sxemi ədəbiyyatın, bədiiliyin fövqünə qaldırmaq romandakı həyatı süniləşdirir, təbii axarından çıxarır və oxucunu darıxdırır. Bu həm də müəllifin öz qəhrəmanlarına qarşı ədalətsizliyidi; belə romanda müəllif avtoritar Allah kimi çıxış eləyir. Ona görə də ədəbiyyatda fəlsəfi sxematizmdən qaçma başladı. XX əsrin ortalarından bu, daha da gücləndi. Ancaq nəticədə ədəbi üslubçuluq (literaturşina) yarandı. Və bu da sünidi. Çünki həyat o qədər nəzəri olmadığı kimi, bu qədər praktik də deyil. İnsan ömrünə əlli, altmış, yetmiş illik planı doldurmağa göndərilmiş vergi müfəttişi, yaxud vergi ödəyicisi kimi baxmaq düzgündümü? Ancaq bunun ikisini – azadlıqla zərurəti nə cür birləşdirəsən?

Ən dəhşətlisi odu ki, fəlsəfi ehkamlardan azad olan romanlarda da hər şey zərurət prinsipiylə hərəkət eləyir. Yəni burda – yeni dövrün ədəbiyyatında fərq ondadı ki, zərurət ustalıqla ört-basdır olunub; deməli, zərurətin olmaması, sərhədlərin, istiqamətlərin fəlsəfi, nəzəri müəyyənləşməməsi mümkün deyil, onun yalnız ört-basdır edilməsi mümkündü. Çünki həyatın, əsl həqiqətin özü belədi: o, başlı-başına buraxılmayıb.

Ancaq fəlsəfi qəlibə salınmış roman cansıxıcı, zorakı (həyata qarşı) olduğu kimi, fəlsəfi qəlibə salınmış insan ömrü də darıxdırıcı, zorakıdı. Eyni zamanda təbii həyatı fəlsəfəsiz təsvir eləməyin mümkünlüyünü düşünmək fəlsəfəsiz təbii ömür yaşaya biləcəyini düşünmək qədər yanlışdı.

Həyat mənalıdısa da, mənasızdısa da fəlsəfidi.

13 aprel 2002-ci il

Kamyu – həqiqətin acığına yaşamış adam

Mən Kamyunu həqiqətlə yaşamağa cəhd göstərmiş ən ciddi adamlardan biri sayıram. Ancaq o da həqiqətlə yaşaya bilmədi, onu – absurdu – dərk eləyən kimi qiyama keçdi.

Kamyu həqiqətlə yaşamış adam deyil, həqiqətin acığına yaşamış adamdı.

Ümumiyyətlə, həqiqət yaşamaq üçün əsas verirmi? Onunla yaşamaq mümkündümü?

22 aprel 2002-ci il

Kafkanın «Çevrilməsi» haqqında

Cəmiyyətə qarşı duran adam üçün öz ailəsi də təhlükəlidi. Zamzalar ailəsi Qreqorun cəmiyyətə dözməməsinə dözmədi, baxmayaraq ki, o, bu ailəni çox sevirdi. Adamlar sevən adamın faydalı olmasını istəyirlər. Faydasız adama çevrilmiş adamın sevgisi ailəyə bəs eləmədi. Həşəratın sevgisinə ehtiyac yoxdu. Cəmiyyət – ona dözməyən adama nifrət eləyir, ailədə də. Cəmiyyətdən bezmiş adamdan ailə də bezardı; sən ailədəkilərdən bezməsən də, ailədəkilər səndən bezəcək.

O, bir az gec azad olmaq istəyirdi (cəmiyyətin buxovlarından), amma tab gətirmədi, gözləməyə gücü çatmadı. Qreqor Zamza arzuladığı vaxtda azad ola bilmədiyinə görə

azadlığının sevincini yaşaya bilmədi. O, vaxtından tez azad olduğuna görə vicdan əzabı çəkirdi. Nəticədə o, nə azad ola bildi, nə də faydalı. O, sadəcə, məhv oldu. O, murdar oldu.

18 oktyabr 2002-ci il

Frans Kafkanın «şikayət ərizəsi»

Kafka bütün ömrü boyu «şikayət ərizələri» yazıb. Sonra da bu «şikayət ərizələrinə» hekayə, roman, məktub, məqalə... adını verib. Kafka bu ərizələrdə dövlətdən, cəmiyyətdən, kənddən, şəhərdən, heyvandan, insandan, qohumdan, yaddan, şeytandan, Allahdan... bir sözlə, eşitdiyi, gördüyü, olar-olmaz nə varsa hamısından şikayət eləyib.

Hələ indiyəcən Kafkanın «şikayət ərizələrinə» cavab gəlməyib. Dövlətdən, cəmiyyətdən, kənddən, şəhərdən, heyvandan, insandan, qohumdan, yaddan, şeytandan, Allahdan... bir sözlə, hər şeydən, hamıdan yüksəkdə duran elə bir Qüvvə yoxdu ki, Kafkaya kömək eləyə bilsin. Hər dəfə əlini uzadıb bu Qüvvənin ətəyindən yapışmaq istəyən Kafkanın əli boşa çıxdıqca, hər dəfə «şikayət ərizəsi» yazıb bu Qüvvədən kömək diləyən Kafkanın ərizəsi yeri-göyü dolaşıb yenidən Kafkanın özünə qayıtdıqca Kafka arxasız, köməksiz, kimsəsiz, tək olduğunu başa düşür. O, anlayır ki, onun başını heç kim sığallamayacaq, heç kim onu kiritməyəcək, yıxılanda əlindən tutub qaldırmayacaq, bütün ömrü boyu yolunu gözlədiyi həmin Qüvvə onun «şikayət ərizələrini» bir-bir oxuyub ona belə bir cavab yazmayacaq: «Hörmətli Kafka, şikayət ərizələriniz gəlib mənə çatdı, sizə hər cür kömək eləməyə hazıram».

Fevral 1993-cü il

27. Maddi və mənəvi

Azərbaycanda bazar tipləri

Hazırda Azərbaycanda bütün sahələrdə bazar tipləri aparıcı rol oynayır. Musiqidə də belədi: bu gün ölkənin ən məşhur müğənniləri musiqiyə sənət yox, şou-biznes kimi baxanlardı. Jurnalistikada da belədi: bu gün yaradıcılıq maddi mənafeyə, maddi maraqlara xidmət eləyir. Siyasətdə də belədi: praqmatizm ideyanı mənfəətə qurban verməyin mümkünlüyü kimi başa düşülür.

Bazar tiplərinin çoxalması və müxtəlif sahələrdə liderliyi ələ alması ölkədə bazar epoxasının, maddiyyat dövrünün başlanmasından xəbər verir.

Maddiyyatla mənəviyyat dövrü tərs mütənasibdi, biri yüksələndə o biri enir, ya da enmir, sadəcə, aşağıda qalır. Təsadüfi deyil ki, cəmiyyətdə az-çox material komfort yaranan kimi ziyalılar narazı-narazı başlarını bulayırlar. İqtisadi inkişaf dövründə həmişə cəmiyyətdə yeni meyl və tələbatlara qarşı bir ziyalı müqaviməti olur. Ziyalı komfortun düşmənidi. Ziyalı maddi rifaha və yalnız maddi rifaha can atan cəmiyyət üçün həmişə başağrısıdı, maneədi.

Ziyalı heç vaxt materialist olmur. Ziyalının materializmi də idealizmdi. Karl Marks idealda materialist idi. Real həyatında o, heç vaxt maddi komforta can atmayıb. Ziyalı heç vaxt praktik materialist olmur. Praktik materialistlər, yəni bazar tipləri, maddi rifah adamlarısa heç vaxt ziyalı kimi cəmiyyətin, dünyanın dərdini çəkmir. Və bu cür adamlar çoxalanda, materialist

birliklər, maddi eqoizm, mənfəət əxlaqı cəmiyyətdə mənəvi birliyi pozanda, mənən tənhalaşma güclənəndə ziyalı dərhal maddi maraqları arxa plana keçirməyin yollarını axtarır və kim nə deyir desin, bu, artıq material inkişafa maneə deməkdi.

Bu gün Azərbaycanın bütün sahələrində eyni proses gedir. Bazar tipləri liderliyi ələ alır. Məsələn, mətbuata baxaq. Bugünkü tendensiya mətbuatda özünə uyğun aparıcı (lider) tipləri meydana çıxarıb. Bu gün mətbuatda yayım tipləri irəlidədi. «Yayım tipləri» ümumilikdə «bazar tipi» adlandırdığımız insanların mətbuatın spesifikasına uyğunlaşmış bir qanadıdı. Yəni «yayım tipi» bazar tipinin mətbuatda təzahürüdü. Həmin bazar tipinin musiqidə təzahürü «klip tipləri»di.

Əvvəllər yazı yaza bilməyən adamın qəzet redaktoru olması həm ayıb, həm də mümkünsüz sayılardı. Belə bir mövqe hakim idi ki, yaxşı qələmi olan redaktor olmalıdı. İndi yazı yaza bilməyən adamın redaktor olmasını da məhz köhnə stereotipi itirməmiş adamlar təəccüb və dəhşətlə qarşılayırlar. İndi redaktorluq üçün başqa keyfiyyətlər tələb olunur. İndi, daha doğrusu, bir neçə ildi yeni redaktorlar, yeni redaktorluq tipi yaranıb. Onlar maddiyyata (yaradıcılığa yox) xidmət eləyirlər və maddi rifah tiplərindəndilər. İndi mətbuatda yazı yaza bilməyən, yaradıcılıqda uğursuzluğa düçar olmuş adamlar liderlik eləyirlər və bu, dövrün ovqatına, tələbatına, sifarişinə tam uyğundu. Dövrün xarakteri kimlərisə «zəmanə adamına», kimlərisə «zəmanə adamı olmayanlara» çevirir. Və əlbəttə ki, birinciləri həmişə yüksəldir. Ona görə də «mətbuatda yaradıcılığın, yaradıcılıq prinsiplərinin prioritetə çevrilməsi üçün neyləmək lazımdı» sualına belə cavab verərdim: neyləsən də, xeyri yoxdu. Yaradıcılığı zaman kölgədə qoyub, zaman da işığa çıxaracaq. Bazar tiplərini zaman irəli verib, zaman da geri çəkəcək.

2 sentyabr 2002-ci il

Bəsitlik, bayağılıq

Bizdə hər şey bayağılaşıb, bəsitləşib. Qəzetlər də, yazılar da, mahnılar da, kino da, televiziya verilişləri də, siyasət də, mühafizəkarlıq da, islahatçılıq da, liberalizm də, millətçilik də, dövlətçilik də... Evdəki söhbət də bayağılaşıb, çöldəki söhbət də, çayxana da bayağılaşıb, emalatxana da... Hamı üzdən gedir, heç kim məsələlərin dərinliyinə varmır, hamı hər şeyi bəsitcəsinə sadələşdirib həll eləyir. Problemlər mahiyyəti (daxili əlaqələri) üzrə yox, aidiyyəti (zahiri əlaqələri) üzrə həll olunur. Minlərlə adam – uşaq, böyük, qoca, cavan üzünü göyə tutub «Allahu əkbər» qışqırır, qızlar, qadınlar dəstə-dəstə gedib sektalarda xorla mistik mahnılar oxuyur, soruşursan niyə belədi, deyirlər xarici kəşfiyyatın oyunudu, soruşursan xarici kəşfiyyat necə olub ki, onları oyuna sala bilib, deyirlər pul verib, soruşursan, bəs, onlar o pulu niyə alıblar, deyirlər ehtiyacdan. Vəssalam, bununla da məsələ həll olundu, daha doğrusu, hər şey aydınlaşdı.

Hətta məsələnin qaranlıq tərəfinin qaldığına şübhə eləyən adamın şübhəsi də bəsitdi. Yəni o da mahiyyəti üzrə yox, aidiyyəti üzrə şübhə eləyir. Düşünür ki, burda təkcə xarici kəşfiyyatın yox, ölkədəki antidemokratik rejimin də rolu var, regionçuluq siyasətinin nəticəsidi, korrupsiyanın nəticəsidi, filan zonanın camaatına qarşı siyasi, sosial-iqtisadi, mənəvi repressiyanın nəticəsidi və sair və ilaxır. Heç kim düşünmək istəmir ki, bəlkə bütün bunlar cəmiyyətdə dünyəvi ideyaların, milli idealların gözdən düşməsinin nəticəsidi? Bəlkə adamlar mənəvi xaosdan çıxmaqdan ötrü özlərinə mənəvi mərkəz, mənəvi dayaq axtarırlar? Sizə elə gəlmirmi ki, dini dövlət yaratmaq çağırışına adamlar nə pul, nə vəzifə, nə də anaşa

təmənnasıyla yox, cəmiyyətdə hansısa dəyərlərin müqəddəs olduğunu görmək, hansısa dəyərlərin toxunulmazlığını təmin eləmək, mənəvi iyerarxiya vasitəsilə harmoniyaya nail olmaq eşqiylə qoşulurlar? Sizə elə gəlmirmi ki, bu gün bizdə demokratiya, liberalizm, dövlətçilik, millətçilik ideyalarıyla daha çox alver eləyirlər, nəinki dini ideyalarla? Sizə elə gəlmirmi ki, bu gün bizdə seçkini saxtalaşdırmaqla, hüquqları tapdananları aldatmaqla, dövləti sökməklə, yalnız kimlərisə vurmaq lazım gələndə milli mənsubiyyətini «sevməklə» pul qazanan demokrat, liberal, dövlətçi, millətçi daha çoxdu, nəinki öz əqidəsiylə alver eləyən katolik, pravoslav, krişnaid, islamçı?.. Sizə elə gəlmirmi ki, bu gün dini ideyalar Azərbaycanda ən az bulaşmış ideyalardı?!

Bizdə həyatın çox sahəsi ideyasını itirib. Görürsən ki, yazı var, ideyası yoxdu. Yəni belə baxanda məqsədsiz deyil, amma o qədər cılız məqsəddi ki, onu ideya adlandırmaq olmur. Musiqi var, kino var, siyasət var, ideyası yoxdu. Ona görə də xaosdu. Məsələn, bilmirsən bu siyasi partiya, qrup, bu müğənni və s. hansı ideyanı ifadə eləyir.

Bizdə indi ideyaya reallıqdan yanaşırlar, reallığa ideyadan yanaşma, demək olar ki, sıradan çıxıb.

3 avqust 2002-ci il

Qrant və azadlıq

Azərbaycanda müxtəlif qeyri-hökumət qurumları xarici təşkilatlardan iri məbləğdə qrantlar alır. Qrant bizdə qazanc mənbəyinə çevrilib. Onu almaqdan ötrü həddindən artıq dəyərli ideyalara söykənən layihələr yazılır, qrant gəlir, ancaq heç bir iş görülmür. Bizdə qrant almaq ideyası qrantın verildiyi ideyadan əvvəl yaranır. Bizdə ideya qrant gətirmir, qrant ideya gətirir.

Qrant məsələsi ortaya çıxandan ideyalarla spekulyasiya dəhşətli dərəcədə artıb. Adamlar öz daxili tələbatlarına, həvəs və maraqlarına, hətta əqidələrinə, ideyalarına zidd ideyalarla çıxış eləməyə başlayıblar. Məsələn, birisi insan haqlarını müdafiə eləyir. Çox müqəddəs işdi. Bu işi, təbii ki, insan, cəmiyyət, bəşəriyyətlə bağlı hansısa fəlsəfi dünyagörüşü, əqidəsi, prinsipial mövqeyi olan adamlar görər. Ancaq hətta ötəri müşahidə də aydın göstərir ki, onu bu işə sövq eləyən həmin fəlsəfə, əqidə, prinsiplər deyil, sadəcə, qrantdı. Ona görə də qrant olmasaydı, heç vaxt insan hüquqları onu narahat eləməyəcəkdi. Təsadüfi deyil ki, belə adamlarda canlanma yalnız qrant alandan-alana baş qaldırır.

Yaxud görürsən birisi vətəndaş cəmiyyəti uğrunda mübarizə aparır. Çox gözəl. Amma danışanda aydınlaşır ki, o, dövlətçidi, mühafizəkar, hətta bəzən totalitar təfəkkürlü bir adamdı. Tam səmimi bir polemikada o, vətəndaş cəmiyyətinin ziyanı barədə istənilən qədər arqument gətirə bilər.

Təbii ki, adamların öz inamı, dünyagörüşü əleyhinə işləməyə məcbur olmasında cəmiyyətimizdəki sosial-iqtisadi vəziyyətin də böyük rolu var. Ancaq bunu yeganə səbəb saymaq olmaz.

Ən əsas səbəb odu ki, bizdə insanlar öz azadlıqlarını, arzu, həvəs, istək və maraqlarını boğa-boğa yaşamağa vərdiş eləyiblər. Bu adi hal alıb. Bizim üçün qrantın tələb elədiyi hansısa işi görmək, hazırda gördüyümüz işi yerinə yetirməkdən heç nəylə fərqlənmir. Yəni əlimizdəki işi atıb qrantın tələb elədiyi işi görməklə heç nə itirmirik. Çünki elə əlimizdəki iş də ürəyimiz istəyən, arzu, həvəs və marağımıza uyğun deyildi!.. Biz bu işin də içində özümüzü azad hiss eləmirdik. Əksinə, bəlkə də qrantla bağlı işdə əvvəlki işimizlə müqayisədə özümüzü daha azad

duyuruq. Bu mənada qranta canatmanı azadlığımızın daha çox məhdudlaşdığı işdən daha az məhdudlaşdığı işə canatma saymaq mümkündü.

Qrantla görülən iş o vaxt keyfiyyətli ola bilər ki, hər kəs öz daxili istəyinə uyğun layihəylə çıxış eləsin. Nə qədər ki adamlar həvəssiz olduqları, içərilərindən gəlməyən layihələr irəli sürürlər, o vaxtacan hamı könülsüz, planı doldurmaq xatirinə iş görəcək. Halbuki qrantın fəlsəfəsi, məncə, tamam başqa cürdü: o, adamlara həyata keçirmək istədikləri, amma maddi imkan kifayət eləmədiyindən baş tutmayan, yaxud keyfiyyətsiz alınan, yarımçıq qalan işlərdə kömək durmaq üçündü.

27 yanvar 2002-ci il

İqtisadiyyat və insan

İqtisadiyyatı yox, insanları qaldırmaq haqda düşünmək lazımdı. Bizdə çoxları deyir ki, məsələn, metroda gedişhaqqını artırmaq lazımdı, çünki sərnişinlərin verdiyi pul onların daşınmasına çəkilən xərci ödəmir. Belə fikirlər məsələyə, problemə sırf iqtisadi yanaşmadı, bu fikri səmimi-qəlbdən dəstəkləyənlər məsələyə xalis iqtisadi prizmadan yanaşırlar.

Metro iqtisadiyyatı qaldırmaq vasitəsi deyil, metro sərnişinləri daşımaq vasitəsidi. Metronun mahiyyəti insanları mənzil başına ən kəsə yolla, tez və rahat çatdırmaqdı. Metro bundan ötrü yaranıb. O ona görə yaranmayıb ki, büdcəyə xeyir versin. Əgər dövlət metroya görə xərcə düşürsə, bu o deməkdi ki, dövlət insanların mənzil başına tez və rahat çatması üçün xərcə düşür. Bu o deməkdi ki, əslində dövlət xərcə düşmür, heç nə itirmir, sadəcə öz vəzifəsini yerinə yetirir. Dövlətin, o cümlədən də büdcənin vəzifəsi insanlara, xalqa xeyir verməkdi, millətə işləməkdi. Büdcə dövlət üçündü, özü üçün deyil. Və istər hakimiyyət, istərsə də iqtisadçılar onu məqsəd kimi yox, vasitə kimi təsəvvür eləməlidilər.

İqtisadçı iqtisadiyyatın mərkəzində insanı görməyi bacarmalıdı. İqtisadçı başa düşməlidi ki, iqtisadiyyatın inkişafı anlayışı şərti, hətta deyərdim, yanlış anlayışdı. İqtisadiyyatın inkişafı deyilən bir şey yoxdu, yalnız insanın inkişafı ola bilər, olmalıdı və yalnız buna çalışmaq lazımdı.

İqtisadçı iqtisadiyyatı yalnız istehsal, əmtəə, idxal, ixrac kimi görürsə, deməli, o, iqtisadçı deyil, istismarçıdı.

İqtisadçı pulu pulsayan maşında yox, insanın əlində təsəvvür eləməlidi. İqtisadçı kolbasanı vitrində yox, süfrədə, boşqabın içində doğranmış şəkildə görməlidi. Neft deyəndə iqtisadçının təsəvvüründə buruq, boru, büdcə yox, kimsəsiz uşaqların əyin-başı, yolların çala-çuxuru, illərlə ev gözləyən ailələrin intizarı canlanmalıdı.

Mənə xeyir verməyən iqtisadiyyat əclafdı. Qoy mən tənbəl olum, qoy mən müftəxor olum, dəxli yoxdu, iqtisadiyyat mənə xeyir verməyin yolunu düşünməlidi. Biz vergi veririk. O vergini təkcə təqaüdçülər, əlillər, psixi xəstələr yox, ömürlük həbsə məhkum olunmuş dustaqlar da yeyir. Bəs niyə o vergini heç kimə ziyanı dəyməyən, sadəcə, tənbəl bir adam da yeməsin? Belə çıxır ki, həmin tənbəl büdcədən xeyir görməkdən ötrü adam öldürməlidi. Bu, iqtisadi sistemin çatışmazığı, tək praktiki yox, daha çox nəzəri-fəlsəfi qüsuru demək olardı. İqtisadiyyatda belə qüsurları aradan qaldırmaq lazımdı.

Xalis iqtisadi təfəkkür simic təfəkkürdü.

25 yanvar 2002-ci il

İqtisadi maraqlar və mənəviyyat, siyasət, mədəniyyət

Özlüyündə iqtisadi maraq əxlaqsız bir şeydi. Xalis iqtisadi marağın seksual maraqdan heç bir fərqi yoxdu: hər ikisi maddi tələbatdı, hər ikisini instinktlər idarə eləyir və heç birində əxlaq iştirak eləmir.

Erix Fromm «Azadlıqdan qaçış» kitabında Tounidən belə bir misal gətirir: «Müqəddəs Antoninin dediyi kimi, var-dövlət insan üçün yaranıb, insan var-dövlət üçün yox... Addımbaşı ortaya çıxan məhdudiyyətlər, qadağalar, xəbərdarlıqlar da ondan ötrüdü ki, iqtisadi maraqları ciddi işlərə qarışmağa qoymasın». (Э.Фромм, «Бегство от свободы». Минск, «Попурри», 2000. səh. 77).

Çox təəssüf ki, hazırda dünyada iqtisadi maraqlar ciddi işlərə çox qarışır. Və bunun nəticəsində beynəlxalq münasibətlərdə ikili standartlar formalaşıb; əxlaqi, demokratik dəyərlər, ədalət prinsipi tez-tez pozulur. Demokratiyanın qarantı olan beynəlxalq qurumlar, fövqəldövlətlər başqa ölkələrdə korrupsiyanın, avtoritarizmin qarantına çevrilib.

Azərbaycana gəlincə, bizdə tarixən iqtisadi maraqların qabardılması tərbiyəsizlik, həyasızlıq, ayıb, iqtisadi maraqların qurban verilməsisə onun həddindən asılı olaraq ya norma, ya da fədakarlıq sayılıb. Bizdə yeməyin yaxşısını qonaq üçün saxlayırlar, döşəyin rahatını qonağın altından salırlar. Bu, iqtisadi marağın xırda, məişət səviyyəsində qurban verilməsidi. Və bu normadı, fədakarlıq deyil.

Sovet dövründə iqtisadi maraq güdə-güdə bunu deməmək dəbdəydi, indi yalnız iqtisadi maraq güdə-güdə yaşadığını, çalışdığını demək dəbdədi. Bu baxımdan Azərbaycan əxlaqının özündə də ikili standartlar yaranıb. Gah əqidədən, prinsiplərdən, gah da sırf iqtisadi maraq güddüklərindən danışırlar. Xalis iqtisadi maraq bütün əxlaqlı əqidə və prinsiplərə ziddi. İqtisadi marağı yalnız qismən olanda, nədəsə, hansısa fəaliyyətdə, davranışda, münasibətlərdə yalnız qismən iştirak eləyəndə, başlıca və yeganə motiv kimi yox, yardımçı və hətta məcburi motivlərdən biri kimi çıxış eləyəndə əxlaqlı saymaq (yaxud əxlaqsız saymamaq) mümkündü.

Yaradıcılıq iqtisadi maraqdan, iqtisadi motivlərdən nə qədər azad olsa, bir o qədər səmimi olur.

Azərbaycanın daxili siyasətində – partiyalararası münasibətlərdə iqtisadi maraq hələ ki, yalnız iqtidarın müxalifəti pulla satın alması şəklində təzahür eləyir. Hələ ki, bizdə bu sahədə siyasi maraqlar daha çox rol oynayır. Normal demokratik şərait yarananda yəqin ki, partiyaların qərar qəbul eləməsində iqtisadi maraqlar (kommersiya maraqları, partiya üzvü və yaxud təəssübkeşi olan biznesmenlərin mənafeyi) daha çox rol oynayacaq. Məsələn, Türkiyədəki kimi. Biznesmenlər partiyalara – özü də həmişə bir partiyaya yox, bəzən bir neçəsinə – pul qoyurlar. Və həmin partiyaların qərarlarında, parlamentdə qanunların qəbulunda (məlum olduğu kimi, Türkiyədə millət vəkilləri partiyaçılardı), iqtidarın, hökumətin çıxardığı qərar, fərman və sərəncamlara münasibətdə (etiraz eləmək, yoxsa loyal qarşılamaq) onların (yəni biznesmenlərin) mənafeyini də nəzərə almağı tələb eləyirlər.

Fromm «Azadlıqdan qaçış» kitabında belə bir maraqlı məsələyə də toxunur. Bildirir ki, orta əsrlərdə kapitalizmin inkişafa qədəm qoymasıyla vaxta münasibət də dəyişdi. «Zaman müasir tərzdə qavranmağa başlandı, dəqiqələr qiymətə mindi». (Bax: səh. 80).

İndi bizdə də belədi. Bizdə vaxta, zamana münasibət dəyişib. Biz zamanı da iqtisadi maraqla ölçürük. Hesab eləyirik ki, vaxt puldu və vaxt itirmək pul itirmək deməkdi. Halbuki vaxt düşüncə, fikir, yaradıcılıq və s. də demək ola bilər. Vaxtı itirmək anlayışı fəlsəfi, mənəvi

yüklü bir anlayışdı, iqtisadi anlayış deyil. Ancaq indi biz vaxtı yalnız iqtisadi anlayış kimi qəbul eləyirik.

Əgər insan vaxtını itirməklə təkcə pul itirirsə, demək, çox az şey itirir.

9 yanvar 2002-ci il

28. Savad və əxlaq

Savad və əxlaq

Bəzi adamların savadı artdıqca əxlaqsızlığı da artır. Mən demək istəmirəm ki, əxlaqsızlıq onların savadının nəticəsidi. Xeyr. Əxlaqsızlığın mənbəyi savad deyil, insanın təbiətidi, ona görə də əxlaqsızlığın tarixi savadın tarixindən çox-çox qədimdi. Həm də əxlaqsızlığın mənbəyi savad olsaydı, onda savadsız adam əxlaqsızlıq eləyə bilməzdi. Savadsız adam ən əxlaqlı adam olardı və insanın qarşısında bircə böyük vəzifə durardı: savadı məhv eləmək, savadsızlıq uğrunda mübarizə aparmaq.

Yox, əxlaqsızlığın mənbəyi savad deyil. Vəhşiliyin mənbəyi vəhşi təbiətdi. Ancaq bir sıra adamlar var ki, onlara savad elə bil əxlaqsızlıq eləmək üçün lazımdı. Onlar savadsız olsaydılar, vicdanlarını sakitləşdirmək üçün bu qədər ağıllı priyom, hiylə işlədə bilməzdilər. Onlar təbiətən əxlaqsızlığa meyllidilər, amma əxlaqsızlığa meyl güclü olduğu kimi, vicdanları da güclüdü, ona görə də vicdanı yatırtmaq, özünü aldatmaq üçün güclü savada ehtiyac duyurlar. Fikir verin, savadlı əxlaqsızların hamısı savadsız əxlaqsızlardan daha vicdanlı adam təsiri bağışlayır, hətta savadsızlardan daha artıq əxlaqsızlıq eləsələr də. Savadlı əxlaqsızlarda, onların zahiri görünüşündə də daxili bir əzab daha çox duyulur. Hiss eləyirsən ki, onlar üçün bu əxlaqsızlığa getmək xeyli çətin olub.

Fikir vermisizmi, savadsız əxlaqsızlar savada, öz addımlarını, həyat tərzlərini «təmizə çıxartmaq» üçün lazımi elmi biliyə o qədər də ehtiyac duymurlar. Çünki onlarda vicdanın səsi onsuz da zəifdi. Onlarda vicdanın səsi anadangəlmə xırıltılıdı, boğuqdu. Həmin səsi batırmaq, boğmaq üçün cüzi savad, kortəbii özünüaldatma (ən savadsız insan da özünü aldatmaq, vicdanını sakitləşdirmək üçün çoxlu yol, ağıllı arqument, fəlsəfi əsas bilir; yəni o da belə məqamlarda filosofluq eləyə bilir) da kifayətdi. Yəni ondan ötrü bir-iki kitab oxumaq, iki-üç fəlsəfədən beş-on tezis öyrənmək kifayət eləyir. Ancaq vicdanının səsi əxlaqsızlığa meyli qədər güclü olan adamlar, əgər ikinci yolu tutublarsa, onda birinci yolu (vicdanı) kəsmək üçün çoxlu savada, biliyə, bəraətə ehtiyac duyurlar. Ona görə də onlar nə qədər çox savad, bilik (deməli, həm də bəraət) qazanırlarsa, bir o qədər çox əxlaqsızlıq eləyə bilirlər. Savadları az olsaydı, onlar daha az əxlaqsızlıq eləyərdilər.

Savadlı əxlaqsızlar insanlarda savadsız (cahil) əxlaqsızlardan daha artıq ikrah doğurur. Çünki birincinin əxlaqsızlığında vicdan daha çox tapdanıb, vicdana daha artıq təzyiq olub, nəinki ikincinin əxlaqsızlığında. Birincilər öz əxlaqsızlıqlarına görə daha artıq məsuliyyət daşıyırlar, daha artıq qınağa layiqdilər, nəinki ikincilər. Çünki birincilərin əxlaqlı davranmaq üçün daha çox şansı olub, nəinki ikincilərin.

İkincilərin cinayətinin günahı daha çox Allahın üzərinə düşür və onların haqqı çatır soruşsunlar ki, sən məni niyə belə yaratdın, İlahi. Birincilərsə daha çox özləri günahkardılar.

Çünki Allah onları başqa cür, xeyirxah işlərdən ötrü yaratmışdı. Bu mənada savadlı günah törədənlər daha əxlaqsız sayılmalıdı, nəinki cahilliyindən günah törədənlər.

Onu da qeyd eləmək lazımdı ki, savadlandıqca daha az günah işlədənlər də çoxdu, özü də savadlandıqca daha çox günah işlədənlərdən çoxdu. Maarifçilik də məhz insanın savadı, biliyi artdıqca öz vəhşi təbiətinə daha çox qalib gələ biləcəyinə ümid eləyir, yəni maarifçilik bu ümidlə yaranıb. Maarifçiliyin hədəfi, obyekti cahil adamlardı, o adamlar ki, təbiətən cinayətə, günaha daha çox meyllidilər, daha asan, daha rahat cinayət törədə, nadanlıq eləyə bilirlər, əxlaqsızlıq üçün elmi əsaslara, fəlsəfi traktatlara ehtiyac duymurlar. Maarifçilik düşünür ki, elm, savad onları cəhalətdən çıxara, onları öz təbiətləriylə, meyllərilə mübarizəyə qaldıra bilər. Əslində bu missiyanı insanın vicdanı yerinə yetirməlidi, amma onların vicdanı zəifdi və maarifçilik də düşünür ki, bir halda ki, belədi, onda vicdanın dadına yetmək, vicdana kömək eləmək lazımdı. Beləliklə, cəmiyyətdə elmin, mədəniyyətin təbliği güclənir. Ancaq bu həmişə iki cür nəticə verir: cahillər, doğrudan da, savadlandıqca daha az əxlaqsızlığa yol verirlər və beləliklə, cahillikdən əxlaqsızlıq azalır. Savadlı, vicdanlı əxlaqsızlarsa daha artıq günah işlətməyə başlayırlar, əvvəllər onların əxlaqsızlıq üçün bu qədər elmi arqumenti yox idi, indisə var – onlar dərhal yeni elmi nailiyyətləri, yeni fikirləri hərlədib-fırladıb bu qənaətə gəlirlər ki, yeni fikirlərin hamısının məntiqi ona gətirib çıxarır ki, insan nə istəsə eləyə bilər, insanın hər cür əxlaqsızlığa haqqı çatır. Beləliklə, cəmiyyətdə elm, mədəniyyət inkişaf elədikcə əxlaq da artır, əxlaqsızlıq da.

Ancaq düşünmək lazım deyil ki, əxlaq təkcə cahillərdə artır. Xeyr. Bu dünyada təbiətən əxlaqa daha çox meylli olan vicdanlı adam çoxdu. Bunlar o adamlardı ki, savadsız olsaydılar da, əxlaqlı olacaqdılar. Onlar elmdən, mədəniyyətdən, yeni fikirlərdən dərhal öz əxlaqlarını inkişaf elətdirmək üçün də yox e (axı, onlar onsuz da əxlaqlıdılar), sadəcə, əxlaqın təhlükəsizliyini, elmi təhlükəsizliyini təmin eləmək, əxlaqın əsaslarını, dayaqlarını gücləndirmək üçün istifadə eləyirlər. Savad, elm onlara bir növ savadlı, elmli əxlaqsızlarla mübarizə aparmaq, onların cavabını vermək, guya yalnız əxlaqsızlığın elmi əsasları olması təsəvvürünü dağıtmaq, əxlaqsızlığın arqumentini, məntiqini puça çıxarmaq üçün lazımdı. Onlar kitabı əxlaqlı olmaqdan ötrü yox, sadəcə, öz əxlaqlarında, həyat tərzlərində tək-tənha olmadıqlarını görmək, mənəvi dəstək almaq üçün oxuyurlar. Onlar kitabı əxlaqın düz, əxlaqsızlığın səhv olduğunu daha çox, daha savadlı arqumentlə təsdiqləyə bilməkdən ötrü oxuyurlar. Cahillər üçün kitab ona görə lazımdı ki, bilsinlər yaxşı nədi, pis nədi. Təbiətən əxlaqlı olanlarsa kitabsız da bilirlər (və əməl eləyirlər) yaxşı nədi, pis nədi, onlar kitabı sadəcə bunun yaxşı, bunun pis olduğunu sübut eləməkdən, sübuta yetirməkdən ötrü oxuyurlar. Savad – onları xilas eləmir (savad yalnız cahilləri xilas eləyir), savad onlara, sadəcə, mənəvi dəstək verir, onları tək qoymur, onların ruh yüksəkliyini, arxayınlığını artırır, savadlı əxlaqsızların qarşısında əliyalın qalmalarına imkan vermir, onları pərt olmağa qoymur.

Beləliklə, biz üç tipdən danışırıq:

1) cahillər, təbiətən cinayətə, günaha meylli olanlar, vicdanını çətinlik çəkmədən, asanlıqla yatırtmağı bacaranlar;

2) vicdanını susdurmağa çətinlik çəkənlər, əxlaqsızlıq üçün adi bəraətlə kifayətlənə bilməyənlər, daha ağıllı, ciddi, elmi bəraətlərə, arqumentlərə ehtiyac duyanlar;

3) təbiətən əxlaqlı, vicdanlı olanlar, savadı özlərini əxlaqsız hücumlardan qorumaq üçün öyrənənlər, savadı, necə deyərlər, ruh yüksəkliyi üçün qazananlar.

Savad 1-cilərlə 3-cülərin timsalında xeyirə, 2-cilərin timsalında ziyana işləyir.

İndi sual olunur: elə ola bilərmi ki, elmi biliklər 2-cilərə əxlaqsızlıq üçün bəhanə verməsin, nəticədə onların savadı artdıqca əxlaqsızlığı azalsın? Çox çətin prosesdi. Amma ola bilər. Çətindi ona görə ki, əxlaqsızlığa hazır, start vəziyyətində dayanan insan özünə lazım olanı əvvəl-axır tapacaq. Özünə elmi bəraət axtardığı halda hətta onun bəraətinə zidd elmə rast gəlsə də, bunun xeyiri olmayacaq. Bu, olsa-olsa onun atmaq istədiyi addımı bir az ləngidə bilər. Amma çox çətin ki, onun qarşısını ala bilsin. Bir də ola bilər ki, onun atmaq istədiyi addımın qeyri-əxlaqi ağırlığını azaltsın, onu bir az yüngülləşdirsin, yəni əxlaqsızlığının kəskinliyini azaltsın.

1-cilər haqda: Savad onların əxlaqsızlığına mane olur, savad onları xilas eləyir.

2-cilər haqda: Savad onlara əxlaqsızlıq üçün kömək eləyir, savad onları məhv eləyir.

3-cülər haqda: Savad onların əxlaqlı davranmasının səhv olmadığını təsdiqləyir, savad onlara kömək eləyir.

Savad – 3-cülərin kəşfidi. Onlar bunu 1-ciləri xilas eləmək üçün eləyiblər (yəni elmi, mədəniyyəti yaradıblar). Və onlar istər-istəməz bununla 2-ciləri məhv eləyiblər. Burda «məhv», «xilas», «kömək» sözlərini mən, təbii ki, mənəvi məhv (mənən özünüməhv), mənəvi xilas, mənəvi kömək mənasında işlədirəm.

25 iyul 2002-ci il

Maarifçilər dəhşətə gələrdi

XX əsrin əvvəlində Azərbaycan ailələrinin çoxu oxumağa uşaq vermirdi. Ziyalılarımız uşaqları ata-analarının əlindən zorla alıb oxutdururdular. Artıq xeyli müddətdi Azərbaycanda hamı təhsilli, savadlı olmağa can atır. Keçmiş maarifçilər dirilib bu günü görsəydilər, sevindiklərindən qanad açıb uçardılar. Amma az sonra onlar savadın, təhsilin Azərbaycan əxlaqında nə qədər az dəyişiklik yaratdığını görəcəkdilər və qol-qanadları sınıb yanlarına düşəcəkdi. Onlar təhsilin əxlaqı az dəyişdirməsindən də çox təhsilin əxlaqı pisliyə doğru dəyişdirə bilməsinə məəttəl qalardılar.

Keçmişdə təhsil daha çox yaxşılığa doğru dəyişdirirdi. Savad adamlarda xeyirxahlığı artırırdı, özü də çox artırırdı. Oxumuş adamların əksəri yaxşı adam olurdu. İndisə savadın, təhsilin şərə güc vermək qabiliyyəti xeyirə güc vermək qabiliyyəti qədərdi. Bəlkə də çoxdu. Bizim cəfakeş maarifçilər bunu görsəydilər, dəhşətə gələrdilər. Savadlı, təhsilli adamın əxlaqsızlığını daha ağrılı qarşılayan hər bir insanın heyrəti (faciəsi) maarifçi heyrətdi (faciəsidi).

3 noyabr 2002-ci il

Tənqid. Özünütənqid

Savadından, istedadından, əxlaqından asılı olmayaraq heç kim tənqid eşitməyə hazır deyil. Tənqid eşidən kimi hamı özünümüdafiəyə – tənqid olunanı qorumağa çalışır. Amma maraqlıdı ki, bu heç kimi başqasını tənqid eləməkdən çəkindirmir. Əgər kimsə kimisə tənqid eləməkdən çəkinirsə, onda bunu tənqidin faydasız, nəticəsiz qalacağına görə deyil, başqa səbəblərdən eləyir.

İnsan tənqidi həmişə eqoistik vahiməylə, özünəhörməti itirmək xofuyla qarşılayır. Tənqid psixolo]i özünümüdafiəni dərhal işə salır. Nəticədə tənqid öz faydalılığını itirir, verə biləcəyi xeyirdən məhrum olur. Deməli, tənqid gözlənən nəticəni vermir. Tənqidçinin yalnız əks-hücum gözləməsi özünü doğrulda bilər. Ola bilsin, Allah insanı ona görə tənqidə qarşı bu

cür eqoistik kökləyib ki, biz başqasını tənqid eləməkdən daşınaq, yalnız özünütənqidlə məşğul olaq.

Tənqidçi hörməti (dostu) ya tərifin, ya da tənqid elədiyi adamların düşmənlərinin sayəsində qazanır. Tənqid elədiyi adamsa ondan qorxa bilər, amma heç vaxt ona hörmət eləməz.

İnsan öz əleyhinə olan düz sözü eşitməkdənsə öz lehinə olan səhv sözü, yalanı eşitməyi üstün tutur.

Tənqid eləyən onun faydasızlığıyla barışmalıdı.

Tənqiddən çıxarılan nəticə heç vaxt tənqidçinin gözlədiyi nəticə olmur.

28 dekabr 2002-ci il

29. Yazı

Yazmaq – yükünü yerə qoymaqdı

Yazmaq – yükünü yerə qoymaqdı.

Ancaq yazmaq yükdən azad olmağın yeganə yolu deyil, yollarından biridi.

Yaxşı yazı, böyük yazı insanın nə qədər ağır yük daşıdığına sübutlardan biridi.

İnsanın yükü ağırdı.

Qələm adamı yazmadıqca ağırlaşır – əgər yükdən azad olmağın, yüngülləşməyin başqa yolunu tapmayıbsa.

Yüngülləşməyin heç bir yolu məni yazı qədər yüngülləşdirə bilmir. Başqa yollara əl atanda mənə elə gəlir ki, özümü aldadıram, özümə qəsd eləyirəm, yükümü azdırıram. Başqa yola əl atanda elə bilirəm yolumu azmışam. Yalnız yazanda məndə belə bir hiss oyanır ki, düz yolu seçmişəm.

Qələm adamı o adamdı ki, bütün dərin yaşantılar onun gözünə yazı kimi görünür. Yəni qələm adamı o adamdı ki, hansısa hissi dərindən yaşayanda gözünə yazı görünür. Ona görə də qələm adamına elə gəlir ki, o, həyatı həmişə yalnız yazı prosesində dərindən yaşayıb; elə bilir bütün qiymətli yaşantıları yalnız yazı prosesiylə bağlıdı.

8 mart 2004-cü il

Özünçün yazmaq. Elə-belə yazmaq

Əgər mən yalnız özümçün, elə-belə, özümdən ötrü yazı yazmaq istəsəydim, nə yazardım? Necə, hansı üslubda yazardım? Nə vaxt yazardım? Ümumiyyətlə, yazardımmı?

...Özünçün, elə-belə, ürəyin istəyəndə, ürəyin istəyən cür yazmaq. Heç nəyi – çapı, oxucunu, normaları... heç nəyi gözünün qabağına gətirmədən, heç kimin, heç nəyin müdaxiləsinə imkan vermədən, hər şeydən və hamıdan azad, özünçün, öz bildiyin kimi yazmaq. Əgər mən belə yazsaydım, nə yazardım?

8 mart 2004-ci il

Hər bir yazı özü özünün alın yazısıdı

İndiyəcən çap olunmuş bütün yazılarıma ömürlük həbs cəzası kəsirəm: mən onları təkrar çap olunmaq, yenidən işıq üzü görmək azadlığından məhrum eləyirəm. Bilmirəm nə vaxtsa onlardan hansınasa amnistiya verəcəm, ya yox – bəlkə də olacaq, bəlkə də olmayacaq, nə bilim – hər halda olsa, bu yalnız təkadamlıq kamerada, öz tənhalığında da qiymətini itirməyənlər üçün olacaq.

Hər bir yazı özü özünün alın yazısıdı. Mən onları bu yazıdan kənar nə öldürə bilərəm, nə də dirildə. Hansının alnına yaşamaq yazılıbsa, yaşayacaq. Hansısa öləcəksə, deməli, yazısı beləymiş.

19 oktyabr 2002-ci il

Müəllif yazının dəyərini çap olunanda başa düşür

Müəllif yazının əsl dəyərini həmin yazı çap olunandan sonra başa düşür.

29 avqust 2002-ci il

İroniya, satira, pamflet, karikatura, həcv, sarkazm və s. haqqında

Kinayə, istehza, sarkazm, həcv, satira, parodiya, ironiya, karikatura və bu kimi üslub və üsullar çox vaxt həqiqəti olduğu kimi görməyə mane olur. Ümumiyyətlə, gülüş çox vaxt situasiyanın daxili faciəsini, daxili mənəvi konflikti duymağa mane olur. Həqiqəti təhrif eləyənləri tərifləməklə, onları həqiqəti daha artıq təhrif eləməklə dolamaq – acıqlı vicdanın əlacsızlığından doğur. Bu mənada sarkazm və s. vicdani aksiyadı, bu, vicdanlı acıqdı (vicdansızlığın acığına), ancaq bəzən acıq, daha doğrusu, acıqlı gülüş, kinayəli gülüş – situasiyanın faciəvi, insani təbiətinə uyğun gəlmir.

Karikatura – günahkar çıxarmaqdı, ancaq elə situasiyalar var ki, günahkarı müəyyənləşdirmək olmur, cinayət var, faciə var, ancaq bilmirsən günahkar kimdi, ümumiyyətlə günahkar var, ya yox.

Satira tərs gülüşdü. Bu gülüşün altında ciddiyyət dayanır. Ancaq elə situasiyalar var ki, orda ciddilikdən yuxarıda heç nə dayanmamalıdı.

Qrossman deyir ki, Dostoyevskinin «Şeytanlar»ında bir sıra tarixi müasirlərini kinayənin, istehzanın məhvedici gücüylə alçaltmaq, gülünc hala salmaq cəhdi gözlənməz nəticə verdi: «Müasirlərini xasiyyətinin faciəsi və iradəsinin möhkəmliyilə heyrətə salan tarixi xadim *(Neçayev nəzərdə tutulur – A.Q.)* romanda olduqca xırda və rəzil çıxdı. ...Pyotr Stepanoviçin *(Pyotr Verxovski «Şeytanlar»da Neçayevin prototipidi – A.Q.)* simasında fırıldaqçı, dələduz və əclaf adam göstərmək cəhdi «Şeytanlar»ın müəllifini çaşdırdı, ona ən mürəkkəb xarakteri təsvir eləməyə imkan vermədi». (L.Qrossman, «Dostoyevski». Bakı, «Gənclik», 1972. səh. 468-469).

Qrossman çox dəqiq bir ifadə də işlədir: «Lakin Dostoyevskinin bəzi surətləri onun pamfletçi ideyasının təzyiqinə davam gətirə bilmişdi». (Yenə orda).

«Pamfletçi ideyanın təzyiqi» – dəqiq ifadədi. Doğrudan da, ironiya bəzən situasiyanın, şəxsiyyətin həqiqi mahiyyətinə təzyiq göstərir və onun əsl mahiyyətini təhrif eləyir.

Formanı təhrif eləməklə, həm də gülməli, gülünc eləməklə məzmunun faciəviliyini qorumaq, korlamamaq (karikaturada, parodiyada, pamfletdə və s.) çətin işdi. O biri yandan da gülməli formayla faciəli məzmunu birləşdirmək təhlükəlidi: burda çoxluğun formaya gülə-gülə

© A.Qaraçənli "Fikir qovluğu"

məzmunu yaddan çıxaracağı, formaya gülməkdən qıc olub məzmunu hiss eləməyəcəyi qorxusu var.

Sarkastik fikirləri hərfi mənada qəbul eləyəndə komik vəziyyət alınır. (Bu haqda Şopenhauerin maraqlı izahı var). Zarafatı giddi qəbul eləmək qeyri-ciddilikdi.

ABŞ-da 11 sentyabr hadisələrindən az sonra «Azadlıq» qəzetində Zamin Hacının bir yazısı çıxıb. Yazıda müəllif ABŞ-ın Azərbaycandakı səfirliyinin partladılması və s. planından danışıb. Təbii ki, yazı sarkastik üslubda yazılıbmış. Amma səfirlikdə bunu birbaşa mənada (hərfi) qəbul eləyiblər və bərk təşvişə düşüblər. Bu hadisəni ABŞ-ın Azərbaycandakı səfiri Ross Uilson, səhv eləmirəmsə, keçən ilin sonlarında bir neçə qəzet redaktoruyla səfirlikdə görüşəndə özü deyib. «Azadlıq»ın redaktoru Rövşən Hacıyev və başqa redaktorlar səfirə deyiblər ki, həmin yazı, sadəcə, sarkazmdı. Cavabında səfir bildirib ki, biz amerikalılar sarkazmı başa düşmürük. Əlbəttə, amerikalıların sarkazmı başa düşmədiyini deməyin özü sarkazmdı. Əvvəla, dünyada sarkazmı başa düşməyən millət yoxdu, ikincisi də, amerikalılarda güclü yumor hissinin olduğunu, sarkastik replikaları asanlıqla qavradığını biz ən azı onların bədii filmlərindən bilirik. Sözsüz ki, səfirin amerikalıların sarkazmı başa düşmədiyini deməkdə məqsədi jurnalistlərin ABŞ səfirliyilə bu cür zarafat eləmələrini arzulamadığını çatdırmaq olub. Yəni o, başa düşür ki, bu, zarafatdı, sadəcə, istəmir ki, səfirliklə bu cür zarafat eləsinlər.

6 iyul-26 avqust 2002-ci il

Yaxşı yazı

Yaxşı yazı itmir, bir şəkildən başqa şəklə düşür. Tutaq ki, başqa bir yazıya, şeirə, hekayəyə, heykələ, rəsm əsərinə və yaxud düşüncəyə, duyğuya, davranışa, münasibətə, hirsə, qəzəbə, sevgiyə, siyasi qərara və sair və ilaxıra çevrilir. Təbii ki, o, sadaladığımızın başlıca əsası olmaya da bilər, yəni bütövlükdə yazıya yox, bir cümləyə, şeirdə bir misraya, hekayədə sonluğa, heykəldə pozaya, rəsmdə işığa, düşüncədə suala, dalğınlığa, kimə qarşısa mehribanlığa, kimə qarşısa soyuqluğa, siyasi qərarda bir bəndə çevrilə bilər. Çox vaxt elə belə də olur. Yaxşı yazıların dünyaya təsirini izləmək mümkün deyil. Dünyada yalnız dahiyanə yazıların izi açıq-aşkar görünür, o da hər yerdə yox.

Yaxşı yazı iclas zallarında, yığıncaqlarda, toplantılarda yox, kimsəsiz otaqlarda yazılır. Ona görə də cəmiyyət qələminə hörmət elədiyi adamların qapını içəridən kilidləməsinə də hörmətlə yanaşmağı bacarmalıdı. Və qətiyyən narahat olmamalıdı: onun heç bir dərd-səri qapıdan çöldə qalmayıb. İçəridən kilidlənmiş yaradıcı otaqda bütün dünya var, o ki qalmışdı bir ölkə ola.

6 avqust 2002-ci il

Yazmamağın ləzzəti

Yazmamağın da öz ləzzəti var. «Alçaldılmış və təhqir edilmiş insanlar»ın qəhrəmanı deyir: «Yazacağım povestləri düşünəndə otaqda var-gəl eləməkdən həmişə xoşum gəlirdi. Yeri gəlmişkən bunu da deyim ki, mən həmişə yazmaq istədiyim əsərləri doğrudan da yazmağı deyil, onları necə yazacağımı düşünməyi və bu barədə xəyala dalmağı daha artıq xoşlayırdım, bu da, əlbəttə, *tənbəllikdən deyildi* (*kursiv mənimdi - A.Q*). Bəs nədəndi?..». (F.M.Dostoyevski, «Alçaldılmış və təhqir edilmiş insanlar». Bakı, «Gənclik», 1979. səh. 3).

© A.Qaraçənli

Romanda Dostoyevski bu sualı cavabsız buraxır. Bəlkə də hardasa başqa bir yerdə bu suala cavab verib, rast gəlməmişəm, amma romanda açıq qalan sual doğrudan da maraqlıdı. Həm də məsələnin qoyuluşu, sualın cavabını axtarmaq istəyənin istiqamətləndirilməsi çox dəqiq, çox düzgündü. Əsəri düşünmək yazmaqdan çox ləzzət eləyirsə və bu da tənbəllikdən deyilsə, onda nədəndi?

5 iyun 2002-ci il

Qeyri-səmimi davranmaq qeyri-səmimi yazmaqdan asandı

Mənim üçün qeyri-səmimi davranmaq daha asandı, nəinki qeyri-səmimi yazmaq.

17 aprel 2002-ci il

Yaxşı yazının tənha yaşamağa gücü çatmalıdı

Hər bir yazının ən böyük üstünlüyü onun nə dərəcədə azad, müstəqil olmasıyla ölçülə bilər. Yazı dövrdən, faktdan danışanda da dövrün, faktın quluna çevrilməməlidi. Erix Fromm o adamı güclü adam sayır ki, tək qalmağa gücü çatsın, heç kimə arxalanmadan, heç nədən dəstək, kömək almadan yaşaya bilsin, öz potensialını azadlığını qurban vermədən reallaşdırsın. (Э.Фромм, «Бегство от свободы». Минск, «Попурри», 2000. səh. 202).

Mənə elə gəlir, güclü yazı o yazıdı ki, müəllifdən, tarixi, ictimai, siyasi ovqatdan, şəraitdən, zaman-məkan çərçivəsindən azaddı, öz taleyi, öz ömrü var. Güclü yazı o yazıdı ki, zaman, məkan dəyişəndə də, fakt öz əhəmiyyətini itirəndə də, müəllifi bilinməyəndə, öləndə, yaddan çıxanda, tanınmayanda da yaşasın. Əgər yazını dövrün marağı, ovqatı, faktın aktuallığı, müəllifin nüfuzu güclü eləyirsə, onda onların təsiri azalanda yazı gücdən düşəcək. Yazı həmin təsirlərdən azad olanda tənha qalacaq. Və məhz bu cür tənha vəziyyətində yazının əsl gücü, dəyəri üzə çıxır. Bu mənada yazının gücü onun azadlığındadı.

12 yanvar 2002-ci il

İstedad nədi?

Soruşdular istedad nədi? Mən də dedim onun cavabını Məhəmməd peyğəmbər çoxdan verib: «O birdi. Heç bir şəriki yoxdu. Heç kəsə, heç nəyə möhtac deyil! O əzəli və əbədidi! Doğmayıb, doğulmayıb! Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdu!».

1998-ci il

Üç cür yazı

Mən üç cür yazı yazıram. Birincisi, düşündüyüm kimi yazıram, ikincisi, düşündüyümdən pis yazıram, üçüncüsü, düşündüyümdən yaxşı yazıram. Məni ən çox heyrətləndirən üçüncüsüdü. Məni ən çox sevindirən də üçüncüsüdü.

30 sentyabr 1996-cı il

© A.Qaraçənli

30. İmza

İmzanın yaranması

Bu gün tələbə yoldaşım bacısının bir məqaləsini gətirib mənə verdi ki, «Azadlıq» qəzetində çap elətdirim. Məqaləni alıb baxanda gördüm müəllif yazıya imza qoymayıb. Bunu ona dedim və o, bacısının adını məqalənin üstünə yazdı.

Bu yerdə öz ilk yazım yadıma düşdü. Mən də 1992-ci ilin yanvarında ilk məqaləmi o vaxtlar «Xəzər» jurnalında işləyən gənc şair Qurbana göndərəndə yazıya imzamı qoymamışdım. Nədənsə gənclər ilk məqaləsini, yazısını kiməsə çap üçün göndərəndə imza qoymurlar, öz adlarını yazıda göstərmirlər. Bu yaxınlarda «Ədəbi Azadlıq» səhifəsinin redaktoru Pərviz ilk hekayəsini (ilk hekayəsini!) ona gətirmiş bir tələbə haqqında danışanda sözarası dedi ki, o, yazısına imzasını da qoymayıb, adını mən özüm yazmışam.

Görən niyə belədi? Utancaqlıqdan, cəsarətsizlikdən? Bəlkə bu, yazının çap olunacağına şübhə eləməkdi? Bəlkə öz yazısıyla öyünmədiyini, yazısını elə-belə, əhəmiyyətsiz bir şey saydığını göstərmək üçün işlətdiyi fənddi? Yox, heç birisi deyil. Bu, ilk dəfə yaratdığı varlığın üzərində insanın özünü hələ tam ixtiyar sahibi saymamağından irəli gəlir.

19 fevral 1994-cü il

İmzaya aldanma

Azərbaycan mətbuatında belə bir fikir formalaşıb ki, bazar yazı istəmir, bazar imza istəyir. Bu fikir, sözsüz ki, reallıqdan uzaq deyil, o, konkret təcrübə əsasında formalaşıb. Ancaq məsələ burasındadı yaradıcılığa bu cür münasibət ona gətirib çıxarıb ki, indi Azərbaycan mətbuatında yaxşı imza çoxdu, amma yaxşı yazı çox deyil. Mətbuatımızda yaxşı yazının sayı yaxşı imzanın sayından azdı və deməli, bizdə nəinki yazılar, hətta imzalar da inkişaf eləmir.

Yazının imzaya görə oxunması zəif yazmağa bəraət vermir, əksinə, axı yazını imzaya görə o səbəbdən oxuyurlar ki, həmin imzanın altında çoxlu yaxşı yazı olub. Oxucu ona görə imzaya baxıb yazını oxuyur ki, yaxşı yazı oxuyacağına əmindi. Bax, bu reallığı bizim mətbuatda həm qəzetçilər, həm də müəlliflər nədənsə yaddan çıxarıblar.

Oxucunu imzaya aldadan müəllif əgər özünü aldatdığını da bilirsə, demək, hələ hər şey itirilməyib, xilas yolu var. Ən böyük faciə ondadı ki, müəllif öz yalanına özü də aldansın.

Ən yaxşı qəzet o qəzetdi ki, onu əlinə götürəndə biləsən: burda zəif yazını çap eləmirlər, yəni burda nəsə çap olunubsa, deməli, onu keyfiyyətli sayıblar ki, çapa buraxıblar. Əvvəllər bədii ədəbiyyata münasibət beləydi: çapa verilmiş materiala artıq keyfiyyətli material kimi baxırdılar. İndi çap məhsuluna Azərbaycanda bu münasibət dəyişib.

Bəzən zəif yazını başqa imzayla çapa verirsən və bu, imzanı qorumağın Azərbaycan mətbuatında da istifadə olunmuş üsullarından biridi. Ancaq son zamanlar bu üsuldan başqa məqsədlə – imzanı qorumaq üçün yox, müəllifin təhlükəsizliyini qorumaq üçün istifadə olunur. Çünki artıq imzanı qorumaq meyli və üsulu dəyişib. İndi belə hesab olunur ki, imzanı qorumağın ən yaxşı yolu çox yazmaq, mətbuatda tez-tez görünmək, yaddan çıxmamaqdı. Unudulmaq qorxusu yazının keyfiyyətinə əmin olmamağın nəticəsidi. İnsan nə qədər zəif yazsa, unudulmaq qorxusu da bir o qədər olar. İmzaya aldanıb zəif yazmaq insanın təkcə yaxşı yazı vərdişini yox, ümumiyyətlə buna inamını da əlindən alır və bu inamsızlıq onda unudulmaq qorxusunu, tez-tez, çox görünmək meylini gücləndirir; eyni zamanda bu meylin,

qorxunun özü çoxlu zəif yazının ortaya çıxmasına, yəni yaxşı yazı vərdişinin və belə yazı yazmağa inamın daha da zəifləməsinə səbəb olur; beləliklə, müəllif tələyə düşür və ola bilsin, o heç vaxt bu tələdən çıxa bilməyəcək – qurd-quşa, cəmiyyətə yem olacaq.

Kim düşünürsə ki, oxucu yaxşı imza axtarır, o, səhv düşünür. Oxucu yaxşı imza yox, yaxşı yazı axtarır. Və o, yaxşı imzanı da elə bu məqsədlə axtarır. Oxucunun axtarışının son məqsədi yaxşı imza ola bilməz. Belə olsaydı, onda o, imzanı oxumaqla kifayətlənərdi, yazıya keçməzdi. Oxucu axtarışının məqsədi yaxşı yazıdı. Sadəcə, o, yaxşı imzanın vasitəsilə bu məqsədinə daha tez çatacağını düşündüyünə görə birinci imzadan başlayır. Yaxşı imzadan oxucu öz məqsədinə çatmaqdan ötrü ən yaxşı vasitə kimi istifadə eləyir. Və yaxşı imzaya elə beləcə də yanaşmaq lazımdı. O, yaxşı vasitədən başqa bir şey deyil.

30 dekabr 2001-ci il

İmzanın əhəmiyyət daşımadığı dövrlər

Tarixin ilk dövrlərində imzanın (müəllifin) kimliyi əhəmiyyət daşımayıb. Şifahi xalq ədəbiyyatı da bir növ həmin dövrdəki imzaya laqeydliyin nəticəsidi.

Əkbər Ağayev «Homer və onun dastanları» məqaləsində yazır ki, antik dövrdə «İliada» və «Odisseya»ya böyük maraq və sevgi olsa da, Homer şəxsiyyətinə laqeyd yanaşıblar. (Homer, «İliada», «Odisseya». Bakı, «Yazıçı», 1986. «Dünya ədəbiyyatı kitabxanası» seriyasından II cild. səh. 4-5).

Tarixin uşaqlıq və yeniyetməlik dövründə olduğu kimi, insan da uşaqlıq və yeniyetməlik, ilk gənclik illərində imza avtoritetinə (imza avtoritarizminə) biganə olur, əsasən yaradıcılığa fikir verir.

8 sentyabr 2002-ci il

31. Jurnalistika

Hakimiyyətin istədiyi jurnalistika

Əgər hakimiyyət yaxşı jurnalistika istəyirsə, onda niyə o, pis jurnalistikanı müdafiə eləyir? Hakimiyyətin müdafiə elədiyi jurnalistika göstərir ki, onlar (hakimiyyətdəkilər) nə cür jurnalistika arzulayırlar.

20 aprel 2008-ci il

Mətbuatımız ziyalılığını və ideyasını itirib

Azərbaycan qəzetləri ziyalılığını itirib. Bugünkü mətbuatın ötən əsrin əvvəllərindəki mətbuatdan əsas fərqi də bundadı.

Azərbaycan qəzetləri həm də ideyasını itirib. Bugünkü mətbuatın dövlət müstəqilliyimizin bərpası dövründəki qəzetlərdən əsas fərqi də bundadı.

Ziyalılıq və ideya – Azərbaycan mətbuatı bunu itirib. Halbuki bunların hər ikisi bizim mətbuatda var idi.

8 avqust 2002-ci il

İnformasiya yazmaq əzabı

Jurnalistikaya, daha dəqiq desək, qəzetə gələndə, yəni jurnalistliyə başlayanda mənim üçün ən çətin iş informasiya yazmaq idi. İnformasiya yazanda, balaca bir xəbər hazırlayanda əzab çəkirdim. Düzdü, ürəyimcə olan mövzuda analitik, publisistik, poetik yazılar, reportajlar yazanda da əzab çəkirdim, amma bu əzabda heç olmasa bir həzz də olur – yaradıcılıq ilhamının verdiyi həzz və ən nəhayət, gördüyün işin bəhrəsinə, ortaya qoyduğun yazıya baxanda aldığın həzz. İnformasiya yazanda bütün bunlardan məhrumsan. İnformasiya əzabı qonorardan başqa bir mükafat vəd eləmir. Bu çox çətin işdi. Məncə, heç kim axıracan buna dözə bilməz. Ona görə informasiya yazanlar da bir gün əllərində şərh, təhqiqat yazısı, künc yazısı, ovqat yazısı, bir sözlə, yaradıcı insanın özünüifadəsi və özünütəsdiqi üçün lazım olan nəsə gətirirlər. Ümumiyyətlə götürəndəsə informatorlar yaradıcı yanğılarını hərdən informasiyaları (xəbəri) reportaja çevirməklə soyudurlar.

...Jurnalistliyə başlayanda informasiya yazmağımdan danışırdım axı. Hə, mənim üçün bundan çətin iş yox idi. Ancaq mən asanlıqla informasiya yazmağı öyrəndim. İndi mənim üçün ən çətin iş yenə də öz beyin yazılarımı yazmaqdı. Mən onu asanlaşdırmağın yolunu hələ də öyrənməmişəm. Və ən dəhşətlisi budu ki, belə bir yol, deyəsən, heç yoxdu.

Həmişə informasiya yazanda məndə belə bir faciəvi hiss olub ki, vaxtımı və gücümü boş-boş işlərə sərf eləyirəm. Halbuki informasiyaların çoxunu mən elə boş-bekar vaxtımda yazmışam. Yəni o vaxtlarımda ki, əlimdə nəinki öz yazım olmayıb, ümumiyyətlə belə bir yazını yazmağa həvəsim və gücüm də olmayıb. Qəribədi, onda niyə informasiyalara guya vaxtımı və gücümü alan bir qəmiş kimi baxıram?

Ancaq informasiya mənim həm də xilaskarım olub. Boş-bekar vaxtlarımda (bayaq qeyd elədiyim kimi, bu elə həm də yazı yazmağa güc və həvəsimin olmadığı vaxt deməkdi) redaksiyanın bir işinə yaramaq üçün, müftəyeyən kimi görünməyim deyə, yaxud məndən tələb olunan yazını yazmaqdan can qurtarmaqdan ötrü həmişə ya müsahibənin, ya da informasiyanın üstünə qaçmışam. Belə məqamlarda müsahibədən sonra ən çox üz tutduğum – informasiya olub. Və o anlarda mən informasiya sevincini də duymuşam. Ancaq bunu informasiya yazmaq sevinciylə qarışdırmaq olmaz. Sonuncu xoşbəxtlik mənə qismət olubsa da, yadıma gəlmir.

İnformasiya mənə redaksiya, kollektiv, oxucu, şikayətçi, hətta cəmiyyət qarşısındakı borcumu yerinə yetirməyə kömək eləyibsə də, nədənsə onu yazanda özümü özünə qəsd eləyən adam kimi duymuşam. Görəsən, bu hiss nədən xəbər verir, onu nə cür başa düşmək, yozmaq olar? Doğrudanmı mənim elə bir borcum var ki, redaksiya, kollektiv, oxucu, şikayətçi, hətta cəmiyyət qarşısındakı borcdan da irəlidi?

22 iyul 2002-ci il

Reallığın təhrifi

Azərbaycanda bu gün çox güclü şəkildə reallığın təhrifi var. Tutaq ki, AzTV-yə baxanda adama elə gəlir ki, bu ölkədə siyasi müxalifət yoxdu, yalnız düşmən bir qrup var. Bundan başqa, məsələn, AzTV-də müxalifətdəkilərin bəhs elədiyi xəbərlərdən, cinayət, qətl hadisələrindən danışılmır. Bu, reallığın təhrifidi.

Müxalifət də reallığı eyni qaydada təhrif eləyir. Müxalifətçilərin sözündən belə çıxır ki, ölkə elə dağılır ki, sabaha sağ çıxmaq mümkün deyil. Üstəlik, hakimiyyətin dediklərinin və elədiklərinin hamısı yalan, ziyandı.

Qəzetlərdəsə reallığın təhrifi daha çox başlıqlarda özünü göstərir.

İqtidar-müxalift münasibətlərində reallığın təhrifi çox qəribə şəkildə gedir. Məsələn, hakimiyyət deyir: qatıq qırmızıdı. Müxalifət deyir: qatıq qaradı. Və mübahisə başlayır. Yəni onların hər ikisi həm reallığı təhrif eləyir, həm də əks tərəfin reallığı təhrif eləməsinə qarşı çıxır. Yəni reallığı təhrif eləyənlər eyni zamanda reallığın təhrif olunmasıyla mübarizə aparırlar. Ancaq burda onların heç birinin qələbəsi reallığın qələbəsinə çevrilə bilməz. Çünki onların heç biri qatığın ağ olduğunu demir. Burda reallığın qələbəsi üçün mütləq heç-heçə lazımdı. Bəlkə buna görədi ki, iqtidar-müxalifət döyüşlərində məhz heç-heçə məqamları daha çox ictimai razılıq doğurur...

1998-ci ilin payızı

32. Şöhrət

İnsanı özündən öyrənməyə başlamaq. İnsanın «ətraf adamı»na çevrilməsi. Şöhrət

Vladimir Porudominski Lev Tolstoy haqda yazır: «İstənilən maskanı yırtanda Tolstoy hökmən birinci özündən başlayır, Tolstoyun məşhur insanşünaslığı amansız, heç nəyi yayındırmayan «özünüşünaslıqdan» başlayır. Ən çətini də yəqin ki, elə budu: özünə qıraqdan, ayıq gözlə, illüziyasız-filansız, bəraətsiz-bəhanəsiz baxasan...». (Л.Н. Толстой, «Счастье, которое меня ожидает...». Москва, «Молодая Гвардия», 1988. səh. 18).

Tolstoy doğrudan da dünyanın ən böyük «özüşünas»larından, «özünüşünas»larından biri, bəlkə də birincisidi. Porudominski çox dəqiq deyir ki, Tolstoyun insanşünaslığı, insanı öyrənməsi özündən başlayır. Ümumiyyətlə, bu artıq deyilmiş fikirdi (təklifdi, məsləhətdi də söyləmək mümkündü) ki, insan insanı öyrənməyə özündən başlamalıdı. Məncə, özünü öyrənmək təkcə insanı öyrənmək istəyənlərin vəzifəsi deyil, özünü öyrənmək hamının vəzifəsidi. Bəlkə də insanın dünyada bundan böyük vəzifəsi yoxdu.

Mənim ən böyük vəzifəm «mənşünas», sənin ən böyük vəzifən «sənşünas», onun ən böyük vəzifəsi «oşünas» olmaqdı. Ancaq mən özümşünasammı? Sən özünşünassanmı? O özüşünasdımı? Bizim başımız başqalarına qarışıb. Bizim başımız qırağa qarışıb, daha doğrusu, biz başımızı qıraqla qatırıq. Nəticədə biz qıraq adamına, qıraq adama çevrilmişik. Biz «ətraf üçün şəxsiyyət»ə çevrilmişik: ətrafın istəyi bizim istəyimizə çevrilib və özümüzü aldadırıq (bilərəkdən-bilməyərəkdən) ki, guya bu elə həm də bizim istəyimizdi.

Şöhrət – cəmiyyətin doğurduğu tələbatdı. Cəmiyyətin dalınca düşən adam cəmiyyətin dalına düşüb getməyə məhkumdu. Şöhrətin ağası olmaq mümkün deyil, şöhrətin yalnız qulu ola bilərsən. Şöhrətin qulu olmaqsa cəmiyyətin qulu olmaq deməkdi. Nə qədər çox şöhrətli olmaq istəyirsənsə, bir o qədər cəmiyyətdən asılısan. İnsanda anadangəlmə şöhrət tələbatı yoxdu. Bu tələbatı insan sonralar qazanır. Bu tələbatı cəmiyyət öz əxlaqı, stereotipləri, münasibətləri, qıcıqlarıyla insana köçürür.

Şöhrət – mənəvi tələbat deyil, şöhrət hətta fərdi-psixoloji tələbat da deyil, şöhrət – ictimai, sosial-psixoloji, kollektiv tələbatdı. Onu qrup yaradır, qrup inkişaf elətdirir, qrup da öldürür.

5 yanvar 2002-ci il

Özümoloq, mənoloq

Mən mənoloq olmasam, sən sənoloq olmasan, biz bizoloq olmasaq, nasıl çıxar qaranlıqlar aydınlığa?..

19 mart 2002-ci il

Şöhrətdən uca, şöhrətdən alçaq

Mən şöhrətimdən uca olmaq istəyirəm. İnsanın şöhrəti onun özündən geridə qalsa yaxşıdı. Mən böyük şöhrətdən imtina eləməzdim, ancaq mənim şöhrətim mütləq mənim özümdən balaca olmalıdı. Mən boyda, yaxud məndən bir santimetr də olsa yüksək şöhrət mənə ləzzət eləməz. Çünki bu, məni qiyabi tanıyanların rəğbətinin məni əyani tanıyanların rəğbətinə ya bərabər olması, ya da birincinin ikincidən artıq olması deməkdi. Bu o deməkdi ki, məni uzaqdan tanımaqla yaxından tanımağın arasında bir fərq yoxdu və əgər varsa da, bu, qiyabi Azərin xeyrinə, əyani Azərin ziyanınadı.

Yəni bu o deməkdi ki, mənə qiyabi rəğbət bəsləyən adamla şəxsi tanışlıq mənim hörmətimi nəinki artıra bilməz, hətta azalda bilər. Burdan da yalnız bir məntiqi nəticə çıxır: mən – mənə qiyabi rəğbət bəsləyən adamdan qaçmalıyam. Onunla tanışlığa nəinki maraq göstərməməliyəm, hətta bundan qorxmalıyam.

Yox, belə şöhrət mənə ləzzət eləyə bilməz. Ağlı başında olan, özünə hörmət eləyən adam bu cür şöhrətə getməz. Mənə qiyabi rəğbət bəsləyənlərin məni şəxsən tanıyandan sonra hörmətimin daha da artacağını düşünmək mənimçün daha xoşdu. Bu arxayınçılıqla ölmək daha rahatdı, nəinki o biri qorxuyla yaşamaq. Mənimçün xoş olan odu ki, qıraq yerdə sənin haqqında danışan adam «kaş siz onu öz gözlərinizlə görəydiniz» deyə bilsin. Düzdü, bu sözü hansısa bədxah sənin düşdüyün ağır vəziyyəti görmək ləzzətindən məhrum olanların əvəzinə təəssüf kimi də işlədə bilər. («Kaş siz onu öz gözlərinizlə görəydiniz» – bu sözü adamlar kiminsə düşdüyü ağır vəziyyəti görmək ləzzətindən məhrum olanların əvəzinə təəssüf kimi də işlədirlər. Dünyanın bütün bədxahları belədi: onlar sənin ağır vəziyyətini görə bilmədiyimə görə mənim, mənim ağır vəziyyətimi görə bilmədiyinə görə sənin əvəzindən təəssüflənməklə məşğuldular. Biz bu təəssüfə qoşulanda bir-birimizin bədxahına çevrilirik.). Ancaq mən bu halda həmin sözün yalnız xeyirxah niyyətini nəzərdə tuturam. Mən istəməzdim ki, bu sözü mənim haqqımda yalnız bədxah niyyətlə demək mümkün olsun. Ancaq xeyirxahlarının bu imkanını əlindən alan adamlar az deyil.

Mən qiyabi qazandığı hörməti şəxsi tanışlıqdan sonra itirən adamları az görməmişəm. Hər kəs belə görüşdən sonra özündə yaranan hissi yadına salsa, heç vaxt layiq olduğundan artıq şöhrətə can atmaz.

P.S. Mənim burda yazdıqlarım 5 yanvar qeydlərimdə şöhrətlə bağlı dediklərimdən imtina eləməyim demək deyil. Mən yalnız «Şöhrətin ağası olmaq mümkün deyil, şöhrətin yalnız qulu ola bilərsən» cümləsinə bir əlavə eləmək istərdim: ...Bu, şöhrətindən uca olanlara o qədər də aid deyil («o qədər də» ifadəsini işlətməyə bilmirəm). Şöhrətin ağasına çevrilmək

mümkündüsə, bu yalnız ondan irəlidə getməklə, layiq olduğundan daha az şöhrətli olmaqla mümkündü. Əlbəttə, yalnız o adam layiq olduğundan az şöhrət qazana-qazana şöhrət qazanmağa razılaşar ki, bu üsulla şöhrətli ola biləcəyinə əmin olsun.

16 aprel 2002-ci il

Şöhrət və yaradıcılıq

Şöhrət artdıqca yaradıcılıq zəifləyir.

Bizdə məşhur adamların, xüsusən də məşhur jurnalistlərin çoxu şöhrətini qorumaqdan ötrü yazır. Buna qədərsə onlar şöhrət qazanmaqdan ötrü yazırdılar – deyə düşünmək lazım deyil. Buna qədər onları yazmağa həvəsləndirən başqa motivlər, impulslar da vardı. Ancaq məşhurlaşandan sonra həmin impulslar arxa plana keçib.

Ümumiyyətlə, yaradıcı adamların əksərinin taleyi belə olur. Şöhrət qazanana qədər başqa məqsədlə (yəni şöhrət qazanmaq məqsədiylə yox), başqa niyyətlə yazır, yaradır, şöhrət qazanandan sonrasa yaza bilmir, yazanda da əsas məqsədi şöhrətini qorumaq olur. Yəni yazmır, yazanda da irəliləmək üçün yox, tutduğu mövqeni itirməmək, dayandığı yerdə dayana bilmək üçün yazır; bu da, təbii ki, yerində saymaq deməkdi.

20 may 2002-ci il

Şöhrət

Dostoyevski çox erkən şöhrət qazanmışdı. Onun 24 yaşında, 1845-ci ildə bitirdiyi ilk povesti – «Yoxsul insanlar» ədəbi, ictimai mühitdə hadisə kimi qəbul olunmuşdu. Dostoyevski 1846-cı ilin fevralında qardaşına yazırdı: «Elə güman eləyirəm ki, mənim şöhrətim heç vaxt indiki kimi, bu cür yüksək zirvəyə ucalmayacaq. Sən təsəvvürünə gətir ki, bizimkilərin hamısı – hətta Belinski də belə hesab eləyir ki, mən Qoqoldan da xeyli irəli getmişəm... Məndə yeni orijinal keyfiyyət tapırlar, bu keyfiyyət ondan ibarətdi ki, mən Sintezlə deyil, Analizlə hərəkət eləyirəm, yəni dərinlərə varıram, atomları araşdıraraq bütövü axtarıb tapıram. Qoqol isə bilavasitə bütövü götürdüyü üçün mənim qədər dərin deyil... Mənim gələcəyim son dərəcə parlaqdı...». (L.Qrossman, «Dostoyevski». Bakı, «Gənclik», 1972. səh. 81).

Qrossman qeyd eləyir ki, bu cür sadəlövh mövqe gənc ədiblər arasında kinayəylə qarşılandı. Çox keçmədi Dostoyevskiyə rişxənd eləməyə, onu lağa qoymağa başladılar. Və 1847-ci ilin aprelində, artıq Belinskidən də, onun dərnəyindən də, bir sözlə, demək olar ki, «bizimkilərin hamısı»ndan uzaqlaşmaqdan başqa çıxış yolu görməyən Dostoyevski qardaşına yazırdı (vur-tut bircə il sonra): «Onlar mənə şübhəli şöhrət qazandırdılar, indi mən bilmirəm bu cəhənnəm əzabı nə vaxta qədər davam eləyəcək». (Göstərilən kitab, səh. 83).

Qrossman bunu «kədərli şöhrət təcrübəsi» adlandırır: «Qəflətən qazanılan və çox sürətlə hörmətdən salınan bu erkən kədərli şöhrət təcrübəsi onun hafizəsində həmişəlik qaldı». (Yenə orda, səh. 83).

Mənə elə gəlir, nə qədər ki insan sağdı, onun şöhrəti şübhəlidi. Sağ adamın, belə demək mümkünsə, şöhrətsizliyi də şübhəlidi.

Mən sağlığımda yox, öləndən sonra şöhrət qazanmaq istəyirəm. Əgər bu, axmaqlıqdısa, onda sağlığında şöhrət qazanmaq istəyi gicbəsərlikdi. Neynirəm o şöhrəti ki, ölməkdən ötrü mənim ölümümü gözləyir. Neynirəm o şöhrəti ki, mənim ölümüm onu hörmətdən salacaq.

Neynirəm o şöhrəti ki, mənim ömrümü uzatmayacaq... O şöhrəti ki, yüz illər sonra da mənim həyatıma həsəd, ölümümə təəssüf doğurmayacaq.

Mənə öldüyüm günü yasa çevirəcək şöhrət lazım deyil. Mən öləndən sonra doğulduğum günü bayrama çevirəcək şöhrət istəyirəm. Əgər şöhrət vacibdisə, qoy onda elə bir şöhrət olsun ki, o, adamlara mənim ölümümü unutdursun. Qoy mənim ad günüm dünyanın şad günü olsun! Qoy mən öləndən sonra hər ad günümdə adamlar küçələrə çıxıb bayram eləsinlər, mahnı, şeir oxusunlar, çalıb-oynasınlar... Əgər şöhrət arzulamaq mütləq lazımdısa, onda mənim arzuladığım şöhrət budu. Öləndəsə qəbirə xalqın, kütlənin yox, beş-üç dostun çiynində getmək məni qane eləyir. Hətta tibb universiteti tələbələrinin əyani vəsait kimi istifadə eləməsi üçün morqda şaqqalansam da, incimərəm.

22 may 2002-ci il

Unudulmaq qorxusu və insan davranışı

Azərbaycanda bəziləri hətta təhqir obyekti kimi unudulmaqdan da qorxur.

Əslində pis adamın unudulmaq qorxusu olmamalıdı. Halbuki biz bunun tam tərsini görürük. Adətən yaxşı adamlar unudulmaqdan qorxmurlar. Cılız adamlarısa azacıq yaddan çıxan kimi vahimə basır.

Yaddaşlara yazılmaq istəyən adamların bu qədər pislik eləməsi məni təəccübləndirir. Bunca pislik eləyən əslində tezliklə unudulmağı arzulamalıdı. Yox, əgər yadda qalmaq, özü də xoş xatirə, yaxşı adam kimi yadda qalmaq istəyirsə, onda niyə bu qədər pislik eləyir?

Yada düşdükcə söyüləcəyini bilən adamın özünü yada salması görəsən unudulmaq qorxusundan irəli gəlir, yoxsa təhqir olunmaq tələbatından (mazoxizm)?

6 dekabr 2002-ci il

Özünü oynamaq

«Hansısa aktyor özünü oynaya bilsə, o ən dahi aktyor olar. Ən çətini özünü oynamaqdı». Bu sözləri bu axşam ATV kanalında aktyor Telman Adıgözəlli dedi.

6 fevral 2004-cü il

33. Mübahisə

Azərbaycanda debatlar

Azərbaycanda bütün ictimai mübahisələrdə, debatlarda tərəflər sürətli, bərkdən və ironik danışıq tərzinə üstünlük verirlər. Çünki auditoriya məhz bu cür danışan adamı qalib sayır. Ona görə də bizdə teledebatlara məhz bu cür danışmaq qabiliyyəti olan adamlar daha həvəslə can atırlar. Yəni şərait özünə uyğun adamları tapır və qəhrəmana çevirir.

O yerdə ki, insan haqlı danışdığına, həqiqəti dediyinə görə yox, sadəcə, sürətli, bərkdən və kobud danışdığına görə qalib gəlir, orda mədəni və ədalətli adamları həmişə məğlubiyyət gözləyir.

Bir maraqlı məqam odu ki, biz qalib saydığımız adamı heç də həmişə haqlı saymırıq. Yəni çox vaxt biz bilirik, qəbul eləyirik ki, A haqlı danışırdı, onun arqumentləri, fikirləri daha doğru, daha ədalətliydi. Ancaq soruşsalar ki, polemikada kim qalib gəldi, kim uddu, deyirik B. Baxmayaraq ki, onun fikirlərinin haqsız, ədalətsiz, yalan olduğunu çox gözəl bilirik.

Haqlı olmaqla qalib olmağın üst-üstə düşməməsinin, daha doğrusu, haqqın qələbədən ayrılmasının səbəbi odu ki, biz debatlarda formanı əsas sayırıq.

Qalib gəlməyin yeganə yolu haqlı olmaqdı. Ancaq bizdə qalib gəlməyin başqa yolu da var, özü də haqlı olanı belə o yolla məğlub eləmək, daha doğrusu, onun məğlub görkəmində görünməsinə nail olmaq mümkündü. Daha bundan böyük cəfəngiyyat, nadanlıq ola bilməz ki, haqlı danışanı, düz danışanı məğlub sayasan və əksinə: yalan danışanı qalib sayasan. Özü də könüllü şəkildə: yəni heç kim səni buna məcbur eləmir, sən televiziyanın qarşısında oturmusan, qələbə və məğlubiyyətin subyektlərini müəyyənləşdirmək öz əlindədi və çox vaxt qələbəni daha çox nifrət elədiyin adama verirsən, özü də ürək ağrısıyla, təəssüflə, baxmayaraq ki, rəğbət bəslədiyin adam haqlı olduğuna səni bu dəfə də inandıra bilmişdi!

Teledebatlarda qələbə haqlı tərəfə verilməlidi. Yalnız haqlı danışan qalib sayılmalıdı. Və yalnız bu halda ictimai rəy ədalətli və müdrik ola bilər.

Bizdə ictimai mübahisələrdə, polemikalarda auditoriya haqlılıqdan, arqumentlərin, tezislərin doğruluğundan çox intonasiyaya, təəssürata, pozaya, jestikulyasiyaya diqqət yönəltdiyinə, üstünlük verdiyinə görə mübahisə eləyənlər də intonasiyaya, sofizmə, poza, jest və bu kimi elementlərə üstünlük verirlər, yəni təəssürat oyatmağa çalışırlar. Halbuki nə qədər bəlağətli, məğrur görkəmdə desən ki, qatıq qaradı, qatıq qara deyil və deməli, sən məğlub sayılmalısan. Psixoloji baxımdan sənin qatığın ağ olduğunu hansı intonasiyayla, inamla deməyinin fərqi var, ancaq ədalət, mənəviyyat, məntiq baxımından bunun heç bir fərqi yoxdu; dəxli yoxdu sən «qatıq ağdı» sözünü hansı tonla, pozayla demisən... Bizdə ədalət, mənəviyyat, məntiq psixologiyanın qurbanıdı.

3 mart 2002-ci il

Mübahisə mədəniyəti və insan təbiəti

Qreys Krayq «Yaş psixologiyası» kitabının «Uşaq mübahisələri» bölməsində (Грейс Крайг, «Психология развития». Санкт-Петербург, «Питер», 2000. səh. 433) yazır ki, arqumentləşdirməyə əsaslanıb mühakimə yürütsək deməliyik ki, uşaqlar mübahisə zamanı heyrətamiz sosial anlaşma nümayiş elətdirirlər, onlar sübutlarını sosial norma və anlayışlara uyğun ortaya qoyurlar. Hətta 3 yaşlı uşaq da öz davranışını sosial normalara uyğun əsaslandıra və ya başqasının haqsızlığını onun hərəkətinin nəticəsini göstərməklə sübut eləyə bilir. Məktəbəqədərki yaş dövründə olan uşaqların söz güləşdirməsini müşahidə eləyəndə görürsən ki, onlarda sosial normaları qavramaq, rəqibin mövqeyini öyrənmək, nəzərə almaq və öz mövqeyini arqumentləşdirmək qabiliyyəti çox güclüdü və bu qabiliyyətlər durmadan, yolundan sapmadan inkişafdadı.

Krayqdan gətirdiyim bu fikirlərdən hərə bir cür nəticə çıxara bilər. Mənsə o nəticəni çıxarıram ki, mübahisə mədəniyyətsizliyi, kobudluğu, mübahisə zamanı əsassız danışmaq, haqsız mühakimə yürütmək insanın ilkin təbiətinə ziddi. Bu, insan təbiətinə yad xüsusiyyətdi, ona görə də bu xüsusiyyətlər insanda özünü sonralar – böyüyəndə büruzə verir. Kim mübahisədə daha çox mədəniyyətsizdisə, deməli, o öz təmizliyini, uşaqlığını bir o qədər

unudub, korlayıb. Hər bir mübahisə mədəniyyətsizliyi insanın öz təbiəti əleyhinə çıxmasıdı, özünü süniləşdirməsidi.

Uşaq mübahisələrindən nəticə çıxarmaq lazımdı – mən yuxarıdakı fikirlərdən bu nəticəni çıxarıram...

Normal insana mübahisə zamanı necə hərəkət eləmək, necə davranmaq lazım olduğunu öyrətməyə ehtiyac yoxdu. Bu biliyi o, göydən özüylə gətirib. Ancaq təəssüf ki, insanlar yerdə çox şeyi yaddan çıxarırlar – mübahisə mədəniyyəti də onlardan biridi.

2 yanvar 2002-ci il

Mübahisə

Həqiqət tapıldığı anda mübahisə bitməlidi. Əgər həqiqət tapılandan sonra da mübahisə davam eləyirsə, deməli, kimlərinsə deyişmək həvəsi, məğlubiyyət qorxusu həqiqət duyğusundan güclüymüş. Bütün həqiqi arqumentlər üzə çıxandan və sübut olunandan sonra belə adamlarla mübahisəni davam elətdirmək onların həqiqətə hörmətsiz yanaşmasına şərik olmaq və mübahisəni nəyə görə başladığını unutmaq deməkdi.

Məlum həqiqətlərə görə mübahisə eləmirlər.

Söz azadlığı olmayan yerdə mübahisə mədəniyyəti də ola bilməz. Mübahisə mədəniyyəti orda inkişaf eləyir ki, orda fikir, düşüncə azadlığına qiymət qoyurlar. O yerdə ki, məhkəmədə mübahisəni udanı hakim uduzdura bilir, o yerdə ki, reytinq cədvəlində birinci yerə çıxan partiyaya parlamentdə bir yer də verilmir, o yerdə ki, debatlarda birinci yerə çıxan siyasətçi seçkidə axırıncı yerə atılır, orda mübahisə mədəniyyəti inkişaf eləyə bilməz. Çünki orda mübahisələr, diskussiyalar, polemikalar heç nəyi həll eləmir.

Nəsə nəyisə həll eləməlidi ki, ona hörmət olunsun, ondan istifadəyə, onu mənimsəməyə ehtiyac duyulsun.

Azərbaycanda bir çox siyasətçi ona görə teledebatda, başqa polemikalarda özünü mədəniyyətsiz aparmaqdan çəkinmir ki, bu mədəniyyətsizliyin nəticəsində seçicilərin səsini itirəcəyindən qorxmur, çünki onun taleyini seçicinin səsi yox, hakimiyyətin münasibəti, zor həll eləyir.

O vaxt ki Azərbaycanda siyasətlə məşğul olanların taleyini şəffaf seçki qutuları həll eləyəcək, onda onlar siyasi polemika mədəniyyətinə riayət eləməyə məcbur olacaqlar. Tok-şoularda, teledebatlarda siyasətçilər bir-birilərini təhqir eləməkdən qorxacaqlar. İndisə onlar hətta rəqiblərinin elektoratını təhqir eləməkdən, üzlərini zalda rəqibi dəstəkləyənlərin əyləşdiyi sıraya yönəldib təhqiramiz ifadələr işlətməkdən qorxmurlar.

Lyudmila Pavlova «Mübahisə, diskussiya, polemika» kitabında (*Л*.Г. Павлова, «Спор, дискуссия, полемика». Москва, «Просвещение», 1991. səh. 16-17) yazır ki, Qədim Yunanıstanda natiqlik məharəti, diskussiya mədəniyyəti, yəni öz fikrini cəmiyyətə çatdırmaq və inandırmaq, müəyyən fikirlərə, münasibətlərə qarşı çıxmaq və bu zaman cəmiyyətin rəğbətini itirməmək qabiliyyəti, elmi üsulları məhz Afina şəhər-dövlətində inkişaf eləmişdi, Spartada yox. Çünki birincisi demokratik, ikincisi antidemokratik dövlət idi...

Dekabr 2001-ci il

34. Söyüş

Söyüş

Mərifətli (və mənalı) söz deməkdən (fikir yürütməkdən) can qurtarmağın yeganə yolu söyüş söyməkdi.

Söyüş – qarşısındakının tərbiyəsinə tab gətirməməyin nəticəsidi. Fikir vermisizmi, həmişə tərbiyəli adamları söyürlər. Tərbiyəsizlərlə hamı mədəni danışır – bəzi tərbiyəsizlərdən başqa.

Bir çox söz var ki, tərbiyəsiz adamlar onun heç vaxt leksikondan çıxmasına imkan vermirlər.

Elə adamlar var ki, onları yalnız əxlaqın yüksəkliyinə inamını qırmaqla söyüş söyməyə məcbur eləmək mümkündü. Yəni onları söyüş söyməyə məcbur eləmək – əxlaqı onu yüksəkdə saxlayanların əliylə endirməyə cəhd göstərməkdi. Bu, əxlaqsız cəhddi. Və burda bir şeytani incəlik var: əxlaqı onu yüksəklikdə saxlayanların əliylə endirmək. Burdan bir həqiqət də üzə çıxır (şeytanın zəifliyi): əxlaqsız adam heç vaxt əxlaqı alçalda bilməz, çünki onun əxlaqa əli çatmır. Ona görə də əxlaqsızlar – əxlaqı həmişə əxlaqlı adamların əliylə alçaltmağa çalışırlar. Bu onlara əxlaqın ümumiyyətlə olmadığını təsdiqləyib, təskinlik və bəraət tapmaq üçün lazımdı. Belə məqamda əxlaqsızlıq eləməmək, şeytana uymamaq (məsələn, söyüş söyməmək) şeytanın təskinliyini və bəraətini əlindən almaq deməkdi. Söyüş söyməyin. Söyüş söyənin tərbiyəsiz olduğunu göstərməyin yeganə yolu budu.

Söyüş – mənalı fikir söyləməyi bacarmayan insanın öz daxili boşluğuna qarşı qiyamıdı. İnsan həmişə birinci özünü, öz istedadsızlığını, savadsızlığını, öz mənəvi zəifliyini söyüb sonra başqasını söyür. İnsanın dilinə gətirdiyi söyüşün şiddəti onun daxilən duyduğu mənəvi zəifliyə qarşı keçirdiyi hiddətə bərabər olur. Özünü söymədən başqasını söymək insanın imkanı xaricindədi. Çünki insan başqasına üz tutmamışdan əvvəl özünə üz tutur, öz içində söz axtarır, fikir axtarır. Özü də heç kim, heç kim (!) ən əvvəl söyüş axtarmır. Hamı əvvəlcə sanballı, tutarlı bir fikir axtarır. Və bu axtarışdan əliboş, içinə tüpürüb çıxan adamı tanımaq çətin deyil: o, çöldə də tüpürür. Bu axtarışdan narazı, acıqlı qayıdan adamların içinə münasibəti çölünə vurur: onlar çox narazı, acıqlı görünürlər. Fikir vermisizmi, istedadlı, savadlı, mənəvi gücünün dəstəyini duyan adamlarda hətta söyüldüyü anda da qəribə bir sakitlik, arxayınlıq, məğrurluq, əzəmət olur. O, rəqibinin üstünə əzəmətlə – sanballı fikirlə, sözlə yeriyir. İçindən güvənci olmayan adamlarda bu əzəmət çatışmır. Və onun çatışmazlığıdı insanı cılız göstərən. Cılızlıq deyəndə biz məhz əzəmətsizliyi nəzərdə tuturuq. Cılız adam – içindən dəstəyi olmayan adamdı. O, çölünü cırmaqlamağa hazırdı, təki içinə qayıtmasın. O, söyür ki, söz deməsin. Və o, hər söyüşündə fikir yürüdə bilməməyini də söyür.

Mən inanıram ki, hər bir söyüşə söyüşsüz, sanballı və sanballı olduğuna görə də sərt olan cavabı eşidəndə (yaxud oxuyanda) söyüş söyən başını tutub ürəyində hönkür-hönkür ağlayır.

Bəzən görürsən kimsə deyir ki, mən özümə sığışdırmıram ona filan sözləri deyəm, mən özümə sığışdırıb ona filan şeyi deyə bilmirəm. «Özünə sığışdırmaq» – söyüş söyən hər bir adam onu əvvəlcə özünə sığışdırmalıdı. Hər kəs özünə sığışdırdığı qədər söyüşcüldü. Hər bir söyüş onu dilinə gətirənə sığışmalıdı. Başqa cür mümkün deyil. Hər kəs özünə sığışdırıb söyür. Deməli, hər bir söyüş hədəfin yox, mənbənin, onu dilinə gətirənin ölçüsünə uyğun olmağa məhkumdu. Söyənin sözü söyülənə yapışmaqdan ötrü gərək söyənlə söyülən eyni ölçüdə

olsun. Və burda da bayaqkı məntiq təsdiqlənir: hər kəs yalnız öz ölçüsünü (yəni özünü) söyə bilər.

Ey Söyüşcül! Sən söyüşünlə məqsədinə o vaxt çata bilərsən ki, söydüyünə uyğun olasan. Sənin söyüşün ayrıca olaraq söydüyünə uyğun gələ bilməz, o mütləq sənə də uyğun gəlməlidi. Əgər sənin söyüşün yapışırsa, bu o deməkdi ki, söydüyünlə eynisən, bir-birinizin tayısız.

20 iyul 2002-ci il

Söyüş və cəmiyyət

Söyüş də aqressiyanın bir növüdü. O, verbal (sözlü) aqressiyalara aiddi və qeybətdən, dedi-qodudan fərqli olaraq birbaşa, açıq-aşkar, əzabverici susqunluqdan fərqli olaraq aktiv, fəal aqressiyadı.

Söyüş həm də xalis aqressiyadı. Yəni zorakılıq naminə zorakılıqdı. Tutaq ki, girovları azad eləməyə çalışan polisin gülləsi də zorakılıqdı, ancaq burda aqressiya məqsəd deyil, vasitədi. Söyüşdəsə aqressiv davranışın xətər yetirməkdən, insanı yaralamaqdan başqa bir məqsədi yoxdu. Burda aqressiya həm məqsəd, həm vasitədi.

Söyüş fikir deyil, emosiyadı. O, sözdən ibarət olsa da, fikri ifadə eləmir. Ona görə də fikrini ifadə eləməyə çətinlik çəkən, yaxud ifadə eləməyə fikir tapmayan adamlar tez-tez söyüşə üz tuturlar. Deməli, söyüş təkcə aqressiyanın deyil, həm də fikri-fəlsəfi-filoloji problemlərin nəticəsidi. Və söyüşün ictimai polemikalar səviyyəsində artması da cəmiyyətdə öz fikrini ifadə eləməyə çətinlik çəkən aqressiv adamların fəallaşması, sözün kəsərini onun arxasında mənalı fikir dayanmaya-dayanmaya gücləndirmək üsullarının genişlənməsi deməkdi.

Cəmiyyət söyüşə qarşı mübarizəni zorakılığa qarşı mübarizənin tərkib hissəsi kimi aparmalıdı. Nəzərdən qaçırmaq olmaz ki, söyüş də zorun bütün növləri kimi cəmiyyətin müqavimət qabiliyyətini sınağa çəkir və onu zəif görəndə, əlbəttə ki, daha da güclənir, birinin üstünə beşini qoyur. Əslində söyüşə pis baxan bütün adət-ənənələr söyüşə qarşı ictimai müqavimətin ən ciddi formasıdı. Və təkcə insanın ictimai yerdə, böyük-kiçik, qız-gəlin yanında söyməsinə yox, söyənə cavab verə biləcəyi halda mənafe, mənsəb naminə susmasına pis baxılması da bu müqavimətin hərəkətverici impulslarıdı. Eyni zamanda insanın söyüşü əxlaqi motivlərlə cavabsız buraxmasına nəinki pis baxılmaması, əksinə, bunun təqdirəlayiq hal kimi qarşılanması da söyüşə qarşı ictimai müqavimətin bir hissəsidi və əxlaq normalarında müqavimətin məqsədinin əxlaqi yüksəkliyi qorumaq olduğuna bir sübutdu.

Niyyəti insan əxlaqını alçaltmaq, insan qəlbini yaralamaq olan qaba sözün öz arzusuna çatmaması, hədəfini bu üsulla cəmiyyətdə gözdən sala bilməməsi zorakılığın daha bir növünün puça çıxması, effekt vermədiyinə görə mübarizə metodlarında ona meyllənmələrin qarşısının alınması deməkdi. Əgər o, həm də əks-effekt verirsə, onda lap yaxşı...

2003-cü il

35. Müqayisə

«Hər bir müqayisə qüsurludu» fikrini necə başa düşməli?

«Hər bir müqayisə qüsurludu» fikrini çoxları müqayisədən imtinaya çağırış kimi başa düşür. Halbuki bu, müqayisəyə ciddi yanaşmağa çağırışdı. Yəni bir növ sənə xəbardarlıqdı ki, bax ha, hər bir müqayisə qüsurludu, ona görə sən müqayisəni elə ehtiyatla, incə aparmalısan ki, onun qüsuru görünməsin.

«Hər bir müqayisə qüsurludu» fikri müqayisəni inkar eləmir, əksinə, onun həddindən artıq ciddi iş olduğunu xatırladır. Belə xatırlatmaya doğrudan da ehtiyac var. Çünki adamların çoxu hər şeyi müqayisə eləmək imkanına hər şeyi müqayisə eləməyin mümkünlüyü kimi baxır. Yəni elə bilirlər ki, müqayisəyə imkan varsa, deməli, icazə də var.

Müqayisə inkişafa da apara bilər, tənəzüllə də. Məsələn, özünü səndən irəli getmiş adamla və yaxud ölkəylə, şirkətlə müqayisə eləyəndə geridə qaldığını başa düşürsən, bu da inkişafa ehtiyacın olduğunu başa düşməkdi. Geridə qalmış adamla (ölkəylə, şirkətlə və s.) müqayisə eləməksə durğunluq, arxayınçılıq yarada bilər. Ancaq burda da nisbilik var. Çünki birinci müqayisə (özündən irəli olanla) də durğunluq yarada bilər. Düzdü, ikincidən fərqli olaraq onun durğunluğu arxayınçılıq, razılıq yox, dilxorçuluq, narazılıq, həsəd hisslərilə bağlı ola bilər.

Özünün inkişaf elədiyini sübuta yetirməyin iki yolu var: birincisi, irəli getmişləri göstərirsən və hamı görür ki, sən heç də onlardan geri qalmırsan, ya da çox az geridəsən, yəni çataçatdasan. İkincisi, geridə qalmışları göstərirsən; əgər sən həddindən artıq geridə qalmışları göstərirsənsə, onda fərq böyük olmalıdı, yəni onlar obyektiv baxımdan həddən artıq geridə qaldıqları kimi, subyektiv baxımdan, yəni səndən baxanda da həddən artıq geridə görünməlidilər; onlar belə görünməsələr sən irəliyə getmiş, inkişaf eləmiş sayıla bilməzsən. İnkişafı geridə qalmışlarla sübuta yetirməyin ikinci yolusa odu ki, sən inkişaf eləmişləri, təkmil olanları göstərirsən; bu zaman onların azacıq geridə görünmələri də kifayətdi. Təsadüfi deyil ki, Darvin insanın qabaqlar heyvan olduğunu sübuta yetirmək məqsədilə ilk insanı meymunla (onu son heyvan, yaxud sondan ikinci heyvan da adlandırmaq olar; sondan birinci heyvan – insandı) müqayisə eləyib. Halbuki insanı amöblə də müqayisə eləmək olar, çünki amöb də heyvandı və insanın meymundan əmələ gəlməsi elə amöbdən əmələ gəlməsi deməkdi. Sadəcə, bu qədər uzaq müqayisəni hamının başa düşməyəcəyi təhlükəsi var. Adamlar yaxın müqayisəni daha tez, daha asan başa düşürlər. Bədbəxtlik də orasındadı ki, heyvanlar arasında insanla ən yaxın müqayisəyə meymun gəlir. Meymunun meymunluğusa imkan vermir ki, insan heyvandan yaranması fikriylə barışsın.

Kaş insana ən yaxın heyvan kəpənək və yaxud göyərçin olaydı; onda insanların heyvandan yaranmasına etiraz eləmək yalnız müdriklərin ağlına gələrdi.

12 aprel 2002-ci il

Hər bir şeyin müqayisədə qiymət almasından çıxan nəticə

Hər bir şeyin müqayisədə qiymət alması, dəyərə çevrilməsi o deməkdi ki, azad vəziyyətində heç bir dəyər o birisindən artıq, yaxud əskik deyil, o, qiymətsizdi və bütün dəyərlər azad vəziyyətdə bərabərdilər. Onların hər biri bu vəziyyətdə ya heç nəyə dəymir, ya da hər şeyə dəyər.

Bu mövqeni qəbul eləməmək dəyərlərin, daha doğrusu, onlardan bəzilərinin apriori mövcudluğuna, metafizik əhəmiyyətinin olmasına inanmaq deməkdi.

17 aprel 2002-ci il

36. Özünüaldatma

Özünüaldatma

İnsan özünü aldadanda azadlığını itirir. Kölәlik – özünü aldatmaqdı. Özünü aldadanda insanda könüllülük pozulur, daxili məcburiyyət, zorakılıq yaranır.

Dostoyevskinin «Karamazov qardaşları»nda abid Zosima deyir: «Əsas odu ki, özünə yalan danışmayasan. Özünü aldadan, öz yalanına qulaq asan o yerə gəlib çatır ki, nə özündə, nə də yan-yörəsində hansısa həqiqəti ayırd eləyə bilir, hələ ola bilsin, özünə və ətrafındakılara hörməti də itir...». (Ф.М. Достоевский, «Собрание сочинений в пятнадцати томах». Ленинград, «Наука», 1991. IX cild, səh 50).

Özünü aldatmaq nə deməkdi? «Özüm» kiməm, onu aldadan kimdi? Özünü aldadan da özüməmmi? Əgər belədisə, onda məndə iki mən var və bunların hər ikisi özüməm. Amma fərq orasındadı ki, onlardan biri aldatmağı bacarır və məhz həmin aldadan «mən» həqiqəti bilmir. Əgər hər iki «mən» həqiqəti bilsəydi, onda özümü aldada bilməzdim. Mütləq onlardan biri həqiqəti bilməməlidi ki, ona inananda aldanasan, çaşasan.

11 avqust 2002-ci il

Özünüaldatma. Aldadan kimdi, aldanan kim?

«Özünüaldatma» nə deməkdi? Burda «özüm» kimdi, aldadan kimdi, aldanan kim? Əgər özünüaldatma varsa, demək, aldadanla aldananın da fərqi var.

İfadənin özündən göründüyü kimi, burda aldanan «özüm»dü. Yəni bu ifadəylə biz artıq özümüzü, mənimizin özəyi kimi aldananı götürürürk. Bəs onda aldadan kimdi? Yoxsa aldadan elə aldanandı? Onda qəbul eləməliyik ki, içimizdəki səs, həqiqəti deyən mənbə heç vaxt aldanmır. O, həqiqəti deməkdə yenə davam eləyir, amma mən «özümü», yəni həmin səsin (vicdanın) özünü yox, onun dediklərini eşidən subyekti aldatdığıma görə daha həqiqəti eşitmirəm, eşitmək istəmirəm. Bu halda belə çıxır ki, mən özünüaldatma zamanı vicdanı yox, ona qulaq kəsilmiş varlığı azdırıram, onun «qulaqlarını tuturam». Əgər özünüaldatmada «özüm» vicdan yox, onun hədəfidisə, onda mən onu aldatmaq, onun qulaqlarını tıxamaq üçün başqa bir varlığa («özümə») da ehtiyac duymalıyam. Həmin varlıq (ikinci «özüm») birinci «özümün» qulaqlarını tutmalıdı ki, vicdanın səsi eşidilməz olsun, yəni qoy nə qədər çığırır, çığırsın. Onda belə çıxır ki, ikinci «özüm» vicdanı birbaşa yox, birinci «özümün» vasitəsilə eşidir. Və birinci «özümün» qulaqları tutulanda o, ikinci «özümə» başqa şeylər, başqa həqiqətlər diqtə eləyir. Ya da ki, onun, sadəcə, nitqi tutulur və bundan, yəni birincinin lallığından istifadə eləyən ikinci, özü öz istəyilə davranır. Deməli, ikinci «özümün» özbaşına davranmaq qabiliyyəti var, sadəcə, birinci «özümün» vicdandan ötürdüyü əmrlər, impulslar bu özbaşınalığa mane olurmuş. Burdan belə bir yekun nəticə çıxır: birinci «özümün» qulağı tutulanda nitqi də tutulur; birincinin nitqi tutulanda ikinci «özümün» əl-qolu açılır. Vicdanınsa qulağı və nitqi heç vaxt tutulmur. Sadəcə, onu eşitməyə bilərlər. Bəs deməyə də bilərlərmi? Vicdandan nəyisə gizlətmək, vicdanın qulağını tıxamaq da mümkündümü? Yoxsa o, həmişə

eşidir və həmişə deyir? Və onun eşitməsinin qarşısını almaq mümkün deyil, amma eşidilməsiniin qarşısını almaq mümkündü. Belədimi?

17 avqust 2002-ci il

37. Şüursuzluqda mən fenomeni

Sayıqlama və «Mən». Şüursuzluqda «Mən» fenomeni

Biz xəyalımızda, yuxuda başqalarının da əvəzindən danışa bilirik. Tutaq ki, mən xəyala dalmışam, yaxud yatmışam və kiminləsə (kimlərləsə) söhbətləşirəm, mübahisə eləyirəm. Burda başqalarının əvəzindən də danışan mənəm. Yəni bu anda mən hamıyam.

Ancaq maraqlıdı ki, insan yuxuda sayıqlayanda yalnız öz sözlərini deyir. Yəni mən (Azər) yuxuda Həsənin, Hüseynin, Əlinin, Vəlinin də adından danışıram, amma sayıqlayanda yalnız Azərin (özümün) sözlərini bərkdən deyirəm. Biz sayıqlayan adama qulaq asanda yuxuda gedən dialoqu yalnız birtərəfli qaydada eşidirik. Yatmış adamın özünün nə dediyini eşidirik, amma ona nə deyirlər, bunu eşitmirik. Halbuki yuxuda dialoq gedir və dialoqda qarşı tərəf də yatmış adamın özüdü, daha doğrusu, onun təxəyyülü, fantaziyasıdı.

Yeri gəlmişkən, bərkdən öz-özünə danışan adamlar da, kimlərləsə danışmalarına baxmayaraq, yalnız öz sözlərini ucadan deyirlər.

İnsan sayıqlayanda, bərkdən öz-özünə danışanda başqasının sözlərini işlətmir, yalnız öz sözlərini söyləyir. Niyə belədi? Yoxsa başqaları hətta mənim yuxumda da başqalarıdı, mən deyiləm? Yoxsa «mən» bölünməzdi və ətraf yalnız onun ətrafında mövcuddu? Belə çıxır ki, xəyali səhnələrdə mən yalnız öz rolumun ifaçısıyam? Bəs başqalarını danışdıran kimdi? Niyə insan ürəyində başqasının əvəzindən danışır, amma sayıqlayanda, yaxud əsəbiləşib özündən çıxanda yalnız öz sözlərini ucadan deyir?

Misal: Yuxuda görürəm dərsə gecikmişəm. Müəllim məni qapının ağzında saxlayır.

Müəllim: Niyə gecikmisən?

Mən: Avtobus gec düşdü...

Müəllim: Keçən dəfə də avtobus gec düşmüşdü? Uşaq kimi bəhanə gətirirsən!

Mən: Müəllim, uşaq niyə oluram e...

Müəllim: Az danış! Hələ bir danışmağa dili də var. Keç otur!

Keçib oturanda tələbə yoldaşlarımdan biri partanın arxasından mənə tərəf pıçıldayır:

– Kaseti gətirmisən?

– Ay səni, yadımdan çıxdı...

Hesab eləyək ki, mən bütün bunları yuxuda görə-görə sayıqlayıram. Onda mənim sayıqlamama qulaq asan adam qısa fasilələrlə bu sözləri eşidəcək: «Avtobus gec düşdü», «Müəllim, uşaq niyə oluram e...», «Ay səni, yadımdan çıxdı».

Belə çıxır ki, «Mən» şüursuz vəziyətdə də itmir. «Mən» şüursuzluğun (İd – Freydin təbirincə desək) içində də var və insan şüursuz vəziyyətində də həmin «Mən»dən çıxış eləyir, həmin «Mən»lə birgə qalır. Deməli, şüursuzluqda da «Mən» mövcuddu. Onda belə çıxır ki, insan – şüursuz vəziyyətində də şəxsiyyətdi. İnsan şüursuzluqda da «Mən»ini itirmir. Yəni mən Freydin «İd-Eqo-Super eqo» modelinin əvəzinə «Eqo-Eqo-Eqo» modelini təklif eləyirəm.

Bəs başqaları? Başqaları – başqa adamlar, başqa obyektlər insan psixikasında nə cür mövcuddu? Onlar insanın xəyalında, yuxusunda nə cür danışırlar? Onlar «Mən»dən kənarda, «Mən»dən fərqli, azad, müstəqil şəkildə nə cür həyəcanlanırlar? Niyə mənim xəyalımda (və yuxumda) başqası yox, yalnız özüm ağlayanda gözümdən həqiqi yaş çıxır? Bu o demək deyilmi ki, mənim beynimin, təsəvvürümün, təxəyyülümün içində ağlayan başqa bir adam əslində mənim beynimdə deyil, ya da beynimin elə bir yerindədi ki, tutaq ki, mən canlı həyatda başqasına baxanda onu beynimin harasında görürəmsə, ordadı. Burdan belə çıxmırmı ki, mənim beynimin mənə dəxli olmayan nöqtələri var? Belə çıxmırmı ki, mənim beynimin özü də məndən ötrü ətrafdı? Bu o demək deyilmi ki, mən psixikamda başqasını yarada bilmərəm, mən yalnız özümü yarada bilərəm və yaratdığımdan ayrıla bilmərəm, yaratmışamsa onunla bərabər qalacam, yəni yaratdığım bütün hallarda «Mən» olacaq. Yox, əgər başqası mənim pisixikamda mövcuddusa, tutaq ki, müəllim mənim yuxumda danışırsa, bu o deməkdi ki, danışan elə müəllimin özüdü.

Başqaları mənim beynimdə həmişə yad varlıq kimi mövcuddu.

31 avqust 2002-ci il

38. Mən

Mən

Mənim ürəyim şair ürəyi, beynim filosof beyni, gözüm psixoloq gözü, dilim yazıçı dili, əlim jurnalist əli, əsəbim siyasətçi əsəbi, qanım ağa qanıdı. Yəni məndə şair duyğusu, filosof təfəkkürü, psixoloq müşahidəçiliyi, yazıçılıq ifadə tərzi, jurnalist bacarığı, siyasətçi təmkini var. Anadansa mən sadəcə, ağayana bir adam kimi doğulmuşam.

23 dekabr 2001-ci il

Tənhalıq. Sirr saxlamaq bacarığı

İnsanları özümə (öz qəlbimə) çox yaxın buraxanda peşman oluram. Deyəsən, mənim üçün ən vacibi öz tənhalığımı qorumaqdı.

Çox maraqlıdı ki, bu qapalılığım adamlarla yaxınlaşmağa, isinişməyə, dostlaşmağa mane olmur. Əksinə, hiss eləyirəm ki, çox vaxt dərdini deməyə sirdaş axtaranlar məhz mənə üz tuturlar. Mən bildiyim sirləri (həm özümünküləri, həm də başqalarınınkını) onlara açmıram, yaxud da çox cüzi bir hissəsini açıram və təbii ki, onu da hər adama yox (mənə sirdaş kimi baxıb-baxmamasından asılı olmayaraq); onlarsa bildiklərinin çoxunu mənə deyirlər və əmindilər ki, onu heç kimə deməyəcəm, yaxud çox cüzi bir hissəsini deyəcəm və təbii ki, onu da hər adama yox. Yəni mənim sirdaşlığım bir növ birtərəflidi, az sirr açıram, çox sirr qəbul eləyirəm. Ümumiyyətlə, mən başqalarının sirrinə maraq göstərmirəm və yəqin ki, başqalarının öz sirrini mənə açmasının bir səbəbi də budu. Dəfələrlə olub ki, iki, üç nəfər mən oturduğum otağa girib hansısa qapalı, məni və onları əhatə eləyən mühit üçün cəlbedici olan gizli məsələlərdən danışıblar və qətiyyən narahat olmayıblar ki, mən onları eşidirəm. Belə məqamlarda mən, adətən, nəyisə bəhanə eləyib otaqdan çıxıram; yox, əgər çıxmıramsa da, onda

diqqətimi yönəltdiyim obyektə (bu, yazı da ola bilər, kitab da, pəncərədən görünən mənzərə də, televizor da...) o qədər ciddi qapılmağa çalışıram ki, həqiqətən də məxfi söhbəti eşitməyim, eşitsəm də heç nə başa düşməyim. Buna nail olanda özümü rahat hiss eləyirəm.

Başqa adamın sirri heç vaxt mənə yük olmur, heç vaxt! Heç vaxt mən o sirri danışmaqdan ötrü sinov getmirəm. Ancaq bəzən, arabir öz sirrim mənə yük olur, hiss eləyirəm ki, onu kiməsə danışmaq istəyirəm – bəlkə də yarımçıq, bəlkə də təhrif olunmuş formada, ancaq hər halda mən bu məsələylə bağlı nəsə danışmaq istədiyimi duyuram. Və təbii ki, belə məqamlarda mənim üz tutmağa dostlarım var.

Məndə heç vaxt hansısa quyuya «İsgəndərin buynuzu var, buynuzu!» qışqırmaq yanğısı oyanmır. Ancaq mən nə vaxtsa «Mənim buynuzum var, buynuzum!» qışqıra bilərəm.

Ümumiyyətlə, mənə elə gəlir ki, başqasının sirrini danışmağı xoşlayan adamlar bunun başqasının sirri olduğunu unudan adamlardı. Onlara elə gəlir ki, başqasının yox, özlərinin sirrini danışırlar.

17 mart 2002-ci il

Ünsiyyət norması

Heç bir insan ona həddindən artıq yaxınlaşmağa layiq deyil.

Heç bir insan həddindən artıq yaxın, doğma, isti münasibətə layiq deyil. Ona görə də arada pərdə saxlamağı, baryer saxlamağı, bir az soyuq münasibət göstərməyi mən ünsiyyət norması, normal ünsiyyət sayıram.

24 mart 2002-ci il

Mənim sevimli məşğuliyyətim

İşsizlik mənim arzumdu. Arzuma çatmışam. İndi mən ən çox sevdiyim və həm də bacardığım yeganə işlə məşğulam: kitab oxuyuram, düşünürəm, qeydlər aparıram və xəyallara dalıram. Əgər xırda qayğılarım və mənasız iddialarım mane olmasa, ömrümün axırınacan bu cür yaşamağa hazıram.

31 mart 2002-ci il

Mənim xəyallarım da şəri məğlubiyyətə uğrada bilmir

Mən xəyallarımda Qarabağı da işğaldan azad eləmişəm, diktaturanı da dəyişmişəm, bütün korların gözünü, karların qulağını açmışam və sair və ilaxır. Amma mən yenə də şəri məğlub eləyə bilməmişəm. Mənim xəyallarım da şəri məğlubiyyətə uğrada bilmir.

31 mart 2002-ci il

Ən sərfəli idarəçilik

Mənim üçün ən sərfəli idarəçilik metodu "hər kəs özü-özünü idarə eləsin" metodudu.

5 aprel 2002-ci il

Mən bilmirəm nə istəyirəm

Mənim bir dənə problemim var: mən bilmirəm ki, nə istəyirəm. Yəni mənim problemim məqsədimi müəyyənləşdirə bilməməyimdədi. Məqsədimi müəyyənləşdirə bilməməyimin səbəbisə həyatda, kainatda heç nəyi məqsəd kimi görə bilməməyimdədi. Heç bir məqsəd məndə «Bax, mən bundan ötrü yaranmışam!» hissini, inamını əmələ gətirmir.

Nəyisə qarşına məqsəd qoyanda ona çatdığın anı da təsəvvüründə canlandırırsan. Həmin ana gəlib çatanda məndə belə bir sual yaranır: «Hə, noolsun?». Axı, noolsun?! Bax, Yaşar Nurinin «Ac həriflər» tamaşasında hər dəfə qəzetdən oxuduğu xəbəri sona çatdıranda üzünü ekrana tutub verdiyi «Hə noolsun?» sualı dünyanın ən çətin, ən amansız, ən dəhşətli sualıdı. Əgər kimsə onsuz keçinə bilirsə, Allah köməyi olsun. Ancaq mən bu cür vacib sualların cavabını bilmədən ömrümü hansısa məqsədə həsr eləyə bilmərəm. Ondansa qoy elə mənim ömrüm bu sualın cavabını axtarmağa həsr olunsun. Əslində mənim problemim Allahın bu dünyanı niyə yaratdığını bilməməyimdədi. Mən bilmək istəyirəm: Allah bu dünyanı niyə yaradıb? Bu saysız-hesabsız ulduzlar, Günəş, Ay, Yer, bitkilər, heyvanlar, insanlar nədən ötrüdü? Məqsəd nədi? Bax, bunu bilsəm, onu da bilərəm ki, mən neyləməliyəm. Hələliksə mən öz missiyamı başa düşə bilmirəm.

Düzdü, kainatın yaranmasının səbəbi və məqsədi haqda çoxlu müdrik fikir deyilib, müxtəlif izahlar verilib, işıqlı yollar göstərilib, ancaq onların heç biri həmin «Noolsun?» sualına tab gətirmir. Elə bir nöqtə var ki, heç kim onu keçə bilmir. Hər şeyi pillə-pillə izah eləyirlər, hər şeyin sonrasını göstərə-göstərə gəlirlər, ancaq elə bir həddvar ki, ora çatanda hamı dayanır. Mənsə soruşuram: bəs sonra?.. Əgər həmin nöqtədə bu sual da öz qüvvəsini itirsəydi, onda nə vardı ki. Kaş belə olaydı. Ancaq mən buna inanmıram, inana bilmirəm. Eləsə cavab verin: bəs sonra, sonra nə olacaq? Elə bu? Elə hər şey bundan ötrüymüşmü? Yox, ondansa bir heç yaxşıdı!

8 aprel 2002-ci il

Həvəs, bacarıq və sairə

Hansı işdən yapışmışamsa həvəssiz işləmişəm. Mən çox tez həvəsdən düşürəm. Bir işi axıracan həvəslə görə bilmirəm. Özü də dərd burasındadı ki, təkcə bacarmadığım yox, bacardığım işi də həvəssiz görürəm. Sadəcə olaraq mən məsuliyyətli adamam, ona görə də işimi yarıda atıb qaçmıram. Yəni mən sosial normalara, nizam-intizama əməl eləyirəm. Bir işi boynuma götürdümsə, həvəsim oldu-olmadı (həvəsimsə, təbii ki, çox vaxt olmur və yaxud da çox tez ölür), onu yerinə yetirirəm.

Mən ictimai müqaviləyə əməl eləməyin qatı və birmənalı tərəfdarıyam. Yəni ya evdən çölə çıxmamalısan, ya da çıxdınsa, əyninə paltar geyinməlisən. Ya heç bir müəssisədə işləməməlisən, ya da işləyirsənsə nizam-intizamı, subordinasiyanı gözləməlisən. Mən xoşlamadığım adamla da salam-əleyk eləməyi, hal-əhval tutmağı bacarıram. Mən yalandan gülümsəməyi, saxta nəzakəti, qəbul eləmək istəmədiyim dəvətlərə incə şəkildə, insanların qəlbini qırmadan «yox» deməyi bacarıram. Hətta deyərdim, çox ustalıqla bacarıram. Yəni heç vaxt şitin-şorun çıxarmıram. Ustalıq deyəndə elə bunu nəzərdə tuturam. Mənim saxta nəzakətimin, yalandan gülümsəməyimin norması var, o normanı keçmirəm. Əlbəttə, həmişə belə olmur, ancaq çox vaxt belədi.

Təbii ki, bunların hamısı qeyri-səmimilikdi. Ancaq adamlar bu qeyri-səmimiyyətin sayəsində məni öz kobudluqlarından qoruyurlarsa, deməli, məndən də eyni şeyi ummağa haqları çatır. Mən də onları öz kobudluğumdan qorumalıyam. Gözləmirəm ki, məni buna məcbur eləsinlər. Mən adamları özümə qarşı nəzakətli, mədəni davranmağa məcbur eləməyi

bacarıram. Və əsasən onlarla könüllü şəkildə, nəzakətli davranmaqla buna nail oluram. Təbii ki, adamları nəzakətli olmağa məcbur eləməyin başqa yolu da var. Ancaq çox nadir hallarda mənə münasibətdə məsələ o həddə gəlib çatır.

Özümə rəva bilmədiyimi özgəyə rəva bilmək mənim üçün çox çətindi. Təbii ki, hamı kimi mən də tez-tez bu çətinliyi dəf eləyirəm. Ancaq qəribədi ki, məndə bu işə vərdiş yaranmır. Ona görə də hər dəfə özümə rəva bilmədiyimi özgəyə rəva bilmək istəyəndə eyni çətinliyi dəf eləməli oluram.

Bayaq dedim ki, mən bacardığım işi də həvəssiz görürəm. Elə adam var, görəndə ki, bir işi bacarır, həvəslə o işdən yapışır. Bu, çox, həddindən artıq müsbət xüsusiyyətdi. (Təbii ki, mən kart oynamağı və yaxud ev yarmağı bacarmaqdan danışmıram.). İnsan elə belə də eləməlidi. Ancaq təəssüf ki, bacarıq (qabiliyyət) – məni hərəkətə gətirməkdən ötrü kifayət eləmir.

Mən sözü çılpaq deməyi bacarmıram. Ona görə də çox vaxt əmri təklif, «rədd ol»u «xoş getdin», «pis»ə «pis deyil» deyirəm. Yalnız «yaxşı»ya birbaşa «yaxşı» deməyi asanlıqla bacarıram. Yəni təkcə tənqidi yox, tərifi də deyəndə emosiyalarımı cilovlayıram. Tək nifrətimi yox, rəğbətimi də soyuqqanlı, asta bildirməyi xoşlayıram. Mən bu fikirlə tamamilə razıyam ki, asta gedən usta gedər.

Məndən ötrü əsas məzmundu, ümumi nəticədi; formada güzəştə getməyi bacarıram.

Yalanın yalan olduğunu bilirəmsə, onda dünya dağılsa da onu mənə sırımaq mümkün deyil. Ancaq mən bəzən buna çalışan yalançını saatlarla oturub sakitcə dinləyə bilirəm. Sonda o, öz yorğunluğunun sayəsində başa düşür ki, məni inandıra bilməyib. Sonralar görəndə ki, mən onu istənilən vaxt eyni sükunətlə dinləməyə hazıram, onda onu da başa düşür ki, məni heç vaxt inandıra bilməyəcək.

8 aprel 2002-ci il

Asan sevilən, çətin sevən

Mən asanlıqla sevilən, çətinliklə sevən adamam.

17 aprel 2002-ci il

Prinsiplər

Məndə öz prinsiplərimə axıracan əməl eləyə bilməmək qorxusu, şübhəsi var. Ona görə yox ki, mən öz xarakterimə uyğun olmayan prinsiplər seçmişəm. Yox. Burda da müəyyən qədər həqiqət var, amma bu, məncə, əsas səbəb deyil. Məsələ burasındadı ki, məni prinsiplərə tərəf dartan da xarakterimdi, həmin prinsipləri pozan da.

Nə bilim, bəlkə də səhv düşünürəm. Ancan onda iki nəticə alınır:

1) ya məni prinsiplərə tərəf dartan başqa şeydi (yaxud əksinə, prinsipləri pozan mənim xarakterim deyil),

2) ya da mənim iki xarakterim var.

Yəni mənim birincidə dediklərim səhvdisə, onda ikincidə dediklərim düzdü.

P.S. İki yox, üç nəticə alınır:

3) prinsipləri pozmaq mənim xarakterik xüsusiyyətimdi. (Bəs onda niyə prinsipləri pozanda əzab çəkirəm?).

18 aprel 2002-ci il

Pul zəif stimuldu

Mən pul alanda saymamış cibimə qoyuram, pul verəndəsə təkid eləyirəm ki, sayıb götürsünlər.

Qonorar mənim yazılarımın yaranmasında həmişə sonuncu, ən kiçik səbəb kimi iştirak eləyib. Maaş məni işə cəlb eləməkdən ötrü ən zəif stimuldu.

7 may 2002-ci il

Yaradıcılıq və əbədiyyət. Nəzəriyyəçi və praktik

Günü-gündən bir həqiqəti daha dərindən dərk eləyirəm ki, mənim bu dünyada iki şeyə iddiam var: yaradıcılığa və əbədiyyətə. Qalan şeylərə (tutaq ki, hakimiyyətə, şöhrətə, var-dövlətə və s.) mən iddia eləmirəm, mən onları sadəcə hərdənbir arzulayıram, hərdənbir ürəyimdən keçir, özü də çox vaxt bu, passiv arzu olur.

Mən praktik adam deyiləm, mən nəzəriyyə adamıyam. Mənə orta məktəbdə riyaziyyatdan «üç»ü həmişə sinifdən-sinfə keçə bilməkdən ötrü yazıblar, ədəbiyyatdan aldığım «beş»lərisə mən həmişə özümə halal saymışam, hətta bundan aşağı qiymətə cavab verəndə də. Əslində bütün qalan «üç»ləri mənə elə bu «beş»in xətrinə veriblər və məni bu cür humanistliklə başa düşən dəqiq fənn müəllimlərimə bu gün də minnətdaram.

Mən bilirəm ki, nə cür yaşamağın yolunu axtaran adamların yaşamağa vaxtı qalmır və o kəslərin ki, biz mənalı yaşadığını söyləyirik, onlar əslində yaşamağın mənası üzərində düşünə-düşünə ölənlərdi. Hələ heç kim deyə bilməz ki, ən mənalı həyat həyatın mənası üzərində düşünə-düşünə yaşamaqdı, ancaq bunun əksini də heç kim deyə bilməz. Özü də çox maraqlıdı ki, məna axtara-axtara yaşayanların həyatını tarixən yalnız elə məna axtara-axtara yaşayanlar mənasız sayıblar, mənaya varmadan yaşayanlarsa onların mənalı yaşadıqlarına heç vaxt şübhə eləməyiblər və həmişə onlara pərəstişlə baxıblar, həmişə onlara xoş gəlməyə çalışıblar. Heç bir diktator üçün yaradıcı adamın (şairin, filosofun, rəssamın, bəstəkarın…) tərifindən böyük nəşə, həzz olmayıb və bütün hökmdarlar onlara həsr olunan şeiri, şəkli, musiqini ən böyük hədiyyə kimi qəbul eləyiblər. Bütün diktatorlar bəraəti iqtisadçıdan, iqtisadi-siyasi nailiyyətlərdən çox filosofdan almağa çalışıblar. Yalnız filosoflara söykənən diktatorlar bütün tarix boyu mübahisələrlə qarşılanacaqlar və yalnız adı fəlsəfi traktatlarda, əsərlərdə hallanan diktatorlar tarixdə yaşaya biləcəklər. Əgər hansısa diktatoru qəbul eləyən bircə filosof (fəlsəfə) varsa, demək, o diktator yaşayır.

Əbədiyyət və yaradıcılıq! Mən bilmirəm bunlar eyni şeydi, yoxsa ayrı-ayrı şeylərdi və baxmayaraq ki, bu dünyada yaradıcılıqdan nağd əbədiyyət yoxdu, yaradıcılıqdan başqa əbədiyyətin olduğunu yalnız güman eləmək, ona ümid eləmək mümkündü, bununla belə mən yaradıcılıqla əbədiyyəti eyniləşdirmirəm və bunlardan heç biri məndən ötrü o birisinə çatmaq üçün vasitə deyil, məndən ötrü bunların hər ikisi məqsəddi və hər birinin də vasitəsi özüdü.

Əlbəttə, sual oluna bilər ki, yaradıcılıqda məqsəd və vasitə birliyi aydındı, bəs əbədiyyət nə cür vasitə ola bilər? Mənə elə gəlir ki, əbədiyyət hissi əbədiyyətə çatmaq üçün vasitədi və bütün qalan vasitələrdən məhrum olan adamın yalnız bu hisslə əbədiyyət qazanacağına inanması təsadüfi deyil və əsaslıdı.

Mən bütün problemləri yaradıcılıq səviyyəsində həll eləməyi sevirəm; həyatdasa bu problemlərin heç mində birini də həll eləyə bilmirəm. Mənim praktikada həll eləyə bildiyim problemlər azdı, çünki mən buna heç elə bir cəhd də göstərmirəm. Təbii ki, yaradıcılıq

özlüyündə, praktikasız heç nəyi həll eləmir. Ümumiyyətlə götürəndəsə sənətkar, yaradıcılıq heç bir problemi həll eləmir; bütün hallarda yazı nəyisə kəşf eləyir; o ya problemi kəşf eləyir, ya da problemin həlli yolunu kəşf eləyir.

Hansısa qeydimdə (qaralamalarımın içində) belə bir cümlə olmalıdı: Yaxşı yazı problemi ya kəşf, ya da həll eləməlidi. Yəni bu o deməkdi ki, yazı ya problemi, ya da onun həllini kəşf eləyir. Deməli, yaxşı yazı bütün hallarda kəşfdi.

Mən mitinq haqqında yazılan gözəl bir yazını mitinqin özündən əskik saymıram, ancaq mən onu mitinqdən artıq da saymıram; belə deyək, məndən ötrü bu, eyni dərəcədə vacibdi, bərabərdi və hesab eləyirəm ki, ən iyrənc aksiya öz iyrəncliyini yalnız ən gözəl yazıda saxlaya bilər. Elə bir iyrənclik yoxdu ki, gözəl yazısız (ümumiyyətlə, gözəl yaradıcılıqsız) yaddaşlarda qala bilsin. Murdar bir tarixi yaradıcılığa çevirmək adamlara o tarixi həmişə yaşatmaq deməkdi. İnsana nəyisə yaşatmadan ona nəyisə başa salmaq mümkün deyil.

Mənim iddiam kəşfədi. Mən nəyisə həll eləmək yox, kəşf eləmək istəyirəm. Onun həllini görmək mənim arzumdu, iddiam deyil. Mən heç nəyin yox, yalnız bir şeyin – hər bir kəşf anında yaşadığım hissin əbədi olmasını arzulayıram.

Nəyisə kəşf elədiyim anda keçirdiyim hiss məndən ötrü əbədiyyət hissidi. Hər dəfə bu hissi yaşayanda özümü ölməz sayıram, özümü ölməz görürəm.

Kəşf olunmuş problemləri onların həllini kəşf eləmək üçün öyrənirəm. Həll yolu məlum olan problemlərsə məni problem kimi qaldığına, yəni həyatda, praktikada həll olunub aradan qalxmadığına görə narahat eləyir. Ancaq heç bir həlli məlum problem məni naməlum problemdən (özü və yaxud həlli naməlum problemdən) çox narahat eləmir.

Nəzəriyyəçi ya özü, ya da həlli naməlum problemlərlə, praktiksə həm özü, həm də həlli məlum problemlə məşğul olan adamdı. Problemin həllini axtarmaq artıq nəzəriyyəylə məşğul olmaq deməkdi. Praktik üçün naməlum heç nə olmamalıdı. Praktik o adamdı ki, ondan ötrü naməlum heç nə yoxdu, o, həll yolunu axtarmır, o, nəyi, yaxud necə həll eləmək üzərində düşünmür, o yalnız nəynən həll eləmək üzərində düşünür. Bu mənada hətta belə də demək mümkündü: praktik o adamdı ki, ondan ötrü heç bir problem yoxdu. Praktik insanın çevikliyi də bununla izah olunmalıdı, bununla bağlıdı.

Praktik – həlli həyata keçirən adamdı. Həllin həyatiliyi məhz onun sayəsində bilinir. Həllin reallığı onun vasitəsilə ya təsdiq, ya da inkar olunur. Praktiklər olmasaydı, problemin həllinə aid heç bir kəşf öz dəyərini itirməzdi, heç bir çıxış yolu gözdən düşməzdi.

Praktiklər eyni problemin həlli üzərində yenidən düşünməyə, yenidən çıxış yolu axtarmağa məcbur eləyirlər. Deməli, praktiklər olmasaydı, problemin həllinə aid heç bir kəşfə yenidən qayıtmağa ehtiyac olmazdı. Praktiklər olmasaydı, dünyaya çox az problem qalardı.

Bütün çıxış yollarını praktiklər bağlayır. Onlar olmasaydı, filosofların dünyaya, həqiqətə açdığı heç bir qapı bağlanmazdı.

Problemi kəşf eləmək – onun adını tapmaq, ona ad qoymaq deməkdi. Bu, artıq onun həllinə də çatmaq deməkdi. Kamyu deyir: «Hətta roman ancaq qüssəyə, ümidsizliyə, çıxılmazlığa həsr olunanda da xilasa gedən yolu göstərir. Ümidsizliyə ad qoymaq ona qalib gəlməkdi. Ümidsizlik ədəbiyyatı – terminlərin ziddiyyəti deməkdi». (Альбер Камю, «Бунтующий человек». Москва, «Политиздат», 1990. səh. 323).

Ad qoymaq – onu başqalarından ayırmaq, fərqləndirmək deməkdi. Nəsə mövcud olmalıdı ki, ona ad qoyasan. Adı olmayan – başqa adlar altında mövcuddu, ya da ümumiyyətlə mövcud deyil. Adı olub özü olmamaq da mümkündü. Əgər adı var, özü yoxdusa, onda ya problem həllini tapıb, ya da problem yalançı olub (yəni adqoyma, problemin kəşfi saxta olub).

Problemləri həll eləmək dünyanı artıq adlardan, ad yükündən xilas eləmək deməkdi.

Quru ad (quruca ad) – adın arxasında real bazanın, faktiki varlığın olmaması deməkdi. «Pambıq bəyi» pambıq sahəsi olmayan bəydi (hər halda bu ifadəni mən belə başa düşürəm).

Problemi həll eləmək ondan yalnız quruca ad saxlamaq deməkdi. Məsələn, monarxiya problemi İngiltərədə, Yaponiyada həll olunub. Ona görə də biz deyə bilərik ki, orda kraliçanın, imperatorun quruca adı qalıb, yəni onlar «pambıq bəyləridi». Monarxiya problemi Rusiyada da həll olunub, orda da monarxiyanın quruca adı (tarix) qalıb. Sadəcə, Rusiyada «pambıq bəyi» – çar yoxdu.

Biz diktatura problemini həll eləməliyik. Diktatoru devirmək – bu azdı. Gərək biz elə eləyək ki, indi özünü qıraqda diktator kimi aparan «pambıq bəyləri» hakimiyyətə gəlsələr də, «sahəyə» çıxsalar da, yenə də istəklərinə nail olmasınlar, yenə də «pambıq bəyi» kimi görsənsinlər, nəhayət, bu görünüşdən, bu cür karikatura kimi görsənməkdən özləri də utansınlar. Ancaq bizdə belə bir zəmanət varmı ki, «sahə»yə çıxan «pambıq bəyi» əsl qolçomağa çevrilməyəcək. Əgər cəmiyyət «pambıq bəylərinə» meyllidisə, demək, qolçomağa da meyllidi. Axı, prezidenti ona gülməkdən, kimisə karikatura pozasında görə bilməkdən ötrü arzulamırlar. Əgər xalq qolçomaqlığa iddia eləyəni prezident görmək istəyirsə, deməli, o, «pambıq bəyini» yox, tamamilə başqa bir tipi (demokrat tipini) prezident postunda karikatura kimi qavrayacaq.

Praktik adam o adamdı ki, ona qədər bütün mümkün problemləri həll eləyiblər, onun əlinə hazır resept veriblər, çıxış yolunu göstəriblər. Və o, bu reseptə, bu göstərişə şübhə eləmir. Praktik adam nəzəriyyəyə şübhə eləməyən adamdı, o, hansısa konspekti götürür və buna (yəni konsepsiyaya) şübhə eləmədən irəliləyir – çıxış yoluna doğru.

Mən praktik ola bimirəm, çünki bütün reseptlər, konspektlər məndə şübhə doğurur və mən hansısa yolun çıxışa apardığına sadəlövhcəsinə (həm də həyasızcasına, kütbeyincəsinə, kobudluqla) inana bilmirəm.

22 may 2002-ci il

Sevdiyim işi görmək üçün mənə iş lazım deyil

Mən ancaq işsiz qalanda, işləməyəndə sevdiyim işlə məşğul ola bilirəm. Kitab oxumaq, özümçün cızma-qara eləmək, uzanıb xəyala dalmaq. Mənim sevdiyim iş budu. Sevdiyim işi görmək üçün mənə iş lazım deyil.

23 noyabr 2002-ci il

Səndən başqa heç kimin bacarmayacağı iş

Akutaqavanın «Suadamları ölkəsində» novellasında Krabak adlı əfsanəvi bəstəkar Rokk adlı başqa bir musiqiçi haqda deyir: «Rokk sakit, özünə inamla işləyir. O həmişə yalnız özünün bacara biləcəyi şeylərlə məşğul olur. Mənsə belə deyiləm. Mən həmişə əsəbi, çaşqın vəziyyətdəyəm». (Акутагава Рюноскэ, «Новеллы». Москва, «Художественная литература». 1974, səh. 564).

Rokk yalnız özünün görə biləcəyi işlə məşğuldu. Elə bir işlə ki, bunu ondan başqa heç kim bacarmaz. Belə adamın sakit və inamlı olması təbiidi. Beləsi başqaları kimi əsəbi, qısqanc, paxıl ola bilməz.

Elə bir işlə məşğul olmaq ki, onu səndən başqa heç kim bacarmaz. Bu elə bir işdi ki, sənsiz yerli-dibli batıb gedəcək. Məsələn, sən o yazını yazmasan, heç kim ondan xəbər tutmayacaq. Sən bu fikri deməsən, o heç kimin ağlına gəlməyəcək...

Məndən başqa heç kimin bacarmadığı bir iş varmı?

17 dekabr 2002-ci il

Utancaq

Adamların məndən utandığını görəndə xəcalət çəkirəm. Çünki məndən utanan adam öz münasibətiylə mənə yüksək əxlaqi qiymət vermiş olur, məni yüksəkliyə qaldırır. Mənsə buna layiq deyiləm. Mənim adamları utandırmağa haqqım çatmır.

Məni utandıra biləcək dərəcədə əxlaqlı adam varmı? Öz əxlaqıyla məni utandıra biləsi bir adam varmı?

Məni utandıran başqalarının əxlaqı deyil, sadəcə, ictimai normalardı. Deməli, mən öz utancaqlığımla cəmiyyətdən, onun şablonlarından, rəyindən asılı olduğumu büruzə verirəm. Mənim utancaqlığım mənim əxlaqlı olmağımın, yaxud başqasının əxlaqlı olmasının nəticəsi deyil, mənim utancaqlığım mənim asılı, qeyri-azad, aciz, cəmiyyətinsə nadan, qəddar və qudurğan olmasının nəticəsidi.

Utancaq – cəmiyyətdən asılı vəziyyətə düşmüş aciz adamdı. Utandırmaq istəyəcək adamsa, sadəcə, nadan və qudurğandı.

Dünyada utandıracaq dərəcədə əxlaqlı adam yoxdu, yalnız utandıracaq dərəcədə həyasız adam var. Deməli, mən başqalarının təmizliyindən yox, həyasızlığından utanıram.

19 dekabr 2002-ci il

39. Vətən. Millət. Millətçilik

Vətənin gücü

İstəyirsən Ağ dənizin sahilində ol, istəyirsən Qara dənizin, harda olursan ol, vətən haqqında düşünürsən. Dünyanın hər yerində vətənin bir parçasısan. Vətən dünyadan güclüdü.

28 iyun 2008-ci il

Adam azaldıqca yer də azalır

Azərbaycandan getməyə yer çoxdu: Avropa, Amerika, Türkiyə, Rusiya... Amma Azərbaycanda qalmağa yer azdı. Son illərdə gör nə qədər adam ölkəni tərk eləyib. Bununla belə, ölkədə yer çoxalmayıb. Əksinə, adamlar, yaxşı adamlar Azərbaycanı tərk elədikcə adam ölkədə qalmağa yer tapmır. Adam azaldıqca yer də azalır.

28 yanvar 2004-cü il

Xarici mədəniyyət millətə milli adamdan keçməlidi

Xarici mədəniyyət millətə milli adamların vasitəsilə keçəndə yaxşı olur. Məsələn, Avropa musiqisi Azərbaycana Üzeyir Hacıbəyovun vasitəsilə keçib. Üzeyir Hacıbəyov təpədən-dırnağa azərbaycanlıdı. Bəs indi Qərb musiqisi bizə kimlərin vasitəsilə gəlir? Onlar Azərbaycan ruhunu, mədəniyyətini duyan adamlardımı?

Xalq xarici mədəniyyəti yalnız xaraktercə milli adamların sayəsində sevə və öyrənə bilər. Xarici mədəniyyət yalnız bu halda xalqa fayda verir. Əks halda xalq xarici mədəniyyətə nifrət eləyir, ona qarşı ikrah duyur.

Təsadüfi deyil ki, bu gün Azərbaycanda Qərb dəyərlərinin vəhşicəsinə təbliğatına və tətbiqinə qarşı o adamlar çıxırlar ki, onlar Qərb dəyərlərini çox gözəl bilirlər, onun təkcə formasından yox, mahiyyətindən də xəbərdardılar.

Öz xalqını əcnəbi təsirlərin bayağılığından o adamlar qoruya bilirlər ki, onlar əcnəbi mədəniyyətin qaymağından xəbərdardılar. Və bu cür adamlar heç vaxt öz xalqını həmin qaymaqdan məhrum eləmirlər. Onlar demirlər ki, əcnəbi mədəniyyəti yaxına buraxmaq olmaz, onlar deyirlər ki, əcnəbi mədəniyyətin yaxşısını, ləyaqətlisini yaxına buraxmaq lazımdı. Onlar demirlər ki, xarici musiqiyə qulaq asmayın, xarici kinoya baxmayın və yaxud xarici ədəbiyyatı oxumayın. Yox, onlar yaxşı nümunələrin gəlməyinin tərəfdarıdılar. Və özləri də elə həmin yaxşı nümunələrdən təsirlənirlər, yaxşı nümunənin təsirinə həmişə açıqdılar. Onlar qapanmayıblar (bir mədəniyyət içində), onlar açıqdılar (bütün mədəniyyətlərə). Onlar, sadəcə, pis nümunəyə bağlıdılar. Deməli, bu açıq qapıdan hər şey keçə bilməz. Bu, seçib, yoxlayıb, süzgəcdən keçirib buraxan qapıdı.

Mən xaricə hansı mədəniyyətlə çıxmağın tərəfdarıyamsa, xaricdən də o mədəniyyətin gəlməsinin tərəfdarıyam. Qoy Azərbaycan mədəniyyətini xaricdə kimlər ləyaqətlə təmsil (təbliğ) eləyə bilərsə, xaricdən də mədəniyyəti onlar gətirsinlər. Mən yalnız bu cür adamların vasitəsilə gələn (keçən) xarici mədəniyyətə etibar eləməyin tərəfdarıyam. O adama ki, milli mədəniyyəti xaricə aparmağa etibar eləmək mümkündü, o adamın xaricdən gətirdiyi mədəniyyətə də etibar eləmək olar.

Böyük şəxsiyyət həm dünyadan bir millətə qapıdı, həm də bir millətdən dünyaya qapıdı. Kimdi Dostoyevski? O, dünya ədəbiyyatının ən böyük suallarını Rusiyaya gətirdi, eyni zamanda rus ədəbiyyatını dünyaya çıxardı. Kimdi Üzeyir Hacıbəyov? O, dünya musiqisini Azərbaycana gətirdi, eyni zamanda Azərbaycan musiqisini dünyaya çıxardı. Təsadüfi deyil ki, böyük şəxsiyyətin (dahinin) milli, yoxsa bəşəri olması haqda həmişə mübahisə gedir. Dahi elə bir düyündü ki, burda milli mədəniyyətlə bəşəri mədəniyyət bir-birinə sarılıb, dolaşıb. Bu düyünü açsan, dahini məhv eləmiş olarsan.

P.S. O adam yaxşı səfir ola bilər ki, o həm də yaxşı prezident ola bilər. Ən yaxşı səfir o adamdı ki, o həm də prezident ola biləsi, prezidentliyə layiq adamdı. Yəni o adam ölkənin siyasətini dünyaya çıxara bilər ki, o həm də dünya siyasətini ölkəyə gətirə biləsi adam olsun. Dünya siyasətini Azərbaycana gətirə bilməyən adam Azərbaycan siyasətini dünyaya çıxara bilməz. Yəni eyni model musiqiyə, ədəbiyyata aid olduğu kimi siyasətə də aiddi.

29 sentyabr 2002-ci il

Millətçilik. Türkçülük

Türkçülük mənim uşaqlıq, yeniyetməlik əqidəmdi. Gənclik dövrünə qədəm qoyandan bu əqidə məndə əvvəlki ifrat, radikal, hətta deyərdim, qəddar çalarlarını get-gedə itirməyə, bu çalarlarında solmağa başladı.

İndi 29 yaşımın sonunda dəqiq deyə bilmərəm ki, məndə türkçülükdən nə qalıb, hər halda illər ötəndən sonra bunu aydın dərk eləyə bilərəm, indi bu məsələ özümə də bəlli deyil, ancaq bir şeyi deyə bilərəm ki, əgər məndə türkçülükdən nəsə qalıbsa, çox yəqin ki, bu, mənim talışçılığı, ləzgiçiliyi, kürdçülüyü, tatçılığı, rusçuluğu və s. qəbul eləyə biləcəyim həddədi. Yəni bu gün mən talışçılığı, ləzgiçiliyi, kürdçülüyü, tatçılığı, rusçuluğu, yəhudiçiliyi hansı həddə görmək istəyərdimsə, yəqin ki, o həddə türkçüyəm.

Günü-gündən millətçilik mənə yad bir əqidəyə çevrilir. Və mən millətçiliyin əleyhinə qəsdən türkçülüyün timsalında danışıram və danışmaq istəyirəm, çünki türkçülük yeganə millətçilikdi ki, onun əleyhinə danışanda mən millətçi kimi görünmürəm. Bütün qalan millətlərin millətçiliyinin əleyhinə çıxandasa mən yenə də millətçi kimi görünə bilərəm. Məsələn, kimlərsə düşünə bilər ki, mənim rusçuluğun əleyhinə çıxmağım türkçülüyümdən irəli gəlir. Ona görə də mən rusçuluğun əleyhinə çıxanda türkçülük eləmədiyimi, bunun mənim millətçiliyimdən irəli gəlmədiyini sübuta yetirməyə də ehtiyac yaranır. Rusçuluğun əleyhinə danışanda mən onu da sübuta yetirməliyəm ki, bunu türkçülüyümdən eləmirəm. Türkçülüyün əleyhinə çıxandasa belə bir sübuta ehtiyac qalmadığından millətçiliyi ilk növbədə türkçülüyün timsalında tənqid eləmək istəyirəm, çünki bu, məni əlavə izahatlardan azad eləyir və yanlış başa düşülməyimin qarşısını alır.

26 iyun 2002-ci il

Vətən yanıltmacı

Bəlkə də sözdü söz söz vətən vətən söz söz kar eləyər kara da kor eləyər kora da işıq verər işıq deyil zülmdü zülmət deyil vətəndi vətən sözü oğulların özüdü vətən sözdü bəlkə elə buna görə söz götürməz oğulları tez götürər aparar vətən sözü oğulları çəkər söz sözü çəkdiyi kimi qan çəkər amma qan deyil bu vətəndi suyu şirin gələn su deyil torpaq da çəkər elə bilərsən torpaqdı çəkən aldanarsan torpağa vətən deyib çaşdırarsan özünü əyərsən əyilərsən torpağa yaxşı bax hamısı sözdü qəbir daşlarının üstü vətəndən qalan sözdü vətənin üstü sözdü içi kəfəndi vətən sözünün üstündə qan tökən oğulların üstü kəfəndi yaxşı ki yorğan deyil torpaqdı vətən sözünün altı durmağa ayaq axtaran əlillərə dayaqdı heç olmasa əl atıb tutmağa uşaq da var əliylə üzünü tutub ağlasa da acından ölməyəcək acığından doymasa da kiriyəcək uşaqdı üzündə göz yaşları içində qoltuq ağacı böyüyür əlillərin uşaqları vətən deyilmiş vətən sözü uğrunda qan tökmüş uşaqların uşaqları qoltuq ağacı olmaqdan bükülüb çiyni düşüb vətənin taqəti yox boynuna kəfən dolamış oğulların kəfəndən çıxır qisməti qiyməti yox vətənin bəlkə də bundan artıq faydası var qorxusu yox bəlkə də indən belə hamı çörək qazansa torpaqların yerinə uşaqların göz yaşları qayıtsa bəsdi bəsdi bir ordunun əvəzinə bir ölkəni almağa bir milləti saxlamağa dolamağa da bəsdi bəsdi vətən yalanları kar elədi kor elədi bəsdi qoltuq ağacları uşaqları xar elədi bu söz deyil çörəkdi söz istəmir uşaqlar bu uşaq deyil çiçəkdi əl atarsan əldən tutar vətəndi əldən çıxar olanı da qalanı da yorğandan da kəfən çıxar bu qədər ac qalanda bu qədər tox yanında bu qədər ac olanda vətən sözdü deyərsən sözün düzdü deyəsən...

Fevral 2001-ci il

Şöhrət və vətən

14 may 1995-ci il. Azərbaycan Televiziyası xarici ölkəyə yaşamağa getmiş Firəngiz Mütəllibovayla Zöhrə Şirinovanın Azərbaycana qayıtmasına həsr olunmuş "Ömür təzələnir" adlı veriliş göstərir. Jurnalistin Azərbaycana qayıtmağın səbəbi haqda sualına Firəngiz Mütəllibova belə cavab verdi ki, xaricdə, xarici şəhərlərdə adam özünü vətəndəki kimi şöhrətli hiss eləmir, küçədə gəzəndə adamlar diqqət yetirmirlər, barmaqla göstərmirlər, burdasa artıq biz ad-san qazanmışıq, vətənimizdə xalqımız bizi tanıyır, xaricdə adamda belə istək yaranır ki, öz vətəninə, bu şöhrəti sənə bəxş eləyən xalqının içinə qayıdasan. Zöhrə Şirinova Firəngiz Mütəllibovanın bu sözünə qüvvət verib dedi: «Belə bir məsəl var. Bir kişi kənddən şəhərə gəlir. Görür ki, şəhərdə, küçələrdə heç kim ona salam vermir, dərhal qayıdır kəndə. Soruşurlar ki, niyə qayıtdın, deyir burda hamı məni tanıyır, ordasa heç kim mənə salam vermir. Mənimçün o yekə şəhərdənsə bu balaca kənd yaxşıdı».

Vətən, xalq, millət şöhrətpərəst adama daha çox lazımdı. Başqa ölkədə, başqa xalqın içində o, nə qədər yüksəlsə, onlara nə qədər yaxşılıq eləsə də, yenə ona yad adam kimi baxacaqlar. Başqa xalqların haqlı olaraq rədd elədiyi bir adamın son sığınacaq yeri yenə də öz vətəni, öz xalqıdı. Əgər onu rədd eləyənlər yad millətdisə, onda öz milləti onu qəbul eləyəcək. Hətta o, millətinə heç bir xeyir verməmiş olsa da. Bütün SSRİ xalqlarına olduğu kimi, gürcü xalqına da Stalinin ancaq ziyanı dəyib. Ancaq indi bu xalqlar arasında Stalini tərifləyən, onu arzulayan adamlar az deyil. Hərəsi bir dəlil gətirir: müharibə veteranları İkinci Dünya müharibəsində qalib sərkərdə olduğuna görə, diktatura tərəfdarları sərt rejim yaratdığına görə, rus şovinistləri, imperiyapərəstlər sovet imperiyasını mökəmlətdiyinə görə, vəzifəli adamlara nifrət eləyənlər dövlət, hökumət rəhbərlərinin, nazirlərin, əyalət başçılarının ondan necə qorxduqlarını bildiklərinə görə, kasıblar onun varlıları yoxsula çevirdiyinə görə... Stalini arzulayır və tərifləyirlər. Gürcülərsə onu gürcü olduğuna görə tərifləyir. Stalinin milliyyətcə gürcü olmadığı fikrini bir qırağa qoyaq. Qəbul eləyək ki, onun ata-anası da, nənə-babası da təmiz gürcü olub. Hesab eləyək ki, o heç gürcü soyadından (Cuqaraşvili) da imtina eləməyib. Öz doğma qızına dediyi «biz nə vaxtsa gürcü olmuşuq» sözlərinin də uydurma, yalan olduğuyla razılaşaq. Ancaq onun başını kəsib qanını içdiyi xalqların siyahısından gürcü xalqının adını çıxara bilmərik. Onun ömrünə ömür caladığı imperiyada, kölələr ölkəsində, xalqlar həbsxanasında gürcü xalqının azad, şən, xoşbəxt yaşadığını deyib gürcü xalqını təhqir eləyə bilmərik. Ancaq bu günün özündə də Gürcüstanda öz «həmvətənlərini» «yad hücumlardan» qorumaq istəyənlər var.

14 may 1995-ci il

Xalqın ruhu

Xalqın ruhu varmı? Var. Xalq musiqisi, dil, folklor, adət-ənənələr, xalq sənətkarlığı – bunlardı xalqın ruhu. Milli ruh bəşəri ruhun formalaşmış, biçimlənmiş parçasıdı. Milli ruhda yazılmayan əsər (şeir, roman, mahnı, rəsm, film və s.) heç vaxt gözəl və bəşəri alına bilməz. Çünki milli ruh konkret formaya malikdi və başa düşülən, anlaşılan biçimdədi. Bəşəri ruhunsa forması yoxdu. Ona görə də milli ruhda yaradılmayan yaradıcılıq işi formasız, dağınıq, abstrakt olur. Milli ruhda yaradılan əsər həm də bəşəri olur. Çünki mücərrədlikdən yaxa qurtarıb konkret formaya girmiş milli ruh elə bəşəri ruhun özüdü. Bəşəri ruh mücərrəddi, anlaşılmazdı, gözəgörünməzdi. Milli ruhsa konkretdi, anlaşılandı. Milli ruh görünən bəşəri ruhdu. İnsan görünən Allah olduğu kimi. Hər bir milli ruh müxtəlif görkəmdə üzə çıxan dünya ruhudu. Necə ki, hər bir insan müxtəlif sifətdə üzə çıxan Allahdı. Bu baxımdan Hegelin dünya ruhunun

bir millətdə təzahür eləməsi fikriylə razılaşmaq olar. Millət milli ruhun orqanizmidi. Milli ruhda yazıb yaradanların heç biri millətçi deyil.

***

Millət, vətən insan ruhunun qəlibidi. Ona görə də öz vətənində, öz millətinin arasında insan özünü rahat hiss eləyir. Yad ölkədə, yad millət arasındasa insanın ruhu tamam başqa bir qəlibə düşür, elə bil bu qəlibə rahat otura bilmir, bu qəlib insan ruhuna ya dar, ya gen gəlir, ya sıxır, ya da boş olur. Əgər o öz ruhunu yontalayıb bu qəlibə uyğunlaşdıra bilmirsə, onda özünü narahat hiss eləyir. Bu uyğunsuzluqdan, uyuşmazlıqdan yaranan narahatlıq şüurda elə möhkəmlənir ki, yad yerdə ölənlər yad torpaqda rahat uyuya bilməyəcəklərini düşünüb vətəndə basdırılmağını vəsiyyət eləyir. Əsərlər yalnız ona görə milli formada yazılanda gözəl alınır ki, bu vaxt ruh öz qəlibinə rahat, kip oturur, ruhun qol-qanadı, qol-budağı bu qəlibdən çöldə qalmır, o, bütünlüklə qəlibə kip oturub qəlibin divarlarına möhkəm yapışır və bundan alınan forma (şeir, roman, hekayə, film, rəsm, musiqi, xarakterlər) aydın, bütöv olur. Formada çatışmazlıq, nöqsan, atıq-urtuq, yaxud qırıq-quruq olmadığından görünüşü gözəl, bütöv, başadüşülən olur. Nəyə görə milli formada yaradılan əsər həm də bəşəri olur? Ona görə ki, bəşəri forma yoxdu. Ruhun bəşəri forması yoxdu, milli formaları var və bu milli formada tam şəkildə təzahür eləyən elə bəşəri formadı. Hər bir milli forma bəşəri formadı.

***

Biz millətik, biz bu millətdənik. Bizim dilimiz, mədəniyyətimiz, adət-ənənəmiz var. Bizim yaxşımız, pisimiz, böyük-böyük adamlarımız, cılız dedi-qoduçularımız, qananımız, qanmayanımız, dəlimiz, ağıllımız, əclafımız... hər şeyimiz var. Neyləmək olar, bir qananımız varsa, beş də qanmazımız var. Başadüşənlərimizi hamı başa düşəcək. Bundan narahatlığımız yoxdu. Bilənlərimizi hamı sevəcək. Görünənlərimizə harda olsa göz üstə yer tapılacaq. Bu qanmazları, bu kütbeyinləri, bu bədbəxtlərisə heç kim qəbul eləməyəcək. Başqa millətlər onların heç üzünə də baxmayacaq. Başqa ölkələrdə onları qapıdan içəri də buraxan olmayacaq. Onlar nə bir kimsəni başa sala biləcəklər, nə də bir kimsə onları başa düşəcək. Əli ətəyindən uzun, suyu süzülə-süzülə yenə də özümüzə pənah gətirəcəklər. Yenə də bu axmaqların, bu avaraların, bu əclafların dərdini çəkmək bizə qalacaq. Qan çəkəcək – qan güclü şeydi. Ürək dözməyəcək – özümüzküdü axı. Əllər bir-birinə uzanacaq. Qara-qara gözlərə, bozarmış sifətlərə işıq gələcək. Öz millətinin əlindən tutmaq nə qədər də xoşdu. Millətin əl-ələ verməsi nə qədər də gözəl mənzərədi. Nə yaxşı ki, bu dünyada ən iyrənc, ən sarsaq adamların belə qayğısına qalmaq üçün bir bəhanə varmış – millət! Nə yaxşı ki, bu dünyada təkcə yaxşılarla yaxşıları, pislərlə pisləri yox, həm də yaxşılarla pisləri birləşdirəcək bir hiss varmış – milli hiss! Nə yaxşı ki, bu tifilləri sənin minnətindən, xəcalətindən qurtara biləcək bir fəlsəfə də varmış – millət qarşısında borc!

***

Hər bir millətin əxlaqı – milli əxlaq əsl əxlaqi və əxlaqsız keyfiyyətlərdən ibarətdi. Milli adət-ənənələrdə elə şeylər cinayət sayılır ki, onlar əslində cinayət sayılmamalıdı və elə şeylər cinayət sayılmır ki, onlar əslində böyük cinayət hesab olunmalıdı. İnsan cinayətə, əxlaqsızlığa

da meyllidi. Milli əxlaq insanın bu meylinin qarşısını tam almır. Hər bir millətin əxlaqında həmin millətdən olan adamların əxlaqsızlığa, cinayətə getməsi üçün də çoxlu yol var. İnsan bu yolla rahatca, qorxub-eləmədən cinayətkar yanğısını söndürə bilər. Bunu ona heç kim nöqsan tutmayacaq.

Yer üzündə ideal milli əxlaq yoxdu. Ona görə də deyirlər ki, hər xalqın yaxşı cəhəti də var, pis cəhəti də. İdeal (mütləq) əxlaqi dəyərlərlə yaşayan insana milli əxlaq darlıq eləyir. Milli əxlaqdakı əxlaqsız məqamlar bu insana mane olur. Ona görə də bu cür insan milli əxlaqda olan əxlaqsızlıqları rədd eləyib, yalnız əxlaqlı olanları qəbul eləyir.

***

Milli əxlaq bütün əxlaqi və əxlaqsız keyfiyyətlərin toplandığı əxlaqi mübarizə meydanıdı.

***

Dil birlikdən yaranıb, birlik dildən yox. Birlik olmayan yerdə "dil tapmaq" mümkün deyil.

Türk dilinin çoxlu qolu var. Bu, türklərin çoxlu qrupa, ayrı-ayrı birliklərə bölünməsinin nəticəsidi. Özbək birliyi özbək türkcəsini, qazax birliyi qazax türcəsini, Azərbaycan birliyi Azərbaycan türkcəsini yaradıb. On illərdi dünyanın bir çox türkçüsü ortaq türk dili yaratmaq istəyir. Ancaq alınmır. Çünki türk dilinin qolları bir-birindən çox fərqlənir. Qafqaz türkləriylə Orta Asiya, Uzaq Şərq (Altay) türklərinin danışığı arasında fərq elədi ki, ümumiyyətlə, bəzən iki türk bir-birini başa düşmür və tərcüməçiyə ehtiyac olur. Ortaq türk dili istəyi Anadoludan Altayacan ayrı-ayrı dövlətlərdə yaşayan türklərin mədəni, siyasi, iqtisadi, psixoloji birliyinə nail olmayınca həyata keçməyəcək. Türk birliyi yaranmayınca ümumtürk dili yaranmayacaq. Ümumtürk dili türk birliyini yarada bilməz, türk birliyisə özü təbii şəkildə ortaq dilini yaradacaq.

***

Yer üzündə bir-birinin tam eyni olan iki nəfər yoxdu. Dünyada heç bir insanın gözü başqa insanın gözünün eyni deyil. Heç bir insanın qulağının quruluşu, hətta qulağının qırışları başqasının qulağına bənzəmir. Hərə bir cür yeriyir**,** bir cür danışır, bir-birinin tam bənzəri olan iki səs yoxdu. Ancaq dünyadakı bütün gözlər görmək üçündü, bütün adamlar harasa çatmaq üçün yeriyir, ac qalmamaq üçün yeyir, hisslərini ifadə eləmək üçün danışır. Eləcə də bir-birinin eyni olan xalq yoxdu. Ancaq bütün xalqların vəzifəsi eynidi: özündən olanları (yəni öz üzvlərini) özündə birləşdirmək. Eyni adla çağırılan (məsələn, bütün gözlər gözdü), eyni növdən, eyni cinsdən olanların (məsələn, bütün qulaqlar "qulaq cinsi"ndəndi; dilindən, əxlaqından asılı olmayaraq ərəblər də, yaponlar da, ingilislər də xalqdılar; dilindən, dinindən asılı olmayaraq bütün insanlar insan növündəndi) vəzifəsi də eyni olur. Eyni növdən yaradılanlar eyni missiyayla yardılıblar.

1994-1995-ci illər

© A.Qaraçənli

Yeniyetmə millətçiliyi

Millətçilik müxtəlif cür və müxtəlif vəziyyətlərdə üzə çıxır. Uşaq vaxtı məktəbdə oxuyanda sinfimizdəki şagirdlərin çoxu kimi mən də rus dili dərsini pis oxuyurdum. Müəllimlər bizə deyirdilər ki, rus dilini öyrənin, əsgərlikdə sizə lazım olacaq. (O vaxt SSRİ dövrü idi və SSRİ-nin dövlət dili rus dili idi, xüsusən də orduda rus dilindən başqa dil işlənmirdi). Ancaq mən (eləcə də yaşıdlarım) rus dilini öyrənmirdim. Bu da bir cür millətçilik idi. Bu, assimilyasiya və milli təcavüz təhlükəsi qarşısında qalmış bir millətin dəliqanlı övladlarının bir növ etiraz aksiyası, özünü qoruma üsulu idi. Şüursuz surətdə baş verən bu özünüqorumanı ondan görmək olar ki, 200 il Rusiyanın tərkibində olmasına, ruscanı bilməyənlərin vəzifəyə buraxılmamasına, sənədlərin, yazışmaların, dövlət dilinin, elmi ədəbiyyatın əsasən rusca olmasına baxmayaraq azərbaycanlıların əksəriyyəti (xüsusən yaşlı nəsil və şəhərdən uzaq əyalətlərdə, kəndlərdə, rayonlarda) bu günün özündə də rus dilini bilmir, yaxud pis bilir.

SSRİ dağılandan sonra (!) mən rus dilini öyrənməyə başladım. Mən uşaqlığımda çox millətçi və dindar idim. Dinin əleyhinə olan yazıları və yazıçıları oxumurdum. Bizə bəsit şəkildə ateist, dinin, Allahın əleyhinə olan bir adam kimi təqdim olunmuş Mirzə Fətəli Axundovun hətta yaradıcılıq gecəsində iştirak eləməkdən boyun qaçırmışdım. Güc-bəlayla, axırda ədəbiyyat müəllimimin xahiş-minnətindən təngə gəlib yalnız yaradıcılıq gecəsinin başlanğıcında pərdə arxasından söylənəcək bir cümləni oxumağa razı oldum (mənim yaxşı səsim və intonasiyam vardı, ədəbiyyat dərsini də yaxşı oxuyurdum). Millətçiliyim də belə idi. Rus dilində mətn oxuyanda özüm qəsdən rus sözlərini kobud ləhcəylə deyirdim, baxmayaraq ki, rus dilində onsuz da ləhcəylə, sözlərin qol-qıçını qıra-qıra danışırdım. Elə indinin özündə də rusca pis danışıram. Ancaq bu dəfə qəsdən yox. Orta məktəbin sonuncu sinfində oxuyanda bizim sinfin oğlanları yığışıb məktəbimizdəki rusca bütün elanları, lövhələri, şüarları, plakatları, bir sözlə, rus dilində bütün yazıları qırıb, qoparıb tullayırdıq. Dərs vaxtı, şagirdlər və müəllimlər sinif otaqlarına yığışan vaxtda müəllimdən icazə alıb dəhlizə çıxırdıq və bir-bir rusca olan yazıları divarlardan, qapıların üstündən qoparıb ayaqyoluna aparırdıq, orda rahatca bunları qırıqlayıb pəncərədən çölə tullayırdıq. Biz buna təkcə milli qəhrəmanlıq kimi baxmırdıq. Düşünürdük ki, bizdən sonra gələn siniflər nə vaxtsa məktəbdən rusca olan yazıların təmizlənməsini bizim adımızla bağlayacaqlar. Biz öyünürdük və özümüzdən sonra nəsə yaddaqalan hadisə, bir iz qoyub getdiyimizə görə həmişə öyünəcəyimizə inanırdıq. Yeri gəlmişkən deyim ki, biz rus dilində olan bütün yazıları qoparırdıq. Bu yazıların bəzilərindəsə Azərbaycanın gözəlliyindən, böyüklüyündən, Azərbaycan xalqıyla dünya xalqları arasındakı dostluqdan, qardaşlıqdan danışılırdı...

1994-cü il

Azərbaycan

Azca qala yazacaqdım: «Vətən – boş şeydi!». Ancaq televiziyada Almas İldırımın «Azərbaycan» şeirini oxudular və mən fikrimi dəyişdim.

1994-cü il

40. Vicdan

Vicdan. Fikir və əməl harmoniyası

Mənim bütün xoşbəxt anlarım fikrimlə əməlim arasında harmoniya olduğu anlarda baş verib. Ancaq fikirlə əməl arasındakı bütün harmoniyalar məni xoşbəxt eləmir, məndə xoşbəxtlik duyğusu yaratmır. Çünki vicdansız fikirlə əməl arsındakı harmoniya, yəni vicdansızlıq harmoniyası da ola bilər. Ancaq belə hallarda da vicdan özünü itirmir, süni, saxta harmoniyaya aldanmır. Baxmayaraq ki, insanların çoxu məhz bu cür süni harmoniyayla vicdanını sakitləşdirir.

Bəzən görürsən fikir (nəzəriyyə, əqidə, ideya) dəyişib, amma əməl (davranış, hərəkət, praktika) dəyişmir. Yaxud əməl dəyişib, fikirsə əvvəlki kimi qalır. Bu cür ziddiyyət insanı ya inkişafa, ya da tənəzzülə aparır. Çünki insanda fikirlə əməli, yaxud əməllə fikri uyğunlaşdırmağa meyl var. Bu meyli vicdan yaradıb, amma o, insanın özünü aldatması, vicdanın saxta yolla sakitləşdirilməsiylə də başa çata bilər. Əksəriyyətdə elə belə də olur. İnsanların çoxu süni harmoniya içindədi.

Görünür, vicdanlı niyyətlə əməlin arasında harmoniya nadir hadisələrdən olduğuna görədi ki, biz bu cür harmoniya içində olanları yox, əməliylə fikri arasındakı ziddiyyəti yaşayanları – vicdanını süni yolla sakitləşdirməyənləri, hətta sakitləşdirə bilməyənləri vicdanlı adam adlandırırıq.

Mən vicdanını sakitləşdirə bilməyən adamlardanam. Bu cür adamların düzələcəyinə, inkişafına ümid var.

İki cür həyat var: vidanlı həyat, bir də vicdanını sakitləşdirə bilməyən həyat. Yaxud vicdanla yaşanmış ömür, bir də vicdanını sakitləşdirə bilmədən yaşanmış ömür. Mən ikinci ömrü yaşayıram.

Mənim vicdanım vicdansızlığıma bəraət qazandırmaq istəməməyimdədi. Bu, yarımvicdanlı adam olmaqdı. Əsl vicdanlı adam o deyil ki, o, vicdansızlığına bəraət qazandırmaqdan imtina eləyir, əsl vicdanlı adam o adamdı ki, onun bundan imtina eləyib-eləməyəcəyi hələ bilinmir.

Vicdanı sakitləşdirə bilməmək vicdanın, yoxsa vicdansızlığın əlamətidi? Yəni bunun ilkin səbəbi vicdandı, yoxsa vicdansızlıq?

Vicdanın da, vicdansızlığın da başlıca göstəricisi xoşbəxtlikdi. Ona görə də insan heç vaxt özünü tam (hədsiz) xoşbəxt, yaxud tam (hədsiz) bədbəxt duya bilmir.

2 yanvar 2002-ci il

Vicdan səhv eləyə bilərmi?

Vicdan səhv eləyə bilərmi? Vicdanın son qərarıyla əvvəlki qərarı arasında uyğunsuzluq, ziddiyyət ola bilərmi? Ola bilərmi ki, qatil tapançanı götürəndə vicdan bir qərar versin, atəş açılandan sonra başqa qərar? Bütün bu suallar çox mühüm bir məsələni dəqiqləşdirmək üçündü: insan həmişəmi öz vicdanının səsinə uyğun hərəkət eləməlidi? Öz vicdanına zidd getməməklə, onun göstərişlərinə daim əməl eləməklə əxlaqlı olmaq mümkündümü? Əxlaqlı yaşamaq istəyənlərə həmişə vicdanının səsinə qulaq asmağı məsləhət görənlər haqlıdılarmı? Ola bilərmi ki, hansısa məqamda əxlaqla vicdan arasında ziddiyyət, uyğunsuzluq yaransın və insan vicdanının ziddinə getməklə daha əxlaqlı davranmış olsun?

Özü də dəxli yoxdu vicdan sonrakı fərqli hökmünü nə qədər sonra çıxarır: beş dəqiqə, yoxsa beş il sonra. Bunun qətiyyən fərqi yoxdu. Əgər atəş açılandan bircə saniyə, vur-tut bircə saniyə sonra vicdan öz hökmünü dəyişirsə, bu o deməkdi ki, ona etibar eləmək olmaz. Əgər insan hansısa addımı atandan bircə saniyə, vur-tut bircə saniyə sonra vicdan fərqli hökm çıxarırsa, bu o demədi ki, vicdan əxlaqsızlıqda iştirak eləyir, vicdan özünü cəzalandırır, vicdan – ona qulaq asana əzab verir. Bu o deməkdi ki, vicdanla, yəni vicdana uyğun hərəkət eləmək heç də həmişə düz deyil və vicdanla davranan əxlaqlı davrandığına arxayın ola bilməz.

Əgər vicdan insana yalnız mükafat və ya cəza vermək üçündüsə, onda onun sonradan hökm çıxarmasının fərqi yoxdu. Əgər vicdan insanı əxlaqlı yola yönəltmək, nəyin əxlaqlı, nəyin əxlaqsız olduğunu müəyyənləşdirmək üçündüsə, onda onun əvvəlki hökmüylə sonrakı hökmü eyni, tamamilə eyni cür olmalıdı, onun münasibəti, qərarı dəyişməməlidi. Yalnız belə olanda biz vicdanına qulaq asanın səhv eləmədiyini deyə bilərik.

19 avqust 2002-ci il

41. Allah oldu-olmadı

Allahın olmağıyla olmamağının fərqi haqqında

Böyük mənada Allahın olmağıyla olmamağının fərqi yoxdu. Tutaq ki, Allah var. Biz hesab eləyə bilmərik ki, o, şəri yaradıb. Əgər şəri o yaradıbsa, onda o, daha təkcə xeyir yox, həm də şər olur. Ona görə biz hətta qəbul eləsək ki, şər heç nədən yaranmayıb, yəni o özü-özünü yarada bilməzdi, onda qəbul eləməliyik ki, Allah şəri yaradıb, amma bundan xəbərsizdi, o, bilməyib ki, şəri yaradır. Yəni bu, təsadüfdü.

Şərin məqsədli şəkildə yaranması mümkün deyil. Birincisi ona görə ki, bayaq dediyimiz kimi, onda Allah həm də şər olur, ikincisi – əgər şər məqsədli, bilərəkdən yaradılıbsa, deməli, xeyirli məqsəd üçün yaradılıb və deməli, o, xeyirə xidmət elədiyinə görə şər sayıla bilməz. Daha sonra: istər məqsədli, istər məqsədsiz (təsadüfən) olsun, dəxli yoxdu, əgər şər yaradılıbsa, onun səbəbi varsa, həmin səbəb olmasaydı o da olmayacaqdısa, yəni o özü özünün səbəbi deyilsə, şərin şəri yaratmaq azadlığı yoxdusa, olmayıbsa, deməli, o yenə də şər sayıla bilməz. Şər şər ola bilməkdən ötrü azad olmalıdı. Şər azad olandan sonrasa Allahın olmağıyla olmamağının fərqi yoxdu.

13 fevral 2002-ci il

Allah dünyanı niyə yaradıb? Məqsəd nədi? Kimin, hansı dinin, fəlsəfənin nə cür izah eləməsindən asılı olmayaraq Allahın dünyanı yaratması, dünyanın müəyyən bir məqsədə xidmət eləməsi haqda fikirlərin hamısında Allah bir növ yarımçıq, hələ tam kamilləşməmiş, nəyəsə ehtiyacı olan (söhbət dünyanı yaratmamışdan əvvəlki vəziyyətində Allahın duyduğu ehtiyacdan gedir) varlıq kimi təsvir olunur. Bu fikirlərin hamısından belə bir məntiqi nəticə çıxır ki, dünya öz məqsədinə çatandan, insan kamilləşəndən sonra Allah (ruh) yeni bir keyfiyyət əldə eləyəcək; yəni bütün hallarda Allahın dünyanı, insanı yaratmamışdan əvvəlki vəziyyətiylə dünya, insan məhv olandan sonrakı vəziyyəti arasında fərq olmalıdı – əks halda yaranışın məqsədsizliyi, mənasızlığı üzə çıxardı. Özü də o fərq yaxşıya doğru, müsbət fərq

olmalıdı – əks halda yaranışın (deməli, Allahın da) xeyir məqsədə, müsbət mənaya xidmət eləmədiyi üzə çıxardı.

Deməli, dünyanı yaratmamışdan əvvəl, daha doğrusu, dünyanı yaradanda (!) Allahın hansısa çatışmazlığı olub!

1-ci sual: Həmin çatışmazlıq nədən ibarətdi?

2-ci sual: Sonda Allahın qazanacağı yeni keyfiyyət nədən ibarət olacaq? (Təbii ki, 1-ci sualın cavabı 2-ciyə də avtomatik cavab verir. Ancaq bu sualları ayırmaq vacibdi, çünki burdan 3-cü sual doğur...).

3-cü sual: Həmin keyfiyyəti qazanmaqdan ötrü bu qədər şərdən keçməyə, heyvanların, insanların bu qədər əzabı yaşamasına razılıq verməyə dəyərdimi?

4-cü sual: Allahın həmin keyfiyyəti qazanmaq üçün dünyanı yaratmaqdan başqa yolu, başqa üsulu olmayıbmı?

5-ci sual: Ola bilsin, Allah həmin keyfiyyəti yalnız dünyanın vasitəsilə qazana bilərdi. Ancaq belədisə, onda Allahın o keyfiyyəti qazanmaq istəməməsi, bundan imtina eləməsi daha yaxşı olmazdımı? O keyfiyyəti (nə qədər vacib olursa-olsun) qazanmaq naminə şəri yaratmaq, bu qədər iztiraba rəvac vermək nə dərəcədə ədalətlidi? Allahın həmin çatışmazlıqla yaşaması, yəni ilkin vəziyyətində qalması daha düzgün olmazdımı?

6-cı sual: Şərin iştirakıyla, şərin vasitəsi, köməyilə, ən azı şərin mövcudluğu sayəsində qazanılan keyfiyyət ilahi keyfiyyət ola bilərmi?

Və nəhayət, bir sual da: Görəsən şər elə Allahın həmin çatışmazlığının nəticəsi deyil ki?

Əgər Allah tam kamildisə, onda dünya nəyə lazımdı? Yox, əgər tam kamil deyilsə, onda ona nə cür Allah demək olar?

Bir məsələ də var ki, bütün təsəvvürlərdə Allah şərdən güclü təsvir olunur. Ona görə də belə bir inam vurğulanır ki, şər nə qədər güclü olursa-olsun sonda məğlubiyyətə düçardı. Yəni Allahın qələbəsi əvvəldən məlumdu (!). Məğlubiyyət – şərin alnına yazılıb. Haqq nazilər, üzülməz. Şər hansısa dövrdə ilahini üstələyə bilər, ancaq bu, müvəqqətidi, çünki o, nəinki həmin üstün məqamında xeyiri məhv eləyə bilməz, əksinə, get-gedə özü məhv olur, get-gedə şər gizlənməyə, qaçmağa çalışır, formasını dəyişməyə, maskalanmağa (xeyir pərdəsi altda) cəhd göstərir; o, buna məhkumdu, çünki dünyanın qanunu belədi, şər ilahi qanunlardan kənara çıxa bilməz. Qəribədi, deyilmi, şər ilahi qanunlardan çıxa bilməz. İlahi qanunlar içində şər. Yaxud ilahi qanunlar çərçivəsində şər.

10 mart 2002-ci il

Çox maraqlıdı ki, bu dünya bütün hallarda fanidi. Allah varsa da fanidi, yoxsa da.

8 aprel 2002-ci il

Əbədiyyət var, ancaq bu, əbədi yaşamaq demək deyil. Yaşamaq fərdi və müvəqqətidi. Hər bir fərd əbədiyyətə fərdiliyini itirməklə qoşulur. Yəni hər bir fərd əbədiyyətə ölməklə qoşulur.

Əbədiyyət mənim Azərliyimin sonudu. Mənim əbədiyyətə qovuşmağımdan danışanda «Azər» sözünü işlətmək yanlışdı, çünki mən əbədiyyətə qovuşsam da, daha onda mən – mən olmayacam. Azər nə vaxtsa tamamilə yoxa çıxmalı, daha doğrusu, Azərlikdən çıxmalıdı.

Əbədiyyətə Azərdən elə bir şey qalır ki, onun Azərə həm dəxli var, həm də yoxdu. Yəni obyektiv mənada dəxli var, subyektiv mənada yox.

Biz küll halında əbədi (ölməz), ayrı-ayrılıqda müvəqqəti, ölənik.

24 aprel 2002-ci il

Mərd yaşamaq lazımdı, istəyir Allah olsun, istəyir olmasın. Bacardıqca mərd və vicdanlı yaşamaq lazımdı. Bu mənasız (fani) dünyada şər daha mənasızdı (fanidi), nəinki xeyir.

Allahsız müqəddəslik olmaya bilər, amma Allahsız müqəddəslər (insanlar) var axı.

Mən Allaha inanmayan pis adamlara üzümü tutub demək istəyirəm ki, Allah olmayanda bəyəm dünyanı dağıdarlar?

Allaha inanan pis adamlarasa demək istəyirəm ki, Allah var deyə dünyanı dağıdacaqsınız?

13 avqust 2002-ci il

Əsaslandırılmamış əxlaq da əxlaqdı. Məncə, əsaslandırılmamış əxlaq «Nolsun ki, Allah var» və ya «Nolsun ki, Allah yoxdu» tezisiylə başlamalıdı.

Allahın varlığı-yoxluğu məsələsini, mübahisəsini sıfıra endirmək gərəkdi. Yəni əxlaqın elə formulunu tapmaq lazımdı ki, Allahın olmağıyla olmamağının ondan ötrü fərqi olmasın. Allaha inananlarla inanmayanları kəsişdirən xətt, nöqtə, prinsip, hiss, duyğu... varmı, varsa hansıdı? O hansı nöqtədi ki, ordan başlayan adam üçün Allahın olmağıyla olmamağının fərqi yoxdu? Həmin nöqtəni tapmalı və ordan başlamalı. Allahsız müqəddəslik də həmin nöqtədən başlayır, Allahlı müqəddəslik də.

Ateistlə dindarın kəsişdiyi nöqtə.

Sübut eləmək ki, Allahın olmasıyla-olmamasının əxlaqa dəxli yoxdu. Yəni Allah varsa da əxlaq (dəyərlər) bu cür olmalıdı, yoxsa da; əbədiyyət varsa da, yoxsa da; axirət varsa da, yoxsa da; dünya fanidisə də, fani deyilsə də; həyatın, tarixin məqsədi, mənası varsa da, yoxsa da…

14 avqust 2002-ci il

Bütün dinlər dünyanı rədd eləmək üzərində qurulub. Yəni dinlərin də mahiyyəti elə dünyanı yox, Allahı qəbul eləməkdən ibarətdi. Amma problem ondadı ki, dünyanı rədd eləyəndə də Allahı qəbul eləmək olmur, dünyanı qəbul eləyəndə də. Və eyni zamanda Allahı inkar eləyəndə bilmirsən dünyayla neyləyəsən: onu rədd, yoxsa qəbul eləyəsən? Allahla dünyanın ikisini birdən qəbul eləməksə mümkün deyil.

Allah da izaholunmazdı, həyat da.

Bəziləri elə bilir Allahı inkar eləsə, həyatı izah eləyə biləcək. Ancaq belə deyil. Eyni zamanda, həyatı rədd (yaxud qəbul) eləyəndə də Allahı izah eləmək olmur.

18 avqust 2002-ci il

Allahın yeganə keyfiyyəti, xassəsi əbədiyyət ola bilər. Başqa heç nə əbədi ola bilməz – nə azadlıq, nə ədalət, nə sevgi... Hər şeyin sonu olmalıdı ki, heç nə Allaha güc gələ bilməsin. Ona görə yalnız bir şey əbədi olmalıdı – o da hansısa dəyər yox, Allahın eləcə varlığı ola bilər.

8 sentyabr 2002-ci il

Əgər dünyada bütün mükafatlar, cəzalar bu dünyaya görə verilirsə (veriləcəksə), deməli, bu dünya çox ciddi məsələdi. Əgər o dünya yoxdusa, onda bu dünya öz ciddiliyini xeyli itirir. Təkcə elə bu dünyanın ciddiliyini qorumaq naminə Allahı qəbul eləmək olar. Amma bu vaxt unutmaq və danmaq olmaz ki, Allahı, necə deyərlər, ictimai-siyasi, praqmatik motivlərlə qəbul eləmisən.

O dünyaya inanan bu dünyanı fani saya bilər (və inanmayan da fani saymalıdı), amma qeyri-ciddi saya bilməz. Bir halda ki, bu dünyaya görə dəhşətli bir cəhənnəm və misilsiz cənnəti qazana bilərsən, onda bu dünyaya nə cür qeyri-ciddi yanaşmaq olar?

İnsan o dünyanı ədalətli bu dünya kimi təsəvvür eləyir. Yəni insan üçün o dünya – ədalətsiz bu dünyadan sonra gələn ədalətli bu dünyadı. Ancaq bir gün bu dünya o dünyada da yoxa çıxmalıdı. Buna dində qiyamət günü deyirlər. O dünyadakı ədalətli bu dünya yoxa çıxandan sonra nə olacaq? – insan bunu bilmir.

Bu dünya iki dəfə yoxa çıxmalıdı. Birincisi, bu dünyanın özü, yəni hazırda yaşadığımız maddi dünya (bu dünyanın maddəsi) yoxa çıxmalıdı, ikincisi, bu dünyanın mükafat və cəzaları, yəni o dünyadakı cənnət və cəhənəmi (bu dünyanın ruhu) yoxa çıxmalıdı. Bu dünya təkcə bu dünyada yox, o dünyada da dağılmalıdı. Bəs ondan sonra necə olacaq, nə olacaq? Allah bilir. İnsan Allahın (ruhun) bu dünyaya qədərki vəziyyətini təsəvvür eləmədiyi kimi, bu dünyadan (oralı-buralı bu dünyadan) sonrakı vəziyyətini də təsəvvür eləmir.

28 noyabr 2002-ci il

İki qiyamət var: biri bu dünyada, biri o dünyada. Bu dünyadakı qiyamətdən sonra ruh qalacaq, ruhlar aləmi – cənnət-cəhənnəm qalacaq, bəs o dünyadakı qiyamətdən, cənnət-cəhənnəm yoxa çıxandan sonra nə qalacaq?

Bax, o dünyadakı qiyamətdən sonra nə qalacaqsa, əbədi olan odu. Bu mənada təkcə bu dünyanın ədalətsizliyi, köləliyi, kin-küdurəti yox, o dünyanın ədaləti, azadlığı, sevgisi də fanidi. O dünya da bu dünya kimi müvəqqətidi. O dünyanın əzabı bu dünyanın əzabından daha dəhşətli ola bilər. O dünyanın ləzzəti bu dünyanın ləzzətindən qat-qat artıq ola bilər, o dünya (cənnət-cəhənəm) bu dünyadan daha uzunömürlü ola bilər, amma əbədi, əbədi ola bilməz!

İkinci qiyamətdən sonraya nə qalacaq? O nədi ki, cəhənnəmdə cəzasını, cənnətdə mükafatını alıb qurtarandan sonra da ruh onu itirməyəcək?

10 dekabr 2002-ci il

Deyəsən, mən o Allaha inanıram ki, nəinki Allahı qəbul eləyən, hətta Allahı inkar eləyən də ona inanmaq istəməzdi. Söhbət o Allahdan gedir ki, onun olmağıyla olmamağının fərqi yoxdu.

9 mart 2003-cü il

Allahın olmağıyla olmamağının fərqi yoxdu, əsas fərq ondadı ki, sən bundan hansı nəticəni çıxaracaqsan: Allahın olmağından hansı nəticəni çıxaracaqsan, Allahın olmamağından hansı nəticəni çıxaracaqsan.

2003-cü il

Allah oldu-olmadı

Adam gərək adam ola, Allah oldu-olmadı. Adam adam olandan sonra Allahın olmağı da birdi, olmamağı da. Adam adam olmayandan sonra istəyir Allaha inansın, istəyir inanmasın.

Adam gərək Allahın olmağından da yaxşılıq çıxara, olmamağından da. Gərək Allahın olmağı da yaxşılığa apara, olmamağı da. Yaxşılığa aparandan sonra Allahın olmağı da birdi, olmamağı da – istəyir olsun, istəyir olmasın.

Allah gərək elə ola, ona inanan adam inanmayan adamdan üstün ola bilə. Allaha inanan yaxşı adam Allaha inanmayan yaxşı adamla bir olandan sonra Allahın olmağı da birdi, olmamağı da.

Hamının bir axırı var, Allah varsa, yoxsa da. Cəhənnəmin, cənnətin də axırı var. Sona çatmış günaha sonsuz cəza ola bilməz. Ağır olar, sonsuz olmaz. Bir ömrün cənnəti yaxşı olar, uzun olar, sonsuz olmaz. Bir ömrün əvəzi, olsa, bir ömürlük olar, sonsuz olmaz. Allah varsa axır hamı cənnət-cəhənnəmdən çıxıb Allaha qovuşmalıdı, ya da yoxa çıxmalıdı. Allah yoxsa axır hamı torpağa qarışmalıdı.

Hamının axırı bir olandan sonra Allahın olmağı da birdi, olmamağı da.

Adam gərək baxmaya Allah var, yox, Allahın olmağı da birdi, olmamağı da. Adam gərək baxmaya Allahın olmağıyla olmamağı birdi ya yox, adam gərək adam ola.

Avqust 2008-ci il

© A.Qaraçənli